

İslam dini başqa dinlərə qarşı heç vaxt düşmən olmamışdır. Çünki bu dinlərin hamısı Allahdan gəlir. Azərbaycanda da müsəlmanlarla yanaşı başqa dinlərə etiqad edən adamlar da yaşayır. Onlar da Azərbaycanın bərabərhüquqlu vətəndaşlarıdır. Çalışmalıyıq ki, dini, milli mənsubiyyətindən asılı olmayaraq Azərbaycanın bütün vətəndaşları eyni hüquqlu olsunlar və onların hamısının birliyini, vəhdətini təşkil edək. Bu da Allah-Təalanın buyuruğu, bizim yolumuzdur.

**Heydər Əliyev**

# DÖVLƏT VƏ DİN

İCTİMAİ FİKİR TOPLUSU

№ 01 (48) YANVAR-FEVRAL 2017

## REDAKSİYA HEYƏTİ:

| | |
|---|---|
| **Allahşükür Paşazadə** | Tarix elmləri doktoru, professor |
| **Bəxtiyar Əliyev** | Psixologiya elmləri doktoru, professor, AMEA-nın müxbir üzvü |
| **Əli Əhmədov** | Fəlsəfə elmləri doktoru, professor |
| **Əli Həsənov** | Tarix elmləri doktoru, professor |
| **Fazil Mustafa** | Fəlsəfə üzrə fəlsəfə doktoru |
| **Gövhər Baxşəliyeva** | Filologiya üzrə elmlər doktoru, professor, AMEA-nın müxbir üzvü |
| **Gülçöhrə Məmmədova** | Memarlıq doktoru, professor |
| **İlham Məmmədzadə** | Fəlsəfə elmləri doktoru, professor |
| **Mübariz Qurbanlı** | Tarix elmləri üzrə fəlsəfə doktoru |
| **Nizami Cəfərov** | Filologiya elmləri doktoru, professor, AMEA-nın müxbir üzvü |
| **Sabir Həsənli** | İlahiyyat üzrə fəlsəfə doktoru |
| **Sakit Hüseynov** | Fəlsəfə elmləri doktoru, professor |
| **Səlahəddin Xəlilov** | Fəlsəfə elmləri doktoru, professor, AMEA-nın müxbir üzvü |
| **Teymur Kərimli** | Filologiya elmləri doktoru, professor, AMEA-nın həqiqi üzvü |
| **Urxan Ələkbərov** | Biologiya elmləri doktoru, professor, AMEA-nın həqiqi üzvü |
| **Vasim Məmmədəliyev** | Filologiya elmləri doktoru, professor, AMEA-nın həqiqi üzvü |
| **Yaqub Mahmudov** | Tarix elmləri doktoru, professor, AMEA-nın müxbir üzvü |

---

**Redaktor: Sadiq Mirzəyev**
**İxtisas redaktoru:** Güney Namazova
**Texniki redaktor:** Raman Dadaşov

**REDAKSİYANIN ÜNVANI:**
AZ1001, Bakı şəhəri, Əhməd Cavad küçəsi, 12.
Telefon: (+99412) 492-65-23
Qeydiyyat № 1674 / Tiraj: 800 / www.scwra.gov.az

Toplunun "Rəsmi guşə"sində AzərTAc-ın materiallarından istifadə edilib.
Toplunun materiallarından istifadə edərkən istinad zəruridir.
Jurnal "Azərbaycan" nəşriyyatında çap olunub.

**İSSN 2220-8542**

# BU SAYIMIZDA

## RƏSMİ GUŞƏ

2017-ci ilin Azərbaycan Respublikasında "İslam Həmrəyliyi İli" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı........5

2017-ci ilin Azərbaycanda "İslam Həmrəyliyi İli" elan olunmasına dair tədbirlər planı təsdiq edilib........7

## GERÇƏKLİK

*Mübariz Qurbanlı* – Azərbaycan İslam həmrəyliyinin ideya və real fəaliyyət mərkəzinə çevrilir........8

*Əli Fərhadov* – Azərbaycanın multikulturalizm nümunəsi........13

*Şölət Zeynalov* – Sülh və həmrəyliyə aparan yol - dialoq........21

*Jalə Süleymanova* – Müasir Azərbaycan: demokratik idarəetmədə humanizm siyasəti........31

*Aqil Əhmədov* – Beynəlxalq miqrasiya proseslərində din amili və insan hüquqları........39

## CƏMİYYƏT VƏ DİN

*Mehman İsmayılov* – Bəzi Avropa ölkələrində dövlət-din münasibətləri........49

*Elsevər Səmədov* – İslamda reform hərəkatları: tarixilik və müasirlik........58

*Günel Zahidova* – Din və təhsildə tolerantlığın önəminə dair........67

*Pərvin Əlizadə* – Ailənin cəmiyyət və dində yeri........74

## TARİXƏ PƏNCƏRƏ

*Əlirza Qafarov* – "Qafqazda İslam"ın təşəkkülü və inkişaf mərhələləri........80

*Əmir Kahayev* – Cəfəri məzhəbində fiqh üsulunun təşəkkül tarixi........92

*Nurlana Əliyeva* – Naxçıvanın inzibati ərazi quruluşunda 1929-cu il dəyişiklikləri və nəticələri........99

## ARAŞDIRMA

*İradə Zərqan* – İbn Sina irsi müasir Azərbaycan alimlərinin tədqiqatlarında........105

*Vaqif Əsədov* – Seyidlər I yaşayış yeri və nekropolu........113



**www.scwra.gov.az**
**e-mail: redaksiya@scwra.gov.az**

# 2017-Cİ İLİN AZƏRBAYCAN RESPUBLİKASINDA "İSLAM HƏMRƏYLİYİ İLİ" ELAN EDİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN

# SƏRƏNCAMI

Azərbaycan uzun əsrlərdən bəri İslam sivilizasiyasının əsas mərkəzlərindən biri olmuşdur. O, İslam dininin yayılmasında və eyni zamanda Müsəlman İntibahının bərqərar olmasında mühüm rol oynamışdır. Bütün bunlar Azərbaycan ərazisində ilk vaxtlardan İslam dininin maddi və qeyri-maddi irsinin formalaşmasına zəmin yaratmışdır. 743-cü ildə tikilən Şamaxı Cümə məscidi və ölkəmizin muzeylərində saxlanılan qədim əlyazmalar bunun bariz nümunəsidir.

Dinlə bağlı sərt qadağaların mövcud olduğu sovet dövrü Azərbaycanında cəmi 17 məscid fəaliyyət göstərdiyi halda, hazırda onların sayı 2000-i ötüb keçmişdir. Həmin məscidlərin 300-dən çoxu tarixi-mədəni abidə kimi qorunur. Azərbaycan dövlətinin İslam dini dəyərlərinə qayğısı sayəsində son illər ərzində İslam mədəniyyətinin qiymətli abidələrindən Bibiheybət, Təzəpir, Əjdərbəy, Şamaxı Cümə məscidləri və Gəncə şəhərindəki "İmamzadə" kompleksi əsaslı şəkildə yenidən qurularaq təmir olunmuş, ölkəmizin paytaxtında Cənubi Qafqazın ən möhtəşəm məbədi Heydər məscidi inşa edilmişdir.

Azərbaycan Respublikası İslam Əməkdaşlıq Təşkilatının, İSESKO-nun, həmçinin müsəlman ölkələrini birləşdirən digər mötəbər qurumların üzvü seçilərək İslam aləmi ilə qarşılıqlı faydalı münasibətlər qurmuş, qlobal əhəmiyyətli bir sıra mühüm mədəni forumların təşkilatçısı kimi çıxış etmişdir.

Azərbaycan tolerantlıq mühitinin təşəkkül tapmasına, multikulturalizmin, mədəniyyətlərarası və sivilizasiyalararası dialoqun qurulmasına, İslam dəyərlərinin dünyada təbliğinə böyük töhfələr vermişdir. Azərbaycanın İslam aləmində qazandığı nüfuz 2009-cu ildə Bakı və 2018-ci ildə Naxçıvan şəhərlərinin İslam mədəniyyətinin paytaxtı elan olunmasında öz ifadəsini tapmışdır. IV İslam Həmrəyliyi Oyunlarının 2017-ci ildə Bakı şəhərində keçirilməsi ilə bağlı qərar isə ölkəmizin İslam həmrəylinin möhkəmləndirilməsi sahəsində növbəti əməli addımlar atması üçün əlverişli şərait yaradır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, İslam həmrəyliyinin bərqərar olmasında Azərbaycanın özünəməxsus mövqeyinin möhkəmləndirilməsini təmin etmək məqsədi ilə qərara alıram:

1. 2017-ci il Azərbaycan Respublikasında “İslam Həmrəyliyi İli” elan edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti 2017-ci ilin Azərbaycan Respublikasında “İslam Həmrəyliyi İli” elan edilməsinə dair tədbirlər planını bir ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

**İlham Əliyev**
Azərbaycan Respublikasının Prezidenti
*Bakı şəhəri, 10 yanvar 2017-ci il.*

# 2017-Cİ İLİN AZƏRBAYCANDA "İSLAM HƏMRƏYLİYİ İLİ" ELAN OLUNMASINA DAİR TƏDBİRLƏR PLANI TƏSDİQ EDİLİB

Azərbaycan Respublikası Prezidenti Administrasiyası rəhbərinin Sərəncamı ilə 2017-ci ilin Azərbaycanda "İslam Həmrəyliyi İli" elan olunmasına dair Tədbirlər Planı təsdiq edilib.

Sərəncama əsasən Tədbirlər Planının icrasının təşkilinin əlaqələndirilməsi Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşavirinin xidmətinə həvalə olunub.

Tədbirlər Planında islamdaxili həmrəylik, İslam və digər konfessiyalar arasında həmrəylik istiqamətləri üzrə ölkə daxilində və xaricdə keçirilməsi nəzərdə tutulan tədbirlər öz əksini tapıb.

# AZƏRBAYCAN İSLAM HƏMRƏYLİYİNİN İDEYA VƏ REAL FƏALİYYƏT MƏRKƏZİNƏ ÇEVRİLİR

***Mübariz QURBANLI,***
*Dini Qurumlarla İş üzrə*
*Dövlət Komitəsinin sədri,*
*tarix elmləri üzrə fəlsəfə doktoru*

Hər bir xalqın ən qiymətli sərvəti onun tarixinin süzgəcindən keçmiş milli-mənəvi dəyərləridir. O dəyərlər ki, xalqın mədəniyyətinin, milli xüsusiyyətinin formalaşmasında mühüm rol oynayır və cəmiyyətin qarşılaşdığı maneələr qarşısında daha güclü olmasına gətirib çıxarır. Eyni zamanda, toplumu meydana gətirən fərdlər arasında milli həmrəylik və birlik ruhunun yaranmasına kömək edir.

Milli-mənəvi dəyərləri ictimai dəyərlər də adlandırmaq mümkündür. Çünki ictimai dəyərlər müəyyən bir cəmiyyətdə mövcud olan, tarixin dərinliklərindən gələn və xalqın qəbul etdiyi ortaq dəyərlərdir. Bu dəyərlərin təməlində isə tarix, dil, din, adət-ənənələr, milli mentalitet, mədəniyyət və s. dayanır.

Demək olar ki, bu keyfiyyətlər müxtəlif formalarda bütün xalqlarda mövcuddur. Lakin biz azərbaycanlıları əksər xalqlardan fərqləndirən, özünəməxsus edən digər mədəniyyətlərə hörmətlə yanaşmaq, dözümlü, sülhpərvər, həmrəy olmaq düşüncəsini bütün varlığımızla mənimsəməklə yanaşı, dünyada sülhün və rifahın təmini naminə onun ideyalarının təbliğini həyat fəlsəfəmizə çevirməyimiz və harmonik formada öz həyatımızda tətbiq etməyimizdir. Şübhəsiz, bəşəriyyətin ehtiyac duyduğu bu gözəl dəyərlərin ruhumuza, qanımıza hopmasında yaşadığımız ərazinin Şərqlə Qərb arasında həm mədəni, həm də coğrafi baxımdan körpü rolu oynamasının, xalqımızın İslam dinini düzgün anlamasının və onun humanist dəyərlərini mənimsəməsinin böyük rolu vardır. Aparılan müşahidələr də belə deməyə əsas verir ki, multikultural ölkələrin əhalisi daha dözümlü olur. Tarixə nəzər salsaq görərik ki, Azərbaycan ərazisində müxtəlif dinlərin, dillərin, mədəniyyətlərin nümayəndələri rahat şəkildə yaşaya bilmiş və heç zaman dini-etnik zəmində münaqişə baş verməmişdir. Bütün bunlar bir daha sübut edir ki, xalqımız dünyanın ehtiyac duyduğu və əldə etməkdə çətinlik çəkdiyi birgəyaşayışı, həmrəy olmağı dədə-babalarımızdan miras kimi qəbul edərək günümüzədək qoruyub saxlamışlar.

Bu gün biz dünyada baş verən neqativ hadisələrin fonunda bu dəyərlərin nə qədər önəm daşıdığının şahidi oluruq. Xüsusilə də din adından istifadə edib, insanlar arasında təfriqə salmaqla xaos yaratmaq günümüzün xoşagəlməz reallığına çevrilib. Son illər bəzi dairələrin "millətlərə xoşbəxtlik, firavan həyat, demokratiya gətirmək" bəhanəsi ilə və din amilindən də istifadə edərək törətdikləri ağlasığmaz cinayətlərin arealı getdikcə genişlənməkdədir. Radikal dini təşkilatlar yaratmaq və yaxud onlara maddi-texniki dəstək verməklə öz məkrli niyyətlərini həyata keçirməyə çalışanlar müsəlman dünyasında qarşıdurmanı dərinləşdirməyə, İslam dünyasını zəiflətməyə, geridə saxlamağa, texnoloji cəhətdən inkişafını əngəlləməyə və yekun nəticədə coğrafi baxımdan böyük strateji əhəmiyyət

daşıyan, çoxlu yeraltı, yerüstü sərvətlərə, nəqliyyat infrastrukturuna malik olan ərazilərdə hegemonluğa sahib olmağa cəhd göstərirlər. Bu gün ölkələr arasında iqtisadi, siyasi, hərbi sahələrlə yanaşı, sivilizasiya və din rəqabəti də gedir. Təəssüf ki, bu rəqabət sağlam şəkildə deyil, günahsız insanların həyatı bahasına başa gəlir. Biz bunu Yaxın Şərqdə, Suriyada və digər müsəlman ölkələrində açıq şəkildə görürük. Nəticəsi də göz qabağındadır: "rəngli inqilab"ların, "bahar"ların gətirdiyi "payız", səfalət, xaos, viranə qalmış şəhərlər, yurd-yuvasını tərk etmiş milyonlarla insan...

İslam dini adı altında fəaliyyət göstərən terror təşkilatlarını dəstəkləyən qrupların dünyada islamofobiya meyllərinin artmasına rəvac verdikləri də danılmaz faktdır. Təəssüf ki, Avropa ictimai rəyini diqqətlə izləsək, bütün terrorların İslam dini ilə əlaqələndirildiyini görərik. Halbuki 2015-ci ildə ümumilikdə dünya üzrə terrorların 70 faizi müsəlman, 5 faizi isə Avropa ölkələrində baş verib. Lakin dünya mediasında aparılan məqsədyönlü informasiya siyasəti nəticəsində 5 faizin ətrafında qoparılan hay-küy 70 faizin səsini batırıb. Müsəlman ölkələrində terror törədənlər İslam adı altında fəaliyyət göstərən və bəzi dairələr tərəfindən maliyyələşdirilən qruplardır. Ona görə də bu gün müsəlman dünyasında din amilindən istifadə edərək yaradılan qarşıdurmaların qarşısını almaq üçün alternativ yollar arayıb tapmağa hər zamankından daha çox ehtiyac var. Bu yol isə dini tolerantlığın, birgəyaşayışın, multikultural dəyərlərin, eyni zamanda, müsəlmanlar arasında həmrəylik ideyasının təbliğ və təşviq olunmasından keçir. Bu cür xoşagəlməz halların qarşısını almaq üçün dünyaya İslamın sülh dini olduğunu və müsəlmanların terrorçu deyil, dinindən, irqindən, sosial mənsubiyyətindən asılı olmayaraq hər kəsə dözümlü, bərabər yanaşan toplumlar olduğunu çatdırmağa ehtiyac duyulur. Necə ki, xalqımızın sahib olduğu bu dəyərlər artıq ölkəmizdə həyat tərzinə çevrilib və biz bununla dünyaya "bu yolun alternativi yoxdur" mesajını verməkdəyik.

Dövlət başçısı İlham Əliyevin 2016-cı ili "Multikulturalizm İli", onun məntiqi davamı kimi bu ili "İslam Həmrəyliyi İli" elan etməsi bütün dünyaya "Bir-birimizə qarşı dözümlü olaq, hörmətlə yanaşaq, həmrəy olmağı, dinlər və məzhəblər arasında dialoq qurmağı bacaraq" çağırışıdır. Bunun ən gözəl örnəyi əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş Azərbaycanın dövlət-din münasibətləri modelinin digər dövlətlər tərəfindən öyrənilməsi və tədqiq olunmasıdır.

Ümummilli Lider tərəfindən böyük peşəkarlıq və həssaslıqla hazırlanan bu mükəmməl model sayəsində milli-mənəvi dəyərlərə qayıdışın əsası qoyulub, xalqın keçmişinə, milli adət-ənənələrinə, dininə dövlət səviyyəsində qayğı göstərilir, ölkədə etiqad, inanc azadlığı tam təmin edilir. Digər sahələrdə olduğu kimi, ölkəmizdə din sahəsində də böyük uğurlar əldə edilib və mənəvi dəyərlərimiz milli xarakterimizlə uzlaşdırılıb, kənardan dini zəmində münaqişələr, məzhəblərarası konfliktlər yaratmağa çalışanların qarşısı vaxtında alınıb. Vətəndaşların vicdan azadlığı Konstitusiyamızda əsas insan hüquq və azadlıqlarından biri kimi təsbit olunub, eyni zamanda, "Dini etiqad azadlığı haqqında" qanunda geniş şəkildə öz əksini tapıb.

"Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikasının Qanunu ölkədə vicdan azadlığının təmin edilməsi, dini qurumların statusu, onların fəaliyyətinin əlaqələndirilməsi ilə bağlı bütün məsələlərə aydınlıq gətirməsinə baxmayaraq, respublikamızda dövlət-din münasibətlərinin tənzimlənməsi ilə bağlı qəbul edilmiş qanunvericiliyin icrası, bu sahədə mərkəzi idarəetmə orqanının yaradılması zamanın tələbi idi. Ona görə

də 2001-ci ildə Ulu Öndər Heydər Əliyevin imzaladığı Fərmanla Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi yaradıldı və bununla da dövlət-din münasibətlərinin inkişafında yeni mərhələyə qədəm qoyuldu. Dövlət komitəsi dövlət-din münasibətlərinin tənzimlənməsi və inkişafında, din sahəsi ilə bağlı qanunvericiliyin təkmilləşdirilməsinə dair təkliflərin verilməsində, müvafiq qanunvericiliyin icrasına nəzarətin, eyni zamanda dövlət-din münasibətləri sahəsində məqsədyönlü proqramların həyata keçirilməsində böyük rol oynayır.

Bu gün Prezident İlham Əliyev tərəfindən yürüdülən siyasət xalqın milli-mənəvi dəyərlərinin tərkib hissəsi olan dinimizə dövlət qayğısının bariz nümunəsidir. Onun prezidentliyi dövründə milli-mənəvi dəyərlərimizin qorunub saxlanılması və inkişaf etdirilməsinə xüsusi önəm verilib. Bu məqsədlə yeni ibadət ocaqlarının inşası, təmirə ehtiyacı olanların yenidən bərpası istiqamətində çoxsaylı işlər görülüb. Əgər Sovet İttifaqı dağılarkən ölkəmizdə 17 məscid fəaliyyət göstərirdisə, bu gün onların sayı 2000-i ötüb. Təkcə son 13 il ərzində ölkədə 200-dən çox məscid inşa olunub, 80-dən artıq məsciddə əsaslı təmir və yenidənqurma işləri aparılıb. Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamlarına və tapşırıqlarına uyğun olaraq Bibiheybət məscid-ziyarətgah kompleksində, Təzəpir məscidində, İçərişəhər Cümə və Həzrət Məhəmməd məscidlərində, Əjdərbəy, Şamaxı və Sumqayıt Cümə məscidlərində, Gəncə şəhər İmamzadə ziyarətgahında əsaslı təmir, bərpa və yenidənqurma işləri aparılıb. Dövlət başçısının tapşırığı ilə Binəqədi rayonunda inşa edilən və cənubi Qafqazın ən möhtəşəm İslam abidəsinin - Heydər məscidinin 2014-cü ilin dekabrın 26-da açılışı olub.

Xalqımızın zəngin milli-mənəvi dəyərlərinə böyük həssaslıqla yanaşan Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın bu dəyərlərimizin qorunması istiqamətindəki fəaliyyəti də xüsusi vurğulanmalıdır. Mehriban xanım Əliyeva hər zaman Azərbaycan həqiqətlərini beynəlxalq tədbirlərdə ən yüksək tribunalardan xarici ölkə nümayəndələrinin diqqətinə çatdırıb. Onun rəhbərliyi ilə fondun "Tolerantlığın ünvanı - Azərbaycan" layihəsi çərçivəsində Mərdəkan qəsəbəsindəki XVI əsrə aid "Pir Həsən" ziyarətgahında, Binə qəsəbəsindəki "Möhsün Səlim" və "İmam Rza", Gəncədəki "Həzrəti Zeynəb", Buzovna qəsəbəsindəki "Cümə" və s. məscidlərdə əsaslı təmir və bərpa işləri aparılıb, o cümlədən yeni məscidlər istifadəyə verilib.

Azərbaycanın dövlət-din modelinin uğuru həm də ondan ibarətdir ki, dünyada dinlərarası və məzhəblərarası qarşıdurmaların baş verdiyi müasir dövrdə ölkəmizdə bu sahədə hansısa gərginlik yaşanmır. Əsrlərdir ki, İslam dünyasının iki böyük - şiə və sünni məzhəblərinin nümayəndələri ibadətlərini fərqli şəkildə və fərqli məkanda həyata keçirirlər. Tarixdə bir neçə dəfə onların birliyinə, həmrəyliyinə təşəbbüslər göstərilsə də, indiyədək bu təşəbbüslər davamlı xarakter almayıb. İslam aləmində məzhəb məsələsinin ön plana çıxdığı bir dövrdə – keçən ilin yanvar ayının 15-də Bakıdakı Heydər məscidində məzhəbindən asılı olmayaraq, ölkə müsəlmanları ilk dəfə bir araya gələrək eyni vaxtda, bir yerdə, bir sırada vəhdət namazı qıldılar və bu, ənənəyə çevrilərək digər məscidlərdə də tətbiq olunmağa başladı.

Həmçinin ölkə ərazisində digər sahələrdə olduğu kimi, dini sahədə sabitliyin əldə olunması ilə yanaşı, ümumilikdə İslam dünyası ilə əlaqələrin möhkəmləndirilməsi və həmrəyliyin gücləndirilməsi istiqamətində də əməli addımlar atılmışdır. Ümum-

milli Liderin dövründən başlayaraq Azərbaycan İslam Əməkdaşlıq Təşkilatının işində fəal iştirak etmişdir. Ölkəmizin İslam dünyasının ayrılmaz parçası olduğunu dönə-dönə vurğulayan Ulu Öndərin İslam Əməkdaşlıq Təşkilatının Mərakeş Krallığında keçirilən zirvə toplantısında səsləndirdiyi “Azərbaycan Respublikasının Prezidenti kimi mən öz qardaşlarımla – müsəlman dövlətlərinin başçıları ilə şəxsi münasibətlər yaratmağa, aramızda həmrəyliyi möhkəmlətməyə böyük əhəmiyyət verirəm” fikri onun İslam dünyası ilə əlaqələrə verdiyi əhəmiyyətin bariz göstəricisidir.

Ümummilli Lider Heydər Əliyev Şərqlə Qərb arasında körpü rolunu oynayan ölkəmizin iki qitə arasında barışdırıcı missiyasının əhəmiyyətinə diqqət çəkərək deyirdi ki, “Biz Avropa qitəsinə daxilik. Amma eyni zamanda Avropa ilə Asiya arasında biz öz ölkəmizdə, öz xalqımızın tarixində, milli mədəniyyətində, tarixi köklərində və mentalitetində Şərqlə Qərbin, Avropa ilə Asiyanın sintezini təşkil edirik. Ona görə də öz tarixi missiyamızı dərk edirik və bunu həyata keçirmək üçün indiyə qədər lazımi işlər görmüşük”. Fəxrlə deyə bilərik ki, Ulu Öndərin bütün fikir və ideyaları kimi, bu dünyagörüşü də Prezident İlham Əliyev tərəfindən zamanın tələbinə uyğun və ustalıqla davam etdirilir. Bu gün həm Avropa Şurasına, həm də ISESCO-ya müsəlman ölkəsi kimi üzv olan Azərbaycan istər müsəlman, istərsə də Qərb ölkələri arasında möhkəm dostluq və əməkdaşlıq münasibətləri qurub. Artıq Azərbaycan dünyada istər mədəniyyətlərarası və dinlərarası dialoqun təşviqi, istər tolerantlığın, multikultural dəyərlərin inkişafı, istərsə də müsəlman ölkələri arasında həmrəyliyin gücləndirilməsi istiqamətində mühüm rol oynamaqdadır.

Son illər qeyd etdiyimiz istiqamətlərdə keçirilmiş beynəlxalq tədbirlərin coğrafiyasına nəzər salsaq, bu sahədə təşəbbüslərin böyük əksəriyyətinin beynəlxalq aləmdə müxtəlif mədəniyyətlərin qovuşduğu məkan kimi tanınan Azərbaycan tərəfindən irəli sürüldüyünün şahidi olarıq. Buna misal olaraq Ulu Öndər Heydər Əliyev tərəfindən ölkədə əsası qoyulan “16 Noyabr - Beynəlxalq Tolerantlıq Günü”nün hər il qeyd edilməsi, 2007-ci ildə “Heydər Əliyev və Azərbaycanda din siyasəti: gerçəkliklər və perspektivlər” Beynəlxalq elmi-praktik konfransın, 2009-cu ildə Bakı, 2018-ci ildə isə Naxçıvan şəhərinin “İslam Mədəniyyətinin Paytaxtı” seçilməsi, həmçinin 2006-cı ildə “İslamda dözümlülük” mövzusunda beynəlxalq konfransın, 2011-ci ildən başlayaraq hər iki ildən bir Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun, 2012-ci ildə İqtisadi Əməkdaşlıq Təşkilatının XII Zirvə toplantısının, “Dövlət və din: dəyişən dünyada tolerantlığın gücləndirilməsi” I Beynəlxalq Bakı Forumunun, 2014-cü ildə “İslam ənənəli dövlətlərdə dini birgəyaşayış. Müsəlman ölkəsində müxtəlif dinlərin yanaşı mövcudluğu: Azərbaycan təcrübəsi” Beynəlxalq konfransının, beş beynəlxalq humanitar forumun, ötən ilin aprel ayında Birləşmiş Millətlər Təşkilatının Sivilizasiyalar Alyansının VII Qlobal Forumunun və digər mötəbər tədbirlərin keçirilməsidir.

Qürurla vurğulanmalıdır ki, bu gün Prezident İlham Əliyevin məqsədyönlü fəaliyyəti sayəsində ölkəmiz sivilizasiyalararası və mədəniyyətlərarası, dini dözümlülük, birgəyaşayış ənənəsi, həmrəylik ideyasının təşviqi ilə bağlı regional və beynəlxalq konfransların, yüksək səviyyəli forumların keçirildiyi əsas məkana çevrilib. Azərbaycanda dövlət-din münasibətlərinin tənzimlənməsi sahəsində həyata keçirilən siyasət dünya icti-

maiyyəti tərəfindən diqqətlə izlənilir və yüksək qiymətləndirilir.

Bu ilin Prezident İlham Əliyev tərəfindən "İslam Həmrəyliyi İli" elan olunması vaxtında qəbul olunmuş və zamanın çağırışlarına cavab verən addımdır. "İslam Həmrəyliyi İli" yalnız din amilini deyil, eyni zamanda müsəlman ölkələrinin həm iqtisadi, həm mədəniyyət, həm də mənəviyyat sahəsində bir-birinə dəstək olması, həmrəy olması məsələsini özündə əks etdirir və onlar arasında nifaq salmaq istəyənlərə bir cavabdır. Həmçinin bu il çox önəmli beynəlxalq tədbir olan IV İslam Həmrəyliyi Oyunlarının ölkəmizdə keçiriləcək ki, bu da müstəqil Azərbaycanımızın müsəlman dünyasındakı nüfuzundan xəbər verir. Cənab Prezidentin də qeyd etdiyi kimi, bu, böyük siyasi, mədəni tədbirdir, böyük ictimai hadisədir: "Bu, bir daha Azərbaycanı müstəqil, öz dəyərlərinə, İslam dəyərlərinə sadiq ölkə kimi, eyni zamanda, müasir ölkə kimi göstərir və bu gün İslama qarşı çirkin kampaniya aparanlara da bir cavab olacaq. Çünki onlar İslam haqqında rəy formalaşdırırlar ki, İslam geridə qalmış sivilizasiyadır. Onlar öz imkanları hesabına həm mediada, həm ictimai fikirdə, həm müxtəlif qeyri-hökumət təşkilatları çərçivəsində rəy formalaşdırırlar ki, İslam dünya üçün təhlükədir, İslamı terrorizmlə eyniləşdirirlər, islamofobiyaya rəvac verirlər, xalqları dinə görə bölürlər, müsəlman qaçqınlarına qarşı hörmətsizlik edirlər".

Bu gün beynəlxalq aləmdə özünəməxsus yer tutan və İslam Əməkdaşlıq Təşkilatında birləşən müsəlman ölkələri dünya əhalisinin təqribən 22 faizini təşkil edir. Bu göstəricinin 2050-ci illərdə 30 faizə yaxınlaşacağı ehtimal olunur. Bu isə onu göstərir ki, İslam faktoru dünya siyasətində çox ciddi rol oynayır. Tarixən İslam dünyasının bir parçası, mədəni və dini mərkəzlərindən biri olan Azərbaycanın özünəməxsus xüsusiyyəti ondan ibarətdir ki, ölkəmiz müxtəlif məsələlərlə əlaqədar müsəlman dövlətləri arasındakı bu və ya digər problemlərdə münsif rolunu oynaya bilir. Biz bilirik ki, İslam dünyasında bəzi məsələlərlə əlaqədar ziddiyyətlər, fikir ayrılıqları var, ayrı-ayrı müsəlman ölkələri arasında da qarşıdurmalar mövcuddur. Bunlar bəzən təriqət, məzhəb fərqliliyi fonunda ortaya çıxır. Azərbaycan isə bütün müsəlman ölkələri ilə eyni səviyyədə xoş və dostyana münasibətlərə malikdir. Məhz buna görədir ki, Azərbaycan İslam dünyasında da özünün barışdırıcı, sülhpərvər mövqeyi ilə nümunədir. Bu il yanvarın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Nazirlər Kabinetinin 2016-cı ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında da qeyd etdiyi kimi: "Azərbaycan İslam aləmində çox böyük hörmətə malik bir ölkədir. Baxın, İslam Əməkdaşlıq Təşkilatının rəhbərləri bizim ölkəmizə necə yüksək qiymət verirlər. Bəzən bir-biri ilə yola getməyən müsəlman ölkələri də bizə böyük hörmətlə yanaşırlar. Nəyə görə? Çünki bizim siyasətimiz səmimidir, düzgündür, ədalətlidir, prinsipialdır və cəsarətlidir. Bax, budur bizim siyasətimiz".

Beləliklə, dini zəmində ixtilafların, qarşıdurmaların, toqquşmaların kəskinləşdiyi, terrorizm, dini radikalizm kimi mənfi meyllərin artdığı bir dövrdə Azərbaycanda ictimai-siyasi sabitliyin tam təmin edilməsi, ölkə vətəndaşlarının dinc və əmin-amanlıq şəraitində yaşaması, dövlətimizin multikultural və tolerant dəyərlərin qorunub saxlanılmasına verdiyi dəstək digər ölkələr üçün nümunədir.

Və bu nümunənin memarı Ulu Öndərimiz, qarantı isə Prezident İlham Əliyevdir!

# AZƏRBAYCANIN MULTİKULTURALİZM NÜMUNƏSİ

***Əli FƏRHADOV,***
*AMEA-nın Milli Azərbaycan*
*Tarixi Muzeyinin elmi işçisi,*
*al304@yahoo.com*

***AÇAR SÖZLƏR:*** *Azərbaycan, din, multikulturalizm, Konstitusiya.*
***КЛЮЧЕВЫЕ СЛОВА:*** *Азербайджан, религия, мультикультурализм, конституция.*
***KEY WORDS:*** *Azerbaijan, religion, multiculturalism, constitution.*

Azərbaycan tarix boyu müxtəlif dinlərin və millətlərin vətəni olmuş, məscid, kilsə və sinaqoqun eyni ərazidə sərbəst fəaliyyət göstərdiyi məkan kimi tanınmışdır. Tarixən burada məskunlaşan müxtəlif din və məzhəb nümayəndələri arasında ciddi mənada qarşıdurma yaşanmamışdır. Azərbaycan xalqının əsrlər boyu formalaşan bu tolerantlıq, multikulturalizm modelini daha da möhkəmlədib inkişaf etdirmək, həmçinin bütün dünyaya tanıtmaq üçün Prezident İlham Əliyev 2016-cı ilin “Multikulturalizm ili” elan olunmasına dair Sərəncam vermişdi. Ötən ilin aprel ayında BMT-nin Sivilizasiyalar Alyansının Bakıda keçirilmiş VII Qlobal Forumunda “Hamımız eyni planetdə yaşayırıq” deyən cənab Prezidentin bu sözləri Azərbaycan multikulturalizminin nəzəri əsaslarını göstərmək baxımından böyük əhəmiyyətə malikdir [1]. Qeyd edək ki, bu mötəbər tədbirin Azərbaycanda keçirilməsi də ölkəmizin multikultural dəyərlərin vətəni olduğunu bir daha təsdiqləyir.

Ölkəmizin ərazisi müxtəlif sivilizasiyaların, mədəniyyətlərin və dinlərin kəsişməsində yerləşir. Tarixi təcrübə göstərir ki, belə ərazilərdə yerləşən ölkələrin xalqları müxtəlif etnik, irqi, dini və mədəni qrupların nümayəndələri ilə qarşılaşaraq onlarla iqtisadi-ticarət və mədəni əlaqələrini inkişaf etdirmişlər. Bu isə öz növbəsində belə ərazilərdə multikultural mühitin formalaşması üçün əlverişli şərait yaratmışdır. Zərdüştilik dininin Azərbaycan ərazisində yayılması da bu faktora bağlıdır. Belə ki, e.ə. III əsrdən etibarən ehkam səciyyəsi daşımağa başlamış Zərdüştlük Sasanilərin təsiri ilə Şimali Azərbaycanda da yayılmış və yerli xüsusiyyətlər kəsb etmişdir. Bakının Suraxanı qəsəbəsində yerləşən atəşgah uzun əsrlər boyu dünya zərdüştlərinin, hətta Hindistan baş naziri İndira Qandinin ziyarət etdiyi məkan olmuşdur [2].

Yəhudilik isə Azərbaycanda tarixən dağ yəhudiləri ilə təmsil olunmuşdur. Alban tarixçisi Moisey Kalankatuklu dağ yəhudilərinin Qafqaza gəlişini e.ə. I əsrə aid edir. Ən qədim yəhudi icmalarından olan dağ yəhudiləri mənşəcə bir vaxtlar Assuriya və Babil şahları tərəfindən Fələstindən çıxarılmış və Midiyada məskunlaşdırılmış İsrailoğulları nəslindəndirlər. Midiyada olarkən onlar tatlarla qaynayıb qarışmışlar. Bunun nəticəsində dağ yəhudiləri fars dilinin qədim arami və yəhudi sözləri ilə qatışıq ləhcəsi olan tat dilində danışırlar. Başqa tədqiqatçıların fikrincə, dağ yəhudiləri Şərqi Qafqaza Sasani hökmdarı Xosrov I Ənuşirəvan (531-579) tərəfindən köçürülmüşdür. Hökmdar Qafqazda

qalalar tikdirir, şəhərlər saldırır, bu ərazilərdə Mesopotamiyadan köçürtdüyü farsları və yəhudiləri yerləşdirirdi. Dağ yəhudilərinin danışdıqları tat dili də həmin dövrdən miras qalmışdır. Hər halda deyə bilərik ki, dağ yəhudiləri Azərbaycana Sasanilərin siyasətinə bağlı olaraq 15 əsr bundan qabaq gəlmiş, imperiyanın təhlükəsizliyini təmin etmək məqsədilə sərhəd məntəqələrində yerləşdirilmiş, yerli əhali ilə sıx təmasda olsalar da, dinlərini, adət-ənənələrini, həyat və düşüncə tərzlərini qoruyub saxlamışlar.

Azərbaycan xalqının formalaşmasında iştirak etmiş xalqlardan biri də xəzərlərdir. Çoxdinli olan xəzərlərdə göytürk, yəhudi, ərəb, kiril əlifbaları işlənirdi. Əhalinin bir hissəsi Yəhudiliyi qəbul etmiş, X əsrdə isə onlar arasında müsəlmanlıq yayılmağa başlamışdır. Məscid, kilsə, sinaqoqun yanaşı tikilməsi ənənəsi xəzərlər dövründə də mövcud olmuşdur [3].

Xristianlıq isə Azərbaycan ərazisinə yeni eranın ilk əsrlərində, hələ İsa Məsihin həvariləri dövründə Qafqaz Albaniyası vasitəsilə nüfuz etmişdir. Belə ki, 70-ci ildə Yerusəlimin (Qüdsün) süqutundan sonra yəhudilərin Qafqaza köçürülməsi güclənmişdi. Gələnlər İsanın (ə) göstərdiyi möcüzələrdən danışırdılar. Bu cür təbliğin təsiri altında bölgədə ilk xristian icmaları yaranmışdı. Həvarilər Varfolomey və Faddeyin adları ilə bağlı olan bu dövr Albaniyada Xristianlığın yayılmasında həvari dövrü adlanır. Həvari Faddeyin şagirdlərindən olan Yelisey Yerusəlimin birinci patriarxı Yaqubun xeyir-duası ilə yeni dini təbliğ edə-edə Albaniyaya gəlib çıxmış və Kiş adlı yerdə kilsə tikmişdir. Tədqiqatçıların fikrincə, bu kilsə nəinki Qafqaz Albaniyasının, hətta bütün Cənubi Qafqazın ilk xristian kilsəsi hesab olunur [4].

İstər Qafqaz Albaniyası, istərsə də Atropatena dövründə azərbaycanlılar xristian və zərdüşt icmaları olaraq bir yerdə rahat yaşayıb fəaliyyət göstərmiş, İslamın qəbulundan sonra da bu dini tolerantlıq ənənəsi davam etdirilmişdir.

XIX-XX əsrin əvvəlləri Çar Rusiyasının işğalçılıq və assimilyasiya siyasəti dövründə də Azərbaycan xalqı heç vaxt özünün milli-mənəvi dəyərlərindən, xüsusilə də tolerantlığından imtina etməmişdir. Bu ictimai mühitin formalaşmasında Azərbaycanın maarifçi din xadimləri də böyük rol oynamışdır. Məsələn, Şeyxülislam Axund Mirzə Həsən Tahirzadə Azərbaycan dilini öyrənmək istəyən ruslar üçün "Учебник или руководство по татарскому языку" (Tatar dilini öyrənənlər üçün dərslik və ya təlimat) adlı bir əsər yazmışdı [5, s. 97-99]. Digər din xadimləri - Şeyxülislam Əbdüssəlam Axundzadə və Zaqafqaziya müftisi Hüseyn Qayıbov da öz yazılarında xristianlarla müsəlmanların dost və yaxın olmalarını təbliğ edirdilər [5, s. 103; 34]. Bu dövrdə cəhalətə və xurafata qarşı mübarizə aparanlar arasında şair və din alimi Seyid Əzim Şirvani əsas yer tutur. Həmin dövrdə din bayrağı altında mürtəce fəaliyyət göstərən cahil "dindar"lar məktəblərdə rus dilinin tədrisi səbəbilə oranı küfr yuvası adlandırmış, buna cavab olaraq şair "Əkinçi" qəzetində nəşr olunmuş bir şeirində oğluna etdiyi nəsihətdə bütün dillərin Allah qatında bir olduğunu bildirmiş, digər xarici dilləri öyrənmənin faydalarını həm dini dəlillərlə izah etmiş, həm də ərəbcənin Allaha xas bir dil olmadığını göstərmişdir [6].

XX əsrin əvvəllərində din xadimlərimizin maarifçilik fəaliyyətləri daha da genişlənmişdir. Məsələn, bu dövrdə yaşamış Bakı qazısı Mir Məhəmməd Kərim əl-Bakuvi [7] azərbaycanca ilk Quran təfsiri olan 3 cildlik "Kəşfül-həqayiq" əsərini yazmışdır.

Böyük ədəbi qabiliyyətə sahib olan əl-Bakuvi bu əsərində klassik Şərq poeziyası nümunələrinə müraciət etmiş, Həllac Mənsur, Şəhabəddin Yəhya Sührəverdi, Nəimi, Nəsimi kimi sufiləri təkfir və qətl edən radikal təkfirçi cərəyanlara qarşı öz qəzəbini ifadə etmişdir. Əl-Bakuvi şiə-sünni şəklində İslamda parçalanma yaradanları nəzərdə tutaraq deyirdi: "Ayə o zaman olmayıbdır ki müsəlman qardaşlar – mən şiəyəm, sən sünni, ya biləks davasını kənara qoyub yekdil və yekqövl (eyni qəlb və sözlə - Ə.F.) bir kitab, bir din və bir peyğəmbər və bir məzhəbə ittifaq eyləsinlər. Və bu nifaqın xəbis sözlərini tərk edib İslam və ittihad ləfzləri ixtiyar edib vahid güc hökmündə olsunlar" [8].

Əl-Bakuvi öz əsərində Azərbaycanda sünni-şiə məzhəbləri mənsubları arasında təfriqə yaratmaq istəyənlərə qarşı İslam qardaşlığı ideyasını yaymış və "Kəşfül-həqayiq"in müqəddiməsində belə yazmışdır: "Hamısından fərz bir məclis açıb dini-islamı pozan ixtilafın əsl nə olduğunu təhqiq edib ixtilafa səbəb olan əmrləri dəf eləyib bütün hamısı islam ismi-şərifinin altına daxil olub dini-islamı yaymağa səy və qeyrət etsinlər. Ayə bundan gözəl və vacib və lazım əmr olurmu?" [9].

Bütün bu ziddiyyətlər, qarşıdurmalar dövründə belə, Azərbaycan özünü dünyadan təcrid etməmiş, Şərqlə Qərbin vəhdətindən əmələ gələn mədəniyyətini inkişaf etdirərək bütün dünyada tanıtdırmışdır. Məsələn, dahi Azərbaycan bəstəkarı Üzeyir Hacıbəyov 1908-ci ildə Şərqdə ilk opera sayılan "Leyli və Məcnun"u yaratmışdır. "Leyli və Məcnun" ilə musiqi tarixində operanın yeni növü – muğam operası yaranmışdır. Bu, Şərqin muğamı ilə Qərbin operasının vəhdəti, Şərqlə Qərb ənənələrinin qovuşma nöqtəsi idi [10].

I Dünya Müharibəsi dövründə Azərbaycan Çar Rusiyasının əsarəti altında olmasına baxmayaraq, öz yardım əlini Rusiya ilə müharibə vəziyyətində olan qardaş Türkiyədən əsirgəməmiş, həm Dövlət Dumasındakı azərbaycanlı deputatlar, həm də digər ictimai xadimlər, publisistlər, xeyriyyəçilər rus ordusu tərəfindən əsir götürülən türklərin vətənə dönməsi, aclıq və susuzluqdan ölməməsi üçün əllərindən gələni etmişlər. Anadoluda türklərin yaşadığı bu fəlakətlərə laqeyd qala bilməyən azərbaycanlılar bir tərəfdən bu qırğın və haqsızlıqların dayandırılması üçün hökumət nəzdində müəyyən addımlar atmış, digər tərəfdən "Qardaş köməyi" adıyla bir təşkilat yaradaraq bu şüarla tarixdə çox az rast gəlinən yardım kampaniyası başlatmışlar. "Qardaş köməyi" təşkilatı I Dünya müharibəsi dövründə qurulmuşdu. Dövrün görkəmli ictimai-siyasi xadimi Nağı Şeyxzamanlı bu haqda belə yazır: "Rus ordusunun Türkiyənin Şərq vilayətlərini işğal etdikləri zaman rusların və xüsusi olaraq rus orduları sırasında olan erməni əsgərlərinin vəhşiliklərinə məruz qalan türk xalqı imkan tapdıqca Qafqazın içərilərinə köçkün olaraq qaçırdılar. Onlar ancaq bu yolla özlərini qurtara bilirdilər. Təşkilat Azərbaycana gələn qaçqınlara yardım edir və işğal olunmuş vilayətlərdə sahibsiz qalan türk uşaqlarını toplayaraq Azərbaycana gətirirdi. Bir tərəfdən uşaqlar, digər tərəfdən rus və erməni əsgərlərinin vəhşiliyinə dözə bilməyən türk xalqı qardaş Azərbaycan xalqının ağuşunda yer tapırdı. "Qardaş köməyi" təşkilatı qaçqınları köçkün yurdlarında yerləşdirmişdi. Körpələr üçün uşaq bağçaları və yurdları qurulmuş, məktəbyaşlı olanlar isə məktəblərdə yerləşdirilmişdilər. Azərbaycanın hər vilayətində və qəzasında "Qardaş köməyi"nin şöbələri vardı. Xalqımızın səyi ilə toplanan pullarla köçkünlərin bütün məsrəflərini təmin edə bilirdik. Bu təşkilat "Qardaş köməyi" adlı dolğun bir jurnal da nəşr etmişdi" [11, s. 32]. Qeyd edək ki, bu jurnalda

Türkiyə-Azərbaycan qardaşlığı təbliğ edilirdi.

Çar Rusiyasının əsarətindən xilas olduqdan sonra yaranan və Şərqdə ilk demokratik respublika sayılan Azərbaycan Xalq Cümhuriyyəti dövründə də mədəniyyətlərarası dialoqa xüsusi əhəmiyyət verilmiş, təsis olunan parlamentdə Azərbaycanda yaşayan bütün millətlər, hətta Azərbaycana qarşı torpaq iddiaları irəli sürən "Daşnaksütyun" partiyasının nümayəndələri də təmsil olunmuşdur [12]. Azərbaycanda millətlər və mədəniyyətlərarası qardaşlıq siyasəti Sovet Azərbaycanı dövründə də uğurla davam etdirilmiş, hətta Bakı 1978-ci ildə Dünyəvi Qardaş Şəhərləri Federasiyasının üzvü olmuşdur [13].

Azərbaycan XX əsrin sonlarında öz müstəqilliyini bərpa etdikdən sonra Ulu Öndər Heydər Əliyevin uzaqgörən və müdrik siyasəti nəticəsində mədəniyyətlərarası və dinlərarası dialoq siyasəti özünün yeni inkişaf dövrünə qədəm qoymuşdur. Heydər Əliyevin təşəbbüsü və göstərişi ilə multikulturalizm siyasətinin əsasını təşkil edən tolerantlıq prinsipi Azərbaycan Respublikası Konstitusiyasının bir sıra maddələrində aydın şəkildə təsbit edilmişdir. Multikulturalizm siyasətini ölkənin demokratik inkişafının əsas sütunlarından hesab edən Ulu Öndər onu Azərbaycançılıq ideologiyasının tərkib hissəsi kimi təqdim etmişdir. 2001-ci il noyabrın 10-da Dünya Azərbaycanlılarının I Qurultayında Ulu Öndər Heydər Əliyevin nitqi Azərbaycançılığın məramını göstərən düstur sayıla bilər: "Azərbaycançılıq öz milli mənsubiyyətini qoruyub saxlamaq, milli-mənəvi dəyərlərini qoruyub saxlamaq, eyni zamanda onların ümumbəşəri dəyərlərlə sintezindən, inteqrasiyasından bəhrələnmək və hər bir insanın inkişafının təmin olunması deməkdir" [14].

Respublikamızda Azərbaycançılığın təbliği sahəsində, cəmiyyətin demokratik fəallığının artmasında dini maarifçiliyin, tolerantlığın, dinlərarası dialoqun inkişaf etdirilməsinin müəyyən rolu vardır və bu özünü xüsusilə son illərdə real olaraq göstərir. Ölkəmizdə dini məsələlərin tənzimlənməsi Azərbaycan Respublikasının Konstitusiyası və buna uyğun qanunlarla tənzimlənir. Konstitusiyada deyilir ki, "Azərbaycan Respublikasında din dövlətdən ayrıdır. Bütün dini etiqadlar qanun qarşısında bərabərdir" [15, 18:1]; "İnsan ləyaqətini alçaldan və ya insanpərvərlik prinsiplərinə zidd olan dinlərin (dini cərəyanların) yayılması və təbliği qadağandır" [15, 18:2]; "İrqi, milli, dini, sosial ədavət və düşmənçilik oyadan təşviqat və təbliğata yol verilmir" [15, 47:3]; "Hər kəsin vicdan azadlığı vardır" [15, 48:1]. Azərbaycan Respublikası Prezidentinin 21 iyul 2001-ci il tarixli 512 nömrəli Fərmanı ilə yaradılan Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi dini fəaliyyət sahəsində dövlət siyasətinin həyata keçirilməsini, dini qurumlarla bağlı qanunvericiliyin müddəalarına riayət olunmasını, müvafiq icra hakimiyyəti orqanlarının dini qurumlarla bağlı fəaliyyətinin əlaqələndirilməsini təmin edir. Bununla yanaşı, 2014-cü il fevralın 28-də Azərbaycan Respublikasının Millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşavirinin xidməti təsis edilmiş, 2014-cü il mayın 15-də isə Prezident İlham Əliyev Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin yaradılması haqqında Sərəncam imzalamışdır. Bütün bunlar ölkə rəhbərliyinin dövlət və din münasibətlərinə xüsusi həssaslıqla yanaşdığının bir nümunəsidir. Ölkəmiz zəngin multikulturalizm ənənələrinin qorunub saxlanması istiqamətində bir çox tədbirləri həyata keçirir, bu istiqamətdə təbliğat və təşviqatla məşğul olur. Belə ki, Prezident İlham Əliyev tərəfindən imzalanmış "Azərbaycan Respublikasında Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun təşkili barədə" 2011-ci il 27 may tarixli

Fərmanla ölkəmizdə yeni bir ənənənin əsası qoyulmuşdur. Sənədə əsasən, 2011-ci ildən başlayaraq iki ildən bir təşkil edilən Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun məqsədi ölkəmizin İslam dünyası ilə Qərb sivilizasiyası, eləcə də digər mədəniyyətləri təmsil edən xalqlar arasında dialoqun və etimadın möhkəmləndirilməsində mühüm rolu nəzərə alınmaqla, müxtəlif mədəniyyətlər arasında əməkdaşlıq üçün qlobal platformanı təsis etmək və Azərbaycan xalqının tolerant mədəniyyətini, tarixi ənənələrini beynəlxalq aləmə tanıtmaqdır [16]. Prezident İlham Əliyev və onun ailə üzvləri multikulturalizm siyasətinin uğurla həyata keçirilməsində bilavasitə iştirak edirlər. Onlar bu məqsədlə həm ölkə daxilində, həm də xaricdə müxtəlif din və mədəniyyət xadimləri ilə görüşlər keçirirlər. Məsələn, 2012-ci ilin noyabr ayında Böyük Britaniya parlamentində Azərbaycanın dinlərarası tolerantlıq modeli müzakirə edilmişdir. Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevanın iştirak etdiyi konfransda dinlərarası dialoq sahəsində məhz Azərbaycan modelinin Avropada tətbiqi məsələsinin xüsusi önəm daşıdığı qeyd edilmişdir [17]. 2015-ci ilin mart ayında isə Vatikana rəsmi səfəri çərçivəsində Prezident İlham Əliyevin və xanımı Mehriban Əliyevanın Roma Papası Fransisklə və Vatikanın dövlət katibi kardinal Pietro Parolin ilə geniş tərkibdə görüşü olmuşdur. Görüşdə Azərbaycanda bütün dinlərə münasibətin yüksək səviyyədə olduğu, müxtəlif dini icmalar arasında qarşılıqlı anlaşma və etimad mühitinin hökm sürdüyü bildirilmiş, Azərbaycanda multikulturalizmin yaxşı ənənələrinin olduğu diqqətə çatdırılmışdır. Bu sahənin inkişafına xüsusi diqqətin göstərildiyi, ölkəmizdə sabitliyin və qarşılıqlı anlaşmanın yüksək səviyyədə olduğu vurğulanmışdır [18].

Ölkə rəhbərliyi müxtəlif din və məzhəblərin, etnik qrupların Azərbaycançılıq məfkurəsi ətrafında sıx birləşərək respublikamızın dünyanın mütərəqqi dövlətləri sırasında ön cərgədə olmasını təmin etmişdir. Bu uğurlu siyasətin nəticəsidir ki, Yaxın Şərqin bir çox ölkəsində dini zəmində münaqişələrin olmasına baxmayaraq, Azərbaycanda müxtəlif müsəlman və qeyri-müsəlman dini icmaları dinc birgə yaşayır və fəaliyyət göstərirlər [19]. Qeyri-müsəlman dini icmalarının Azərbaycanda fəaliyyəti üçün həm qanunvericilik, həm də dini mühit baxımından normal şərait mövcuddur. Dini icmaların qanunvericiliyə uyğun ədəbiyyat idxal etmələri və ölkədə nəşr etdirmələri mümkündür. Bunlarla yanaşı, Bakıda katolik kilsəsi tikilmiş, Azərbaycanla Vatikan arasında katolik kilsəsinin hüquqi statusuna dair saziş imzalanmış, Lüteran kilsəsi dövlət hesabına təmir olunmuş, Qax rayonunda gürcü pravoslav, Qəbələ rayonunun Nic qəsəbəsində Alban-udi, Bakıdakı rus-pravoslav kilsələrində bərpa işləri aparılmışdır. Eyni zamanda, dünyanın nüfuzlu xristian mərkəzlərinin rəhbərləri, o cümlədən mərhum Roma Papası II İohan Pavel, mərhum Moskva və Ümumrusiya patriarxı II Aleksi və indiki patriarx Kirill, Konstantinopol Patriarxı II Varfolomey, Gürcüstan katolikosu II İlya, Roma Papası I Fransisk Azərbaycana səfər etmiş və ölkəmizdə xristianlara göstərilən münasibəti yüksək qiymətləndirmişlər. Yuxarıda qeyd olunan faktlar Azərbaycanda dini tolerantlığın yüksək olduğunu, dövlətin bu sahəyə diqqətini və xristianların ölkədə öz etiqadlarına uyğun sərbəst yaşadıqlarını bir daha təsdiqləyir.

Azərbaycanda yəhudi icmaları da fəallaşıb, beynəlxalq yəhudi təşkilatları ilə əlaqələrini möhkəmlədib, öz dini məktəblərini, mədəniyyət mərkəzlərini, cəmiyyətlərini, qəzetlərini yaradıblar. Azərbaycandakı yəhudi diasporu öz yəhudi ənənələrini qoruyub saxlamaq, sinaqoqlara yardım göstərmək və müxtəlif mədəniyyət tədbirləri keçirməklə məşğuldur.

Əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulan və bu gün Prezident İlham Əliyevin davam etdirdiyi bu uğurlu siyasət müsəlman ölkəsi olan Azərbaycanın digər mədəniyyət mənsublarının da rahatlıqla yaşayıb fəaliyyət göstərdiyi ümumi bir vətən olduğunun nümunəsidir. Lakin təəssüf ki, günümüzdə dinin siyasiləşdirilməsinə, təhrif edilərək radikalizmə istiqamətləndirilməsinə və ondan təzyiq vasitəsi kimi istifadəsinə meyllər artmaqdadır. Öz din qardaşını kafir adı altında qətlə yetirən təkfirçi cərəyanlar, o cümlədən dindən, məzhəbdən siyasi alver məqsədilə istifadə edən bəzi xarici dairələr İslamın mənəvi dəyərlər sistemini yanlış əks etdirən nümunələr kimi qarşımıza çıxır. Bəzi Yaxın Şərq ölkələrində radikal, ekstremist "müsəlmanlar" tərəfindən öz dindaşlarına və qeyri-müsəlmanlara qarşı edilən təzyiqlər, onların qətlə yetirilməsi, ibadətxanalarının dağıdılması həm İslam məntiqinə, həm də Qurana ziddir. Bu kimi yanlış nümunələr bəzi Avropa ölkələrində islamafobiyanın, dinc müsəlmanlara qarşı zorakılıq meyillərinin artmasına səbəb olur. Halbuki "Mədinə vəsiqəsi"ndə olduğu kimi, İslam peyğəmbərinin müsəlmanlarla sülh şəraitində yaşayan yəhudi qəbilələrinə və xristianlara qarşılıqlı hörmət prinsipi ilə yanaşması, əhli-kitab mənsublarının cənazə mərasimlərinə hörmət göstərməsi müsəlmanlar üçün nümunə olmalıdır [20]. Belə problemlərin həlli yolu isə ilk növbədə müsəlman ölkələrində dini maarifçilik, dini islahatçılıq metodlarının tətbiqi və dünyaya Azərbaycan modelinin göstərilməsi ilə reallaşa bilər. Prezident İlham Əliyevin dediyi kimi, "təhsil radikalizmə qarşı başlıca qarantdır" [21]. Odur ki, dini radikalizmlə və xurafatçılıqla mübarizənin ideoloji yolu dini maarifçilik, tolerantlıq və mütərəqqi milli din xadimlərimizin əsərlərinin təbliği olmalıdır. Cənab Prezident İlham Əliyevin göstərdiyi kimi, "İslam sülh dinidir. Bizim milli və dini dəyərlərimiz bütün məsələlərin həllinə məhz bu cür sülh yolu ilə yanaşma tələb edir" [22]. Aydındır ki, İslamın "terrorçu" formasında təqdim edilməsi müəyyən xarici qüvvələrin də marağına və müsəlman dünyasının təriqətlər, məzhəblər savaşı burulğanında qərq olunması məqsədinə xidmət edir.

Bu istiqamətdə mütərəqqi-milli din xadimlərinin fəaliyyətinin öyrənilməsi 70 il rəsmi dinsizlik təbliğatı altında yaşayıb həqiqi dini dəyərlərdən bixəbər olan bəzi gənclərimizin təkfirçi, məzhəbçi dini sektaların təsiri altına düşməsinin qarşısının alınmasında böyük rolu olacaq. Məsələn, Qazı əl-Bakuvi kimi din xadimlərimizin təbliği müasir dövrümüzdə Yaxın Şərqdə gördüyümüz təkfirçi cərəyanlara və dini radikalizm meyllərinə qarşı həqiqi bir panzəhər kimi çıxış edə bilər. Şeyxülislam Allahşükür Paşazadənin Quranın "əl-Bəqərə" surəsinin 208-ci ayəsinə istinadla dediyi kimi, "Quran həmişə ifratçılıqdan uzaq olmağa çağırmış və göstərmişdir ki, "Hamınız sülhə girin..." [23].

Azərbaycan hökumətinin dinlərarası və mədəniyyətlərarası dialoq siyasəti gənclər üçün bir nümunə olmalıdır. Onlar da dini maarifçilik və tolerantlıq məsələsinin təşkilində aktiv rol oynamalı və fəallığı ilə seçilməlidir. Prezident İlham Əliyevin ötən il keçirilən V Bakı Beynəlxalq Humanitar Forumunda dediyi kimi – "Bizim tariximiz multikulturalizm əsasında qurulubdur. Düzdür, multikulturalizm bir anlayış olaraq yeni bir ifadədir, ancaq bu, həmişə Azərbaycanda olub" [24]. Dövlət başçımız öz çıxışında, həmçinin Azərbaycanın bütün dünya dinlərinə, hətta Ermənistanla müharibə vəziyyətində olmasına baxmayaraq, erməni kilsəsinə qarşı da tolerant münasibət bəslədiyini vurğulayaraq demişdir: "Bakının mərkəzində erməni kilsəsi var. Biz o kilsəni bərpa etmişik. İndi o kilsədə erməni dilində 5

mindən çox kitab saxlanılır ” [24]. Qeyd edək ki, Ermənistanda Azərbaycan məscidlərinin məhv edilməsinə müqabil dövlətimizin bu addımı xalqımızın multikultural dəyərləri necə mənimsədiyinin sübutudur. Azərbaycan gəncliyi bunu nümunə almalı və hökumətin etimadına layiq olaraq bu sahədə yüksək fəallıq göstərməlidir. Ölkəmizdə bu sahədə gənclər arasında dini, milli dözümlülük, tolerantlıq və dialoq işinin inkişaf etdirilməsi ən aktual məsələlərdən biridir.

## ƏDƏBİYYAT


1. www.president.az/articles/19563 // İlham Əliyev BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumunun rəsmi açılışında iştirak edib
2. http://www.anl.az/down/meqale/paritet/2010/dekabr/148175.htm // “Dünyanın ən müxtəlif ölkələrindən Atəşgaha ziyarətə gəlirdilər”
3. http://kayzen.az/blog/t%C3%BCrkl%C9%99r/484/x%C9%99z%C9%99r-xaqanl%C4%B1%C4%9F%C4%B1.html // Türklərin tarixi. Xəzər xaqanlığı
4. http://azerbaijan.az/_GeneralInfo/_TraditionReligion/_traditionReligion_a.html // Dinlərin tarixi
5. Məmmədli H. Qafqazda İslam və şeyxülislamlar. Bakı: MBM, 2005.
6. Məktubat // “Əkinçi” qəz., 1876, 11 iyun.
7. əl-Bakuvi Hacı Mirməhəmməd Kərim. Kəşfül-həqayiq. 3 cilddə. Transliterasiya edən: Əli Fərhadov. Bakı: İpəkyolu nəşriyyatı, 2014.
8. http://www.azadinform.az/news/a-83595.html // Fərhadov Ə. Dinlər, təriqətlər və məzhəblər savaşına son: Quran İslamı
9. Əl-Bakuvi Mir Məhəmməd Kərim Mircəfər. Kəşfül-həqayiq. 3 cilddə, III cild. Tiflis: 1906.
10. http://leyli-mejnun.musigi-dunya.az/az/sonoteka_az.html // Üzeyir Hacıbəyovun “Leyli və Məcnun” operası
11. Keykurun N. Nağı bəy Şeyxzamanlının xatirələri və İstiqlaliyyət fədailəri. Bakı: 2007.
12. http://axc.preslib.az/az_a3.html // Azərbaycan Xalq Cümhuriyyəti
13. http://az.wikipedia.org/wiki/Bak%C4%B1#sitat_qeyd-bakucity.az-50 // Bakı
14. http://tumib.az/?p=256 // Fərhadov Ə. Heydər Əliyev və Azərbaycançılıq məfkurəsinin elmi, tarixi qaynaqları
15. http://www.president.az/azerbaijan/constitution // Azərbaycan Respublikasının Konstitusiyası
16. http://azertag.az/xeber/Medeniyyetlerarasi_dialoqun_teskilinde_Azerbaycan_numunesi-194514
17. http://azertag.az/xeber/Boyuk_Britaniya_parlamentinde_Azerbaycanin_dinlerarasi_tolerantliq_modeli_muzakire_edilmisdirHeyder_Aliyev_Fondunun_vitse_prezidenti_Leyla_Aliyeva_konfransda_istirak_etmisdir-192074?device=Desktop
18. http://president.az/articles/14505
19. http://www.scwra.gov.az/pages/92/?
20. http://palitranews.az/news.php?id=31455 // Fərhadov Ə. İslamda mənəvi dəyərlər və müasirlik
21. http://news.lent.az/news/186329 // Azərbaycan prezidenti: “İŞİD Yaxın Şərqdə həyata keçirilən siyasətin nəticəsidir”
22. http://azeritimes.az/index.php/az/texn/item/4346-ilham-aeliyevin-rossiya-24-ae-musahibaesi-video/4346-ilham-aeliyevin-rossiya-24-ae-musahibaesi-video
23. Şeyxülislam Allahşükür Paşazadə. Qafqazda İslam. Bakı: Azərnəşr, 1991, 224 səh.
24. http://azertag.az/xeber/V_Baki_Beynelxalq_Humanitar_Forumu_cemiyyetin_hansi_istiqametde_hereket_etdiyini_anlamaga_imkan_veren_dunya_miqyasli_mekandir-1005601 // R.Mehdiyev. V Bakı Beynəlxalq Humanitar Forumu cəmiyyətin hansı istiqamətdə hərəkət etdiyini anlamağa imkan verən dünya miqyaslı məkandır

Али Фархадов

## АЗЕРБАЙДЖАНСКИЙ ПРИМЕР МУЛЬТИКУЛЬТУРАЛИЗМА


АННОТАЦИЯ

В статье рассказывается что, мультикультурализм служит взаимному обогащению культур, религий и языков, мирному сосуществованию народов в глобальном мире. Азербайджан исторически был родиной мультикультуральных ценностей, иначе говоря родиной мира, диалога между религиями и культурами, толерантности.

В многотысячелетней истории азербайджанского народа никогда не наблюдалось серьезных противоречий между представителями проживавших здесь конфессий, религиозных толков и национальностей. В Азербайджане всегда рядом друг с другом действовали храмы огнепоклонников, мечети, церкви и синагоги. Тем самым автор выделяет, что он является уникальным образцом для других стран мира.


Ali Farkhadov

## AZERBAIJANI EXAMPLE OF MULTICULTURALISM


ABSTRACT

The article tellls that multiculturalism cultivates interreligious, cultural and multilingual coexistence, mutual enrichment and ensures an environment of peace and security for ethnic groups living side by side. Historically, Azerbaijan for centuries has been known as the land of multicultural values with long-standing traditions of tolerance, interreligious and cultural mutual coexistence of peace and dialogue.

Numerous ethnic and religious groups residing in Azerbaijan through the whole its history have never experienced any national and religious discrimination. The author underlines that Azerbaijan is a unique model for peaceful coexistence of various religious confessions with its fire-temples, mosques, churches and synagogues located in the country being an example to the world in regards to tolerance.

# SÜLH VƏ HƏMRƏYLİYƏ APARAN YOL – DİALOQ


***Şölət ZEYNALOV,***
*AMEA-nın Fəlsəfə İnstitutunun*
*Dinşünaslıq və mədəniyyətin fəlsəfi*
*problemləri şöbəsinin elmi işçisi,*
*fəlsəfə üzrə fəlsəfə doktoru,*
*sholet@mail.ru*



***AÇAR SÖZLƏR:*** *dialoq, din, tolerantlıq, multikulturalizm, sivilizasiya, vəhdət.*
***КЛЮЧЕВЫЕ СЛОВА:*** *диалог, религия, толерантность, мультикультурализм, цивилизация, единство.*
***KEY WORDS:*** *dialogue, religion, tolerance, multiculturalism, civilization, unity.*


Fəlsəfə tarixin ən qaranlıq dövrlərində belə, varlıq, insanlıq və bəşəriyyətin xoşbəxtliyi uğrunda mübarizədə həmişə özünü fəda etməyi bacarmışdır. Fransız mütəfəkkiri Volter yazırdı: "Fəlsəfə heç vaxt dövlətə ziyan gətirməmişdir" [1, s. 686]. Bu anlamda biz ümid edirik ki, müasir dünyada baş verən problemlərin dialoq və konsensus yolu ilə həll olunmasında, "varlığın açılması prosesində" [2, s. 696] məhz fəlsəfə digər sahələrlə, o cümlədən dinlə dialoq və əməkdaşlığa cəhd edərək, problemlərdən çıxış yolunu – sülh və anlaşmanın paradiqmasını tapacaqdır. Alman filosofu K.Yaspers tarixi faktlara söykənərək din və fəlsəfənin tarixən ortaq məxrəc ətrafında, həm qarşılıqlı mübarizədə, həm də gah məcburən, gah da həqiqətin izahı baxımından dialoqda olduğuna istinad edərək yazırdı: "Fəlsəfə və din əksliyindən kənarda heç bir mövqe ola bilməz. Bizdən hər biri bu qütblülükdə onlardan birinin tərəfindədir və öz təcrübəsinə malik olmayaraq, o birinin mahiyyətindən bəhs edir" [2, s. 636]. Daha sonra filosof fəlsəfə ilə din arasındakı münasibətlər haqqında yazırdı: "Fəlsəfə üçün din düşmən deyil, ona xeyli dərəcədə aidiyyəti olan və ondan narahatçılıq doğuran bir məfhumdur" [2, s. 637].

K.Yaspersin də etiraf etdiyi kimi, "Qərb fəlsəfəsi onu nəzərə almaya bilməz ki, Nitsşeyə qədər heç bir böyük filosof Bibliyanı əsaslı surətdə bilmədən filosofluq etməmişdir" [2, s. 662]. Şərqə Qərb kontekstindən baxdıqda isə qərbli filosoflarin qeyd etdiyi kimi, müsəlman şərqinin fəlsəfi fikir sahiblərinin də əksəriyyəti İslamı dərindən bilmədən filosofluq etməmişdir. Ümumiyyətlə, bütün müsəlman mədəniyyətinin fəlsəfi fikri demək olar ki, İslam dininin orbiti ətrafında formalaşmışdır. Lakin belə bir tarixi situasiyaya baxmayaraq, əksər məqamlarda, tarixən müxtəlif dini dünyagörüşlərdən fərqli olaraq, bütövlükdə "fəlsəfi mədəniyyətlərin qarşılıqlı fəaliyyət mexanizmi dünyanın bir obrazdan başqasına ziddiyyətli keçid prosesini dialoq və əməkdaşlıq şəraitində dialektik yanaşma ilə nəzərdən keçirmiş" və izah etmişdir [3, s. 5]. Qeyd olunan dialektik yanaşma isə daima fəlsəfə ilə din arasında müəyyən anlaşılmazlığa, qısqanclığa yol açsa da, onların hər ikisi, hətta daima qarşılıqlı ixtilafda və bəzən ittifaqda olsalar da – "din və fəlsəfə"

birmənalı törəmələr deyil, müqayisəli araşdırmada biz onlardan iki dayaq nöqtəsi kimi çıxış edə bilərik" [2, s. 636]. Bu və ya digər konseptual yanaşmalar onu göstərir ki, din ilə fəlsəfə dünyanın izah olunması, bəşəri varlığın açılması prosesində tarixin və müasir dünyanın ən unikal, fenomenoloji aspekti, iki müxtəlif, müəyyən məqamlarda isə oxşar məhvəri kimi daima aktuallıq kəsb etməkdədir. Bütün bunlara baxmayaraq, dünyanı təkcə fəlsəfə və din qarşıdurması kimi izah etmək heç də varlığın izah olunması prosesini özündə tam ifadə edə bilmədiyindən başqa aspektlərin, başqa mənbələrin də olduğunu məqsədəuyğun hesab etmək zəruridir. Eyni zamanda, həmin sahələrin hər birinə müxtəlif kontekstdən yanaşdıqda birbaşa *fəlsəfəyə*, o cümlədən *dinə* aidiyyəti də inkaredilməz faktdır. Aşağıda ən qısa şəkildə bu anlayışlara toxunmağa cəhd edək.

Müasir dövrdə bir sıra qlobal problemlərin, ontoloji, qneseoloji, antropoloji və tarixi aspektlərinə nəzər saldıqda, burada baş verən fundamental ziddiyyətlərin kökündə şüurdan qaynaqlanan, həmçinin varlığın mahiyyətindən əmələ gələn müxtəlif dinamik, aktiv və passiv təzahürlərin dayandığını görürük. Bu təzahürlərin təməlində başlıca yeri şüur və ümuminsan təfəkkürü, oradan doğan gerçəkliklər tutsa da, burada tarixilik, etnik, etik problemlər, dini dünyagörüşü, məzbəbçilik və özündə hər cür "müasir xurafatı" ehtiva edən siyasi-ideoloji-dini təəssübkeşlik, tarixi proses nəticəsində meydana çıxmış ifrat millətçilik, coğrafi mənsubluq və s. kimi anlayışların daha fundamental ziddiyyət qismində çıxışını xüsusi qeyd etməliyik. Öncə belə bir fikri ifadə etmək yerinə düşərdi: problemlərdən çıxış yolunu insanlıq hər şeydən əvvəl məhz fəlsəfi, elmi, o cümlədən dini sağlam dialoji təfəkkürə apelyasiya edərək tapa bilər.

Tarixi tendensiyanı elmi-fəlsəfi və s. ədəbiyyatlarda hər bir tədqiqatçı və ya mütəxəssis öz təmsil etdiyi kontekstdən – tədqiqat sahəsinin xarakterinə uyğun olaraq müxtəlif metodoloji yanaşmalardan çıxış edərək təfsir etməyə (elmi, fəlsəfi, coğrafi, milli, dini və s.) çalışsa da, həm Şərqin, həm Qərbin humanizm, birgəyaşayış, dialoq və vəhdətə apelyasiyaya istiqamətlənmiş bir sıra intellektual yaradıcı elitasının ümumiliyi ifadə edən fikri belədir: "epoxa xəstədir", "humanizmə də artıq etimad yoxdur" [2, s. 316], "müasir insanın taleyi kədərli və faciəlidir" [4, s. 107], "intihara doğru gedən" [5, s. 77], "şizoid cəmiyyət" və s. tüğyan etməkdədir. Digər tərəfdən də ən qorxuducu hal budur ki, dünyada artıq belə bir sual formalaşmaqdadır: "artıq heç kim *"nə üçün"* sualına cavab verə bilmir" [6, s. 42]. Digər tərəfdən, kimlər üçünsə "qarşıdurmalar əlverişli olduğundan qaragüruhun ağalıq etdiyi dövr" [6, s. 43] hətta beynəlxalq sferada özünə elə güclü tərəfdarlar tapıb ki, nihilizmin, aqressivliyin və absurdizmin kütləviliyindən söhbət açmaq heç də təəccüb doğurmur. Həqiqətən də, tarixən olduğu kimi, müasir qloballaşan dünyada da *"tarixin yaratdığı yaxşılara varislik"* adı uğrundakı mübarizələr kontekstində mədəniyyətlər, dinlər və sivilizasiyalararası münasibətlərdəki "hər şeyin yaxşısına" üstünlük iddiaları əsas ziddiyyət qismində daha aktiv çıxış etməkdədir. Başqa formada desək, tarixiliyin əsas sivilizasion məhvərinə – tarixinə, mədəniyyətinə, daha "üstün və müqəddəs dininə", daha çox qədimiliyinə, və s. total, həm də ki, eyforik inamlar, yeni mif yaratmalar (məs. ermənilərin Qafqaza gəlmə olduqları halda bütün ətraf qonşulara torpaq və s. iddiaları fofmasında), "varislik" iddiaları və s. həm müasir insanın, həm müasir sivilizasiyanın əsas problem ocağı kimi çıxış etməkdədir. Ən dəhşətlisi odur ki, sivilizasiyanın belə absurd yarışında "Nitsşenin insan ölməsi kimi sezmələri gerçəkləşir, həyatda obyektivizm, subyektivizm, maddiyyat mənəviyyat üzərində hegemonluq edir, insan obyektlər içərisində obyektə çevrilir" [7, s. 10].

Digər tərəfdən də, insanın təbiətindən gələn instinktlərini, iqtisadi, siyasi və digər müxtəlif yaşamaq uğurunda mübarizədən qaynaqlanan maraqlarını, hətta gündəlik qayğılarını da, əgər bu “qaynayan qazana” biz əlavə edəriksə mənzərənin ontoloji, antropoloji və qneosoloji aspektindəki əbədi “həllolunmazlıqların ”, “xəstəliyin” nə qədər fundamental olduğunun bir daha şahidi olarıq. Yaxud belə bir şəraitdə, biz tarixin, ümumiyyətlə, lokal sivilizasiyalar tarixinin mahiyyətinin, həqiqi mənasının, haradan gəlib, haraya getməsinin dəqiq, mükəmməl paradiqmasının tam aydınolunmazlığı səbəbindən, ya hər şeylə barışmalı, ya hər şeyə qarşı çıxış etməli, ya da orta yol tutmağa bu və ya digər şəkildə əbədi məcbur oluruq. İfrata varmadan deyə bilərik: sanki “bir vaxt xoşbəxtlik mənbəyi kimi çıxış edən elm indi insanın bədəni və ruhu üzərində zorakılığa cevrilmiş, onu ümiddən, imkandan və gələcək həyatının məqsədindən məhrum etmişdir” [7, s. 12]. Daha canlı və gerçəkliyi özündə ifadə edən başqa bir misal: bütün bu ziddiyyətlər fonunda okeanların üzərindən uçub gələrək Yaxın Şərq, bir sıra Asiya və Afrika ərazilərində partlayan qanadlı raketlər, eyni zamanda “ideoloji mərmilər” müasir elmin və “əcaib demokratiyanın” ən son nailiyyətlərindən istifadə etməklə insan faciəsini son dərəcə eybəcərləşdirdiyindən nəinki elmə, hətta az qala insanlığa, onun sivilizasiya və mədəniyyət adına yaratdıqlarına nifrəti artırmaqdadır.

Təəssüf ki, ümid qapısı və müasir dünya idarəetmə sistemi üçün ən unikal ortaq məxrəc saydığımız “indiki üzdəniraq demokratiya öz köhnə idarəçilik formalarından yalnız onunla fərqlənir ki, minib sürdüyü atlar yenidir; yollar və arabalarsa əvvəlkilərdir” [6, s. 562]. Qısa ifadə etsək paradoks alınır: deməli, elm və demokratiya belə bir mürəkkəb epoxada qurmaq, rifahı təmin etmək, dinlər və mədəniyyətlərarsaı əlaqələri möhkəmləndirmək əvəzinə, “liberal demokratiya”, “dinin xilası” və s. ideologiya pərdəsi altında; elmin nailiyyətlərindən istifadə edərək insanları elmə, sekulyar cəmiyyətə və maarifə deyil, əslində din adı altında xurafata, geriliyə, aqressiyaya təhrik etməkdədir. Yaxud belə bir dövrdə ən qorxulu hal odur ki, hətta filosofların fikrincə, “müasir insan kimi fəlsəfə də özünün təbii əsaslarını itirmişdir. Elmin nailiyyətləri fəlsəfənin vəziyyətini xeyli ağırlaşdırmışdır” [7, s. 89]. Halbuki həm fəlsəfə, həm din, həm də humanizm və dialoq kontekstindən baxarkən elmin yaranması, ən son nailiyyətləri, hətta ifrat dərəcədə “obyektivliyə aludəçilik bəşəri mövcudluq üçün zəruri olan elementlərin (humanizmin, dialoq fəlsəfəsinin, multikulturalizmin və s. Ş. Z.) unudulması demək deyildir” [7, s. 89].

Başqa bir kontekstdən baxdıqda isə istənilən halda biz bütün bu gerçəkliklər içində K.Yaspersin təbirincə desək, “ya fəlsəfəni, ya da ki dini”, coğrafi, texnogen və aqrar anlamda isə ya Qərbi, ya da Şərqi təmsil etməyə, proseslərin *aktoruna çevrilməyə* məcbur oluruq. Bu isə daima tərəflər arasında mübahisələr yaratmasına baxmayaraq, az da olsa, sevindirici başlıca məqam da vardır: həm tarixən, həm də müasir qloballaşan dünyada fəlsəfə, elm, o cümlədən ifrata varmayan, radikallığı və xurafatı təbliğ etməyən din təmsilçilərinin son anda qurucu zəkaya apelyasiyası bütövlükdə dünyada bir işıqucunun olmasına ümidləri daima özündə saxladığından varlıq hələ ki, “yoxolma” təhlükəsindən xilas olmaqdadır. Lakin bu da faktdır ki, dünyanı daima gərginlikdə saxlamaqda olan problemlər – aclıq, terrorizm, irqçilik, ifrat eqosentrizm, atom təhlükəsi, müharibələr, dini radikalizm, ekoloji böhranlar, hərbi münaqişələr və s. kimi problemlər tendensiya şəklində, silsilə ilə artdığından təkcə ümiddən danışmaq, zamanın yalnız müsbət tendensiyalarından bəhs etmək də doğru olmazdı.

(Başqa sözlə, yuxarıda sadalanan problemlərlə bərabər dünyada erməni terrorizmi kimi bir qeyri-insani, antibəşəri, antimultukultural şəbəkələrin mövcudluğu durduqca yalnız ümiddən danışmaq sadəcə həm absurd, həm də qeyri-real görünərdi.) Belə gedişatla biz dünyada Xolokost, Xocalı, Suriya və s. bu kimi fəlakətlərin təkrarına daima hazır olmalıyıq. XX əsrin ortalarında Mahatma Qandi dünyanı bürüyən, insan mənini və onun ruhunu aqressiyada boğmağa hesablanmış antibəşəri və dağıdıcı proseslərə xitabən deyirdi: “Atom bombasının Xirisomanı məhv etdiyini eşitdiyim zaman əsla təəccüblənmədim. Öz-özümə dedim: “Əgər dünya qeyri-aqressivlik, “ahimsa”[1] dəyərini qəbul etməzsə, birmənalı şəkildə intihara doğru yönələcəkdir” [5, s. 77].

Başqa sözlə, pis odur ki, biz müasir sivilizasiyanın bütöv mənzərəsinə nəzər yetirdikdə görürük ki, təməlini bütövlükdə ictimai inkişafın və tarixi dinamikanın müxtəlif qatlarından – həm “tarixöncəsi”[2], həm də tarixdən alan bu mürəkkəb problematikalar elmi-texniki tərəqqi və informasiya əsrinin az qala hər bir coğrafiyanı istəyimizdən asılı olmayaraq qloballaşdırdığı, mədəni və dini identikliklərini bir-birilə qovuşdurduğu, toqquşdurduğu zamanda da son dərəcə gərgin və psixoloji basqıda saxlamaqla bütövlükdə onun orbitini də təşkil etməyə cəhddədir. Digər tərəfdən də qloballaşma fonunda mədəni identikliklərə olan basqılar, həm müasir reallıqda “dinlərin dirçəlməsi”, həm də siyasi-coğrafi arenasında “XX əsrin son onilliyi dünyanın işlərində tektonik yerdəyişmələrlə əlamətdar oldu” [8, s. 6]. Hətta bəzi mütəxəssislərin qiymətləndirmələrinə görə, bu siyasi, ideoloji və coğrafi “tektonik” yerdəyışmələrdə bir qütbün çökməsi nəticəsində “Avrasiyadan olmayan fövqəlbəşər dövlət tarixdə ilk dəfə Avrasiya dövlətləri arasındakı münasibətlərində həm baş arbitr, həm də dünyanın ən qüdrətli dövlətinə çevrildi” [8, s. 6]. Lakin bu “arbitr”liyin və fövqəlliyin liberal demokratiyaya arxalanan yeni yaratdığı “hər şeyi özündə ehtiva etməyə” [2, s. 122] hesablanmış müasir Qərb paradiqmasının, şərtlərinin gətirdiyi rifah və ümid fonunda, həmçinin biz tarixi ziddiyyətlərin həlli istiqamətlərində cəhdlərinin olmasıyla yanaşı, aydın olmayan, az qala, “doqmalaşmış” şübhəli əsasların olduğunu da qeyd etməyə məcburuq. Yaxud pis odur ki, hansı hadisələrin baş verməsindən asılı olmayaraq, məsələn, bir sıra qərb mütəxəssislərinin, o cümlədən Z.Bzejinskinin fikrincə, “bu da həyati dərəcədə vacibdir ki, siyasi arenada Avrasiyada hökmranlıq və deməli, Amerikanı təhdid edə biləcək rəqib peyda olmamalıdır” [8, s. 13]. Belə bir şəraitdə isə nəyin ümid, nəyin fəlakət olduğunu həqiqətən də ayırd etmək nəinki sadə insan, hətta mütəxəssislər üçün də o qədər asan olmadığı bir daha üzə çıxır.

Ancaq hər halda dünyada baş verən hər bir ziddiyyətin yalnız birmənalı şəkildə Qərbin və ya Şərqin ayağına yazılmasının da əleyhdarı kimi, qeyd etmək istərdik ki, bütövlükdə bu gün insan Məni, həm siyasi, həm etik-mənəvi, həm dini və ruhi baxımdan son dərəcə böhrandadır. Bu böhranda Qərbin ifrat rasionalizmi, eqosentrizmi, pozitivizmi və s. ilə yanaşı, Şərqin yarırasional, yarımistik passiv alturizmindən qaynaqlanan fikir periferiyasına xas olan xüsusiyyətlərin – mistizmə meylli dini dünyagörüşün, xurafatın, “sınıq-salxaq” demokratiya cəhdinin günahı eyni çəkidə olmasa da, (elmi, texniki və s. üstünlük Qərbdə olduğundan onun bu mövzuda “günahı” daha çoxdur) eyni məzmuna (ruhsuzlaşmaya, total özgələşmələrə) xidmət hesab olunmaqla onların oxşarlıqları da xüsusi qeyd edilməlidir. Çünki belə bir vəziyyət

1 - Qeyri-aqresivlik, dözümlülük və tolerant olmaq
2 - İfadə tarixi bölgü və termin kimi alman filosofu K. Yaspersə məxsusdur.

bütövlükdə həm Qərbdə, həm də Şərqdə insanlararası münasibətdə özgələşməni, yadlaşmanı, başqalarının həyatına, varlığına biganəliyi son dərəcədə dərinləşdirir; fərdlər, cəmiyyətlər insanlığın ən yüksək ideallarından olan humanizmi, mərhəməti, qida və sevgini paylaşmaq instinktini, başlıcası ağıllı alturizm duyğusunu mexaniki olaraq itirir; belə duyğuların əvəzinə onlarda anlaşılmaz dərəcədə ifrat eqoizm, nihilizm ən yüksək səviyyədə özünü göstərir. Deməli, paradoks alınır: insan sivilizasiyanı öz içində "*həzm"* etdikcə, sivilizasiya da insanı özünün əşyaviliyinə çevirir. Belə halda "Mən" problemə çevirilir; məsələ belə qoyulur: Mən mövcuddur, ya yox?

Bəhs olunan problematikanın özəlliyi ondadır ki, yuxarıda toxunduğumuz aspektlərin hər biri müxtəlif silsilə ziddiyyətlərdən qaynaqlanaraq müxtəlif formada bir-birinə qarşılıqlı təzyiqdə və təsirdə olsa da, ən əsas təhdid obyekti kimi məhz o insanın özünü – Mənini və Ruhunu seçmişdir. Başqa sözlə, burada söhbət nə Qərbin "rasional – texnogen - kişi", nə də ki, Şərqin "aqrar-mistik qadın" ruhundan yox, bu müxtəlifliyi özündə birləşdirən "bütövdən" – bütöv insan "Mən"indən gedir; çünki, bu təsirlər müasir insanın ruhunda, onun "Mən"ində özünü neqativ yöndən göstərməklə yanaşı, onun həm mənəvi, həm ictimai-sosial, dini-dünyagörüşünü başqa aspektdən baxarkən "şizoid" duruma düşmüş ruhunu, bütövlükdə ekzistensional varlığını müəyyənləşdirdiyindən müasir epoxa "sarsılmış", "qürub edən", "xəstə" bir durumu xatırladır.

Hətta bütövlükdə XXI əsrin gen transplontasiyasına qədər inkişaf etmiş, nano-texnologiyalara qədər cilalanmış, kosmosun dərinliklərinə nüfuz etməyə cəhd edən və s. ən son elmi tərəqqisi təəssüf ki, müasir bəşəri varlıqda fundamental yox, hətta ən adi bir səviyyədə nikbinliyə əsaslar yarada bilmir. Başqa sözlə, müasir sivilizasiyanın "Məni" ilə insanın Məni bir-biri ilə həm vəhdət, həm də metaforik anlamda əksliklər təşkil etdiyindən "ekzotik" müasirlik belə təzadlı formanı ifadə edir: bütövlükdə epoxanın ruhunu təşkil edən bu ekstensiv və aqressiv "xəstə dinamika" qarşılıqlı münasibətlərdə son dərəcə gərginlik yaratmaqla, insanın insanla, sivilizasiyanın digər sivilizasiya ilə, bir dini-dünyagörüşün, digəri ilə ziddiyyətlilyini "həzmolunmazlığını" davam etdirir; yaxud belə bir hal müasir insanın ümumi "Mən"ində olan psixoloji sarsıntılarla birlikdə dünyanın mənzərəsini formalaşdırmaqdadır. Deməli, müasir "varlığın mənzərəsi – zamanın mənzərəsi..." [4, s. 107] və ya əksinə zamanın ümumi "siması" varlığın həqiqi müasir mənəvi simasıdır. Ancaq istənilən halda qeyd edək ki, filosoflar üçün bu problem şüur və gerçəklikdən qaynaqlanan əbədi fəlsəfi refleksiya, idraki axtarış və ya artıq "dini hüdudlardan kənara çıxan" [2, s. 662] bir fəlsəfi problematika; elm adamı üçün daha çox insan-təbiət və ondan əmələ gələn rasionallıq, koqnitivlik, pozitivizm və elmi mübarizə; müasir siyasətçi və politoloq üçün daha çox ideoloji və siyasi-tarixi təzahür, iqtisadçı və ya başqaları üçün ticari və bazar münasibətlərinin inkişaf prosesi; qərbli xristian personalistlər üçün "ilahi mənbədən ilahi məqsədə gedən yol"; ən əsası, hər iki qütbü təmsil edən dindar və din adamı üçün bu münasibətlər iman və etiqad anlamı – transsendentlik; sadə insan üçün yaşamaq və mövcud olmaq uğrunda mübarizə kimi çıxış etdiyindən dünyada baş verən həm antropoloji, həm də ontoloji mənzərəni tam ifadə etmək, onun həm mənəvi, həm humanistik və s. universal sxemasını təsvir etmək çətindir, yaxud sadəcə mümkünsüz görünür. Yaxud belə halda "söz" və "dil" şüur və idrakımıza adekvat olaraq varlığın həqiqi ekzistensional mahiyyətini ifadə edə bilmədiyindən insan "Mən"i tarixin labirintində çıxılmaz bir durumda

dövrü olaraq özünü itirmiş olur. Bütün bunlar isə onu deməyə əsas verir ki, belə bir vəziyyət "idrakın naməlum sferalarını tədqiq etmək ən qorxulu xəstəliklərə qalib gəlmək, yeni planet kəşf etmək və ya Kainatda yeni qayda müəyyənləşdirmək" [4, s. 294], ən nəhayət, varlığın mahiyyətini açmaq qədər son dərəcə çətin problematikadır.

"Ona görə də zaman necədirsə mən özümü elə istehsal..." [4, s. 107] etdiyimdən müasir dünya sivilizasiyasındakı problemlərə biz adekvat olaraq fəaliyyətimizi də konstruksiya etməklə uyğun olur, dünyanın antropogen və qneseoloji "mozaikasını" formalaşdırırıq. Bu mozaika isə özündə bütövlükdə tarixiliyi və insanın bütövlükdə varlığını konstruksiya etməklə onun ruhunu, mənəvi-etik aləmini və müasir "homo sapiens" səviyyəsini təyin etdiyindən həm keçmiş orada vardır, həm də gələcək bu orbitin təməlində mütəhərrik olaraq formalaşmaqdadır. İdrakda və gerçəklikdə ziddiyyətlərin təkrarı zərurət və reallıq görüntüsü yaratdığından tarix müsbət və mənfi anlamda həm özündə ictimai inkişafı, həm də daima, dönə-dönə, alman filosofu K.Yaspersin təbirincə desək, "həmdövürlülüyü", O.Şpenqlerin təbirincə isə desək, "paralelliyi" yaratmaqdadır. Daha başqa formada ifadə etsək, bütövlükdə müasir dünya sivilizasiyasında "zamana, deməli, tarixə biganə olaraq özünü yaratmağa çalışan müasir Mən artıq özünü Mən – xalis fərdilik kimi yarada bilmir" [4, s. 107].

Məzmun baxımından yanaşarkən görürük ki, həqiqətən də tarixin heç bir zaman kəsiyində, ümumiyyətlə, insan "Ruh"u və "Mən"i "zaman sıxlığı" və "məkan darlığı", informativ, psixoloji təhdid, təzyiq baxımından müasirliklə müqayisədə bu formada gərginlikdə olmamışdır; sanki insan artıq min illər ərzində mövcud olmuş ruhi varlğından qoparaq ya bioloji, yaxud texnogen bir mexanizmə çevrilməkdədir. Başqa sözlə, bütövlükdə bu problemlər kontekstində müasir sivilizasiyada hər şeydən əvvəl "ağlasığmaz şey baş verdi – maariflənmiş insan həqiqətdən uzaqlaşdı" [2, s. 691]. Bütün bu tendensiyanın bir sıra mənəvi və s. silsilə səbəbləri, ziddiyyətləri olmaqla yanaşı, qeyd edilməlidir ki, kütləvi olaraq "... müasirliyin ruhu maddiləşmiş, ateistləşmiş ruhdur" [4, s. 107]. Yaxud bu "şizoid" halına düşmüş ruhun qaynağı və özəyi, mübahisəli olsa da, qeyd edək ki, öz təməlini məhz tarixilikdə, ya da "tarix öncəsində" itirildiyindən ziddiyyətli dinamika tendensiya və ya "həmdövürlülük" həm müsbət, həm də daima mənfi xarakterlidir.

Qərb filosofu əsl panistorist A.Kamyu yazırdı ki, "müasir cəmiyyət məqsədlərini anlamır; eyni zamanda anlamır ki, nə üçün bir neçə rasionalist istisna olmaqla, müasir insanlıq tarixə bu qədər biganə münasibət bəsləyir" s. [4, s. 107]. Biz Kamyunun bu fikrindən belə bir nəticə hasil edə bilərik: özünü bəşər tarixinin labirintində itirmiş İnsan tarixə dönməklə, tarixi ziddiyyətlərə tənqidi yanaşmaqla, tarixə fəlsəfi cəhətdən apelyasiya etməklə orada öz itirilmiş Mənini və Ruhunu tapmalıdır. Yaxud müasir insanın Mənində və onun ruhunda baş verən ziddiyyətləri qeyd etməklə yanaşı, alman filosofu Yaspersin təbirincə desək: "Allahsızlaşma əslində heçliyə apardığı" [4, s. 107] kimi, müasir relyativ anlamda baş verən və dünyada bütün formalara nüfuz etməyi bacaran, bizə görə spekulyativ və məqsədli, ideoloji, siyasi "allahlaşma" əslində varlığın təməlini, ruhunu dağıtmaqdadır. Başqa sözlə, insan öz məqsədləri üçün dini ehkamlaşdıraraq ya xurafatın, ya da siyasətin alətinə çevirdiyindən, yaxud özünün söykənəcəyi başqa bir mənəvi bazadan – fəlsəfədən uzaqlaşdığından, o özünü hər iki – tarixi və ilahi mənəvi dayaqdan – həm dinin, həm də fəlsəfənin mahiyyətindən, dayaq bazasından məhrum etmişdir.

Bu, müasir insanın faciəsidir. O.Şpenqlerin təbirincə desək, bu, "biolojilikdir". Həmçinin belə bir situasiyada K.Yaspers "müasir insanın faciəsinin kökünü onun tərəfindən tarixin unudulması faktında görürdü. Mütəfəkkir sübut etməyə çalışırdı ki, tarix – "Məni yetişdirən məkan, onun söykənəcəyi – mənəvi dayağı, bazasıdır.... Yaxud tarixi unutmuş müasir Mən öz məqsədini itirmiş kimidir" [4, s. 107]. İnsanın daxili aləminə nüfuz etməyə cəhd edən A.Kamyu yazırdı: "Bu gün hamı tarixi idrakın imkanlarından ümidsiz hala düşmüşdür. Bu, müasir insanın bəlasıdır" [4, s. 107]. Düzdür, bu "ümidsizliyi" mənbə kimi, həm insanın instinktləri və mübahisəli tarixiliyi, həm tarixiliyi və onun simasını təşkil edən spekulyativ "dindarlığı" və ideoloji "allahlaşma"sı təşkil etsə də, əsl həqiqətdə, problemdən çıxış momentini yenə də tarixiliyin özündə axtarmaq lazımdır. Deməli, keçilmiş yol əksər məqamlarda İnsan üçün məlum olduğundan onu analiz edərək, ondan düzgün nəticələr çıxarmaq və gələcəyi düzgün əsaslar üzərində qurmaq mümkündür. Başqa sözlə, həqiqətən də "bizim indiki yaşamımız, keçmiş yaşamlarımızın təsiri altındadır. Səbəb-nəticə qanununa görə gələcək həyatlarımız da indiki həyatımızın təsiri altında olmalıdır" [5, s. 95]. Belə bir kontekstdən yanaşdıqda, müxtəlif yollar və seçimlər qarşısında qalarkən biz tarixi dialoji təcrübəyə əsaslanmaqla düzgün qərar verməyi bacarmalı, ən çıxılmaz situasiyalarda "yol ayrıcında qaldığımızda ən yaxşı yolu seçməliyik" [5, s. 95]. Bu isə özünü dərk edən, özündə başqasını, başqasında özünü görən dialoji idrakdan keçir.

Yuxarıda toxunulan problemlər bir daha bizə varlıq, insan və tarixin yaranması, tarixilikdə insanın yeri və rolu, tarixiliyin insan Mənini formalaşdırmaqda əhəmiyyəti barədə sualları yenidən verməyə təhrik etməkdədir. Yeri gəlmişkən, onu da qeyd etmək lazımdır ki, tarixilik deyərkən biz orada baş verənləri - imperiyaların dağıdıcı ekspansıyasını, tiraniyanın nüfuz uğrunda mübarizəsini, din adına baş vermiş insan qırğınlarını və s. xronoloji, siyasi, yaxud ideoloji baxımdan quru, bəsit mexanızm kimi deyil, fəlsəfi problematika kontekstindən ontoloji, antropoloji, qneosoloji və dini-fəlsəfi baxımdan "varlığın açılması" prosesi kimi müxtəlif metodlarla araşdırılmasını nəzərdə tuturuq. Yaxud hər hansı aspektdən yanaşdıqda müasir insanın Mənində və müasir sivilizasiyanın simasında biz tarixiliyi öyrənməyə cəhd edərkən oradakı tarixi təzyiqlərin, "travmaların" olduğunu qeyd etməyə məcbur olmalıyıq. Başqa sözlə, tarix yalnız tədqiqi, yaxud "zamana bəzək-düzək vurmaq" [7, s. 10]. baxımından səthi tədqiq edilməklə nə bizi, nə də müasir sivilizasiyanı xilas edə bilməz. Müasirlik bizə hər cür texnogen "xoşbəxtlik", rifah bəxş etsə də, biz yenidən bəşəriyyət üçün tarixi sualları aktuallaşdırmaqla yanaşı, dialoq, səbir, dözümlülük, tolerantlıq, multikulturalizm, humanizm, vəhdət, birgəyaşayış, etiqad, iman, anlamaq mədəniyyəti, insan ləyaqəti, qane olmaq bacarığı, kosmik zamanla müqayisədə insanın bioloji mövcudluq dövrdəki katastrofik vaxt fərqini və s. kimi anlayışları həm nəzəri, həm də praktik baxımdan yenidən dünyada aktuallaşdırmağa cəhd göstərməliyik. Bu cəhdin təməlini isə hər şeydən əvvəl dialoq anlayışı və dialoji təfəkkür təşkil etməlidir. Bəs dialoq nədir? Yaxud niyə məhz dialoq?

Bəşəri varlıq üçün dialoq anlayışı həm idrakda, həm də müasir münasibətlər sistemində, tarixilik, müasirlik və dünyanın gələcəyi baxımdan ən vacib şərt kimi çıxış etməklə yanaşı, müasir dünyada bəşəriyyətin öz varlığını qoruyub saxlamaq üçün daha mükəmməl paradiqma axtaran elmi, fəlsəfi və dini, bir sözlə, intellektual elita üçün ən universal açar rolunda çıxış edən bir anlayışdır. Yaxud bizə görə az qala bütün dünya tarixini, lokal sivilizasiyalar tarixini

özündə ehtiva edən tarixi ekspansionizm "post homo sapiens" insanı üçün harmoniyaya, dialoji ahəngə qarşı çıxan bir tarixi terminoloji anlayış kimi tarixin arxivinə atmalıdır. Başqa sözlə, ekspansionizm və dialoq anlayışları bu və ya digər şəkildə bir-biri ilə ziddiyyət təşkil etdiyindən ekspansionist ruha, dünyagörüşünə sahib olmaqla əsl dialoji idrakdan çıxış etmək sadəcə mümkün deyildir. Dialoq fəlsəfəsinin əsasını, məhz dialoqa apelyasiya edən, onun məzmununu təşkil edən idrak yalnız həqiqi dialoqa müvafiq ola bilər. Başqa sözlə, dialoq idrakı bir prosesi özündə ehtiva etdiyindən rus alimi M.M. Baxtinin təbirincə desək: "Hər bir ideya yaşamaq hüququnu, daha doğrusu, formalaşmasını, inkişafını, özünün sözdə ifadəsini və yeni ideyalar yarada bilmək qabiliyyətini yalnız başqa ideyalarla əsl dialoqlu münasibətə daxil olarkən əldə etmiş olur" [9, s. 147]. Qeyd edək ki, əsl həqiqətdə insanın fikri yalnız başqa bir insanın fikri ilə canlı əlaqədə və təmasda olduqda, o, əsl fikrə, yeni ideyaya çevrilmiş olur. Bu anlamda dialoq dedikdə hər şeydən əvvəl insanlar arasındakı ünsiyyət, dərketmə, fikir mübadilələri başa düşüldüyündən dialoqun fenomenoloji tərəfinə - idrakın ən dərin qatlarına, struktur elementlərinə diqqət yetirmək olduqca zəruridir [10, s. 52]. Qısa ifadə etsək: varlığı yoxluq yox, yalnız dialoji idraka apelyasiya etmiş başqa bir varlıq, qarşısında duran – "Öz"-ü, yaxud daxilindəki "Mən" i xilas edə bilər. Deməli, bütün dinlər universiumu təsbit etdikləri kimi, dialoji təfəkkür də varlığın bütövlükdə məzmununu formalaşdıran, həm də onu daim irəli aparan, katarsisi təşkil edən bir idrakı fenomendir. Bu fenomendən kənar olanlar isə boş və mənasızdır, ağlasığmazdır. Həmçinin müasir dinlər insanın mahiyyətini özündə birləşdirdiyindən, ehtiva etdiyindən onların əslində dialoqu, birbaşa varlığın İlahi mahiyyətilə dialoq deməkdir. Başqa formada desək, dinlərin hətta bir birini inkar etməsi son anda onların dolayısı ilə əslində başqasını təsdiq etməsi deməkdir.

Ona görə də dinlərarası dialoqlardan bəhs edərkən biz etiraf etməliyik ki, müasir dünyada mövcud olan həm səmavi dinlər, həm də digər dünya dinləri ümumilikdə universal bir ideyanı – universiumu və transsendentliyi, Tanrı, Əbədi Həqiqət anlayışını ifadə etməyə cəhd edirlər. Buna baxmayaraq biz tarixi tendensiyanı nəzərdən keçirərkən təəssüf ki, dinlərin bir çox hallarda öz məzmunlarından, kontekstdən çıxarıldıqlarının da şahidi oluruq. Onlar hər hansı xalqı, coğrafiyanı, sivilizasiyanı, hətta milliliyi və ya etnik dünyagörüşü və s. təmsil etdiklərindən tarixən biri-biri ilə daimi mübarizələrə, çəkişmələrə təhrik edilmişlər. Başqa sözlə, bu "yarışında" onların hər biri digərindən daha çox sahə və insan "əldə etmək" uğurunda rəqabətdə olmuşlar. Bu da təbiidir. Ancaq bütün bu mövcud, müxtəlif vəhdət və harmoniyaya istinad edən məzhəb görüşlərinə dialoji aspektindən baxarkən onların müxtəlif yollarla eyni mahiyyəti – həqiqət anlayışını ifadə etməkdə olduqlarını söyləmək heç də mübahisə yaratmamalıdır. Belə ki, tarixə ekskurs edərkən görürük ki, monoteist dinlərlə yanaşı, hətta tarixin ən "qaranlıq" dövrlərində "tanrının varlığına inanmayan məzhəblər belə, həqiqətin var olduğuna inanmışlar" [5, s. 97]. Müxtəlif vəhdət və harmoniyaya istinad edən məzhəb görüşlərinə yanaşı, hətta dünyada mövcud olan əksər fəlsəfi sistemlərin əslində dialoji aspektindən baxarkən müxtəlif yollarla eyni bir mahiyyəti ifadə etməkdə olduqlarını söyləmək də mümkündür. Ona görə də bəşəri varlığın mahiyyətində baş verən həm tarixi, həm də ki, müasir *antinomiyaların* tüğyanı kontekstində bütün bunlar nəzərə alınarsa, dinlərarası dialoqlar praktik və məzmun baxımından həm mədəniyyətlərarası, həm də sivilizasiyalararası dialoqların tərkib hissəsi kimi nəzərdən keçirilə bilər. Həmçinin onu da

qeyd etmək lazımdır ki, hətta dinlərarası dialoqun real praktikası və bu istiqamətdə qazanılan uğurları bəzi sivilizasiyalararası dialoqun təkmilləşdirilməsi üçün müsbət nümunə hesab edilə bilər [10, s. 59]. Çünki biz fəlsəfi kontekstindən yanaşarkən dünyada mövcud olan normalar sisteminin bir birini ideal şəkildə təkrar etməmələrini heç də hər hansı dinin problemi kimi deyil, bu problemin ümumilikdə varlığın mahiyyətindən əmələ gələn bir müxtəliflik kimi başa düşməkdəyik. Halbuki, belə bir durumda tarixə istinad edərkən fəlsəfənin dialoq fəlsəfəsindən çıxış edərək, insan və bəşəriyyətin varlığı naminə qarşılıqlı olaraq dialoq uğrunda fədakarlığını qeyd etməklə yanaşı, monoteizmin və digər dünya dinlərinin də əslində "hər birinin insana özgələrin iztirabını öz iztirabı kimi anlamağı – özünə rəva görmədiyini başqalarına da rəva görməməyi... və nəhayət, məhəbbət hissini..." [4, s. 224] aşılamağı təbliğ etdiklərini görürük. Bütün bunlar isə bizə aşağıdakı ümumiləşdirmələri aparmağa imkan verir:

1) Müasir dünyada normalar sisteminin hazırkı vəziyyəti tarixin heç bir dövrü ilə müqayisə olunmaz dərəcədə böhranlı bir vəziyyətdədir;
2) Qeyd olunan problematikadan çıxış momentini fəlsəfə və din dialoq fəlsəfəsinə apelyasiya etməklə təşkil edə bilər;
3) "Dialoq" anlayışı varlığın məzmunu və insan "Mən"inin "izahı", "açılması" baxımdan əvəzsiz bir fenomen kimi həm tarixi, həm də müasir bir katarsisdir;
4) Sivilizasiyalararası münasibətlərdə din amilinin müsbət rolu dialoqdan keçir;
5) Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin yeni ideya kimi irəli sürdüyü "Bakı Prosesi", "Azərbaycan Modeli", "Azərbaycan Multikulturalizmi" dialoq, humanizm, birgəyaşayış, vəhdət, sağlam eqoizm və rasional alturizmi özündə ehtiva etdiyindən, o müasir dünyanın problemlərdən çıxış momentini təşkil etməyə hesablanmış alternativsiz yeni bir paradiqmadır.
6) Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 2017 ci ili "İslam Həmrəyliyi İli" elan etməsi dünyada dinlərarası, məzhəblərarası münasibətləri vəhdətə istiqamətləndirən yeni bir ideyadır.

## ƏDƏBİYYAT


1. Вольтер. Философские сочинения. М.: 1988, 686 стр.
2. K. Yaspers. Tarixin mənası və təyinatı. Bakı: Zəkioğlu nəşriyyatı, 2008, 764 səh.
3. История современной зарубежной философии: компаративистиский подход. Спб.: 1997, 480 стр.
4. Fərman İsmayılov. İnsan "Mən"inin fenomenologiyası. Bakı: 2013, 310 səh.
5. Mahatma Qandi. "Bütün insanlar qardaşdır" // "Sivilizasiya və Maarifçilik" İctimai Birliyi, 2011, 246 səh.
6. F.Nitsşe. Hakimiyyət əzmi. Yolçu və kölgəsi. Bakı: Zəkioğlu nəşriyyatı, 2008, 588 səh.
7. Fərman İsmayılov. Müqəddəs od, yaxud fəlsəfənin fəlsəfəsi. Bakı: AzAtaM, Elm və təhsil, 2015, 544 səh.
8. Zbiqnev Bjezinski. Böyük şahmat taxtası. Bakı: Qanun Nəşriyyatı, 2015, 328 səh.
9. Бахтин М.М. Проблемы поэтики Достоевского. Москва: 1972, 434 с.
10. Ş.Zeynalov. Sivilizasiyalararası münasibətlər: problemlər və perspektivlər. Bakı: Oğuz Eli nəşriyyatı, 2014, 240 səh.

Шолят Зейналов

**ДИАЛОГ - ПУТЬ К МИРУ И СОЛИДАРНОСТИ**

РЕЗЮМЕ

В статье в научно-философском контексте исследуются причины возникновения проблемы «диалога». С точки зрения автора только посредством апелляции к «философии диалога» можно добиться мира и взаимопонимания во всем мире. Исследование проблемы проводилось в историческом, философском, религиозном, антропологическом, культурологическом, географическом аспектах. Также здесь затрагивались проблемы внутреннего мира человека – экзистенциального бытия, исторические и современные вызовы по отношению к его «Я», тотального и общественного отчуждения.

Sholat Zeynalov

**DIALOGUE: THE WAY TO PEACE AND SOLIDARITY**

SUMMARY

The article examines the causes of “dialogue” problem in the scientific and philosophical context. According to author’s opinion peace and stability in the world can be achieved only by appealing to the “philosophy of dialogue”. The study of the problem was conducted in historical, philosophical, religious, anthropological, cultural and geographical aspects. Moreover, there is also touched upon the problem of man’s inner world – existential existence, historical and contemporary challenges in relation to his “I”, total and social alienation.

# MÜASİR AZƏRBAYCAN: DEMOKRATİK İDARƏETMƏDƏ HUMANİZM SİYASƏTİ

***Jalə SÜLEYMANOVA,***
*Azərbaycan Respublikasının Prezidenti yanında*
*Dövlət İdarəçilik Akademiyasının müdavimi*

***AÇAR SÖZLƏR:*** *humanizm, demokratiya, rifah, multikulturalizm, amnistiya.*

***КЛЮЧЕВЫЕ СЛОВА:*** *гуманизм, демократия, благополучие, мультикультурализм, амнистия.*

***KEY WORDS:*** *humanism, democracy, welfare, multiculturalism, amnesty.*

*«Müstəqil Azərbaycanın siyasəti insan amilinə hesablanıbdır. İnsan hər şeydən üstündür. Azərbaycan vətəndaşı, onun təhlükəsizliyi, rahat yaşaması, rifahı ön plandadır».*

***İlham Əliyev,***

*Azərbaycan Respublikasının Prezidenti*

**Humanizm - ümumbəşəri dəyər. Demokratiya.**

Latın dilindəki "homo" - insan, "humanus" - insani, "humanitas" - insanlıq sözləri ilə eyni kökdən gələn **humanizm** fərdin öz həyatının məzmununu, formasını müəyyən etmək hüququna, o cümlədən öhdəliyinə malik olduğunu iddia edən demokratik və etik həyat mövqeyidir. O, insanın bilik və bacarıqlarından istifadə etməklə bəşəri və digər ali dəyərlərə söykənən etika əsasında daha humanist cəmiyyətin yaradılmasına səsləyir. Humanizm insana gözəl işlər görmək, əxlaqlı yaşamaq, həmçinin gələcəyə daha yaxşı bir dünya qoyub getmək vərdişini aşılayır. Qədim Roma siyasətçisi və filosofu Siseronun verdiyi anlayışa əsasən, humanizm insan bacarıqlarının ali mədəni və mənəvi inkişaf yolu ilə mülayimliyə, insaniyyətə əsaslanan, estetik cəhətdən tamamlanmış formaya çevrilməsidir [1].

Özündə bəşəri hissləri daşıyan və konseptual məzmun kəsb edən dəyərlər kompleksi olan humanizm prinsipləri insanlararası münasibətlərdə diqqət, hörmət və norma qaydalarını yaradır. Humanizm prinsiplərindən hüquqi, əxlaqi norma və qaydalar meydana gəlir. Müharibələrin, münaqişələrin və digər gərginliklərin, fəlakətlərin qarşısının alınması, önləyici tədbirlərin görülməsi və bu yöndə vasitəçilik fəaliyyətinin özü də məhz humanitar aktların tərkibini təşkil edir. Humanizm məkanları bu baxımdan sülh, sabitlik, əmin-amanlıq və dinc yanaşı yaşamaq məkanlarıdır [2]. Humanizm insana hörmət, ona qarşı zorakılığın olmaması dünyagörüşü kimi ali təzahürlərində optimal praqmatizmə, yəni demokratiyanın formalaşmasında real alətə çevrilir. Bunun əksi – antihumanizm

özbaşınalıq yaradır, faşizmə doğru aparır. Demokratiya da öz növbəsində humanizmin praktiki realizəsində iştirak edir. "Humanizm - demokratiya" sistemi münasib və tarixi təkamül baxımından daha davamlıdır [3]. Humanizmə siyasi praktikanın əsas prinsipi kimi baxılır. Siyasi təcrübənin ümumi oriyentirləri kimi başa düşülən siyasi dəyərlər siyasi ideologiyanın elementləri olaraq eyni deyil. Elə dəyərlər var ki, onlar ali məqsədlər hesab olunur. Onların məzmununu cəmiyyətin normal fəaliyyəti və inkişafı üçün vacib şərt olan insanların bazal tələbatları təyin edir. Siyasi dəyərlər piramidasının zirvəsində humanizm yerləşir [4].

Mərkəzində "insan ali dəyərdir" prinsipinin dayandığı siyasət humanizm, insansevərlik siyasətidir. Müasir Azərbaycan idarəetməsində demokratiya və humanizm vəhdət təşkil edərək sistem olaraq uğurla həyata keçirilir. Demokratiya bəşər cəmiyyətinin mürəkkəb, aktual, ciddi mübahisələrə səbəb olan və maraq doğuran dəyərlərindən biridir. Dövlətimiz də sivil dünya birliyinin üzvü kimi demokratikləşmə prosesindən kənarda deyil. Cəmiyyətin demokratik inkişaf yolu ilə getməsi üçün mütləq ictimai, sosial rifahın olması vacibdir. Ölkəmiz liberal və humanist prinsiplər əsasında həqiqətən əsl demokratik cəmiyyət qurmaq yolu tutmuşdur. Demokratiyanın başlıca şərti kifayət qədər geniş, sağlam orta sinfin olmasıdır. Azərbaycan hakimiyyəti bunu başa düşür, ona görə də ölkəmizin inkişafının Prezidentimiz tərəfindən elan edilmiş öncül istiqaməti ilk növbədə əhalinin maddi rifahının, sosial vəziyyətinin yüksəldilməsi, bu yöndə hərtərəfli şəraitin yaradılmasıdır. Tranzit cəmiyyətlərdə demokratiya əhalinin firavanlığından bilavasitə asılıdır [5, s. 249, 257].

**Müasir Azərbaycanda insan və vətəndaş hüquq və azadlıqları.**

Antik yunan filosofu Platon yazırdı ki, ədalət, müdriklik və qanun bir yerdə olacağı zaman bəşəriyyət xoşbəxtliyə qovuşacaqdır. Müasir Azərbaycanın memarı və qurucusu olan Ümummilli Lider Heydər Əliyev də özünün təkmil dövlətçilik fəlsəfəsində bu üç dəyəri bir araya gətirməklə siyasi fəaliyyətinin bütün mərhələlərində humanizm, sosial ədalət və insanpərvərlik prinsiplərinə əsaslanmış, milli və bəşəri ideallara bağlı olmuşdur. Hər bir fərdin maraq və mənafeyinin, qanuni hüquqlarının müdafiəsini dövlətin başlıca vəzifəsi sayan Ulu Öndər Heydər Əliyev siyasətinin mühüm cəhəti onun humanizm ideyalarından qaynaqlanmasındadır. Dahi liderin mütərəqqi ideyaları milli inkişaf prosesində mayak rolunu oynamışdır. Məhz Ümummilli Liderin hakimiyyətə qayıdışından sonra demokratikləşmə ilə yanaşı, cəmiyyətimizin bütövlüyünə xidmət edən humanizm ənənələrinin təməli qoyulmuşdur [6, s. 3].

Yeni, müstəqil Azərbaycan dövləti ilk addımlarını atmağa başlayarkən respublikamızda qanunçuluğun və hüquq qaydalarının bərpası istiqamətində kompleks tədbirlər həyata keçirilmiş, demokratik islahatlara start verilmişdir. O dövrdə vətəndaş cəmiyyətinin bərqərar edilməsini, xalqın iradəsinin ifadəsi kimi qanunların aliliyini təmin edən hüquqi, dünyəvi dövlət quruculuğunu, ədalətli iqtisadi və sosial qaydalara uyğun olaraq hamının layiqli həyat səviyyəsini təmin edən yeni konstitusiyaya ehtiyac duyulma zərurətini düzgün qiymətləndirən Heydər Əliyev dövlətin təməlinin möhkəm siyasi-hüquqi əsaslar üzərində qurulması üçün ilk növbədə müstəqil Azərbaycan Konstitusiyasının hazırlanaraq qəbul edilməsini vacib saymışdır. 1995-ci il noyabrın 12-

də ümumxalq səsverməsi ilə qəbul olunan Konstitusiyamızın 48 maddəsi sırf insan və vətəndaş hüquq və azadlıqlarını əks etdirir [7, s. 333, 334].

Azərbaycanda siyasi, iqtisadi, hüquqi, demokratik islahatların həyata keçirilməsində Konstitusiyanın prinsipləri və müddəaları həmişə əsas tutulmuşdur. Bu əsasda da ölkədə bütün sahələrdə islahatlar aparılmışdır. Demokratik, hüquqi, dünyəvi dövlət qurmaq, Azərbaycan vətəndaşlarının Konstitusiyanın müəyyən etdiyi prinsiplər əsasında azad, sərbəst yaşamasını, insanların hüquq və azadlıqlarının qorunmasını təmin etmək üçün şərait yaradılmış, demokratik dövlət quruculuğu və yeni siyasi-iqtisadi sistemin formalaşdırılması üçün hüquqi-normativ bazanın yaradılması istiqamətində uğurlu işlər həyata keçirilmişdir. Konstitusiyanın qəbul edilməsindən sonra ali qanunvericilik orqanı olan Milli Məclis tərəfindən təkcə beş ildə, yəni 2000-ci ilədək 900-dən çox qanun qəbul edilmişdir ki, bu da respublikamızda qanunçuluğun və yeni dövlət quruculuğunun hüquqi bazasının yaradılmasının parlaq təzahürü idi. Beləliklə, xalqın rifah halının yaxşılaşdırılması, hər bir insanın, vətəndaşın ali, mütərəqqi cəmiyyətdə yaşaya bilməsi üçün ilkin addımlar atılmışdır.

Müasir Azərbaycan siyasəti, onun ayrı-ayrı prioritetləri humanist ideyaların üzərində qurulub. Bu siyasətin sosialyönümlü olmasının özü də idarəetmədə humanistliyin təcəssümüdür. Ümumiyyətlə, ölkədə həyata keçirilən sosial islahatların əsas istiqamətləri əhalinin məşğulluğunun təmin edilməsi, yeni iş yerlərinin açılması və paralel olaraq sosial müdafiəsi məsələlərində ünvanlılıq prinsipinə üstünlük verilməsi, aztəminatlı ailələrin, əlillərin, ailə başçısını itirənlərin, şəhid ailələrinin və bu qəbildən olan digər şəxslərin pensiya və müavinət təminatının yaxşılaşdırılması, onların həyat səviyyəsinin yüksəldilməsinə şərait yaradılmasından ibarətdir. Sosial islahatların uğurla aparılması bu sahədə yeni, əhalinin sosial müdafiəsində keyfiyyətcə fərqli yanaşma və ənənəvi metodların təkmilləşdirilməsi baxımından müvafiq qanunvericilik aktlarının və dövlət proqramlarının qəbul olunmasını zəruri etmişdir.

Təcrübə göstərir ki, bazar iqtisadiyyatını seçmiş bir çox dövlətdə sosial müdafiə məsələlərinə xüsusi diqqət yetirilmir. İnkişaf etmiş dövlətlərin bir çoxunda təhsil, səhiyyə və digər sahələr Azərbaycandakı kimi dövlət büdcəsi hesabına maliyyələşmir. Eyni zamanda, dövlət əhalinin sosial problemlərini əsas götürərək milyardlarla dollar tələb edən infrastruktur layihələrini dəstəkləmir. Bu baxımdan Azərbaycanda sosialyönümlü siyasətlə bazar iqtisadiyyatı prinsiplərinin uğurlu kombinasiyası özünü tam doğruldur.

Dövlətimizin siyasətinin mərkəzində Azərbaycan vətəndaşı dayanır, hər şey Azərbaycan vətəndaşı üçün edilir. Cəmiyyətimizin demokratikləşməsi, Konstitusiyamızda təsbit olunmuş fundamental insan hüquq və azadlıqlarının təmin edilməsi, liberal bazar iqtisadiyyatı prinsiplərinin mənimsənilməsi, yəni görülən bütün işlərin əsas hədəfi insan amilinin inkişaf etdirilməsi, onun sosial təminatının yaxşılaşdırılmasıdır. Cənab Prezidentin insan kapitalının inkişafına xüsusi önəm verməsi heç də təsadüfi deyildir. Bir tərəfdən, biz inkişaf deyəndə sadəcə iqtisadiyyatın tərəqqisini deyil, eyni zamanda sağlam gələcək nəslin formalaşmasını nəzərdə tuturuq. İntellektual potensialın yaratdığı texnoloji innovasiyalar, beynəlxalq rəqabətədavamlı və ətraf mühitin qorunması ilə həmahəng

olan iqtisadi fəaliyyət də bu məqsədə xidmət edir. Digər tərəfdən, həyata keçirilən dövlət siyasəti humanizm və insani dəyərləri idarəçiliyin əsas meyarına çevirməyi, Azərbaycanda əsl rifah dövləti yaratmağı hədəfləmişdir [8, s. 8].

Ölkəmizdə humanitar məsələlər öz həllini tapmağa davam edir. Dövlətimiz bu məsələlərə çox böyük diqqət göstərir. Ortaya qoyulan dövlət siyasətinin ali prinsipinin son illərdə reallaşmasını təmin edən strategiyanın, ümummilli layihələrin, 50-yə yaxın dövlət proqramlarının qəbul edilməsi nəticəsində, onların icrasına sərt nəzarətlə müşayiət olunan islahatlar dalğasında Azərbaycan insanının rifah göstəriciləri artmışdır. Qısa ifadə edilsə, "firavanlıq və rifah layihələri" adlana biləcək bu tədbirlər, ilk növbədə, hər bir vətəndaşın layiqli həyat tərzinin təmin olunmasına, insan hüquq və azadlıqlarının təminatına, dövlət idarəçiliyinin çevik və işlək mexanizmlər əsasında həyata keçirilməsinə, bir sözlə, davamlı və sabit inkişafa xidmət etmişdir.

Son 13 il ərzində Azərbaycanda 3 mindən çox məktəb, 600-dən çox xəstəxana, tibb mərkəzi tikilərək, təmir edilərək istifadəyə verilmişdir. Təhsilin inkişafı, intellektual gənc nəslin yetişməsi yönündə, əhalinin sağlamlığı üçün bir çox xəstəliklərin profilaktikası və müalicəsi istiqamətində tədbirlər proqramları tərtib olunaraq həyata keçirilir. Məcburi köçkünlərin yaşayış problemlərinin həlli yolunda əsaslı işlər görülmüş və görülməkdədir. Onlar üçün 90-dan çox qəsəbə salınmış, 250 mindən çox köçkünə yeni evlər, mənzillər verilmişdir. İşsizliyin, yoxsulluğun azaldılması ilə bağlı çox ciddi addımlar atılmışdır. Bu gün həm işsizlik, həm yoxsulluq ölkəmizdə təxminən beş faiz səviyyəsindədir [9]. Həmçinin sistem xarakterli islahatlar, institusional dəyişikliklər korrupsiyaya və rüşvətxorluğa qarşı mübarizədə vətəndaşın xeyrinə hesablanmış ən səmərəli alətlərdən biridir. Bu cür islahatlar sırasında "ASAN Xidmət" Prezidentimizin "dövlət siyasətinin mərkəzində Azərbaycan vətəndaşı dayanır" devizinin praktiki reallaşmasıdır. Çünki bu xidmət vətəndaş məmnunluğunun təmin edilməsini, korrupsiya və rüşvət hallarının istisna olunmasını, müasir texnologiyaların tətbiqini, dövlət qulluqçusu-vətəndaş münasibətlərində yeni düşüncə tərzinin formalaşmasını hədəfləmişdir [8, s.14].

Danılmaz həqiqətdir ki, Heydər Əliyev Fondu da bu gün Mehriban xanım Əliyevanın rəhbərliyi altında ölkəmizdə elmin, təhsilin, mədəniyyətin, səhiyyənin inkişafı, milli-mənəvi dəyərlərimizin qorunub saxlanılması sahəsində gördüyü işlərlə, eləcə də milyonlarla insanlara ünvanlanmış xeyriyyəçilik fəaliyyəti ilə insanlığa, bəşəriyyətə xidmət edir, müdrik şəxsiyyət Heydər Əliyev ideyalarının əbədi yaşamasına töhfələr verir. Fond həyata keçirdiyi qlobal layihələrlə həm də insan hüquq və azadlıqlarının etibarlı müdafiəçisi statusunda çıxış edir. Fond respublikamızın hərtərəfli inkişafına və vətəndaş cəmiyyəti quruculuğu prosesinin sürətləndirilməsinə töhfəsini verməyə çalışır. Mümkün səviyyədə vətəndaşların problemlərinin həllinə səy göstərir, imkanlarını bu yöndə səfərbər edir. Fondun Azərbaycanda humanitar sahələrin, xüsusilə təhsilin, səhiyyənin inkişafı, mədəniyyətimizin inkişafı və təbliği, insan hüquqlarının qorunması və bir çox bu kimi mühüm sahələrdə həyata keçirdiyi proqramlar məhz Azərbaycan xalqının inkişafına, sağlam yaşayış tərzinə, elminə, mədəniyyətinə böyük töhfə, əvəzsiz qayğıdır.

**Humanizm multikulturalizm siyasətinin mərkəzi elementidir**

Bu gün bütün dünyada aktual olan problemlərdən biri də dini, irqi, milli ayrı-

seçkilik, dini radikalizm, ekstremizm, ksenofobiya, islamafobiyadır. Ancaq Azərbaycan özündə humanist dəyərləri ehtiva edən multikulturalizm siyasəti ilə dünya dövlətlərinə nümunədir. Multikulturalizm elə bir siyasətdir ki, o, mədəni plüralizmi qəbul edir və onun inkişafına şərait yaradır. Bu, ölkə əhalisinin etnik, irqi və dini müxtəlifliyindən asılı olmayaraq, onların hamısının hüquq və azadlıqlarına hörmətlə əlaqədardır [10]. Müxtəlif dinlərə və xalqlara mənsubluğuna görə ölkə vətəndaşları arasında ayrı-seçkilik aparmaması, bütün səmavi dinlərin nümayəndələrinə eyni gözlə baxması, məscid, kilsə və ya sinaqoqların bərpa və tikintisinə dəstək vərməsi dövlətimizin siyasətinin humanist addımlarının təzahürüdür. Multikulturalizmin siyasi banisi olan Ulu Öndər Heydər Əliyev haqlı olaraq bu siyasəti ölkənin demokratik inkişafının tərkib hissəsi hesab edirdi. O, Azərbaycan ərazisində yaşayan milli azlıqların hüquq və azadlıqlarının, o cümlədən etnik-mədəni, dini dəyərlərinin qorunmasını demokratiyanın mühüm prinsipi olan əsas insan hüquq və azadlıqları kontekstində görürdü. Ulu Öndərin rəhbərliyi ilə, nəhayət ki, dönüşü olmayan demokratik inkişaf yoluna çıxmış Azərbaycan Respublikası, onun qeyd etdiyi kimi, "dinindən, dilindən, irqindən asılı olmayaraq Azərbaycanın bütün vətəndaşlarının eyni hüquqlara malik" olmalarını təmin etməli idi.

Təbii olaraq, Ulu Öndər etnik millətçiliyə alternativ kimi bütövlükdə Azərbaycan xalqının və cəmiyyətinin, eyni zamanda Azərbaycan dövlətçiliyinin yüksəlişini şərtləndirən və multikulturalizmin əsas mənəvi bazası olan azərbaycançılıq prinsipini milli ideologiya kimi irəli sürdü. O qeyd etdi ki, etnik millətçilik, nəhayət etibarilə, etnik separatizmə, xalqlar arasında münaqişəyə gətirib çıxarır. Azərbaycançılıq ideologiyası isə dinindən, dilindən, irqindən asılı olmadan ölkədə yaşayan bütün vətəndaşları birləşdirir. Ulu Öndərin dediyi kimi, həqiqətən də "Azərbaycan onun ərazisində yaşayan bütün millət və xalqların ümumi vətənidir" [11].

Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi altında ölkəmizdə Azərbaycan xalqının multikultural ənənələrinin qorunması və inkişaf etdirilməsi sahəsində həyata keçirilən siyasi istiqamət yeni mərhələdə onun layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən uğurla inkişaf etdirilir. Azərbaycanın mənəvi-siyasi yüksəlişində son dərəcə vacib məqamlardan biri dövlət başçımızın təşəbbüsü və iştirakı ilə 2011-ci ildən bəri mütəmadi olaraq Bakıda Beynəlxalq Humanitar Forumun keçirilməsidir. Artıq ənənəyə çevrilmiş bu forumun son açılışı zamanı etdiyi çıxışında Prezident İlham Əliyev qeyd etmişdir ki, "bu dövlət siyasəti ölkə daxilində böyük rəğbət qazanır. Eyni zamanda, bu, cəmiyyətin də əhval-ruhiyyəsidir. Çünki dövlət siyasəti o zaman uğurlu icra edilə bilər ki, cəmiyyət də buna müsbət cavab verir. Cəmiyyətdə mövcud olan xoş əhval-ruhiyyə, multikulturalizmlə bağlı meyillər bizim dövlət siyasətimizi daha da gücləndirir".

Bu gün Azərbaycanda multikulturalizm sahəsində bir-birini tamamlayan, sistemli xarakter daşıyan siyasi iradə və onun gerçəkləşməsi proqramı uğurla həyata keçirilir. Dövlətimizin multikulturalizmə, tolerantlığa verdiyi siyasi dəyərin dünya miqyasında real elmi, mədəni, sosial müstəvilərə köçürülməsi işində Heydər Əliyev Fondunun da xidmətləri böyükdür. Bu gün Azərbaycanın multikultural ənənələrinin qorunub saxlanılması, təbliği ilə bağlı Heydər Əliyev Fondu olduqca əhəmiyyətli, möhtəşəm layihələr həyata keçirir. Bu layihələr Azərbaycan multikulturalizminin bir ölkə çərçivəsində qapalı inkişafını

deyil, dünya çərçivəsində dinlərin və mədəniyyətlərin müxtəliflikləri rejimində fəaliyyət göstərməsini reallaşdırır.

**Amnistiya aktları humanist siyasətin göstəricilərindən biridir**

Dövlətimizin həyata keçirdiyi bağışlama, əfvetmə siyasəti də humanizm siyasətinə bariz nümunədir və bu müsbət ənənənin təməli də Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulub. Ümummilli Lider hər zaman mərhəmət, insanpərvərlik dəyərlərinə böyük önəm verib və bunu öz fəaliyyətində daim diqqət mərkəzində saxlayıb. O, məhkumların bağışlanması ənənəsini formalaşdırmaqla onlara etimad göstərdiyini sübuta yetirirdi. Burada əfv sərəncamlarının, amnistiya aktlarının əxlaqi, mənəvi-psixoloji, ictimai faydası özünü təsdiqləyir. Eyni zamanda, cinayətkarlıq yolundan üz çevirərək özünü cəmiyyətə inteqrasiya etməyə çalışan və bununla başqalarına da nümunə olan insanların sayının artması cəmiyyət daxilindəki kriminogen durumun stabilliyinə, cinayətkarlığın, ümumiyyətlə, neqativ halların səviyyəsinin azaldılmasına təsir göstərən faktor kimi çıxış edir. Humanizm siyasətinin əsas məqsədlərindən birini də rol və statusundan asılı olmayaraq, sosial münasibətlər sistemində iştirak edəcək, cəmiyyətə yararlı fərdlərin yetişdirilməsi və onların reabilitasiyası təşkil edir. Bunun üçün dövlət tərəfindən olduqca yüksək səviyyədə dəyərləndirilən müxtəlif addımlar atılıb və hazırda da bu istiqamətdə davamlı tədbirlər görülür. Bunlardan biri də azadlıqdan məhrumetmə və azadlığın məhdudlaşdırılması cəzasına məhkum edilmiş şəxslərin əfvi ilə bağlı dövlət başçısı tərəfindən imzalanan sərəncamlar, həmçinin amnistiya aktlarının qəbul olunmasıdır. Ulu Öndərin prezidentliyi dövründə, yəni 1993-2003-cü illərdə 7 Amnistiya aktı qəbul edilib və 32 əfv sərəncamı imzalanıb [12].

Bu siyasət Prezident İlham Əliyev tərəfindən də uğurla davam etdirilir. Belə ki, bütövlükdə ölkəmizdə 61 əfv Sərəncamı imzalanıb. Bu humanist addımlar mütəmadi xarakter daşıyır. 1996-cı ildən Azərbaycanda 11 amnistiya aktı qəbul olunub ki, bunun da 4-ü məhz Heydər Əliyev Fondunun prezidenti, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın təşəbbüsü ilə reallaşıb.

**Dünyadakı nizamsızlıqda tarazlığını saxlayan Azərbaycan**

Müasir dünyada yüksək texnologiyalara sahib inkişaf etmiş ölkələrin bəşəriyyətə daha böyük faydası ola bilər. Lakin real təcrübə tamamilə başqa mənzərəni ortaya qoyur. Milyonlarla insan öz yurdundan didərgin salınır. Zorakılıq qurbanı olanların sayı azalmır. Qadın, uşaq və qocalarla qeyri-insani rəftar özünü göstərir. Hazırda bütün dünya üzrə qaçqınların, məcburi köçkünlərin, münaqişələr zamanı zorakılığa məruz qalanların problemlərinin həlli ilə bağlı geniş müzakirələr aparılır. Rəsmi məlumatlara görə, bu gün dünya miqyasında münaqişələr və zorakılıq nəticəsində yurdlarından didərgin düşənlərin sayı 65 milyon nəfərə yaxındır. Təbii fəlakətlər və iqlim dəyişikliyi nəticəsində isə hər il 25 milyon insan öz evini tərk edir. Kifayət qədər yüksək rəqəmlərdir. İlk baxışdan ən inkişaf etmiş dövlətlər təsirli tədbirlər görməlidirlər. Lakin reallıq başqa mənzərəni ortaya qoyur.

Müstəqil Azərbaycan dövlətinin 25 ildir mövcudluq müddətində göstərdiyi təşəbbüslərə milli maraqlar mövqeyi ilə yanaşı, regional və qlobal kontekstdə yanaşdıqda, çox maraqlı özəlliklərə rast gəlirik. Bu gənc azad ölkənin rəhbərliyi bütün

bəşəriyyət və insanlıq üçün əhəmiyyətli proqramlar reallaşdırmaqdadır. Azərbaycanın təşəbbüsləri sosial-mədəni, humanitar, siyasi, təhlükəsizlik, iqtisadi, energetik, ekoloji sferaların hər birini əhatə edir. Nəinki Cənubi Qafqazda, heç postsovet məkanında ikinci belə nümunə yoxdur [13].

Ümumiyyətlə, Azərbaycan dövləti hər zaman humanizm dəyərlərinə sadiq olmuşdur. Özündə humanizm ideyalarını ehtiva edən hərtərəfli, geniş və dərin siyasət demokratikləşmənin əsas şərtlərindən biridir. Dövlətimizin həyata keçirdiyi həm daxili, həm xarici siyasət humanist dəyərlərin üzərində qurulub. Bu da Azərbaycanın demokratik dövlət olaraq inkişafında, formalaşmasında, irəliləməsində mühüm əhəmiyyət kəsb edir. Azərbaycan müstəqilliyini yeni qazanmış, keçid mərhələsində olan ölkə kimi demokratik inkişaf yolunun dönməzliyini və əbədiliyini özü üçün tam yəqinləşdirmiş, xalqın gələcək inkişafında mütərəqqi dəyərlərin rolunu və əhəmiyyətini daim önə çəkmişdir. Respublikamızın hazırki sosial-iqtisadi inkişaf tempi, əldə olunan makroiqtisadi nəticələr ictimai həyatın müxtəlif sahələrində sosial rifaha, iqtisadi azadlığa və səmərəli təşəbbüskarlığa yönələn, hər bir vətəndaşın taleyində kardinal dəyişikliklərlə müşayiət olunan, demokratik islahatların dərinləşməsi yolu ilə insan inkişafına xidmət edən liberal islahatları yüksək dinamizmlə gerçəkləşdirmək imkanı yaradır. Dövlətimizin ümdə məqsədi müstəqil azərbaycanlının rifahı, meyarı isə onu gerçəkləşdirməyə hesablanmış siyasi kurs olmuşdur. Beləliklə, əldə edilən mühüm qənaətlərdən biri isə budur: vətəndaşa, insansevərliyə, humanizmə dayanan siyasət XXI əsrdə Azərbaycanda milli dövlətçilik quruculuğunun fəlsəfəsini təşkil etmişdir! Çünki yalnız firavan insan, yetkin cəmiyyət və güclü dövlət öz vətəndaşlarının hüquqlarının gerçəkləşməsinə, insanların rifah halının yüksəlməsinə, hüquq və azadlıqlarının qorunmasına təminat verə bilər.

## ƏDƏBİYYAT


1. https://az.wikipedia.org/wiki/Humanizm
2. Elşən Nəsibov. Humanizm prinsipləri və xeyriyyəçilik fəaliyyətinin əsasları, Alim baxışı // strateq.az, 02 oktyabr 2016.
3. Илья Новик. Гуманизм-демократия-глобализм. 1992.
4. Шилов В.Н. Гуманизм как политическая ценность // “Научные ведомости”, № 5 (45) 2008.
5. Ramiz Mehdiyev. Yeni siyasət: İnkişafa doğru // II cild. Bakı: Oskar, 2008, 343 səh.
6. Əli Eyvazov. Humanizm və xeyirxahlıq missiyası. Bakı: Nurlan, 2007, 192 səh.
7. Ramiz Mehdiyev. Yeni siyasət: İnkişafa doğru // I cild. Bakı: Oskar, 2008, 581 səh.
8. Ramiz Mehdiyev. İkili standartların dünya nizamı və müasir Azərbaycan. Bakı: Şərq-Qərb, 2015, 223 səh.
9. V Beynəlxalq Humanitar Forumun rəsmi açılış mərasimində Prezident İlham Əliyevin nitqi // http://www.president.az/articles/21214
10. Etibar Nəcəfov. Müxtəlif ölkələrdə multikulturalizm siyasətinin müqayisəli təhlili // Bakı Beynəlxalq Humanitar Forumu, 2011.
11. Kamal Abdullayev. Azərbaycan multikulturalizminin siyasi banisi // Azərbaycan, 2015, 1 may, s. 3.
12. “Ulu Öndər Heydər Əliyevin humanizm ideyaları layiqincə davam etdirilir” // www.justice.gov.az/view_full.php?id=243
13. “Azərbaycanın təşəbbüsləri: humanizm, dialoq və ədalət naminə” // http://newtimes.az/az/relations/4848/

Жаля Сулейманова

**СОВРЕМЕННЫЙ АЗЕРБАЙДЖАН: ПОЛИТИКА ГУМАНИЗМА В ДЕМОКРАТИЧЕСКОМ УПРАВЛЕНИИ**

АННОТАЦИЯ

Данная статья посвящена политике гуманизма в демократическом управлении в Современном Азербайджане. Гуманизм — демократическая, этическая жизненная позиция, утверждающая, что каждый имеет право и обязанность на определение смысла и формы своей жизни. Современное Азербайджанское государство в своей политике всегда опирается на принципы гуманизма. Улучшение благополучия нашего народа, всестороннее развитие наших граждан, обеспечение сосуществования людей в нашей стране в обстановке мира, спокойствия, дружелюбия является показателем гуманизма в государственном управлении.

Jala Suleymanova

**MODERN AZERBAIJAN: POLICY OF HUMANISM IN DEMOCRATIC ADMINISTRATION**

ABSTRACT

The article is dedicated to the policy of humanism in democratic administratiom in modern Azerbaijan. Humanism is a democratic and ethical life stance, which claims that everyone has the right and duty to define the meaning and form of his life. The policy of modern Azerbaijan is always based on the principles of humanism. Improvement the welfare of our people, all-round prosperity of our citizens, ensuring the coexistence of people in our country in an atmosphere of peace, tranquility, friendliness is an indicator of humanism in state management.

# BEYNƏLXALQ MİQRASİYA PROSESLƏRİNDƏ DİN AMİLİ VƏ İNSAN HÜQUQLARI

***Aqil ƏHMƏDOV,***
*AMEA-nın Hüquq və İnsan Haqları*
*İnstitutunun Beynəlxalq əlaqələr şöbəsinin*
*böyük elmi işçisi, tarix üzrə fəlsəfə doktoru,*
*agilahma@gmail.com*

***AÇAR SÖZLƏR:*** *miqrant hüquqları, multikultural dəyərlər, din amili, beynəlxalq münasibətlər.*
***КЛЮЧЕВЫЕ СЛОВА:*** *права мигрантов, мультикультуральные ценности, религиозный фактор, международные отношения.*
***KEY WORDS:*** *rights of migrants, multicultural values, religious factor, international relations.*

*Biz imkanlarımızdan, intellektual potensialımızdan və beynəlxalq nüfuzumuzdan istifadə etməyə çalışmalıyıq ki, bu gün mövcud olan beynəlxalq münasibətlər sistemini gücləndirə bilək.*

***İlham Əliyev,***
*Azərbaycan Respublikasının Prezidenti*

Müasir dünyada beynəlxalq miqrasiya proseslərinin tənzimlənməsi və dinlərarası, sivilizasiyalararası mədəniyyətin qorunması kimi yeni problemlər təzahür etməkdədir. Daha dəqiq ifadə etsək, miqrant hüquqları və multikultural dəyərlər ilk baxışda müxtəlif sahələr olsalar da, hər iki mövzu insan hüquqları ilə birbaşa bağlıdır. Bu baxımdan böyük güclərin müdafiə etdiyi yeni dünya düzənində insanların məcburi miqrasiya ilə üzləşməsi və mənsub olduğu din, irq, mədəniyyət səbəbindən ayrı-seçkiliyə məruz qalması halları artmışdır. Hər iki halda tolerantlığın aşınmaya məruz qalması emosional dəyişikliklərə rəvac verməkdədir. Belə olduğu təqdirdə, müasir dünyada dialoq və əməkdaşlığın təşviqinə səylərin artırılması mühüm məsələlərdən biri kimi qarşımıza çıxır. İnkişaf etmiş demokratik cəmiyyətlərin həssas məqamlarda önə çıxması və sahib olduğu dəyərləri yüksək səviyyədə təqdim etdiyi iddiasını irəli sürməsi hər zaman müsbət nəticəni vermir. Bundan zərər çəkən kütlə isə əməkçi miqrantlardır. Təmin olunmuş həyat axtarışında olan insanlar köçdükləri inkişaf etmiş ölkələrdə insan hüquqlarının pozulması halları ilə qarşılaşır, mədəni, dini və çox zaman irqi ayrı-seçkiliklə üzləşirlər.

Son onilliklərdə dünya siyasətində sivilizasiyalararası münasibətlərdə din amilinin rolu ciddi surətdə artır. Onun müxtəlif formalarda qabardılması hazırda qloballaşmanın prioritetlərini müəyyənləşdirən qlobal geosiyasi və geoiqtisadi layihələrin reallaşdırılmasında ən səmərəli vasitələrdən biridir. Son illərdə Mərkəzi Asiya ölkələrinin

də geosiyasi aktorların maraq dairəsinə daxil olması, mədəni (dini, ideoloji) hegemonluq müstəvisində toqquşmalara yol açmaqdadır [1, s. 192].

Miqrantlar özləri ilə bərabər həmin ölkəyə fərqli din və mədəniyyət gətirmiş olurlar. Bu fərqliliyin yerli insanlar tərəfindən qəbul edilib-edilməməsində həmin ölkədə mövcud olan multikultural mühit böyük rol oynayır. Əksər hallarda inkişaf etmiş dövlətlər multikultural zənginliklə barışa bilmir və ölkələrinə daxil olan miqrantlara məzhəbçi, radikal dini baxışlı insanlar kimi baxırlar. Burada miqrantların da üzərinə vəzifələr düşür. Avropa ölkələrinin yerli hakimiyyət orqanları bəzi hallarda onların maarifləndirilməsi işində çətinliklərlə qarşılaşırlar. Belə hesab olunur ki, miqrantlar soyğunçuluq və münaqişə yaratmaq baxımından əlverişli insanlardır, onları müəyyən qruplar idarə edir. Miqrantlar arasında belələrinə rast gəlinsə də, bunu bütün miqrantlara aid etmək doğru olmaz. Ortaq məxrəcə gəlinməsi və onların yaşadıqları cəmiyyətlərə inteqrasiya olunması uzun və səbir tələb edən prosesdir. Bu çətinliklərin başında isə maddi vəziyyət dayanır. Dünya isə gün keçdikcə dəyişir, qloballaşma və miqrasiya dalğası genişlənməkdə davam edir. Qeyd etmək lazımdır ki, Mərkəzi Asiya dövlətləri də daxil olmaqla miqrasiya və multikulturalizm qloballaşmanın axarında sürətlə yayılır və insan hüquqlarının müdafiəsinə diqqət artmaqda davam edir. Nəticədə insanı sahib olduğu maddi və mənəvi hüquqlardan məhrum etmək üçün miqrasiya proseslərində din amili nəzərəçarpacaq dərəcədə qabardılır.

Hazırda qloballaşma anlayışının həyati gerçəkliyə çevrildiyi, inteqrasiyanın geniş vüsət aldığı, böyük miqyasda miqrasiyanın baş verdiyi dövrdə yaşayırıq. Nə qədər qəribə olsa da, zaman keçdikcə sürətlənən və insanları, xalqları bir-birinə yaxınlaşdıran qloballaşma prosesi, sanki onlar arasında etiqad fərqliliyindən qaynaqlanan xüsusiyyətləri daha da dərinləşdirir. Günümüzdə dünya miqyasında dini ayrı-seçkilik güclənir, bəzən dini zəmində qarşıdurmaya bilərəkdən rəvac verilir. Bu səbəbdən dini dözümlülüyün hakim mövqe tutması, dinlərarası dialoq və əməkdaşlıq olduqca vacibdir. Amma bunun reallaşması üçün münbit şərait formalaşmalı və müəyyən şərtlər yerinə yetirilməlidir [2, s. 30]. Qloballaşma nə zaman sona çatacağı məlum olmayan bir prosesdir. Burada miqrasiya, din və insan hüquqlarının qorunması kimi əhəmiyyətli məsələlərin həllində dünya liderlərinin yürütdükləri siyasət gələcək nəsillərin həyatı üçün təhlükə törətməməli və çıxış yolu axtarmaq imitasiyası yaradılmamalıdır.

***Dəyişən dünyada miqrasiya böhranı, multikultural dəyərlərə təhdid və insan hüquqları***

Miqrasiya sahəsində əldə olunan dinamik inkişaf özü ilə bərabər müəyyən problemləri də yaratmaqdadır, yəni miqrasiya məsələsi dünya mətbuatının və politoloqların son illərdə daha çox müzakirə obyektinə çevrilmişdir. Bu baxımdan inkişaf etmiş dövlətlərin son beş il ərzində sərtləşməyə doğru addımlayan miqrasiya siyasətinin prinsiplərinə və bu istiqamətdə əldə olunan nəticələrə baxdığımızda, mövcud sahədə müsbət inkişaf meyilləri ilə paralel, qanundankənar miqrantların arzuolunmaz kütlə kimi həmin ölkələrdən deportasiya olunması halları da artmaqdadır.

İnsanların müvəqqəti və ya daimi çalışmaq üçün üz tutduqları ölkələr arasında Avropa İttifaqına daxil olan ölkələr birinci sırada gəlir. Bu səbəbdən qeyd etmək lazımdır

ki, həmin ölkələr, məsələn, Almaniya, İngiltərə, Fransa, Avstriya, İtaliya, Malta və s. Avropa İttifaqı üzvləri miqrasiya siyasəti ilə bağlı tədbirləri yenidən gözdən keçirir və qanunları sərtləşdirməklə ölkələrinə olan insan axınının qarşısını almağa çalışırlar. Məsələnin digər tərəfi aclıq, səfalət, münaqişə, təbii fəlakət, dini ekstremizm və s. səbəbdən dolayı təmin olunmuş yüksək həyat şəraitində yaşamaq arzusu ilə ölkələrini tərk edib Avropaya üz tutan miqrantların çox vaxt çıxdıqları yolda nəqliyyat qəzalarına uğrayaraq kütləvi şəkildə həlak olmasıdır [3]. XXI əsrdə beynəlxalq birliyi narahat edən bir sıra problemləri sadalamaq mümkündür. Hazırda yaşanan, mühüm problemlər arasında olan miqrasiya böhranı Yaxın Şərq və Şimali Afrika kimi regionlarda hər il daha da dərinləşir. Miqrasiya sahəsində yaşanan tənəzzül insanların inanc və sahib olduqları mədəni dəyərlərinə də mənfi təsirini göstərməkdədir. Pozulan miqrant hüquqları demokratik prinsiplərə sözdə sadiqlik nümayiş etdirən dövlətləri narahat edir.

İnsan həyata gəldiyi andan etibarən müəyyən hüquq və azadlıqlara sahib olur. İrqindən, dinindən, dilindən, cinsindən, siyasi mənsubiyyətindən, sosial mənşəyindən, yaxud digər statusundan asılı olmayaraq hər kəs insan hüquqları konsepsiyasından irəli gələn hüquq və azadlıqlara malikdir. Olduqca böyük əhəmiyyət daşıyan insan hüquq və azadlıqlarının müdafiəsi ümumdünya miqyasında sülhün, ədalətin və rifahın təmin edilməsi üçün mühüm amil sayılmaqdadır [4, s. 10]. Göründüyü kimi, dünyada sülh və ədalətə təşviq edən beynəlxalq hüquq normaları hər kəs kimi miqrantlara da hüquqlar tanımaqdadır. Hazırda miqrasiyanın hüquqi, siyasi tənzimlənməsi və multikultural dəyərlərin təbliği kimi əsas məsələlərdə Yaxın Şərq və Şimali Afrika ölkələrindən köçən insanlara qarşı hüquqi proseduralar beynəlxalq hüquq normaları ilə tam nəzarət altına alınmış sayıla bilməz. Beynəlxalq sənədləri rəsmən təsdiqləyən dövlətlər beynəlxalq konvensiyaların göstərdiyi tövsiyə və göstərişlərə əməl etmədikcə yaxın on ildə miqrasiya dalğasının daha da böyüyəcəyini proqnozlaşdırmaq mümkündür. Bu isə özü ilə bərabər dini ayrı-seçkilik və insan hüquqlarının kobud şəkildə pozulması hallarının genişlənməsinə şərait yaradacaq. Bu baxımdan dəyişən dünyamızda beynəlxalq təşkilatların sülhməramlı fəaliyyətini genişləndirməsi və qaçqın, miqrant siyasətini bir qədər yumşaq həyata keçirmələri üçün Avropa dövlətlərinə daha çox tövsiyələrlə çıxış etməsi problemin həllinə dəstək ola bilər.

2013-cü ilin oktyabr ayında BMT Baş Assambleyasının Beynəlxalq Miqrasiya və İnkişaf üzrə II Yüksək Səviyyəli Dialoqu keçirilmişdir. Bu dialoq çərçivəsində dünyanın hər yerində və sosial statusundan asılı olmayaraq bütün miqrantların hüquqlarının müdafiəsi istiqamətində üzv dövlətlər fundamental müzakirələr aparmışlar. BMT-nin müasir dövrdə beynəlxalq miqrasiyanın tənzimlənməsi, miqrantların, xüsusilə də əməkçi miqrantların hüquqlarının müdafiə olunması istiqamətində qəbul etdiyi qərar və qətnamələr insan hüquq və azadlıqlarının qorunması istiqamətində millətlərarası münasibətlərin daha mütəşəkkil səviyyədə genişləndirilməsinin vacib olduğunu göstərir. Məsələyə həssas yanaşan BMT əməkçi miqrantların və onların ailələrinin siyasi və sosial müdafiəsinin digər beynəlxalq təşkilatlar tərəfindən də dəstəklənməsi üçün yeni istiqamətlər müəyyən etmişdir [5, s. 19]. Burada yalnız BMT və Beynəlxalq Miqrasiya Təşkilatı deyil, digər qurumlar da yaxından iştirak etməlidir. Belə ki, onların mümkün olan dəstəyi göstərmələri mövcud sahələrdə yaşanan insanlıq dramının qarşısını almaqda

təsirli ola bilər. Beləliklə də, müasir dünyada insan hüquq və azadlıqlarının, o cümlədən din və etiqad kimi azadlıqların müdafiəsi işi əhəmiyyətli dərəcədə dəyişə bilər.

"İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında" Avropa Konvensiyası kimi din və etiqad azadlığına dair beynəlxalq normaların əks olunduğu ən başlıca hüquqi sənədlərdə ictimai asayiş maraqlarının, ictimai qaydaların, sağlamlığın, yaxud mənəviyyatın qorunması və ya digər şəxslərin hüquq və azadlıqlarının müdafiəsi məqsədilə qanunla nəzərdə tutulmuş, demokratik cəmiyyətdə zəruri olan məhdudiyyətlər çərçivəsində hər kəsin fikir, vicdan və din azadlığı hüququ tanınmışdır [4, s. 11]. Hazırda özlərini demokratik cəmiyyətlər adlandıran Avropa dövlətlərinin belə həssas məqamlarda multikultural dəyərlərə göstərdiyi münasibətin qənaətbəxş olduğunu söyləmək çətindir. Din və etiqad azadlığı beynəlxalq hüquq normaları vasitəsilə tənzimlənməli olduğuna baxmayaraq, bəzi hallarda Avropa dövlətlərində miqrantlara qarşı münasibətdə bunun əksi yaşanır. Ölkələrini tərk edərək sosial statusu yüksək olan dövlətlərə üz tutan miqrantlar milli, dini və mədəni baxımdan böyük çətinliklərlə qarşılaşır və istənilməyən kütlə kimi təqiblərlə üzləşirlər. Nəticədə beynəlxalq miqyasda tanınan fundamental insan hüquq və azadlıqları zədələnmiş olur.

Yeni minillikdə qlobal müstəvidə ən mühüm çağırışlardan biri kimi fərqli sivilizasiyaların, mədəniyyətlərin, dinlərin, hətta xalqların birgəyaşayış fəlsəfəsi ilə bağlı baş verən dəyişiklikləri və miqrasiya proseslərinin təsirini fərqləndirmək olar. Çünki İkinci Dünya müharibəsindən sonra Qərbin artmaqda olan dominant mövqeyi cəmiyyətin həyatında "birgəyaşayış və miqrasiya" nisbətini müəyyənləşdirmişdir. Bu model Qərb ölkələrinin mexaniki olaraq ucuz işçi qüvvəsini, yeni gələnlərin isə heç bir milli, mədəni və dini xüsusiyyətini nəzərə almayan universal dəyərləri qəbul etməsi üzərində qurulmuşdu. Sonrakı proseslər göstərdi ki, bu siyasət işçi miqrantların Qərb dəyərlərinə uyğunlaşdırılmasına deyil, daha çox təcrid olunmasına yönəlmişdir. Avropada yeni sakinlərə sanki "istismar müddəti" başa çatdıqdan sonra geri qayıtmalı olan miqrantlar kimi baxılırdı. Bu prosesdə "qoca qitə"nin yeni sakinlərinin yalnız birinci nəsli ilə bağlı problem yaşanmadı. Artıq ikinci nəsil miqrantların təhsil, sosial, dini ibadət, ailə kodeksi və mədəni dəyərlərinin nəzərə alınmaması Avropanın özünün elan etdiyi demokratik prinsiplər və multikultural dövlət doktrinası ilə ziddiyyət təşkil edir. Bütün bunlar üçüncü minilliyə doğru Avropa ölkələrinin daha əvvəl bəyan etdikləri prinsiplərdən geri çəkilməsinə səbəb oldu [6, s. 10]. İstismar olunan miqrantlar arasında dini ayrı-seçkiliyə məruz qalan müsəlmanların sayı isə durmadan artır. Bu, əslində çox ciddi fakt olaraq beynəlxalq birliyin etiraf etdiyi həqiqətlərdəndir. Müxtəlif vasitələrlə Avropa ölkələrinə çatan miqrantlar arasında müsəlmanlara nisbətən xristianlara daha yaxşı münasibət göstərilir. Qeyd etmək lazımdır ki, Avropa dövlətləri və Amerika kimi güclü iqtisadi potensialı olan bir dövlət dünyaya demokratiya ixrac etdiyini nümayiş etdirir. Bununla paralel qaradərili insanların bu ölkələrdə irqi və dini ayrı-seçkiliyin qurbanlarına çevrilməsi artıq ənənə halını almışdır. O da məlum olur ki, miqrantların əksəriyyəti getdikləri ölkələrdə yerli qanunlara tabe olmaqdan boyun qaçırırlar və onlara qarşı alınan radikal qərarlar vasitəsilə daha da emosional həddə çatırlar. Ortaq məxrəcə gəlinməsi üçün miqrantlarla maarifləndirici tədbirlər həyata keçirilsə də, artıq böyük miqrasiya axınlarına bunu tətbiq etmək imkansız kimi görünür.

Hazırda yaşanan böyük miqrasiya axınları islamofobiya təbliğatçıları üçün "yerinə düşmüş", fürsətə çevrilmişdir. Dünya iqtisadi böhranı real təhlükəyə çevrilmiş və heç kəs onun qarşısını almaq iqtidarında deyil. Zəifləmiş milli valyutalar sistemi, təmin edilməmiş nəhəng maliyyə aktivləri, istehsal prioritetlərinin həyat üçün zəruri olmayan sahələrlə qarışması, istehsal, su qıtlığı və onlarla digər səbəblər bəşəriyyəti iqtisadi tənəzzülə aparır. Təəssüf ki, artıq bir neçə onillikdir hakim olan Qərb maliyyə iqtisadi strukturunun bütünlüklə dəyişməsi tarixi miqyasda yeganə həll üsulunu yalnız məcburi dağıdıcılıq üsulu hesab edir. Bu üsulun əsas vasitəsi qeyri-sabitlik və münaqişələrdir [1, s. 191]. Sosial-iqtisadi tənəzzülün artması, su qıtlığı, terror və münaqişələrin əhatə dairəsinin genişlənməsi miqrasiya axınlarının daha da güclənəcəyinə əsas verir. Avropanın miqrantlarla bağlı həyata keçirdiyi tədbirlər, beynəlxalq səviyyəli konfranslar çox cüzi müsbət dəyişikliklərin baş verə biləcəyini göstərir. Ümumi mənzərə isə mürəkkəbləşməkdə davam edir. Həmçinin aşınmanın davam etdiyi sahədə sivilizasiyalararası dialoqu təşviq edən beynəlxalq tədbirlərin gücləndirilməsi məsələsi diqqət mərkəzində saxlanmalı və təbliğ olunmalıdır.

***Azərbaycan qlobal proseslərdə: davamlı inkişaf, miqrasiya, multikulturalizm və insan hüquqları sahələrində müsbət təcrübə***

Dünya bütün dövrlərdə müəyyən qlobal problemlərlə üz-üzə qalmış, daim onların həlli yollarının axtarışında olmuşdur. Qloballaşma əsrində bəşəriyyəti xilas etmək üçün qarşıda duran məqsəd və vəzifələr tam fərqli yanaşma tələb edir, görünən odur ki, onlara nail olmaq heç də asan iş deyil. Miqrasiya böhranının kulminasiya həddini aşdığı bir dövrdə etnik-mədəni müxtəlifliyin tənzimlənməsinə yönəlmiş multikulturalizm siyasətini həyata keçirmək mürəkkəb məsələdir [7]. Müasir dövrdə qloballaşmanın gətirdiyi təzadlar – miqrasiya, multikulturalizm və insan hüquqları kimi həssas məqamların tənzimlənməsində bir zamanlar müstəqilliyini yeni bərpa etmiş Azərbaycan da çətinliklərlə üzləşmişdir. Belə hallar daha çox ötən əsrin 90-cı illərin əvvəllərində yaşanmış və 1991-1993-cü illər ölkədə ziddiyyətli hadisələrin baş verməsi ilə yadda qalmışdır. 1980-ci illərin sonuna doğru Ermənistanın Azərbaycana qarşı başlatdığı işğalçılıq siyasəti isə ölkəyə küllü miqdarda zərər vurmuş və daxili qaçqın, miqrant probleminin həlli müşkül məsələyə çevrilmişdir.

Lakin ölkəni bu qlobal bəladan tezliklə uzaqlaşdırmaq mümkün olmuşdur. Görkəmli dövlət xadimi Heydər Əliyevin xalqın iradəsi ilə yenidən müstəqil respublikanın idarəçiliyinə qayıdışı Azərbaycanda qısa vaxt ərzində stabil sosial-iqtisadi inkişafa əsas yaratmışdır. Bu isə öz növbəsində ölkədən miqrasiya edən vətəndaşların sayını kəskin şəkildə azaltmış, əksinə, əməkçi miqrantların nəzərini müasir və müstəqil Azərbaycana cəlb etmişdir. Ulu Öndərin siyasi kursu ölkədə insan hüquqlarının inkişafına, miqrasiya siyasətinin tənzimlənməsinə, multikultural dəyərlərə yüksək səviyyədə hörmət edilməsinə və Azərbaycanın beynəlxalq aləmdə insan hüquqlarının müdafiəçisi kimi tanınmasına xidmət edirdi. Heydər Əliyevin yürütdüyü düşünülmüş siyasət ölkədə bütün sahələrin inkişafına yol açmış, hazırda isə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin davam etdirdiyi müdrik siyasət dövlətin daxili və xarici siyasətinin genişlənməsinə şərait yaratmışdır.

Beynəlxalq münasibətlər sistemindəki mövcud vəziyyət, o cümlədən Yaxın Şərqdə cərəyan edən qanlı hadisələr bir daha sübut edir ki, dinə yalnız inanc, mənəviyyat və

hüquq məsələsi kimi deyil, həm də dövlətin və cəmiyyətin təhlükəsizliyi, sabitliyi prizmasından yanaşmaq lazımdır. Bu mənada Heydər Əliyevin dövlət-din münasibətləri, milli-mənəvi, o cümlədən dini dəyərlərin qorunması və təbliği, eləcə də tarixi-dini abidələrin bərpası, tolerantlığın və dinlərarası dialoqun təşviqi sahəsində zəngin irsinin öyrənilməsi və düzgün təbliği Azərbaycanla yanaşı, digər ölkələr üçün də faydalı ola bilər [8, s. 13]. Azərbaycanda bütün sahələrin inkişafında Ümummilli Liderin təməlini qoyduğu praqmatik siyasət məhz yüksək siyasi iradə və təcrübəyə əsaslanır. Bu baxımdan Azərbaycanın çox qısa vaxt ərzində miqrasiya, multikulturalizm və insan hüquqları sahələrində əldə etdiyi müsbət təcrübə Qərb üçün bir nümunə ola bilər.

Bəşəriyyət hazırda böhranlı bir dövrə qədəm qoymuşdur. Bu böhranların baş verməsində mənəvi cəhətdən məsuliyyət daşıyan humanistik-mənəvi aspektlərdən biri, bəlkə də, ən birincisi dinlər hesab oluna bilər. Tarixən olduğu kimi, bu gün də dinlər ictimai şüurda müxtəlif sivilizasiyaların ən əsas sütunu, nəhəng elementi, tarixi varisliyin başlıca postulatı, aparıcı qüvvəsi kimi xarakterizə edilməkdədir [9, s. 8]. Sülh və tolerantlıq ilə bağlı Heydər Əliyevin çıxış və nitqlərindən aydın görmək mümkündür ki, dahi lider müasir beynəlxalq əlaqələrdə yaşanan gərgin münasibətlərlə bağlı narahatçılığını dilə gətirir: “Təəssüf ki, son illərdə, iyirminci əsrin son mərhələsində dünyanın müxtəlif regionlarında sülh pozulmuşdur, insanlar arasında, dövlətlər arasında, ayrı-ayrı qruplar arasında toqquşmalar, vuruşmalar, müharibə gedir və bunların hamısı insanların rahat yaşamasına mane olur. Əsrimizin sonunda dünyada gedən ictimai-siyasi prosesləri təbii hesab edərək, heç vəchlə razılaşmaq olmaz ki, bu proseslər müharibə yolu ilə, toqquşmalar yolu ilə, qan tökmək yolu ilə getsin” [8, s. 26]. Bu müdrik kəlamlar bir daha onu təsdiq edir ki, müharibə və münaqişələr vasitəsilə, qan tökməklə dünyada sülh və əmin-amanlığa nail olmaq mümkün deyil. 1994-cü ildən günümüzədək həqiqətən də hərbi əməliyyatların sayı artmış, bu da öz növbəsində sülhün pozulması və insan hüquqlarının tapdalanması kimi mənfi təzahürlərin meydana çıxmasına şərait yaratmışdır. Münaqişə və təhdidlərdən əziyyət çəkənlər yenə də miqrant və qaçqınlardır, onların istismar olunan milli və mənəvi dəyərləridir.

Heydər Əliyevin Azərbaycanda multikultural dəyərlərin mümkünlüyü və tarixinə diqqət çəkməsi hər zaman aktual səslənir. Bu haqda ilk dəfə və geniş miqyasda, 10 oktyabr 1993-cü ildə Azərbaycan Respublikası Prezidentinin andiçmə mərasimində görkəmli dövlət xadimi Heydər Əliyev qeyd etmişdir: “Azərbaycan çoxmillətli respublikadır. Bu, respublikanın səciyyəvi cəhətidir. Bunun böyük tarixi var və bu tarixlə, respublikanın bu ictimai-siyasi mənzərəsi ilə biz fəxr edirik. Respublikamızda bütün vətəndaşlar dini və milli mənsubiyyətindən asılı olmayaraq eyni hüquqa malikdirlər və bundan sonra da bütün vətəndaşların bərabər hüquqla Azərbaycan Respublikasının ictimai-siyasi həyatında iştirak etməsi üçün imkanlar yaradılacaqdır” [8, s. 17]. Azərbaycanın çoxmillətli, çoxmədəniyyətli dövlət olması onun tarixi nailiyyətidir. Bu mədəni zənginlik ölkənin inkişafına dəstək verən ciddi amillərdən hesab olunur. Multikultural dəyərlərə verilən yüksək qiymət həmçinin Azərbaycanda insan hüquq və azadlıqlarına hörmət olunduğuna bariz nümunədir. Azərbaycan ərazisində yaşayan bütün vətəndaşlar dövlətin onlara tanıdığı hüquqlardan yararlanırlar. Bu baxımdan dünyaya nümunə olacaq müsbət təcrübə kimi davamlı inkişafa nail olunmasında çoxmillətli cəmiyyət

məfhumu ölkənin şöhrətini beynəlxalq aləmə yaymışdır.

Məhz Heydər Əliyevin Azərbaycana rəhbərliyi dövründə, bütün sahələrdə olduğu kimi miqrasiya sahəsində də milli qanunvericilik formalaşmış, insan hüquqlarının müdafiəsinə dair beynəlxalq konvensiyalara tərəfdar çıxılmış və multikultural dəyərlərə diqqət artmışdır. Hazırda bu şərəfli yolu davam etdirən Prezident İlham Əliyevin yürütdüyü siyasət Azərbaycan Respublikasının davamlı inkişafına öz töhfəsini verməkdədir. Bu baxımdan Prezident İlham Əliyevin son çıxışlarından birində ölkədə həyata keçirilən quruculuq işləri, multikultural dəyərlərlə bağlı söylədiyi fikirlər diqqət çəkir: "Düşünürəm ki, siyasi və iqtisadi islahatların paralel aparılması, sürətli transformasiya, sabitlik proqnozlaşdırıla bilən iqtisadi və sosial inkişafı təmin etmişdir. Bu gün Azərbaycan bütün azadlıqlardan faydalanır, bizim cəmiyyət azaddır, bizdə bütün azadlıqlar təmin edilir - media azadlığı, azad, senzurasız internet, söz və toplaşma azadlığı, din azadlığı var. Siyasi transformasiya davam edir. Biz bundan sonra da hüquq sistemimizin təkmilləşdirilməsi üzərində çalışmalıyıq. Çünki ədalət - cəmiyyətdə ədalət, ailədə ədalət və ümumiyyətlə, hər yerdə ədalət istənilən cəmiyyətin normal inkişafı və sabitliyi üçün ən əsas elementlərdəndir. Həmçinin Azərbaycan özünün dünya xəritəsindəki yerini müəyyən edə bilmişdir. Bizim ölkəmiz həm Avropa Şurasının, həm də İslam Əməkdaşlıq Təşkilatının üzvüdür. Biz dünyada çox az sayda dövlətlərdənik ki, hər iki təsisatın üzvüyük" [10, s. 57]. Qeyd olunmalıdır ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev ölkəmizdə multikulturalizm ənənələrinin qorunub saxlanması, daha da inkişaf etdirilməsi və geniş təbliğ olunması məqsədilə 2016-cı ili "Multikulturalizm ili" elan etmişdir [11, s. 3]. Multikulturalizmi təbliğ edən Azərbaycan onu azərbaycançılıq məfkurəsinin tərkib hissəsi, dövlət siyasəti səviyyəsinə qaldırmışdır [12, s. 36].

Son illərdə dinlərarası, mədəniyyətlərarası, sivilizasiyalararası dialoqla bağlı Azərbaycanda keçirilən beynəlxalq tədbirlərin miqyası və bu məqsədlə respublikamıza gələn tanınmış ictimai xadimlər, dini rəhbərlər və görkəmli alimlərin fikirləri Azərbaycanda multikultural dəyərlər və dini tolerantlıq mədəniyyətinin yüksək səviyyədə olduğunu bir daha sübut edir [13, s. 20]. Azərbaycan hökumətinin multikultural dəyərlərə verdiyi ən böyük töhfə ölkədə və dünyada multikulturalizmi təbliğ edən beynəlxalq mərkəzin açılışı ilə reallaşdı. Bu addım müasir beynəlxalq münasibətlər sisteminin inkişafına dəstək ifadə etmək baxımından mühüm tarixi və siyasi hadisə olaraq yaddaşlara həkk olundu. Azərbaycanda multikultural mühitin formalaşması onun miqrasiya siyasətinin tənzimlənməsinə də müsbət təsirini göstərməkdədir. Respublikaya artan miqrant marağının əsas səbəblərindən biri enerji strategiyası və böyük nəqliyyat-infrastruktur layihələridirsə, digər tərəfdən dini-mədəni tolerantlıq mühitinin yüksək səviyyədə olması ilə izah edilir.

Bu gün Azərbaycanda mövcud olan demokratik cəmiyyət müstəqil dövlət quruculuğunda fəal iştirak edir. Öz milli kimliyi onun bu gün özünü azərbaycanlı kimi hiss etməyinə mane olmur. O, öz ana dilində danışa, yaza və öz mədəni ehtiyaclarını ödəyə bilir. Konstitusiyamızın "Milli mənsubiyyət hüququ" adlı 44-cü maddəsində göstərilir: "Hər kəsin milli mənsubiyyətini qoruyub saxlamaq hüququ vardır. Heç kəs milli mənsubiyyətini dəyişdirməyə məcbur edilə bilməz". Azərbaycanda yaşayan müxtəlif xalqların nümayəndələrini bu gün müstəqil Azərbaycanın hər bir sahəsində - siyasətdə,

iqtisadiyyatda, təhsildə, idmanda, bir sözlə, bütün sahələrdə görmək mümkündür [14]. Azərbaycan həm enerji resursları, həm də multikultural cəmiyyət baxımından dünyanın inkişaf etməkdə olan nadir dövlətlərindəndir. Bu zənginliyə rəng qatan əməkçi miqrantlar ölkənin sosial inkişafına dəstək verməklə dini, multikultural dəyərlər baxımından da harmoniya yaratmış olur. Hər bir miqrant öz ölkəsinin mədəniyyəti və mənəvi dəyərlərini özü ilə daşımaqdadır. Bütün sadalanan müsbət məqamlar, davamlı inkişaf müasir Azərbaycanda insan hüquq və azadlıqlarının yüksək səviyyədə təmin olunduğunu bir daha əks etdirir.

Sonda məqalə boyu təhlil olunan bütün istiqamətləri ümumiləşdirərək qeyd etmək lazımdır ki, müasir beynəlxalq münasibətlər həlli mürəkkəb olan qlobal problemlərlə üzləşməkdə davam edir. Bunların sırasında münaqişələrin gücləndirdiyi miqrasiya dalğası, miqrasiya proseslərində din amilinin mənfi şəkildə təzahürü, xüsusilə müsəlman miqrantların hədəf nöqtəsində olması, bir sözlə Avropa ölkələrində multikultural dəyərlərə etimad göstərilməməsi, nəticə etibarilə insan hüquq və azadlıqlarının kobud şəkildə pozulması kimi mühüm problemlər gəlir ki, məqalədə sadalanan bu məsələlərə elmi-analitik yanaşma əsas götürülmüşdür. Həmçinin miqrasiya, multikulturalizm və insan hüquqlarının müdafiə olunması sahəsində Azərbaycan Respublikasının həyata keçirdiyi praqmatik siyasətin, davamlı inkişafın Avropa dövlətləri üçün nümunə təşkil edə biləcəyi göstərilmişdir.

*Yuxarıda toxunulan məqamları müddəalar şəklində bu cür ümumiləşdirə bilərik:*

1) XXI əsrdə miqrasiya proseslərində din amilinin rolu getdikcə daha da artmaqdadır. Din geniş məfhum sayılsa da, burada miqrant qismində əziyyət çəkən müsəlmanların çoxluq təşkil etdiyini görməmək mümkün deyil;

2) Miqrant hüquqlarının yetərincə müdafiə olunmaması insanların miqrasiya etdiyi yerlərdə, əsasən də Avropa ölkələrində dini və irqi ayrı-seçkiliklə qarşılanmasına rəvac verməkdədir. Yəni fərqli mədəniyyət və din daşıyıcısı olan miqrant hazırda arzuolunmaz şəxslər kimi təqib olunmaqdadır. Nəticədə müasir dünyada insan hüquq və azadlıqlarının beynəlxalq hüquqi tənzimlənməsi gerçəkləşməmiş sayılır;

3) Yeni dünya siyasətində böyük güclər arasında yaşanan soyuq münasibət ümumi vəziyyəti gərginləşdirmiş, miqrasiya proseslərinin arzuolunmaz tərzdə tənzimlənməsi ilə nəticələnmişdir;

4) Amerika və Rusiya arasında davam edən Yaxın Şərq ədavəti və ya Aİ-nin həyata keçirdiyi miqrasiya siyasətində yaşanan böhran miqrasiya və multikultural dəyərlərin inkişafına sədd çəkir;

5) İngiltərənin Aİ-dən imtina etməsi kimi problemlərin müzakirəsi bəzi hallarda emosional həddə çatır və beynəlxalq münasibətlərin inkişafına təsirsiz ötüşmür;

6) Türkiyə-Rusiya yaxınlaşması beynəlxalq miqrasiya proseslərinin tənzimlənməsinə az da olsa, müsbət təsir göstərmək iqtidarındadır;

7) Hazırda müasir beynəlxalq münasibətlərin müzakirə obyekti olan Avropanın miqrasiya, multikulturalizm siyasəti və insan hüquqlarına göstərdiyi münasibət qənaətbəxş sayıla bilməz. Dağılmaq təhlükəsi ilə üzləşən Avropa İttifaqının bu baxımdan həyata keçirdiyi miqrasiya siyasəti və multikultural dəyərlərə göstərdiyi münasibət kəskin tənqid olunmaqdadır;

8) Dövlət müstəqilliyinin ilk illərində miqrasiya, qaçqın problemi və insan

hüquqlarının pozulması halları ilə qarşılaşan Azərbaycan Respublikası, xalqın iradəsi ilə görkəmli dövlət xadimi Heydər Əliyevin yenidən ölkə rəhbərliyinə qayıdışından sonra davamlı inkişafa nail olunmuş və multikultural dəyərlərin inkişafı sürətlənmişdir;

9) Ermənistanın Azərbaycana qarşı işğalçı siyasəti davam etməkdədir. Bu işğal siyasətinin nəticəsi olaraq bir zamanlar Azərbaycan dövləti miqrasiya və qaçqın problemi ilə üzləşmişdir. Müharibə şəraitində olmasına baxmayaraq, Azərbaycanda qeyd olunan sahələrdə və multikulturalizm baxımından müsbət inkişaf nəzərə çarpır və ölkədə yaşanan belə müsbət tendensiyalar dünya dövlətləri üçün təcrübə, nümunə təşkil edə bilər;

10) Hazırda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin həyata keçirdiyi düşünülmüş siyasət ölkədə bütün sahələrin inkişafına, xüsusilə də miqrasiya, insan hüquqları və multikulturalizm kimi mühüm məsələlərin inkişafına ciddi mənada müsbət təkan verməkdə davam edir. Azərbaycan müasir dünyada stabil siyasi-iqtisadi inkişafa nail olan tolerant ölkə kimi tanınır.

## ƏDƏBİYYAT


1. Abdullayev F. Sivilizasiyalararası münasibətlərdə miqrasiya geosiyasətinin təzahürü // "Strateji təhlil", Azərbaycan Respublikasının daxili və xarici siyasətinə və beynəlxalq münasibətlərə dair beynəlxalq analitik jurnal, № 1-2 (15-16), 2016, s. 191-204.
2. Orucov H. Dinlərarası dialoq – ehtiyacdan doğan zərurət. "Dinlərarası dialoq: qarşılıqlı anlaşmadan birgə əməkdaşlığa doğru" mövzusunda beynəlxalq konfransın materialları. Bakı: Qafqaz Müsəlmanları İdarəsi, 2010, s. 28-71.
3. Əhmədov A. Miqrant hüquqları qarşısında aciz qalan Avropa siyasəti // http://sia.az/az/news/politics/515043-miqrant-huquqlari-qarsisinda-aciz-qalan-avropa-siyaseti, 27.11.2015.
4. Dini etiqad azadlığı beynəlxalq, regional və milli hüquqi sənədlərdə / elmi red. V.Məmmədov. Bakı: Elm və Təhsil, 2012, 476 s.
5. Əhmədov A. Əmək miqrantlarının hüquqları və beynəlxalq təşkilatlar // "Azərbaycan Respublikasında miqrasiya siyasəti və insan hüquqları" mövzusunda beynəlxalq konfransın tezislər toplusu. Bakı: Elm və Təhsil, 2014, s. 17-27.
6. Həbibbəyli Ə. Multikultural dəyərlər "ilkin" və "sonrakı" müxtəliflik prizmasında // "Strateji təhlil". Azərbaycan Respublikasının daxili və xarici siyasətinə və beynəlxalq münasibətlərə dair beynəlxalq analitik jurnal, № 1-2 (15-16), 2016, s. 9-20.
7. Hüseynova S. Multikulturalizm və tolerantlıq: təzahürlər, təhlillər // http://xeberdar.net/4034-multkulturalzm-ve-tolerantlq-tezahurler-tehlller.html, 01.04.2016.
8. Heydər Əliyev siyasəti: Tolerantlıq (çıxışlar, nitqlər, görüşlər, təbriklər) / bur. məsul S.Salahlı (Aran). Bakı: Elm və Təhsil, 2015, 504 s.
9. Zeynalov Ş. Dinlərarası dialoq: multikulturalizmin məntiqi nəticəsi kimi // "Dövlət və din" İctimai fikir toplusu, № 04 (45), iyul-avqust 2016, s. 8-15.
10. İlham Əliyev Bakıda III Qlobal Açıq Cəmiyyətlər Forumunun açılışında iştirak edib // "Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə" // Elmi-nəzəri jurnal, № 2 (50), 2015, s. 56-61.
11. Multikulturalizm Azərbaycanın həyat tərzidir. Metodik tövsiyələr / tərt. ed.: M.Hacıyeva, N.Alışova; red. və burax. məsul K.Tahirov. Bakı: M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası, 2016, 59 s.
12. Nəcəfov E. Azərbaycan Respublikasının multikulturalizm siyasətinin onun xarici siyasətinə təsiri // "Strateji təhlil". Azərbaycan Respublikasının daxili və xarici siyasətinə və beynəlxalq münasibətlərə dair beynəlxalq analitik jurnal, № 1-2 (15-16), 2016.
13. Hüseynov S. Multikulturalizm və tolerantlığın Azərbaycan modeli: sosial-fəlsəfi yanaşma // "Dövlət və din" İctimai fikir toplusu, № 04 (45), iyul-avqust 2016, s. 16-22.
14. Abdulla K. Baxın, bu dəyərlər harada iflas etdi? // http://axar.az/news/yazarlar/56186.html, 24.062015.

Агиль Ахмедов

**РЕЛИГИОЗНЫЙ ФАКТОР И ПРАВА ЧЕЛОВЕКА В МЕЖДУНАРОДНЫХ МИГРАЦИОННЫХ ПРОЦЕССАХ**

РЕЗЮМЕ

В статье особое внимание по обеим вопросам привлекается к позиции Европы, которая серьезно влияет на критику миграционной политики и мультикультурализма. Стоит отметить, что положительный опыт Азербайджанской Республики в области миграции и мультикультурализма признается на международной арене. Историческая традиция в области мультикультурализма в Азербайджане продолжается до современного периода. А в области миграционной политики наблюдается положительная динамика. В этом смысле, опыт Азербайджана в сфере развития миграционной политики и мультикультуральных ценностей может послужить примером для Европы и других государств.

В связи с вышеуказанной проблемой в статье проведено научно-аналитическое исследование, выдвинуты предложения и рекомендации.

Agil Ahmadov

**RELIGIOUS FACTOR AND HUMAN RIGHTS IN INTERNATIONAL MIGRATION PROCESSES**

SUMMARY

This article focuses on both issues from Europe’s position, which which seriously affects the criticism of migration policy and multiculturalism. It is worth noting that the positive experience of the Republic of Azerbaijan in the field of migration and multiculturalism is recognized in the international arena. This historical tradition in the field of multiculturalism continues to the present day. There has also been observed a positive development in the field of migration policy in a short period of time. In this regard, the positive experience in the areas of migration and the development of multicultural values in Azerbaijan can serve as an example for Europe and other countries.

The scientific and analytical research have been carried out and recommendations related to this issue are shown in this article.

# BƏZİ AVROPA ÖLKƏLƏRİNDƏ DÖVLƏT-DİN MÜNASİBƏTLƏRİ

***Mehman İSMAYILOV,***
*Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin*
*Zaqatala bölgəsi üzrə şöbə müdiri,*
*ilahiyyat üzrə fəlsəfə doktoru*

***AÇAR SÖZLƏR**: dövlət-din münasibətləri, etiqad azadlığı, dini icma, dini tədris, məbədlər.*
***КЛЮЧЕВЫЕ СЛОВА:** государственно-религиозные отношения, свобода вероисповедания, религиозная община, религиозное обучение, храмы.*
***KEY WORDS**: state-confessional relations, religious freedom, religious community, religious education, temples.*

**Dövlət-din münasibətlərinin modelləri**

Dövlət-din münasibətləri deyiləndə əsasən iki model üzərində durulur: “din və dövlətin ayrı olduğu model”; “din və dövlətin qarşılıqlı əlaqə şəraitində olduğu model”. Lakin bu təsnifat dövlət-din münasibətlərini açıqlamaq üçün yetərsizdir. Çünki hər iki modelin alt qrupları vardır. Toronto Universitetinin professoru Ran Hörşl bu modelləri 8 cür təsnifləşdirir:

***1. Ateist dövlət***

Marksın “din tiryəkdir” sözündən ilhamlanan və keçmiş kommunist ölkələrində tətbiq olunmuş modeldir. Bu modelin tətbiq olunduğu ölkələrə keçmiş SSRİ, Çin və Efiopiyanı misal göstərə bilərik. Çin 1949-cu ildən başlayaraq bu modeli tətbiq etmiş, lakin 1978-ci ildə din və etiqad azadlığı maddəsini konstitusiyaya əlavə edərək dinə olan münasibətini dəyişmişdir. Sovet İttifaqı dağıldıqdan sonra Rusiyada da dini etiqad azadlığı təkrar bərpa olunmuşdur. Hazırda bu model dünyanın heç bir ölkəsində tətbiq olunmur.

***2. Məcburedici sekulyarizm***

Professor bu modelə Fransa və Türkiyəni nümunə kimi göstərir. Lakin qeyd edək ki, son illərdə Türkiyədə dövlət-din münasibətlərində xeyli dəyişikliklər olmuşdur. Ona görə də bu modeli bu gün Türkiyəyə şamil etmək olmaz.

***3. Dövlətin dinə bitərəf yanaşması: ABŞ***

Avropa kilsə ilə dövlət arasındakı mübarizənin ən uzun çəkdiyi və ən şiddətli olduğu qitədir. Bu qitədən Amerikaya köç edən mühacirlərin qurduğu ABŞ dövlətində kilsə-dövlət münasibətləri Avropa təcrübəsindən fərqli formalaşmışdır. Çünki bura gələn mühacirlər əsasən öz ölkələrində dini cəhətdən təzyiq görən insanlar idi. Məhz bu amil

ABŞ-da yuxarıdakı din modelinin yaranmasına böyük təsir göstərmişdir.

*4. Zəif dini təşkilatlanma*

Avropanın bir çox ölkəsində mövcud olan bu model rəsmi olaraq tanınsa da, əslində simvolik şəkilə bürünən dövlət kilsəsi modelidir. Almaniya, İngiltərə, Norveç, Danimarka, Finlandiya, İslandiya və s. dövlətlərin din modeli bu şəkildədir.

*5. Görünüşdə olmasa da, əslində bir məzhəb və ya dinin üstün olduğu model*

Bu modeli əsasən katolik məzhəbinin yayıldığı Latın Amerikası ölkələrinə şamil etmək olar. Həmçinin İtaliya, İspaniya, Filippin, Polşa və Maltanı da bura əlavə etmək mümkündür. Bu ölkələrin bəzi qanunlarında, xüsusilə də nikah, ailə, təhsil kimi məsələlərdə katoliklikdən götürülmüş hökmlərdən istifadə olunur.

*6. Müxtəlif mədəniyyətləri özündə birləşdirən ölkələrdə dövlət-din ayrımı*

Bu modelə daha çox köç qəbul edən ölkələrdə rastlanır. Kanada və CAR kimi.

*7. Dini qrupların öz daxili hüquqlarına tabe olması*

Xüsusilə Afrika və Asiyanın bəzi ölkələrində bu modeldən istifadə olunur. Nigeriya, Keniya, Malayziya, Hindistan, İsrail kimi. Bu ölkələrdə nikah, ailə, cənazə kimi məsələlərdə hər dini qrup öz daxili hüququnu əsas alır.

*8. Güclü təşkilatlanma – dinin konstitusiyanın ilham qaynağı olması*

Hörşl bu modeli teokratik konstitusiya quruluşu adlandırır. İran, Pakistan, Misir, Qətər, Birləşmiş Ərəb Əmirlikləri və Səudiyyə Ərəbistanı bu modelə misaldır.

Tarixdə din-dövlət, din-elm, din-cəmiyyət münasibətlərinin ən çox qarşı-qarşıya gəldiyi ərazi isə Avropa olmuşdur. Renessans və reformasiya hərəkatı ilə bu münasibətlərdə xeyli dəyişikliklər olmuş, xüsusilə də din üçün yeni libas biçilmişdir. Bu gün Avropa dünyanın ən sekulyar coğrafi məkanı adını özündə qoruyub saxlayır. Avropa ölkələrində dövlət-din münasibətləri ölkədən ölkəyə dəyişir. Bəzi ortaq xüsusiyyətlər olsa da, aralarında ciddi fərqlər də müşahidə olunur. İndi isə Avropanın bir sıra aparıcı ölkələrində dövlət-din münasibətlərinin necə tənzimləndiyinə nəzər salaq.

**Bəzi Avropa ölkələrində din-dövlət münasibətləri**

*1. Almaniya*

Əhalisi 82 milyona çatan Almaniyada təqribən 25 milyon katolik, 24,5 milyon protestant, 4 milyon müsəlman və 200 min yəhudi yaşayır. Yerdə qalan 28 milyon ya hansısa dinlə əlaqəsi yoxdur, ya da qeydiyyatda olmayan dini cərəyanlara mənsubdur. Almaniyada müsəlmanlara aid 2600 ibadət evi mövcuddur ki, bunların 150-si böyük məscidlərdir.

Xristianlıq Almaniyada əsasən III əsrdən başlayaraq yayılmış və orta əsrlərdə bütün Almaniyaya hakim olmuşdur. Həmin dövrlərdə katolik kilsəsi olduqca böyük nüfuza malik idi. Lakin islahatlar nəticəsində kilsənin gücü sarsılmış və 1803-cü ildə tarixi bir qanunla məhdudlaşdırılmışdır. 1919-cu ildə qəbul edilən Veymar Konstitusiyasına əsasən din dövlətdən ayrılmışdır. Almaniyada konstitusiyadan sonra dövlət-din münasibətlərini tənzimləyən ən mühüm sənəd katolik kilsəsi ilə dövlət arasında imzalanan Alman Konkordatıdır (latın dilində "razılaşma" mənasına gələn konkordat roma-katolik

kilsəsinin rəhbəri kimi Papa ilə hər hansı dövlətdə Roma-Katolik kilsəsini idarə edən hökumət arasında bağlanan müqavilə). Bu müqavilə kilsəyə bir çox ictimai hüquqlar vermişdir.

Almaniya konstitusiyasında dövlət dini və ya rəsmi din yoxdur. Bunun əvəzinə xüsusilə yerli idarəçilik və əyalətlər səviyyəsində dini icmalarla bağlı fərqli qanunlar mövcuddur. Konstitusiyanın 4-cü maddəsi ilə dini etiqad azadlığı təminat altına alınmışdır. Eyni zamanda, hansısa dini etiqadı, din mənsubunu və ya ideoloji cərəyan mənsublarını təhqir etmək qadağandır.

Dövlət dini fəaliyyətləri daha çox tarixi və mədəni sahələrdə maliyyələşdirir. Tarixi abidələr dövlət hesabına təmir və ya bərpa edilir, lakin yeni tikilən ibadət evləri dövlət dəstəyindən istifadə edə bilməzlər. Bu məsələdə yalnız yəhudi icması istisna təşkil edir. Holokost faciəsinə görə bütün əyalətlər yəhudilərə maliyyə yardımı göstərməyi özlərinə borc bilirlər. Federal Hökumət Mərkəzi Yəhudi Komitəsinə hər il 5 milyon avro məbləğində maddi yardım göstərir.

Almaniyada dini icmaların qeydiyyata alınması məcburi deyildir. Lakin vergi verməkdən azad olmaq üçün dini icma kimi qeydiyyatdan keçmək şərtdir.

Almaniyada din dövlətdən ayrıdır, bununla yanaşı, dövlətlə "ictimai hüquqa tabe qurumlar" statusu daşıyan dini icmalar arasında imtiyazlı əlaqələr mövcuddur. Hər bir dini təşkilat "ictimai hüquqa tabe qurum" statusu almaq üçün müraciət edə bilər. Bu status sayəsində onlar bir çox imtiyaz əldə edir, həbsxanalarda, xəstəxana və hərbi düşərgələrdə dini kadrları yerləşdirmə imkanı qazanırlar. Artıq 180 katolik, protestant və yəhudi dini icmalarına belə status verilmişdir. Lakin heç bir müsəlman dini icması bu cür statusa malik deyil. Buna səbəb kimi isə müsəlmanların vahid təşkilat halında birləşməmələri göstərilirdi. Lakin 2007-ci ildə dörd böyük müsəlman təşkilatı Müsəlman Koordinasiya Komitəsini yaratsalar da, hələ də bu statusu ala bilməmişlər.

Konstitusiyanın 7-ci maddəsinə əsasən dövlət məktəblərində din tədris olunur. Almaniyada məktəblər protestant və katolik kilsələri, eyni zamanda müraciət əsasında müəyyən sayda yəhudi sinaqoqları ilə qarşılıqlı əlaqə quraraq din dərsi keçilir. Bunlarla yanaşı, İslam dini tədris olunan siniflər də vardır və bunların sayı getdikcə artmaqdadır. Təhsil əyalətlərin səlahiyyəti altında olduğu üçün İslam dini tədrisinin məzmunu da əyalətdən əyalətə dəyişir. Məsələn, Hessen əyalətində təhsildə bitərəf qalmaq şərtdirsə, Saarland əyalətində dini dərslər Xristianlıq dəyərləri əsasında keçirilir.

Almaniya Konstitusiyasında dini simvolların istifadəsinə dair heç bir maddə mövcud deyildir. Dövlətin rəsmi dini olmadığı üçün dini bayramlar qeyri-iş günü hesab edilmir. Lakin əyalətlər dini bayramları qeyri-iş günü elan edə bilərlər. Bu da əyalətdən əyalətə dəyişir.

Almaniyada dini nikah rəsmi nikahdan sonra qıyıldığı və hüquqa zidd olmadığı halda qəbul edilir. Əks təqdirdə dini nikah məqbul sayılmır. Hər nə qədər hökumət dini simvol və geyimləri qadağan etməsə də, əyalətlərdə bunların, xüsusilə də müəllimlərin baş örtüklərinin qadağan edilməsi müşayiət olunur.

***2. Böyük Britaniya***

Əhalisi 63 milyon nəfər olan Böyük Britaniyada 2003-cü ildə aparılmış statistikaya görə, ölkə əhalisinin 29%-ni anqlikanlar, 10%-ni katoliklər, 14 %-ni protestantlar və 3 %-ni müsəlmanlar təşkil edir. Hindular, yəhudilər, siqhlər və buddistlərin hər biri ayrı-ayrılıqda ölkə əhalisinin 1%-ni təşkil edirlər.

Ölkədə dövlət-cəmiyyət əlaqələrini tənzimləyən, əsas hüquqları və etiqad azadlığını təmin edən bir çox tarixi konstitusiya mətnləri mövcuddur. Böyük Britaniyanın tərkibində olan ölkələrin hər birində dini məsələlərin tətbiqində fərqlər mövcuddur. Məsələn, İngiltərədə iki dövlət kilsəsi – İngiltərə kilsəsi (Anqlikan) və Şotlandiya kilsəsi vardır. Lakin Şotlandiya, Şimali İrlandiya və Uelsin rəsmi dövlət dini yoxdur. 1921-ci ildə qəbul olunan Şotlandiya kilsə qanununda Şotland kilsəsinin Şotlandiyanın milli kilsəsi olduğu bildirilsə də, burada (qanunda) dövlətlə əlaqəsinə dair hansısa ifadə mövcud deyildir.

İngiltərə kilsəsinin nümayəndələrini vəzifəyə Baş nazirin, o cümlədən həm din xadimləri, həm də qeyri-din xadimlərindən ibarət olan Krallıq Komissiyasının tövsiyəsi ilə kral və ya kraliça təyin edir. Şotlandiya kilsəsi isə öz nümayəndələrini Şotlandiya kilsə qurultayı vasitəsi ilə özü təyin edir.

İngiltərədə rəsmi dövlət kilsəsi olan Anqlikan kilsəsi bəzi hüquqlara malikdir. Məsələn, kral və ya kraliça taxta çıxdıqda ona tacı baş yepiskop qoyur. Oksford, Harvard, Kembric və Durham kimi universitetlərdə kilsənin müəyyən sayda professorları fəaliyyət göstərirlər. Lordlar palatasında 26 yer yepiskoplara aiddir. İngiltərədə kraliça hələ də kilsənin başçısı sayılır.

İngiltərədə Daxili İşlər Nazirliyinin nəzdində Dini İcmalar Birliyi (Faith Communities Unit) fəaliyyət göstərir ki, bu qurumun əsas işi hökumətlə dini icmalar arasında əlaqə yaradaraq, hökumət siyasətinin bu icmalara doğru şəkildə tətbiq olunmasını təmin etməkdir. Bu qurum, həmçinin dini məsələlərlə bağlı Baş nazirə yardım göstərir və öz tövsiyələrini təklif edir, bundan başqa, dini icmaların sivil həyatda iştirakını təmin edir, dinlər və inanclar arasında, xüsusilə də gənclər arasında dini dialoqu gücləndirir, dini nifrətdən qaynaqlanan cinayətləri araşdırır.

Dini qurumların əksəriyyəti xeyriyyəçi təşkilatlar kimi fəaliyyət göstərirlər. Qazanclarını xeyriyyəçilik üçün sərf etdikləri müddətcə onlardan hər hansı bir vergi tutulmur.

Daxili İşlər Nazirliyinin 2001-ci ildə nəşr etdiyi raportda İngiltərə kilsəsinin mövcudluğunun digər dini qrupların əleyhinə olduğu bildirilir. Belə ki, yuxarıda da qeyd olunduğu kimi, İngiltərə kilsəsinin 26 yepiskopu Lordlar Palatasının üzvüdür.

İngiltərədə dini icmaların öz dini qayda-qanunlarına görə əməl etmə faizi olduqca aşağıdır. Müsəlmanlar nikah, maliyyə və dini məsələlərdə İslam şəriətinə görə hərəkət edə bilərlər. İngiltərədə belə qanunları tətbiq edən 85 məhkəmənin mövcud olduğu söylənilir. Şimali İrlandiya və Şotlandiyada şəriətin tətbiqinə çox az rastlanır.

İngiltərədə, həmçinin "Din Bes" adlanan və yüz illərdən bəridir ki, fəaliyyət göstərən yəhudi şəriət məhkəmələri də mövcuddur. Bu məhkəmələr yəhudilər arasında fəaliyyət göstərir, kirə, maliyyə, nikah və s. kimi məsələlər burada həll olunur. Bu məhkəmələrə müraciət edənlərin yəhudi olması şərtdir.

Dini icmalar dini xidmət göstərmək üçün dövlətdən heç bir yardım almırlar. Lakin bu icmaların hər biri cəmiyyətlə əlaqəli işlərdə və xeyriyyəçilik məsələlərində dövlətdən yardım tələb edə bilərlər. Belə ki, onlar Bölgə Nazirlikləri Ofisi, Nazirlər Kabineti, Təhsil və Səhiyyə Nazirlikləri nəzdindəki müvafiq qurumlara bu məsələ ilə bağlı müraciət etmə hüququna malikdirlər. Dövlət ölkədəki bütün ibadətxanaların təmiri üçün yardım ayırır.

Böyük Britaniyada orta məktəblərdə din tədris olunur. Lakin din tədrisi proqramı müvafiq yerli rəhbərliklər tərəfindən hazırlanır. Müvafiq yerli orqanların hazırladıqları dini tədris proqramında digər dinlərə yer verilsə də, əsasən Xristianlıq üstünlük təşkil etməlidir. Proqram müəyyən bir dini əsas almamalı və şagirdləri din dəyişdirməyə həvəsləndirməməlidir. Valideynlər uşaqlarının dini dərslərdə iştirak edib-etməməsi məsələsində sərbəstdirlər.

İngiltərə və Uels məktəblərində günlük toplu dualar edilir. Bu dua əsasən xristian duası olur. Lakin məktəb rəhbərliyinin icazəsi ilə qeyri-xristian duası da oxuna bilər.

Böyük Britaniyadakı məktəblərin 30%-ni dini xarakter daşıyan məktəblər təşkil edir. Təkcə İngiltərədə 7000-dən çox dini məktəb vardır. Eyni zamanda, hindu, müsəlman, siqh və buddist məktəbləri də mövcuddur.

Britaniya qanunları dini geyim və simvolları qadağan etmir. Britaniyada dövlət dini bayram kimi Müqəddəs Cümə, Pasxa və Noel bayramlarını tanıyır.

***3. Fransa***

Əhalisi 66 milyon nəfər olan Fransada din dövlətdən ayrı olduğu üçün dövlət vətəndaşların dini mənsubiyyətinin xüsusi statistikasını aparmır. Lakin Katolik “La Croix” qəzetinin 2009-cu ildə nəşr etdiyi anketdə bildirilir ki, ölkə əhalisinin 64%-ni katoliklər təşkil edir. Fransada 5-6 milyon müsəlman yaşamaqdadır ki, bu da ölkə əhalisinin 8-10%-i deməkdir. Ölkədə dövlət-din münasibətlərini tənzimləyən iki mühüm tarixi hadisə vardır ki, bunlardan birincisi 1789-cu il inqilabı, ikincisi isə 1905-ci ildə dünyəviliyin qanun kimi qəbul olunmasıdır.

Dini etiqad azadlığı konstitusiya və digər qanunlarla təminat altına alınmışdır. Burada insanların dinlərini sərbəst şəkildə seçmə, dəyişdirmə və yaşama hüquqları öz əksini tapmışdır. Fransa Konstitusiyasına görə, irqindən və dinindən asılı olmayaraq hər bir vətəndaşın dini etiqadına hörmət bəslənilməlidir. Dini etiqad azadlığını pozanlar məsuliyyətə cəlb olunurlar.

Dini icmalar vergidən azad olmaq və rəsmi tanınmaq üçün qeydiyyatdan keçməlidirlər. Qeydiyyatdan keçən dini icmalar iki kateqoriyaya bölünürlər: ibadət dərnəkləri (vergidən azaddırlar) və mədəni dərnəklər (vergidən azad deyillər). İbadət dərnəkləri yalnız dini ayinləri həyata keçirirlər. Vergidən azad olmayan mədəni dərnəklər isə gəlirli sahələrdə fəaliyyət göstərə və təhsil, mədəniyyət sahəsində göstərdikləri fəaliyyətin qarşılığında dövlətdən maddi dəstək ala bilərlər. Dini icmalar hər iki kateqoriya üzrə də qeydiyyatdan keçirlər. Məsələn, mormonlar ibadət dərnəkləri vasitəsilə ibadət fəaliyyətlərini yerinə yetirir, digər tərəfdən isə mədəni dərnəklər vasitəsilə məktəblər açırlar.

Fransada yerli icra hakimiyyətləri 1905-ci ildə dini dövlətdən ayıran və dini icmaların maliyyələşdirilməsini qadağan edən qanundan əvvəl tikilən məbədlərə sahib çıxıb bunları mühafizə edirlər. Sadəcə xüsusi statusa malik olan Alsas və Mozeldə yerli icra hakimiyyətləri tərəfindən məbədlərin inşasına maliyyə dəstəyi göstərilməsinə icazə

verilir. Ölkədə mövcud olan 55 min Katolik kilsəsindən 16 mini tarixi abidədir və onların da yalnız 95-i dövlətə məxsus kafedrallardır. Dövlət katolik ibadətxanaları xaricində heç bir ibadətxanaya sahib deyildir. Dövlət ibadət evlərinin tikintisi üçün birbaşa maliyyə yardımı göstərmir, bu məsələdə bəzi imkanlar yaradır. Məsələn, dini icmalara kreditlər və ya sərfəli qiymətə torpaq sahələri verilir. İbadət evləri, eyni zamanda vergidən də azaddır.

Din dərsinin tədrisi ibtidai siniflərdə qadağan olunsa da, yuxarı siniflərdə valideynlərin tələbi ilə kiçik kilsə (şapel) açıla bilər. Maraqlı fakt ondan ibarətdir ki, Fransada məktəblərin 18%-i özəldir və bu özəl məktəblərin 90%-i katolik kilsəsinə, digərləri isə protestant, yəhudi və digər dini icmalara məxsusdur.

İctimai məktəblərdə din tədris olunmur. Burada yalnız dini-tarixi məlumatlar öyrədilir. Ailələr öz uşaqlarını evdə dini cəhətdən tərbiyə edə bilərlər, lakin bu tərbiyə ümumi təlim-tərbiyə standartlarına zidd olmamalıdır.

Fransa qanunlarına görə, dövlət din xadimlərinə maaş vermir. Lakin kilsə və dini dərnəklərə bağlı qurumlar müxtəlif vergiləri ödəməkdən azaddırlar. Dövlət məktəblərində təhsil dünyəvidir. Ölkə qanunlarına əsasən, dövlət məktəblərində çalışanların dini simvollardan istifadə etməsi, yəhudi kipası, müsəlman baş örtüyü və siqh örtüyü geyinməsi, böyük xristian xaçı taxması qadağandır.

2011-ci ilin oktyabr ayının 11-də ictimai yerlərdə üzün bağlanmasının qadağan edilməsi haqqında qanun qəbul olunmuşdur. Konstitusiya Məhkəməsi də bu qanunun Konstitusiyaya uyğun olduğunu bildirmiş, lakin yalnız ibadət yerlərində bunun qadağan olunmadığını təsdiqləmişdir. Dini nikah bağlamaq istəyənlər əvvəlcə dövlət nikahına daxil olmalıdırlar. Fransada aşağıdakı dini bayramlarda tətil günü elan olunur: Pasxa, Göyə Yüksəlmə Günü, Qəbul Günü, Bütün Müqəddəslər Günü və Noel.

***4. Hollandiya***

Hollandiyanın əhalisi təqribən 17 milyon nəfərdir. Əhalinin 51,4 %-i dinə etiqad edir. Dindarların 43,4 %-ni xristianlar (katolik və protestantlar), 5,7 %-ni müsəlmanlar və 2,3 %-ni isə digər din mənsubları (hindu, yəhudi, buddist) təşkil edir.

Hollandiya Krallığının dövlət quruluşu konstitusiyalı monarxiyadır. Konstitusiyada hər nə qədər iki kraldan (qadın və kişi) bəhs edilsə də, XX əsrdə dövlət başçıları hər zaman qadınlar olmuşdur. Tarixi 1813-cü ilə gedib çıxan Hollandiya monarxiyası bu gün ölkədə birlik və bərabərliyin ən mötəbər simvolu olmasına baxmayaraq, tarixdə bu vəzifəni bir o qədər də yerinə yetirə bilməmişdir. Krallıq son dövrlərə qədər kalvinistlərə daha xoş münasibət bəsləmişdir. Ona görə də vaxtaşırı ölkədəki katoliklərlə protestant meyilli hakimiyyət arasında problemlər yaşanmışdır. 1814-cü il Konstitusiyasına əsasən monarx protestant olmalıdır. Lakin bu maddə 1815-ci ildə Konstitusiyadan çıxarılmışdır. İki əsrdir ki, Konstitusiyada monarxın dini mənsubiyyəti barədə heç nə yazılmır.

Avropa ölkələri arasında tolerantlığı və etiqad azadlığı ilə ön plana çıxan dövlətlərdən biri olan və 1876-cı ildən ölüm hökmünü ləğv edən Hollandiya XVII əsrdən təzyiq görmüş dini qrupların sığındığı “mühacir Cənnəti” hesab olunur. Amerika Birləşmiş Ştatlarına ilk dəfə mühacirət edənlərdən sayılan pilqremlər (hacılar) İngiltərədə təzyiq gördükləri üçün bu ölkəyə pənah gətirmiş və Amerikaya buradan getmişlər. Həmçinin İngiltərədən qaçan puritanlar da Amerikaya köç etməzdən əvvəl Hollandiyaya sığınmışlar. Bundan başqa, orta əsrlərdə və faşizm dövründə sıxışdırılan yəhudilərin də qurtuluş məskəni bu ölkə

olmuşdur. XX əsrdə isə müstəmləkə ölkələrindən Hollandiyaya gələn müsəlmanlar da buradakı dini etiqad azadlığından öz xeyirlərinə istifadə etmişlər.

Hollandiyada dini parçalanma bir çox Avropa ölkələrindəki kimi protestant islahatları nəticəsində baş vermişdir. Bu islahatlardan sonra ölkə katolik cənub və protestant şimala bölünmüşdür. Protestantlar da öz aralarında Lüteran Kalvinist və Menonitlər kimi qruplara ayrılmışlar. Bütün bunlara baxmayaraq, Avropanı din savaşları bürüdükdə belə, bu ölkədə dini tolerantlıq qorunub saxlanılmışdır.

Hollandiya dinin dövlətdən ayrıldığı ilk Avropa ölkələrindəndir. Bu istiqamətdə ilk addımlar 1814 və 1815-ci il Konstitusiyaları ilə atılmış və 1853-cü ildə qəbul olunan qanunla daha da təkmilləşdirilmişdir. Dövlətin rəsmi dini olmadığı Hollandiyada dini etiqad azadlığı ən son 2002-ci ildə qəbul edilən Konstitusiya ilə təmin edilmişdir.

Konstitusiyanın 1-ci və 6-cı maddələri ilə dini etiqad azadlığı sərbəstdir. Lakin Konstitusiyaya görə, sağlamlıq, qəza riski və ictimai asayişin pozulması kimi hallarda dini etiqad azadlığına müdaxilə edilə bilər. Dini və etnik çalara əsaslanan nifrət hisslərini aşılamaq cinayət məsuliyyətinə cəlb edilmə ilə nəticələnir.

Dini icmaların qeydiyyatdan keçmələri məcburi deyildir. Lakin dini icmalar qanunla tanınır və onlar vergidən azaddırlar. Dini icmalar məktəb, xəstəxana, nəşriyyat və s. aça bilərlər.

Müsəlman icmaları arasında türkiyəli müsəlman icmalara imtiyazlar verilmişdir. Belə ki, Hollandiya ilə Türkiyə arasındakı müqaviləyə əsasən, bu ölkədəki 200-ə yaxın məscidin imamları Türkiyə Diyanət İşləri Nazirliyi tərəfindən təyin edilir.

Ölkədə orta məktəblərdə din dərsi tədris olunur. Konstitusiyada dini geyim, dini simvol və ayinləri qadağan edən hər hansı bir maddə yoxdur.

Dövlət dini bayramlardan Müqəddəs Cüməni, Pasxanı, Göyə Yüksəlmə Gününü, Pentekost və Noeli tanıyır.

***5. Belçika***

Əhalisi 11 milyon nəfərdən çox olan Belçikada 2010-cu ildə “Le Soir” qəzetinin nəşr etdiyi anketə görə əhalinin təqribən 60%-ni katoliklər, 4 %-ni müsəlmanlar, 2%-ni protestantlar, 1 %-ni yəhudilər, 2 %-ni digər din mənsubları, 31 %-ni isə ateistlər təşkil edir. Belçika Konstitusiyası 1831-ci ildə liberallarla katoliklərin uzun müddət apardıqları müzakirələr nəticəsində hazırlanaraq qəbul edilmişdir.

Belçika Konstitusiyası dini etiqad azadlığını qəbul etsə də, məzhəblər və təriqətlərə baxışı birmənalı deyildir. 2007-ci ildə qəbul edilən “Ayrı-Seçkiliklə Mübarizə” Qanunu digər məsələlərlə yanaşı, dini və fəlsəfi cəhətdən ayrı-seçkiliyi də qadağan edir.

Dövlət katoliklərə, müsəlmanlara, yəhudilərə, protestantlara, anqlikanlara və ortodokslara “tanınmışdır” statusu vermişdir. Bu dinləri təmsil edən təşkilatlar dövlətdən maliyyə dəstəyi alırlar. Dini icmaların hər nə qədər bərabərhüquqlu olduğu söylənsə də, Katolik kilsəsi bərabərhüquqlular içərisində xüsusi imtiyazlara malikdir. 2001-ci ildə Konstitusiya islahatları ilə hökumət dini icmaların maliyyə yoxlamalarını, dini təhsili, ibadətxanaların inşası və təmiri kimi bəzi məsələləri yerli icra hakimiyyətlərinin öhdəsinə buraxmışdır. Belçikada, eyni zamanda sekulyar fəlsəfi qruplar və ya onların təmsilçisi olan Qeyri-Dini Fəlsəfi Cəmiyyətlər Mərkəzi

Komitəsi də dövlətin maliyyə dəstəyindən faydalana bilir.

Belçika dövləti bir dini icmanı rəsmi olaraq tanımaq üçün aşağıdakı kriteriyaları irəli sürür:

1. Dini icmanın öz içərisində iyerarxiya olmalıdır;
2. Kifayət qədər üzvü olmalıdır;
3. Həmin dinə uzun müddətdən bəri ölkədə sitayiş olunmalıdır;
4. Cəmiyyətə sosial dəyərlər bəxş etməlidir;
5. Dini icmanın fəaliyyəti dövlət qanunlarına və ictima rəyə zidd olmamalıdır.

Qeydiyyatdan keçmək istəyən dini icma Ədliyyə Nazirliyinə müraciət edir. Ədliyyə Nazirliyi isə öz növbəsində müraciətə baxır, həmin dini icmanı incələyir, bundan sonra onun müraciətini ya qəbul, ya da rədd edir. Lakin təsdiq üçün son qərar Parlamentə məxsusdur. Parlament əksər hallarda Ədliyyə Nazirliyinin qərarını təsdiqləyir.

Belçika təhsil qanununa görə, dini tədris edən müəllimlər istisna olmaqla digər bütün müəllimlər dini məsələlərdə ciddi şəkildə bitərəf qalmalıdırlar. Din və ya əxlaq təhsili məktəblərdə məcburidir. Lakin məktəbli hansı dini öyərənəcəyini seçmə hüququna malikdir. Din dərsinin əvəzinə əxlaq dərsi də seçilə bilər.

1993-cü ildə qurulan İrqçiliklə Mübarizə və Bərabərlik Mərkəzi 2009-cu ildə dini geyim və simvollarla bağlı raport hazırlamışdır. Bu raport nəticəsində aydın olmuşdur ki, dini geyim və simvollar qeyri-dövlət təşkilatlarından başlayaraq silahlı qüvvələrə, dövlət tədris müəssisələrindən özəl müəssisələrə və digər iş yerlərinin hər birində fərqli-fərqli tətbiq olunur. Ölkədə dini geyim və simvolları qadağan edən hansısa qanun yoxdur. Lakin yerli icra hakimiyyətlərinin, xüsusilə müsəlmanların geyim tərzi ilə bağlı bəzi qadağalar tətbiq etdikləri müşahidə edilir. 2010-cu ilin məlumatına görə, ölkənin Valloniya bölgəsində 39, Flandriya bölgəsində 17, Brüsseldə isə 5 məscid fəaliyyət göstərir.

Belçika hökuməti aşağıdakı dini bayramları rəsmi şəkildə qeyd edir: Pasxa, Göyə Yüksəlmə Günü, Məryəmin Qəbul Edilişi, Bütün Müqəddəslər və Milad.

## ƏDƏBİYYAT


1. Orçun İmga. Tarihi ve Felsefi Temeller. Amerikada Din ve Devlet. Ankara: Liberte Yayınları, 2010.
2. Orçun İmga. Hollandada Din-Devlet İlişkileri ve Kilse-Devlet Ayrılığı // Dumlupınar Üniversitesi Sosyal Bilimler Dergisi, sayı 29, nisan 2011, s. 195-202.
3. Ran Hirschl. “Comparative constitutional law and religion”, Comparative Constitutional Law, ed. Tom Ginsburg, Edward Elgar Publishing, Inc., Massachusetts, 2011, p. 422-440.
4. Türkiye Büyük Millet Meclisi Araştıma Merkezi, Bazı Avrupa Ülkelerinde Din ve Devlet İlişkisi, kasım, 2011.
5. Şule Albayrak. “Batı Ülkelerində Din-Devlet İlişkilerindeki Alternatif Modeller ve Türkiye Örneği” // Marmara Üniversitesi İlahiyat Fakültesi Dergisi, sayı 48, haziran 2015, s. 185-198.
6. Hale Akay. “Devlet-Din Ekseninde Özgürlükler, Hizmetler ve Finansman” // Gündelik Hayatta Laiklik Pratikleri, Helsinki Yurttaşlar Derneği, haziran 2011, İstanbul.
7. Yümni Sezen. İslamın Sosyolojik Yorumu. İstanbul: 2004.
8. Ünver Günay. Din Sosyolojisi. İstanbul: İnsan Yayınları, 1998.
9. Silvio Ferrari. İslam ve Din-Devlet İlişkilerinde Batı Avrupa Modeli (çeviri: Mehmet Salih Kumaş) // Uludağ Üniversitesi İlahiyat Fakültesi Dergisi, cild 13, sayı 1, 2004, s. 303-319.

Мехман Исмаилов

## ГОСУДАРСТВЕННО-РЕЛИГИОЗНЫЕ ОТНОШЕНИЯ В НЕКОТОРЫХ ЕВРОПЕЙСКИХ СТРАНАХ

АННОТАЦИЯ

В результате происходящих в мире процессов государственно-религиозные отношения продолжают сохранять свою актуальность. Существует несколько моделей регулирования государственно-религиозных отношений. В разных странах мира мы сталкиваемся с различными моделями. В статье рассказывается об этих моделях, дается информация об отношении некоторых европейских государств к религии, о конституционных статьях, касающися религии, о деятельности религиозных общин в этих странах.

Mehman Ismayılov

## STATE-CONFESSIONAL RELATIONS IN SOME EUROPEAN COUNTRIES

ABSTRACT

The state-confessional relations continue to remain its relevance as a result of occurring processes in the world. There are several regulatory models of state-confessional relations. We confront with different models across the world. The article tells us about these models, provides information about the attitude of some European countries to the religion, the constitutional articles related to religion, the activities of religious communities in these countries.

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Jurnalı

# İSLAMDA REFORM HƏRƏKATLARI: TARİXİLİK VƏ MÜASİRLİK

**_Elsevər SƏMƏDOV,_**
*AMEA-nın Fəlsəfə İnstitutunun aparıcı elmi işçisi, fəlsəfə üzrə fəlsəfə doktoru,*
*elsever79@hotmail.com*

***AÇAR SÖZLƏR:*** *fundamentalizm, bərabərlik, liberalizm, reform.*
***КЛЮЧЕВЫЕ СЛОВА:*** *фундаментализм, равенство, либерализм, реформа.*
***KEY WORDS:*** *fundamentalism, equality, liberalism, reform.*

XVI-XVII əsrlərdə Qərbdə başlayan elmi, texniki, sosial inkişaf və dəyişikliklər İslam dünyasını da təsiri altına alırdı. Bu tərəqqi və dəyişiklik mühitində İslam dünyasının da oyanma zamanı yetişmişdi. Çünki Şərqlə Qərbi daim bir-birindən ayırmağa çalışsalar da, əslində, hər ikisi bir bütünün tərkib hissələrini təşkil edir. Orta əsrlərdə Şərqdən ilham alan Qərb tərəqqi dövrünü yaşadığı halda, XIX əsrdə İslam dünyasının ziyalıları inkişafdan geri qalmış mədəniyyətlərini yenidən ayağa qaldırmaq üçün Qərbin orta əsrlərdəki təcrübəsinə müraciət edərək, geriləməkdə olan İslam dünyasını oyandırmağa çalışırdılar. İslam modernizmi də məhz bu dövrdə ortaya çıxmışdı. Klassik modernizmin Yaxın Şərq və Hindistanda iki böyük qolu mövcud idi. Bunların başında Misir, Suriya və Türkiyədə nüfuz qazanan Cəmaləddin Əfqani və Məhəmməd Abduh dururdu. Hindistanda isə Seyid Əhməd Xan Yaxın Şərqdə fəaliyyət göstərən həmkarlarından fərqli metod izləyirdi. Belə ki, Yaxın Şərq mötəzilənin əql anlayışına üstünlük verməyə çalışarkən, Əhməd Xan İslam filosoflarının rasionalizmini həyata keçirmək istəyirdi. Qeyd etmək lazımdır ki, klassik modernizmin təsirləri olduqca böyük idi. Hindistanda Seyid Əmir Əlinin *"İslamın ruhu"* [1] adlı əsəri modernizm xətti ilə müdafiə metodunu ortaya qoymuşdu. Məhəmməd İqbal isə İslam modernizmini təbliğ edərək, *"İslamda dini təfəkkürün yenidən təşəkkülü"* [2, s. 240] adlı əsəri ilə dini-siyasi və ideoloji doktrinasını irəli sürmüşdür.

Ümumiyyətlə, XIX əsrin sonları-XX əsrin əvvəlləri İslam dünyasının hər tərəfində modernizmin izləri görünürdü. Bu oyanma və reform izləri çar Rusiyasının müstəmləkəçiliyi altında olan müsəlman cəmiyyətlərində də müşahidə edilirdi. Rusiyanın tərkibində yaşayan türk xalqlarının milli oyanış sədaları bütün çar Rusiyasına yayılmışdı. Azərbaycana da öz təsirini göstərən bu milli oyanış tarixə *"cədidçilik"* və ya *"üsuli cədid"* kimi düşmüşdür. Oyanış hərəkatının liderləri arasında Əbdünnasr Kursavi, Şəhabəddin Mərcani, Kuyum Nasiri, Musa Carullah Bigiyev, Hüseyn Feyzixan kimi ziyalıların adını çəkə bilərik [3, s. 101]. Krım tatarı İsmayıl bəy Qaspıralı da bu hərəkatın rəhbərlərindən biri kimi ictimai əlaqələri vasitəsilə çağdaş düşüncəni öz camaatına və qardaş qəbul etdiyi

xalqlara çatdırmağı arzulayırdı [4, s. 201]. Təbii ki, oyanış hərəkatının liderləri xalqı avropalaşdırmaq üçün deyil, Avropadakı inkişafdan istifadə edərək müsəlman cəmiyyətinə itirdiyi gücü yenidən qazandırmaq üçün çalışırdılar [5, s. 94].

Şübhəsiz onların düşüncələri Azərbaycan ziyalılarına da təsir göstərmişdir. Xüsusilə, İsmayıl bəy Qaspıralının ziyalılarımıza təsiri böyük olmuşdur. Onun dəstəklədiyi cədid məktəbləri sayəsində Bakı əsas cədid təhsili verən mərkəz halına gəlmişdir (1905) [6, s. 278]. Bununla yanaşı, Azərbaycanda XIX əsrin sonlarında zəngin tacirlərin və ziyalıların dəstəyi ilə "üsuli cədid" məktəbləri açılmışdır. Seyid Əzim Şirvani tərəfindən açılan cədid məktəblərinin davamçıları arasında Mirzə Rza, Molla İbrahim Xəlil, Molla Əbuhəsən və Mirzə İsmail Qüdsi kimi maarifçilər də olmuşdur [7, s. 76-77].

Ümumiyyətlə, XIX əsrin ikinci yarısından başlayaraq Azərbaycanın bütün sosial-mədəni həyatını dəyişdirən əhəmiyyətli hadisələr baş vermişdir. Avropada, Rusiyada və Türkiyədə təhsil alan bir qrup insan Azərbaycanın sosial-mədəni həyatını dəyişdirməyə çalışmışlar. Bu dövrdə Mirzə Fətəli Axundov, Həsən bəy Zərdabi, Əbdürrəhim bəy Haqverdiyev, Nəriman Nərimanov, Əlimərdan bəy Topçubaşov, Cəlil Məmmədquluzadə, Mirzə Ələkbər Sabir, Nəcəf bəy Vəzirov və s. kimi mütəfəkkirlər yetişmiş, bu ziyalılar cəmiyyətin inkişafı və dəyişməsi naminə maarifçilik missiyalarını uğurla həyata keçirmişlər. Onlar İslam dünyasında baş verənlərdən təsirlənərək sosial-mədəni həyatın inkişafı istiqamətində reformist düşüncələri təbliğ edən bir çox işlər görmüşlər. Onların elm və ədəbiyyat sahəsindəki nəhəng əsərləri əsasən dövrün problemlərini əks etdirirdi. Bu ziyalılar öz əsərlərində əsasən Azərbaycan xalqının maariflənməsinə, milli-mənəvi dəyərlərin aşılanmasına, dini həyatın doğru istiqamətdə formalaşmasına çalışmışlar. Onlar xalqın inkişafını təhsildə görür, yeni məktəblərin açılması uğrunda mübarizə aparırdılar. Maarifçi ideoloji cərəyanın meydana gəlməsində mühüm rol oynayan bu ziyalılar onun yayılıb, inkişaf etməsi üçün də əllərindən gələni əsirgəməmişlər [8, s. 193].

Lakin bəzi tədqiqatçılar Məhəmməd Abduhdan sonra klassik İslam modernizminin gücünü itirdiyini qeyd edirlər [9]. Hamilton Qibb klassik modernizmin bu səbəblərə görə uğur qazanmadığı fikrindədir: 1) modernistlər sosial inkişaf və xalq kütləsinin dərin psixologiyası arasında tarazlıq qura bilməmişdilər; 2) tarixi tənqid metodunu istifadə etməmişdilər; 3) Qərbi bir bütün olaraq qəbul edə bilməmişdilər. Məsələn, Qərb rasionalizmindən az təsirləndikləri halda, millətçilik baxımından Qərb romantizminin təsiri altına düşmüşlər [10].

Hamiltonun klassik modernizmin uğursuz nəticələri ilə bağlı yürütdüyü fikirlərdə müəyyən həqiqətlər olsa da, klassik modernizm təmsilçilərini emosionallıqda ittiham edərək, onların romantizmin təsiri altında qalmalarını söyləməsi o qədər də həqiqətə uyğun deyil. Çünki istər Məhəmməd İqbal, Cəmaləddin Əfqani, Məhəmməd Abduh, istərsə də Rusiya tatar müsəlmanları – Musa Cərullah Biqiyev, İsmayıl bəy Qaspıralı və digərləri İslam dünyasının oyanması və tərəqqisi üçün konkret addımlar atmışlar. Onların, xüsusən maarifçilik sahəsində xidmətləri danılmazdır. Onların əksəriyyəti ideyalarını yaymaq üçün İslam dünyasını gəzərək, getdikləri yerdə maarifləndirici jurnal və ya qəzetlər nəşr etdirərək missiyalarını yerinə yetirməyə çalışmışlar. Lakin sürətlə inkişaf edən Qərb öz

kapitalını artırır, hər gün yeni torpaqlar ələ keçirir və qarşılığında daha da inkişaf edirdi. Buna görə də marafonda Qərbin arxasınca qaçan Şərq bütün cəhdlərinə baxmayaraq, ona çata bilməmişdir.

1930-cu ildən sonra getdikcə güclənən və bəzi İslam ölkələrində siyasi güc halına gələn hərəkatlar bəzən klassik modernizm sonrası ihya hərəkatları, bəzən isə neo-fundamentalizm adlandırılırdı. Yeni reformistlərə görə, Qərb tutqunluğundan uzaqlaşmadıqca xalis müsəlman kimi formalaşmaq mümkün deyildir. İslam mütəfəkkiri Fazlürrahman Malik yeni reformistlərin müsbət yönlərini qeyd edərkən bildirir: *“Bu hərəkatlar nəticəsində sosial-siyasi və iqtisadi məsələlərin müsəlmanlar tərəfindən ciddiyə alınması xalqçılıq və demokratiyanın inkişafına, nəticədə isə azadlığın əldə edilməsinə imkan yaratmışdır. Klassik modernizmin bəzi ifrat cəhətlərini və xətalarını aradan qaldırmışdır. Müasir İslam təhsilinin formalaşmasını təmin etmişdir. Ayrıca, bəzi yerlərdə adət-ənənəçiliyin gücünü azaltmışdır”* [11, s. XIX].

Fazlürrahman, eyni zamanda yeni reformistlərin mənfi tərəflərini də göstərmişdir. O, yeni reformistlərin (ihyaçıların) İslam dünyasının problemlərini həll edən bir hərəkat olmadığını bildirmişdir. Ən əsası isə yeni reformistlərin intellektualizm və rasionalizmdən uzaq olduqlarını açıq şəkildə ifadə etmişdir. O, misirli radikal ideoloq Seyyid Qutb (1906–1966), “Müsəlman Qardaşları Birliyinin qurucusu Həsən əl-Bənna (1906–1949) və cihada ilk dəfə sistematik yanaşan, Pakistanın Hindistandan ayrılması üçün mübarizə aparan Mövdudi (1903-1979) kimi yeni ihyaçıları nəzərdə tutaraq bu fikirləri söyləmişdir [12, s. 44-46].

Müasir İslam modernizmi isə hələlik təşkilati bir forma qazanmamışdır. Bir çox tədqiqatçılara görə, müasir modernizmin ən görkəmli siması məhz Fazlürrahmandır. İslamın önəmli problemlərini yeni müstəvidə şərh etməsi, Qurani-Kərimin bəzi ayələrinin təfsir olunması probleminə yeni müstəvidən yanaşması, ictihad qapılarının açılması məsələsinə münasibəti və s. yanaşmaları onun modernist olduğu qənaətini yaradır.

Ancaq ondan başqa da müasir dövrdə İslamda reformasiyanın labüdlüyünü xüsusi vurğulayan bir çox mütəfəkkirlər vardır. Bu mütəfəkkirləri ideya və dini dünyagörüşləri baxımından iki istiqamətdə dəyərləndirmək mümkündür:

- Birinci qrup mütəfəkkirlər əsasən İslamı inanc və doktrinasında heç bir mənada güzəştə getməyən, müsəlman cəmiyyətinin zəifləməsi və düşdüyü bugünkü durumla İslam dini və mədəniyyətinin heç bir əlaqəsinin olmadığını müdafiə edənlərdir ki, bunlar ənənəvi ortodoksal müsəlmanlar kimi dəyərləndirilirlər;
- İkinci qrup mütəfəkkirlər isə İslamı mədəniyyət olaraq ələ alır və İslam sivilizasiyasının zəifləməsinin və geridə qalmasının, ümumiyyətlə, müsəlman dünyasında baş verən bugünkü neqativ durumun səbəblərini İslamın kökləşmiş ehkamlarında axtarırlar.

Təbii ki, hər iki istiqamətdə yer alan mütəfəkkirlərin məsələyə dair öz dini-siyasi paradiqmaları vardır. Belə ki, ortodoksal İslamı müdafiə edənlər dini doqmaların toxunulmazlığı şərtini irəli sürsələr də, İslamda sosial-mədəni və elmi-texnoloji reformun reallaşmasını məqbul hesab edirlər. Bunlar əsasən XIX əsrin sonlarından başlayaraq İslam dünyasının müxtəlif bölgələrində yetişən, Məhəmməd İqbal, Mövdudi, Seyid Əmir Əli, Cəmalləddin Əfqani, Musa Cərullah Biqiyev kimi müsəlman mütəfəkkirlərin dini-siyasi və

ideoloji doktrinalarını davam etdirən insanlardır. Bu mütəfəkkirlər dinin əsas ehkamlarının qorunub saxlanılması şərti ilə İslam hüquq sisteminin, yaxud şəriətinin dəyişməsi və yenilənməsinin tərəfdarıdırlar. Məsələn, Türkiyənin ilahiyyat üzrə hüquq professoru Xeyrəddin Karaman məhz İslam hüquq sistemində ictihad və təchidin önünün açılmasını istəyən düşüncə adamıdır. Onun *"Laik düzende dini yaşamak"* [13], *"Hayatımızdakı İslam"* [14], *"İslam hukuk tarihi"* [15] və s. əsərləri məhz bu düşüncələri ehtiva etməkdədir. Karaman ona yönəlmiş "İslamda reform, yoxsa təcdid?" sualına cavab olaraq bildirmişdir ki: "Tərəddüdsüz olaraq ictihad və təcdid. İctihadı, əlbəttə, əhli edəcək, amma onsuz sağlam və davamlı dini həyat olmaz. Təcdid geniş mənada ictihadı da əhatə edir. Təcdid bağlanmış ictihad qapısını yenidən açmaq, hər yerindən duranın "ictihad edirəm, bu da mənim ictihadım" deyərək dini təhrif etməsinə və dinin zəiflədilməsinə maneə olmaq üçündür. Çünki mən təcdidi belə təsvir edirəm... XV əsrdə xristian dünyasında islahat ilə əldə edilən nəticələr İslamda onsuz da mövcud idi. Bu baxımdan, İslamın elə bir islahata ehtiyacı yoxdur" [16]. Karamanın yuxarıda qeyd olunan fikirlərindən də anladığımız kimi, o, İslamda reforma ehtiyac duymur. Onun fikrincə, sadəcə İslam dininin hüquq sahəsində bəzi məsələlərdə yeni ictihadlara ehtiyac vardır.

Lakin İslamda ciddi, köklü islahatların aparılmasını düşünən mütəfəkkirlər də vardır. Məhəmməd Arkun məhz belə mütəfəkkirlərdən biridir. O, özünün *"İslam üzerine düşünceler"* kitabında Quranı başqa bir gözlə oxumağı təklif edir. Arkun Şərq-Qərb, inkişaf etmiş və ya az inkişaf etmiş, mədəni, yaxud primitiv ayrı-seçkiliyini rədd edir. Əsərində Aralıq dənizi hövzəsində yaşayan xalqların qarşılıqlı təsirlənmələrə məruz qaldığını bildirən Arkunun müştərək mədəniyyət daşıyıcıları olmaları baxımından onları birləşdirmək səyi nəzərə çarpır. Üstəlik o, siyasi iqtidarların əlində bir silaha çevrilmənin və dini dünyagörüşündən dolayı insanların bir-birlərini qəbul etməmələrinin ortadan qaldırılmasının yeganə yolunu min illər boyu bir yerdə yaşayan, ancaq fərqli mədəniyyətlərə sahib xalqların düşüncələrinə multikultural və tolerant dəyərləri qazandırmaqda görür [17].

Qeyd etmək lazımdır ki, Məhəmməd Arkun Xeyrəddin Karamandan fərqli olaraq İslamda reformun labüdlüyü üzərində duran insanlardan biridir. O, ümumiyyətlə düşüncələrində liberal, universal dəyərlərə geniş yer verməkdədir. Onun bu mütərəqqi fikirləri İslam dünyasında birmənalı qarşılanmır. Qeyd etmək lazımdır ki, Arkun çox müsəlmanın etiraf etmək istədiyi, ancaq cəsarəti çatmadığına görə etiraf edə bilmədiyi həqiqətləri dilə gətirən İslam mütəfəkkiridir.

Arkunun fikrincə, bu gün İslam dünyasında yeni fəlsəfə yaratmaq mümkün deyildir. Belə ki, İslam düşüncəsi insan haqqında müasir fəlsəfi dünyagörüşünə sahib olmadığı üçün epistemoloji və mədəni göstəricilərə, azadlıq və sosial mühitə sahib deyildir. Bu baxımdan Arkun düşüncəni inkişaf və təşviq edən bir proses olaraq fəlsəfi, ictimai mənada isə müasirləşmənin mütləq surətdə İslam dünyası tərəfindən təcrübə edilməsini arzulayır [18]. Başqa sözlə desək, Arkun İslam düşüncəsinin ən müasir təmsilçisi kimi cəsarətlə vurğulayır ki, İslamda fəlsəfi düşüncəni inkişaf etdirməklə yanaşı, həm də müsəlman cəmiyyətinin müasirləşməsi istiqamətində zəruri olan bütün addımları atmaq lazımdır.

Qeyd etmək lazımdır ki, Məhəmməd Arkun və onun kimi düşünən Məhəmməd Əli,

Seyyid əl-Qimni, Nasr Əbu Zeyd, Xəlil Əbdülkərim, Əbdülkərim Suruş, Məhəmməd Şahrur, Əhməd Sübhi Mənsur, Ədib Yüksəl, Camal əl-Bənna, Abdullah Əhməd ən-Nəim, Məhəmməd Tahir-ul-Qədri, Cavid Əhməd Hamidi, Mahmud Məhəmməd Taha, Fərəc Fuda və s. mütəfəkkirlər ilk növbədə müsəlman cəmiyyətlərinin liberallaşmasını, dövlət-din münasibətlərinin dünyəvilik prinsipləri üzərində qurulmasını, tabu kimi qəbul edilən, bu gün isə o qədər də böyük əhəmiyyət kəsb etməyən adət-ənənələrin diqqətə alınmamasını, İslamda ictimai düşüncənin inkişafında xüsusi əhəmiyyətə malik olan ictihad qapılarının açılmasını, modernləşmə və müasirləşmə üçün lazım olan bütün tendensiyaların müsəlman cəmiyyətinə qazandırılmasını müsəlman aləminin inkişafı üçün vacib hesab edirlər. Yəni, onlar müsəlman cəmiyyətlərində yenidənqurma (reconstruction), ictihad, insan haqları, feminizm, sekulyarizm və tolerantlıq mühitinin formalaşdırılması kimi məsələləri gündəmdə tutaraq İslamın müasirləşməsini tələb edirlər.

İslamda yenidənqurma ideyasını gündəmə gətirən və ideya kimi inkişaf etdirən məhz Məhəmməd İqbal olmuşdur. O bu ideya altında İslam düşüncə və fəlsəfəsinin yenidən təşəkkül tapmasını nəzərdə tuturdu. Çünki bir mütəfəkkir kimi o, cəmiyyətin inkişafını məhz cəmiyyətin formalaşdırdığı paradiqmal düşüncə sistemi ilə əlaqələndirirdi.

İctihad məsələsinə gəldikdə isə, reformist ruhlu bu müsəlman mütəfəkkirlər qeyd edirdilər ki, Quran İslamın müqəddəs kitabı olaraq müasir dünyanın insanının qarşılaşdığı problemlərin həlli yollarında onlara rəhbər olmayacaq qədər klassik qalmışdır. Yəni, onlar Quranın təfsirində tarixilik prinsipinə diqqət yetirilməsini xüsusi qeyd edirlər. Bu baxımdan, İslam hüquq sistemini tənqid edərək yeni ictihadların verilməsində müasir dövrün tələblərinin nəzərə alınmasını tövsiyə edirlər. Bildiyimiz kimi, hələ VII əsrdə yeni düşüncə və fikirlərə qarşı müsəlman cəmiyyətində mənfi yanaşma hökm sürürdü. Yeni olan hər şeyin qarşısı "bidət" damğası ilə alınırdı. Məhz bu tendensiyanın qarşısını almaq məqsədilə mütəfəkkirlər yenidən ictihad qapılarının açılmasını tələb edirlər.

Yuxarıda adları qeyd edilən mütəfəkkirlərin bir çoxunu narahat edən məsələlərdən biri də İslamda insan haqlarıdır. Bildiyimiz kimi, İslamın din kimi formalaşdığı və cəmiyyətdə nüfuz sahibi olduğu vaxtdan etibarən o, insana kişi və qadın ayrı-seçkiliyi etmədən dəyər vermişdir. Halbuki, İslamdan əvvəlki sivilizasiyalara nəzər yetirdikdə görərik ki, insan ləyaqəti və azadlığı heç də yüksək səviyyədə inkişaf etməmişdir. Dövrünə görə insana ən yüksək dəyəri İslam vermişdir. Ancaq bu gün müsəlman cəmiyyətlərində insan hüquqları məsələsi birmənalı dəyərləndirilmir. İslam şəriəti bu gün insan haqq və hüquqlarını tam şəkildə əhatə etməməkdədir. Ona görə də müsəlman cəmiyyətlərində boşluqlar yaranır ki, bu da liberal hüquq sisteminin işlədiyi müsəlman cəmiyyətlərində o qədər də hiss olunmamaqdadır. Çünki liberal hüquq sistemi müasir cəmiyyətlərdə həm də milli-mənəvi dəyərlərin formalaşmasına öz töhfəsini verir. Bu baxımdan, müsəlman cəmiyyətlərinin müasirləşməsində liberal dəyərlərin təbliği əhəmiyyət kəsb etməkdədir.

Liberal dəyərlər isə dünyəvi dövlətdə formalaşır və inkişaf edir. Ona görə də İslamda reformun reallaşmasını istəyənlər müsəlman cəmiyyətlərində şəriət dövlətinin deyil, məhz dünyəvi demokratik institutların təsis olunmasını və dövlətçilik ənənələrinin formalaşmasını arzulayırlar [19, s. 150-165]. Çünki onlar bilirlər ki, yuxarıda qeyd edilən

məsələlər reallaşsa, cəmiyyətdə tolerantlıq mühiti formalaşar ki, bu da öz növbəsində insanların dini, irqi, milli və cinsi müxtəlifliklərinə baxmayaraq, eyni hüquqlu vətəndaşlar kimi birgəyaşayışını təmin edər. Qeyd etmək lazımdır ki, müasir dövrdə müsəlman cəmiyyətləri arasında bəzi ölkələr var ki, məhz bu tendensiya üzrə inkişaf etməkdədirlər. Bunun ən yaxşı örnəyini isə məhz Azərbaycan təşkil etməkdədir.

Göründüyü kimi, İslamda mötəzilə ilə başlayan əqli fəaliyyət zamanla inkişaf edərək sistemli fəlsəfi düşüncəyə doğru inkişaf etmişdir. Bu dövr ərzində mütərəqqi fikirli İslam mütəfəkkirləri yetişərək rəngarəng fikirlər, baxış bucaqları ortaya qoymuşdurlar ki, bu da heç vaxt birmənalı qarşılanmamışdır. Bu səbəbdən də onların bir qismi İslam sxolastikləri tərəfindən cəzalandırılmış və beləliklə, cəmiyyətdə düşüncənin inkişafına yönəlmiş bütün yeniliklər bidət sayılaraq qadağan edilmişdir. XIX əsrin ikinci yarısından başlayaraq İslam dünyasında fikri canlanma nəzərə çarpmışdır ki, bu da İslamın modernləşməsi yönündə atılan addımlar kimi xarakterizə edilə bilər. Digər tərəfdən, XX əsrdə İslamda reformun vacibliyini vurğulayan bir qrup mütəfəkkirlər də olmuşdur ki, onlar İslam düşüncəsinin önünün açılması və müsəlman cəmiyyətlərinin inkişafını vacib hesab edirdilər.

Bunlarla yanaşı, son zamanlar xüsusilə Orta Asiya ölkələrində önəmli bir dini cərəyan - Quranizm (Qurançılıq) geniş yayılmışdır. Bu cərəyanın təmsilçiləri iddia edirlər ki, Quran müqəddəs mətn olaraq cəmiyyətin bütün problemlərinə işıq tutmağa qadirdir. Qurandan başqa digər dini mətnlər, xüsusən də hədislər hərəkatın təmsilçiləri tərəfindən qəbul edilmir. Bu dini hərəkat liberal İslamın təmsilçiləri kimi də tanınırlar. Qeyd etmək lazımdır ki, Quranizm hərəkatının dini-ideoloji əsası məhz mötəzilənin dini dünyagörüşünə söykənməkdədir. Bu gün isə onlar yanaşmalarında xeyli irəliləyərək daha reformist fikirlərlə çıxış edirlər. Onların ən diqqət çəkən yanaşmaları bunlardır:

- Qadınların hicab geyinməsinin heç bir dini əsası olmadığını iddia edirlər;
- Qadınların dini ibadət və ayinləri yerinə yetirdikdə kişilər kimi imam ola bilmələrini müdafiə edirlər;
- Çox evliliyə o zaman icazə verilir ki, onlar yetim uşaqları öz himayələrinə götürsünlər;
- Onlar həcc mərasiminin yerinə yetirilməsini qəbul etmirlər [19, s. 33-34].

Quranizm hərəkatının müasir dövrdə ən əsas ideoloqlarından biri Aslam Cayracpuri olmuşdur. Onun reformist ruhlu yanaşması Qulam Əhməd Pərvaza təsir etmişdir [20, s. 39-40]. Hər iki ideoloqun düşüncələri XIX əsrdə müsəlmanlar arasında geniş yayılmışdır. XX əsrdə isə Quranizm hərəkatını inkişaf etdirən və onun təlqinlərini müdafiə edən Əl-Əzhər universitetinin keçmiş müəllimi Əhməd Mənsur olmuşdur. Əhməd Mənsur dini dünyagörüşü səbəbi ilə universitetdən qovulmuş, hətta ortodoks İslamı və din adamlarını təhqir etməkdə təqsirləndirilərək həbs olunmuşdur. Ömrünün son illərində isə o, Harvard Universitetində dərs demişdir [21].

Keçmiş sovet ölkələrindən olan Qazaxıstanda da Quranizm dini cərəyan kimi geniş yayılmışdır. Statistik məlumatlara əsasən deyə bilərik ki, orada bu dini cərəyanın 60-70 min mənsubu vardır. Qazaxıstanda birmənalı qarşılanmayan hərəkatın dini lideri Aslbek

Musin olmuşdur [22]. Mənbələrdən əldə etdiyimiz məlumata əsasən, bu dini hərəkat ABŞ və müxtəlif Avropa ölkələri tərəfindən maliyyələşdirilməkdədir [23].

Azərbaycanda da İslam dini dünyagörüşündə reformun labüd olduğunu vurğulayan alimlər mövcuddur. Onlar daha çox cəmiyyətdə dünyəviliyin inkişafı və bununla əlaqədar olaraq cəmiyyətdə tolerant mühitin yaranmasının tərəfdarları kimi çıxış edirlər. Onlardan bir də Aydın Əlizadədir. O qeyd edir ki, İslam hüquq sistemi köhnəldiyindən müsəlmanların ictimai həyatını tam əhatə edə bilmir. Çünki müasir dövrün tendensiyaları qarşısında irəli sürdüyü ehkamları ilə dövrün problemlərinin həlli qarşısında aciz qalır. XI əsrdən etibarən yenilənməyən İslam düşüncəsi orta əsrin dini dünyagörüşünü əks etdirməkdədir. Məsələn, Əlizadə qeyd edir ki, Darul-İslamda (müsəlman cəmiyyəti) qeyri-müsəlmanlardan alınan cizyə vergisi Xilafətin şəriət qanunlarına görə zamanında doğru qəbul edilmiş dini hökmdür. Bu gün isə cizyəni qeyri-müsəlmanlardan almağın heç bir nə mənəvi, nə siyasi, nə də ki iqtisadi əhəmiyyəti vardır. Bunun kimi bir çox doqmalaşmış dini hökmləri göstərə bilərik ki, bu da qeyd etdiyimiz fikirləri təsdiq edər [24, s. 75-84].

Bütün bunlara baxmayaraq, Qərb dünyası heç bir fərq qoymadan bütün bu fəaliyyətləri dini fundamentalizm kimi xarakterizə edirlər. İslamda islahatçılığı problemlərdən çıxış yolu kimi görən və bu istiqamətdə maarifçilik fəaliyyətləri ilə məşğul olan mütərəqqi fikirli insanları necə fundamentalist kimi görmək mümkündür? Ona görə də dini radikallarla dini maarifçilər bir-birindən fərqləndirilməlidir. Çünki onlardan birinin silahı qələm, digərinki isə qılıncdır. Aralarında bu qədər böyük fərq olduğu halda onları eyni kateqoriyada dəyərləndirmək doğru deyildir.

## ƏDƏBİYYAT


1. Essay on Social Reform Movement. Edited by Dr. Raj Kumar. Dehli: Discovery Publishing House, 2004.
2. Muhammed İkbal. İslamda Dini Tefekkürün Yeniden Teşekkülü. İstanbul: Araf yayıncılık.
3. Akdes Nimet Kurat. Kazan Türklerinin "Medeni Uyanış" Devri // Ankara Üniversitesi Dil ve Tarih-Coğrafya Fakültesi Dergisi, XXIV, Sayı 3-4, Temuz-Aralık 1966.
4. Edward S. Lazzerini. Gaspıralı İsmail Bey: Modernizm Söylemi ve Ruslar (çeviri: Yonca Anzerlioğlu) // Türkiye Günlüğü Dergisi, Sayı 50, Mart-Nisan 1998.
5. Ahmet Kanlıdere. Kazan Tatarları Arasında Tecdit ve Cedit Hareketi (1809–1917) // Türkiye Günlüğü Dergisi, Sayı- 46, 1997.
6. Ira M. Lapıdus. Modernizme Geçiş Sürecinde İslam Dünyası (çeviri: İ.Safa Üstün). İstanbul: 1996.
7. Erol Kaymak. Sultan Galiyev ve Sömürgeler Enternasyonali. İstanbul: 1993.
8. Ağayar Şükürov. Fəlsəfə. Bakı: 1997.
9. Karim Wissa. Freemasonry in Egypt 1798-1921 // The British Society for Middle Eastern Studies Bulletin, vol.16, no.2, 1989.
10. Humilton Gibb. Islamic Society and the West: A Study of the Impact of Western Civilization on Moslem Culture in the Near East. London: Oxford University Press, 1998.
11. Fazlurrahman. İslam. Selçuk Yayınları, 1996.
12. C.Bennett. The Concept of Violence, War an Jihad in Islam, Dialogue and Alliance, 18 (1),

Spring/Summer 2004.

**13.** Hayrettin Karaman. Laik düzende dini yaşamak. İstanbul: İz yayıncılık, 2002.

**14.** Hayrettin Karaman. Hayatımızdakı İslam. İstanbul: İz yayıncılık, 2003.

**15.** Hayrettin Karaman. İslam hukuk tarihi. İstanbul: İz yayıncılık, 1999.

**16.** Hayrettin Karaman. İslamın ışığında günün meseleleri. İstanbul: İz yayıncılık, 2003.

**17.** Muhammed Arkun. İslam üzerine düşünceler (haz: Kaya Şahin). İstanbul: Yaylacık Matbaacılık Ltd., 1999.

**18.** Fethi Ahmet Polat. Arkoun, Kuran-ı Kerim üzerinde yapmayı tasarladığı çalışmalarda İncil ve Tevrat için Batı'da yapılan çalışmaları örnek aldığını belirtmektedir, 02.X.2015 // http://www.timeturk.com/tr/2010/09/16/muhammed-arkoun-ve-islam.html

**19.** Али-заде А.А. Проблемы современного исламского мировоззрения. Баку: Текнур, 2010.

**20.** Hussein Abdul-Raof. Theological Approaches to Qur'anic Exegesis: A Practical Comparative-Contrastive Analysis. Routledge, 2012.

**21.** Daniel W. Brown. Rethinking Tradition in Modern Islamic Thought // Cambridge University Press, March 13, 1999.

**22.** Пётр Ветлугин. Пророки без отечества // Версия, 20.04.2009.

**23.** Талгат Адилов. Казахстанские кораниты: элита будущего или ответ «Ак Орды» радикальному исламу // Информационно-аналитический центр. Лаборатория общественно-политического развития стран ближнего зарубежья, 23.07.2009 // http://ia-centr.ru/expert/5313/

**24.** Айдын Али-заде. Проблема современного Исламское мировоззрения: Религиозно-философское диалоги. Текнур, 2010.

Эльсевер Самедов

## РЕФОРМАТОРСКИЕ ДВИЖЕНИЯ В ИСЛАМЕ: ИСТОРИЯ И СОВРЕМЕННОСТЬ

РЕЗЮМЕ

В данной статье исследуется процесс реформ в исламской мысли и делается акцент на современную эпоху. Анализируются воззрения таких мыслителей, как Мухаммед Икбал, Фазрурахман, Мевдуди, Мухаммед Аркун и других. Кроме того подчеркивается, что реформация исламской мысли является незавершенной и этот процесс может быть продолжен мыслителями нового поколения исламского мира.

Elsever Samedov

## PAST AND MODERN DAY REFORM MOVEMENTS IN ISLAM

SUMMARY

This article explores the reform process in the Islamic thought and emphasizes the modern era. Here analysed the thoughts of such Islamic thinkers as Mohammed Ikbal, Fazrurahman, Mevdudi, Mohammed Arkun etc. It also stresses that the reformation of Islamic thought is unfinished, and this process can be continued by a new generation of thinkers of the Islamic world.

# DİN VƏ TƏHSİLDƏ TOLERANTLIĞIN ÖNƏMİNƏ DAİR

***Günel ZAHİDOVA,***
*BDU-nun İlahiyyat fakültəsinin*
*din sosiologiyası ixtisası üzrə magistrantı,*
*zahidovag@bk.ru*

***AÇAR SÖZLƏR:*** *tolerantlıq, din, təhsil, İslam.*
***КЛЮЧЕВЫЕ СЛОВА:*** *толерантность, религия, образование, Ислам.*
***KEY WORDS:*** *tolerance, religion, education, Islam.*

Qloballaşma dövrü ilə birgə tolerantlıq anlayışı da aktuallıq qazanmışdır. Dövrümüzün ən önəmli dəyərlərindən biri olan tolerantlığın vacibliyi sosial həyatın bütün sahələrində, xüsusilə ailədə, məktəbdə, iş yerlərində hiss edilir. Birlikdə yaşadığımız, oxuduğumuz, işlədiyimiz insanlarla düzgün və sağlam ünsiyyətə zəmin yaradan tolerantlıq etimad və hörmətin hakim olduğu gözəl bir həyatın ən mühüm ünsürüdür. Birgəyaşayışın gətirdiyi problemlərin öhdəsindən gələ bilmək üçün də tolerantlığa ehtiyac vardır. Odur ki, tolerantlıq anlayışını cəmiyyətdə yaymaq üçün onu tədrisdə mühüm prinsip olaraq mənimsəmək və gənc nəsli bu prinsip əsasında yetişdirmək böyük əhəmiyyət kəsb edir.

**Tolerantlıq nədir?**

“Xoş qarşılamaq, bağışlamaq, dözüm göstərmək” və s. mənalar daşıyan “tolerantlıq” termini latınca “tolerare” (toleratie), fransızca “tolerer” (tolerance), ingiliscə “tolerare” (tolerance) şəklində olan feil formalarından yaranmışdır [1, s. 1394; 2, s. 117]. Bu kəlmə ərəb dilində “təsamuh”, “təsahul”, “iğda” və “hilm” sözləri ilə ifadə olunur.

Tolerantlıq anlayışına “tab gətirmək”, “güc çatdırmaq”, səbir və ya dözüm tələb olunan bir şeyə qarşı güclü olmaq” mənaları da aid edilir. Bu hal tolerant insanın güclü olduğunu göstərir. Lakin bu mənadan gücün mahiyyətinin nə olduğu tam ortaya çıxmır. Çünki bu fiziki, iqtisadi və ya maddi güclə yanaşı, mənəvi güc də ola bilər.

Digər insanlarla ünsiyyət əsnasında yaranan və psixo-sosial aspektlərə malik bir termin olan tolerantlığın bağışlama, səhvə göz yumma, fərqlilikləri anlayışla qarşılama, insanları bezdirən, darıxdırıcı yaxınlıqlardan uzaq duraraq nizamı pozmama, mədəni olma və düşüncələri qarşılıqlı anlayış içərisində müzakirə etmə kimi mənaları əhatə etdiyini də söyləmək mümkündür [3, s. 21]. Yəni tolerantlıq qarşılaşılan hadisələri və düşüncələri müxtəlif tərəfləri ilə araşdıraraq, qaydaların daha mülayim şəkildə tətbiqini ifadə edir [4, s. 41]. Tolerantlığın əsas prinsipi qarşımızdakını istədiyimiz kimi olmağa məcbur etmək deyil, ona öz istədiyi kimi olmaq imkanı tanımaqdır.

İnsanlararası münasibətləri tənzimləyən və onları bir-birinə yaxınlaşdıran tolerantlıq hissi bir davranış olaraq fərdin hər məsələdə digərləri ilə həmfikir olması, başqalarına etinasız qalması, hadisələrə laqeyd yanaşması, yaxud öz inancını güzəştə getməsi deyil,

fərqliliklərin mahiyyətinə varması, fərqli düşüncə və kimliklərə anlayışla yanaşa bilməsidir [5, s. 260; 6, s. 9]. Başqa sözlə desək, tolerantlıq insana başqalarına nifrət etməmə düşüncəsi qazandıran bir kamillikdir, əxlaqi sistemlərin ən mühüm ünsürü və digər ünsürlərə də mənbə hesab oluna bilən əhəmiyyətli bir ruhi nizamdır [7, s. 113; 6, s. 13].

Tolerantlığın əsasında cəmiyyətdə fərqli inanc və düşüncələrin mövcudluğunu qəbul etmək duyğusu dayanır [8, s. 72]. Qeyd etmək lazımdır ki, bu fərqliliklər cəlbedici, qeyri-adi və ya xoş göründüyü müddətcə tolerantlığa ehtiyac duyulmur. Tolerantlıq bizim düşüncə tərzimizə, dünyagörüşümüzə uyğun gəlməyən bir vəziyyətlə qarşılaşdığımız zaman meydana çıxır və elə buna görə də çox əhəmiyyətlidir. Belə ki, təktərəfli yanaşma tərzi olmayan tolerantlıqda hər hansı haqsızlığa yol verilməməsi, bir insanın daim hörmət gözləyən, digərinin isə dözümlülük göstərmək məcburiyyətində qalan vəziyyətə düşməməsi çox önəmlidir.

Hər hansı səbəbdən, yaxud şəxsi qabiliyyət və xüsusiyyətlərdən irəli gələn fərqli düşüncə və davranışlara tolerant yanaşmaq, müxtəlif fikirlərə dəyər vermək və onları dözümlə qarşılamaq cəmiyyətdəki fərdlərin bir-biri ilə yaxınlaşmasını təmin edir. Eqoistlik, təəssübkeşlik, radikallıq isə ayrı-seçkiliyə və sosial narahatlıqlara səbəb olur [4, s. 43]. Ona görə də tolerantlıq dinlər, mədəniyyətlər və ənənələr arasında sülh fikrinin inkişafını təmin edən ən əhəmiyyətli ünsürdür. İnsanların baxış tərzləri və mədəni dünyaları eyni olmaya bilər. Amma tolerantlıq və hörmət qaydalarına hər kəs riayət etməlidir. Çünki tolerantlığın olmadığı yerdə təəssübkeşlik qaçınılmazdır, təəssübün olduğu yerdə isə sülhdən bəhs etmək qeyri-mümkündür.

Fərdin qəbul etmədiyi düşüncə və davranışlar qarşısındakı mövqeyi ilə səhv, zülm, ədalətsizlik və hüquqların pozulması qarşısındakı mövqeyi eyni deyildir. Bu baxımdan haqsızlıq, pislik, çirkinlik və ədalətsizlik qarşısında susmaq, onlara bilərək göz yummaq tolerantlıq sayıla bilməz [9, s. 116]. Fərdə və cəmiyyətə qarşı edilən haqsızlıqlara müsbət yanaşmaq onlara bəraət qazandırmaq deməkdir. Qanun pozuntuları, inanclara hörmətsizlik və insanlara həqarət də tolerantlıqdan uzaqdır. Çünki tolerantlıqda önəmli olan başqasının zərər görməməsidir.

Tolerantlığın ziddi olan dözümsüzlük adi bir nəzakətsizlikdən başlayaraq məqsədli şəkildə törədilən cinayətlərə qədər geniş bir sahəni əhatə edir; o, gücün əsas rol oynadığı etnik-dini münaqişə və iğtişaşlara qədər gedib çıxan nəticələrə səbəb ola bilər [9, s. 116]. Bir çox cəmiyyətlərdə fərdlər arasında yaranan düşüncə fərqliliyi mütləq bir prinsip fərqliliyinə çevrilir. Bunun nəticəsində hər iki tərəf digər tərəfin yanlış olduğunu və onunla razılaşmaqla təqsirkarlığa ortaq olduğunu düşünür. Bu da anlaşılmazlıqların zorakılığa çevrilməsinə və gücdən istifadəyə gətirib çıxardır. Belə halların baş verməməsi üçün görülməli olan ilk tədbir – hər bir dini düşüncə mənsubunun digərlərinə qarşı tolerantlıq göstərməsini təmin edəcək anlayışı cəmiyyətə aşılamaq lazımdır.

**Tolerantlıq və din**

Din Yaradanın peyğəmbərlər vasitəsilə göndərdiyi, insanların öz ağılları, iradə və istəkləri ilə seçdiyi, onları hər məsələdə xeyirli olan şeylərə sövq edən, bununla da dünya və axirət səadətinə çatmalarını təmin edən ilahi əsaslar məcmusudur [10, s. 38-39]. Bu tərifdə vurğulanan önəmli məqamlardan biri dinin insanın xoşbəxtliyini təmin edən bir məfhum olmasıdır. Tolerantlığın da məqsədi insanların xoşbəxt və rahat sosial həyata

yiyələnmələrinə yardım etməkdir. Bu baxımdan, din ilə tolerantlıq arasında paralel bir münasibətin olduğu aydın şəkildə görünür.

Fərdin həm öz dindaşlarına, həm də başqa din mənsublarına anlayış göstərə biləcək kamilliyə çatması önəmlidir. Çünki müasir dövrün sürətlə dəyişən şərtlərindən dolayı cəmiyyətdəki bütün fərdlərin tək bir din və ya dini düşüncə ətrafında birləşməsi imkansızdır. Dözümsüzlük səbəbindən dini inanc fərqliliyinin anlayışsızlığa, hətta münaqişəyə yol açdığına hər birimiz şahidik. Bir insanın və ya qrupun yalnız öz dini təsəvvürlərini doğru qəbul etməsi və başqalarına da qəbul etdirməyə çalışması dini tolerantlığın qarşısında duran ən böyük maneədir. Ona görə də inanc fərqliliyini sosial həyatın reallığı olaraq dəyərləndirən dini tolerantlıq anlayışının fərdlərdə lazımınca inkişaf etdirilməsi zəruridir.

**Tolerantlıq və təhsil**

İnsanlararası münasibətlərin qarşılıqlı anlayış, hörmət və yardımlaşma düşüncəsinə söykənərək həyata keçirilməsi üçün ailədə, məktəbdə, iş həyatında, bir sözlə, insanın olduğu hər yerdə dözümlülük mədəniyyətinin formalaşdırılmasına ehtiyac vardır. Zahiri fərqlilikləri, o cümlədən mübahisə və düşmənçiliyi aradan qaldıran tolerantlıq sülhü sevən cəmiyyətin formalaşması üçün zəmin yaradır.

Tolerantlığın tədrislə çox sıx, qarşılıqlı əlaqəsi var və dözümlülük anlayışına sahib fərdlərin yetişdirilməsində təhsilin rolu əvəzsizdir [11, s. 12]. Çünki tolerantlıq ilk növbədə, təhsillə qazandırıla biləcək anlayışdır. Fərdin fitrətində olan qabiliyyətlərini düzgün inkişaf etdirmək, mədəni dəyərləri qorumaq və bu dəyərlərin davamlılığını təmin etmək üçün əsası sevgi və tolerantlığa söykənən təhsilə ehtiyac vardır. Tolerantlıq prinsipi əsasında təhsil alan fərdlər daha azad və sülh tərəfdarı olurlar. Bu anlayışdan məhrum təhsil ilə yetişən fərdlər isə təəssübə, günaha və zorakılığa daha çox meyilli olurlar.

Cəmiyyətdəki hər bir fərd şəxsiyyəti, dünyagörüşü, həyatı və qarşılaşdığı hadisələri dəyərləndirmə qabiliyyətinə görə digərlərindən fərqlənir. Ancaq ortaq inanc və dəyərlər də vardır. Cəmiyyətin ortaq qazancını formalaşdıran bu dəyərləri yetişməkdə olan nəslə təlqin etmək məhz təhsilin vəzifəsidir.

Sevgi və tolerantlıq təlim-tədrisin uğurunu artıran önəmli faktorlardandır. Tolerantlığına görə sevilib bəyənilən təlimçinin təlqinləri şagirdlər tərəfindən daha asan mənimsənilir. Belə ki, şagirdlər məktəbdə tolerant müəllimlərini daha çox sevirlər. Təəssübkeşlik, sərtlik və zorakılıq tərəfdarı təlimçilərə qarşı isə gizli və ya açıq şəkildə bir reaksiyanın, maraqsızlığın və güvənsizliyin yaranması qaçınılmazdır. Bu hal öyrənilən mövzulara marağı azaltdığı üçün müəyyənləşdirilən tədris hədəflərinə çatmağı da çətinləşdirir.

İnsanlar fitrət etibarilə tolerant davranışlardan daha çox təsirlənirlər. Tədris əsnasında tolerant üslubdan istifadə ən radikal insanlar üzərində belə təsirli olub, onların mülayimləşmələrini təmin edir [12, s. 109-132].

Tolerant söz və davranışlar qarşısında həmsöhbətin qəlbi yumşaldıqda inadkarlıq və müxalifət hissləri zəifləyər, fərdin təsirli ismarışlar qarşısında tabe olub verilən bilikləri mənimsəməsi asanlaşar. Ona görə də tolerantlıq prinsipini müdafiə edən təlimçilər hədəflərinə daha asan şəkildə çata bilirlər. Çünki tolerantlığa söykənən

təhsildə fərdlər hadisələrə başqasının gözü ilə baxa bilmə və özünü onun yerinə qoyaraq dəyərləndirmə vərdişini qazanırlar.

**Tolerantlıq dini olaraq İslam**

İslam kəlməsi sülh, əmin-amanlıq, etimad, boyun əymə, itaət, ixlas, səmimiyyət, doğru yoldan ayrılmamaq, özünü itirmədən orta yolla getmək kimi mənaları əhatə edir [13, s. 39-56]. Hər şeydən əvvəl qeyd etməliyik ki, daim eyni qalan, əsas etibarilə heç bir zaman dəyişməyən və Qurani-Kərimlə kamillik zirvəsinə çatan, vəhyə əsaslanan bəşəri bir dinə Allah tərəfindən İslam adının verilməsi bu dinin tolerantlığa söykəndiyini göstərir [14, s. 190-195].

İslam insanlar arasında bərabərlik prinsipini qəbul etməklə yanaşı, elm, rütbə baxımından aşağı təbəqədə olanın daha yuxarıdakılara göstərməli olduğu hörməti aradan qaldırmamışdır. Belə ki, bu din bir tərəfdən insanlar arasında bərabərlik prinsipini təsis edərkən, digər tərəfdən böyüklərə və "övliyayi-umur" deyilən idarəçilərə itaətin vacib olduğunu da qəti şəkildə bildirmişdir [15, Nisa, 59].

İslam dini baxımından sosial münasibətlərdə tolerantlıq təməl ünsürdür. İnsanlar arasında tolerant olmayıb zülm edən *(Ali* İmran, 57,140; *Şuəra, 40)*, lovğalanaraq özünü bəyənən *(Nisa, 36; Loğman, 18;* Hədid, 23*)*, xainlik edib günah işləyən *(Nisa, 107; Həcc, 38)*, yer üzündə fəsad çıxaran *(Maidə, 64; Qasas, 77),* həddi aşan *(Maidə, 87)*, böyüklük etməyə çalışanlar *(Nahl, 23)* Qurani-Kərimdə açıq şəkildə tənqid olunmuşlar. Ayələrə nəzər salsaq, görərik ki, İslam bir insanı dəyərləndirərkən onun şəxsinə, ətrafına və cəmiyyətə nümayiş etdirdiyi davranış şəklini əsas alır.

İslam tolerantlıq dini olduğu kimi, eyni zamanda da əxlaq dinidir. Müsəlman kamil və fəzilətli şəxs deməkdir. İslamın möminə yüklədiyi əxlaqi vəzifələrin hamısı imanla, imanın təməli olan tövhidlə əlaqəlidir. İslamda əxlaqi vəzifələrlə imanı bir-birindən ayırmaq mümkün deyildir.

İslam inancına görə, tolerantlığın əsasında hansı din, irq və sinifdən olursa-olsun, insana dəyər vermək dayanır. "Yaradandan ötrü yaradılanı sevmək" Allaha olan imanın kamillik zirvəsini formaşlaşdırır. **"Biz, Adəm övladını şərəfli və hörmətli elədik, onları suda və quruda (gəmilərə, heyvanlara və başqa nəqliyyat vasitələrinə) mindirib sahib etdik, özlərinə (cürbəcür nemətlərdən) təmiz ruzi verdik və onları yaratdığımız məxluqatın çoxundan xeyli üstün etdik"** ayəsində də ifadə olunduğu kimi, hər bir fərd insan olduğundan dolayı bir dəyərə sahibdir [15, İsra, 70]. Tolerantlıq da hər şeydən əvvəl bu dəyərə hörmətin ifadəsidir.

**Nümunəvi şəxsiyyət olaraq Həzrət Məhəmmədin (s) tolerantlığı**

Allah Rəsulu (s) İslamı təbliğ etdiyi zaman hər kəsə daim tolerant yanaşmış, kimliyindən asılı olmayaraq, insanlarla gözəl davranaraq onların qəlblərini fəth etmişdir. "**(Ya Rəsulum!) Allahın mərhəməti səbəbinə sən onlarla (döyüşdən qaçıb sonra yanına qayıdanlarla) yumşaq rəftar etdin. Əgər qaba, sərt ürəkli olsaydın, əlbəttə, onlar sənin ətrafından dağılıb gedərdilər. Artıq sən onları əfv et, onlar üçün (Allahdan) bağışlanmaq dilə, işdə onlarla məsləhətləş, qəti qərara gəldikdə isə Allaha təvəkkül et! Həqiqətən Allah (Ona) təvəkkül edənləri sevər!"** ayəsi bu həqiqəti açıq şəkildə bəyan edir [15, Ali İmran, 159].

Həzrət Məhəmməd (s) ona vəhy olunan əmr və qadağaları təbliğ etmək uğrunda bir çox çətinliklərə məruz qalmışdır. O, təbliğ əsnasında ən böyük sıxıntını Taifdə yaşamışdır. Belə ki, İslama dəvəti zamanı taiflilər ona həqarətlə yanaşmış, Rəsulullaha (s) hücum edərək onu daşa basmışlar. Hətta hər iki ayağından yaralanmış Peyğəmbəri (s) qorumağa çalışan Zeyd ibn Harisin başı yarılmışdır [16, s. 212]. Bununla belə, "aləmlərə rəhmət" olaraq göndərilən İslam peyğəmbəri (s) Taifdən geri dönərkən onlara qarğış etməmiş, əksinə, onların hidayəti üçün dua etmiş, yalnız Uca Allaha yönələrək Onun rizasını istəmişdir [17, 218/ 833].

Rəsulullah (s) günah olmadığı müddətcə asan olanı, asan yolu seçərdi. Həzrət Aişə (r.a) belə rəvayət edir: *"Rəsulullah (s) iki seçim arasında qaldıqda günah olmadığı müddətcə onların asan olanını seçərdi. Əgər günah olacaqsa, bu işdən insanların ən uzağı o olardı. Rəsulullah (s) öz nəfsi üçün cəza verməzdi. Ancaq Allahın qadağaları pozulduqda Allah üçün onlara cəza verərdi"* [18, "Mənaqib", 23 / IV, s. 166-167; "Ədəb", 80 / VII, s. 101]. Bununla yanaşı, Allah Rəsulu (s) dözümlü olanlara dua edərək belə demişdir: *"Satdıqda, aldıqda və borcunu geri aldıqda mülayim olan kəsə Allah mərhəmət etsin"* [18, "Büyü", 16 / III, s. 9].

Həzrət Məhəmməd (s) bir dövlət başçısı kimi əlində imkan olduğu halda ona edilən bəzi kobud davranışları anlayışla qarşılamış və bu mərhələdə nümunəvi tolerant davranış göstərmişdir. Ənəs ibn Malikin belə dediyi rəvayət edilir: *"Rəsulullah (s) ilə gedirdik. Üzərində qalın toxunmuş Nəcran paltarı vardı. Ona bir bədəvi çataraq paltarının yaxasından yapışıb bərk dartdı. Rəsulullahın (s) boynuna baxdım, qızarmışdı. Sonra adam dedi ki: "Ey Məhəmməd! Əmr et, səndə olan Allahın malından mənə versinlər". Rəsulullah güldü və ona istədiyinin verilməsini əmr etdi"* [19, "Zəkat", 44 / I, s. 730].

Həzrət Məhəmməd (s) hüquq qarşısında hər kəsin bərabər olduğunu ifadə edərək bu mövzuda da tolerant olmağı aşılamışdır: ***"Ey insanlar! Sizdən əvvəlkiləri (Allah) ancaq ona görə həlak etmişdir ki, onlar aralarında şərəfli biri oğruluq etdikdə onu buraxar, zəif biri oğurladıqda ona həddini bildirərdilər. Allaha and olsun ki, Məhəmmədin qızı Fatimə oğruluq etsə, mütləq əlini kəsər, cəzasız buraxmazdım"*** [15, "Ənbiya"].

Allah Rəsulu (s) əmisi Həzrət Həmzənin (r.a) qatilini bağışlaması, kömək istəmək üçün getdiyi halda onu daş və tüpürcək yağışı ilə qarşılayan taiflilərə qarğış etməməsi, əlinə hər cür imkan keçdikdə belə intiqamdan uzaq durması, bağışlaması və tolerantlığı ilə insanlığın zirvəsidir.

**Nəticə**

Tolerant olmaq insanın dəyərləri öyrənməsinə bağlıdır. Tolerant olmağın əsas şərti insanın fərdiləşərək yüksək şəxsiyyət qazanmasıdır. Bu isə onun düşüncə, vicdan, iradə və davranışda azad olmasına bağlıdır. Belə bir azadlığa qovuşması insanın daxilən doqmadan, fanatizmdən, özünə inamsızlıqdan, pis vərdişlərdən uzaq durması və zahirən demokratik bir mühitdə yaşaması ilə mümkündür. Həmçinin, hər bir kəs ünsiyyətdə ol-duğu insanların tənqidlərinə açıq olmalı və onlara qarşı mülayim davranmalıdır. Tolerantlığın yaşanaraq əldə olunduğu mühit demokratiya ilə idarə olunan ailə, cəmiyyət və məktəbdir. Demokratiya və tolerantlıq bir-birinin səbəb və nəticəsidir. Şagird demokratik mühitdə tolerantlığı bir keyfiyyət olaraq mənimsəyir, başqaları ilə yaxşı əlaqələr qur-

mada və qarşılıqlı münasibətdə bu keyfiyyəti bir vasitə olaraq istifadə edir. Bilik və inanc tolerantlığın bünövrəsini formalaşdırır. Tolerantlıq mədəni anlayışdır və təhsillə nəsildən nəslə ötürülür. Yalnız tolerantlıq mədəniyyətinin formalaşdırılması ilə insanların fərqli düşünə biləcəklərini və düşüncələrində də mütləq doğru olma zəruriyyəti olmadığını qəbul etməyi tələb edən bir anlayış formalaşdırmaq mümkündür. Mühakimə etmək əvəzinə problemlərin həllinə çalışmaq, insanların uğurlarına sevinmək, uğursuzluqlarına isə üzülmək, tənqidlərdən nəticə çıxarmaq və inkişaf üçün bir fürsət bilmək və s. tolerantlıq mədəniyyətinin formalaşmasında mühüm rol oynayır.

## ƏDƏBİYYAT


1. Tahsin Saraç. Büyük Fransızca-Türkçe Sözlük // “Tolerance”. İstanbul: 1985.
2. Pars Tuğlacı. Okyanus Ansiklopedik Sözlük, III cild // “Hoşgörü”. İstanbul: 1972.
3. Ömer Aslan. Kuran ve Hoşgörü. E.Ü.Sosyal Bilimler Enstitüsü. Kayseri: 2002.
4. Nevzat Y.Aşıkoğlu. Hoşgörü ve Tolerans Kavramları Üzerine // MEB Din Ögretimi Dergisi, An kara 1993, sy. 39.
5. Melih Yürüşen. Çeşitlilikten Özgürlüğe. Ankara: 1998.
6. Yusuf Ziya Keskin. Nebevi Hoşgörü. İstanbul: Timaş Yay., 1997.
7. Necati Öner. İnsan Hürriyeti. Ankara: 1987.
8. Necati Öner. Felsefe Yolunda Düşünceler. İstanbul: 1995.
9. Beyza Bilgin. İslam ve Hoşgörü // Diyanet İlmi Dergi, c. 34, sy. I, Ankara 1998.
10. Məhəmməd ibn Əbdülkərim əş-Şəhristani. əl-Miləl vən-nihəl. Beyrut: 1975.
11. Selahattin Ertürk. Eğitimde Program Geliştirme. Ankara: 1975.
12. Hüseyin Yılmaz. Hazret Peygamberin eğitiminde bir ilke olarak hoşgörü // İlahiyat Fakültesi Dergisi, c. VIII. Sivas: 2004.
13. İdris Şengül. Kurani Çerçevede İslamın Evrensellik Boyutu // Diyanet İlmi Dergi, c. 30, sy. 2, 1994.
14. İbn Mənzur. Lisanul-Arab. Beyrut: 1883.
15. Qurani-Kərim (tərcümə edənlər: Ziya Bünyadov, Vasim Məmmdəliyev). Bakı: 2005.
16. Məhəmməd ibn Səd. ət-Təbəqatul-kübra. Beyrut.
17. Əbu Məhəmməd Əbdülməlik ibn Hişam. əs-Sirətun-nəbəviyyə.
18. Məhəmməd ibn İsmail əl-Buxari. Səhihi-Buxari. İstanbul: 1992.
19. Əbul-Hüseyn Müslim ibn Həccac Kuşeyri. Səhihi-Müslim.

Гюнель Захидова

**О ВАЖНОСТИ ТОЛЕРАНТНОСТИ В РЕЛИГИИ И ОБРАЗОВАНИИ**

АННОТАЦИЯ

В статье речь идет об отношении между толерантностью, религией и образованием. Отмечается роль религии и образования в формировании культуры толерантности. В статье подчеркивается важность образования на основе принципа формирования концепции толерантности. Также рассказывается об исламской религии и о Пророке Мухаммеде, как образцах толерантности.

Gunel Zahidova

**ABOUT THE İMPORTANCE OF TOLERANCE İN RELİGİON AND EDUCATİON**

ABSTRACT

This article deals with the relationship between tolerance, religion and education. It also emphasizes the role of religion and education in the formation of the culture of tolerance. The article underlines the importance of education on the basis of the formation of the concept of tolerance. The article also talks about Islam and the Prophet Muhammad (peace be upon him), as models of tolerance.

# AİLƏNİN CƏMİYYƏT VƏ DİNDƏ YERİ

***Pərvin ƏLİZADƏ,***
*DQİDK-nın Bakı şəhəri üzrə şöbəsinin aparıcı məsləhətçisi,*
*Bakı Slavyan Universitetinin Filologiya fakültəsinin mifologiya və folklorşünaslıq ixtisası üzrə magistrı*

***AÇAR SÖZLƏR:*** *ailə, səmavi dinlər, cəmiyyət, sosial həyat.*
***КЛЮЧЕВЫЕ СЛОВА:*** *семья, монотеистические религии, общество, социальная жизнь.*
***KEY WORDS:*** *family, monotheistic religions, society, social life.*

Ailə hər bir cəmiyyətin kiçik, özünəməxsus ənənələrə malik və fərqli tərzdə formalaşan modelidir. Cəmiyyətin sağlam təməllər üzərində qurulmasında ailənin rolu böyükdür. Belə ki, insan yaradılış etibarilə sosial varlıq olduğu üçün digər insanlarla münasibətində mühüm rol oynayan və ona müəyyən dəyərlər qazandıran daha yaxın insanlara ehtiyac duyur.

Ailə soy və etnos ilə yanaşı insan birliyinin ilkin və ən qədim quruluş formasıdır. Son əsrdə əsaslı dəyişikliklərə uğramasına baxmayaraq, ailə hələ də ən vacib ictimai institut olaraq qalmaqdadır. Məhz ailədə insan sosial vəzifələrini öyrənir, təhsilin əsaslarına və davranış qaydalarına yiyələnir. Ənənəvi cəmiyyətlərdə ailə bu günə qədər aparıcı rolunu qoruya bilmişdir. Ailə haqqında söhbət düşəndə gözümüzün önünə ilk növbədə ər, arvad və onların övladları gəlir. Ailənin bu cür quruluş forması «özək (nüklear) ailə" adlanır. Onun əsasını nikah vasitəsilə birləşmiş insan cütlüyü təşkil edir. Özək ailədən başqa, bizim cəmiyyətdə (bir çoxlarında olduğu kimi) "qohumluq ailəsi" adlanan ailə forması da geniş yayılmışdır. Qohumluq ailəsi təkcə iki insanın evlilik münasibətləri üzərində deyil, eyni zamanda çox sayda insanın qan qohumluğuna əsaslanmışdır. Bu iki ailə forması cəmiyyət üçün eyni əhəmiyyətə malik deyil.

Ailə cəmiyyətdə bir neçə funksiyanı yerinə yetirir. Bunlardan ilki reproduktiv funksiyadır, yəni uşaq doğumu ilə yanaşı, təhsil almaq və işləmək qabiliyyətinə malik olan, fizioloji və psixoloji cəhətdən sağlam yeni üzvlərin tərbiyəsidir. Lakin ailənin funksiyaları bununla məhdudlaşmır. Belə ki, bir çox insan öz həyat yoldaşı, uşaqları və başqa ailə üzvləri ilə ünsiyyətdən mənəvi güc toplayır, böyük zövq alır. Ailənin iqtisadi funksiyası da həddindən artıq vacibdir [1, s. 21].

Ümumilikdə, ailə üzvləri arasında bir sıra bağlılıqlar mövcuddur ki, bunlar ailə institutunun təməl prinsiplərini təşkil edir. Bağlılığın ilk və əsas növü qan bağlılığıdır. Hər bir ailə üzvü ortaq genetik kod daşıyıcılarına malik ola bilər. Qan bağlılığı sosial münasibətlərə reaksiyada özünü daha çox büruzə verən bağlılıq növüdür. Bir ailənin sabitliyində böyük əhəmiyyət kəsb etsə də, qan bağlılığı həlledici xüsusiyyətə sahib deyil. Belə ki, müəyyən aspektlər ailə həyatının formalaşmasında daha böyük təsirə

malikdir. Həyat yoldaşlarının fərqli ailələrdə dünyaya göz açmaları, övladlığa götürmə və s. məqamlar daha vacib bir bağlılıq növünü - mənəvi bağlılığı meydana gətirir. Burada hiss və emosiyalar, ortaq dini inanclar kimi qüvvətli faktorlar ön plana çıxır.

Ailənin formalaşmasında xüsusi rola malik olan bağlılıq növlərindən biri də iqtisadi bağlılıqdır. Ailənin gəlir və xərclərinin hesablanmasında, övladların təlim və tərbiyəsində, müəyyən sosial ehtiyacların ödənilməsində iqtisadi bağlılıq ön plana çıxır. Buraya miras kimi bir sıra hüquq və vəzifələr də daxildir.

Yer üzündə bütün dinlər ailəyə və ailədaxili münasibətlərə hər zaman önəm vermişdir. Bəzi dinlərin ardıcılları tərəfindən isə ailə həyatının ilahi rabitəylə tərs mütənasib olması fikri səsləndirilmişdirsə də, əksər dinlər sağlam cəmiyyətin qurulmasında ailə həyatının böyük rol oynadığını müdafiə etmişlər.

Ailə institutu müxtəlif fərdlərin bir-birinə qarşı olan ilkin qohumluq münasibətlərindən meydana gəlir. Bunlardan birincisi valideyn-övlad münasibətləridir. Hər bir etnik, sosial və dini qrupda bu münasibətlər xüsusi statusa malikdir. Belə ki, ata-anaya hörmət və ehtiram, ailənin gələcək davamçısı kimi övlada verilən təlim və tərbiyə ümumilikdə ictimai quruluşa təsir göstərən mühüm amillərdəndir. Səmavi dinlərdə valideynə hörmət və övlada münasibət əxlaqi-didaktik mövzular arasında ön sıralardadır. Yəhudiliyin 10 əmrindən biri **“Ata-anana hörmət et ki, Allahın Rəbbin sənə verdiyi torpaqda ömrün uzun olsun”** şəklindədir [2, “Çıxış”, 20 / Allahın on əmri, Qanun. 5:1-21]. Həmçinin “Əhdi-Ətiq”də oxuyuruq: **“Doğma atana qulaq as, Qoca anana xor baxma”** [2, Süleymanın Məsəlləri, 23:22]. Qurani-Kərimdə isə buyurulur: **“Rəbbin yalnız Ona ibadət etməyi və valideynlərə yaxşılıq etməyi (onlara yaxşı baxıb gözəl davranmağı) buyurmuşdur. Əgər onların biri və ya hər ikisi sənin yanında (yaşayıb) qocalığın ən düşkün çağına yetərsə, onlara: “Uf!” belə demə, üstlərinə qışqırıb acı söz söyləmə. Onlarla xoş danış! Onların hər ikisinə acıyaraq mərhəmət qanadının altına salıb: “Ey Rəbbim! Onlar məni körpəliyimdən (nəvazişlə) tərbiyə edib bəslədikləri kimi, Sən də onlara rəhm et!” – de”** [3, İsra, 23, 24].

Ailə fərdləri arasında genetik kod ötürücüsü olaraq valideyn-övlad münasibətləri təməl qohumluq münasibətləri hesab edilir. Ailə daxilində valideynlərin öyüd-nəsihətləri və övladların təlim-tərbiyəsi bütövlükdə cəmiyyətin ictimai qaydalarına təsir edir. Çünki həmin tövsiyələrə riayət edən övladların digər insanlarla münasibəti ictimai əlaqələri müəyyən məcraya yönəldir. Səmavi dinlərdə də valideynin övladına öyüd-nəsihəti mühüm rola malikdir. Qurani-Kərimdə Loğmanın öz oğluna öyüd-nəsihət verməsi buna örnəkdir: **“(Ya Rəsulum!) Yadında olsun ki, bir zaman Loğman öz oğluna nəsihət edərək belə demişdi: “Oğlum! Allaha şərik qoşma. Doğrudan da, Allaha şərik qoşmaq böyük zülmdür! (Ağır günahdır!)”... Oğlum! Namaz qıl, (insanlara) yaxşı işlər görməyi əmr et, pis işləri qadağan elə. (Bu yolda) sənə üz verəcək müsibətlərə döz. Həqiqətən, bu (dediklərim) vacib əməllərdəndir! Adamlardan təkəbbürlə üz çevirmə, yer üzündə lovğa-lovğa gəzib dolanma. Həqiqətən, Allah heç bir özündən razını, lovğalanıb fəxr edəni sevməz! Yerişində**

**müvazinət gözlə (nə çox yeyin, nə də çox asta get) və (danışanda) səsini qaldırma. Çünki ən çirkin səs uzunqulaq səsidir!"** [3, Loğman, 13, 18-19].

Digər qohumluq münasibətləri iki həyat yoldaşı arasında olan münasibətlərdən ibarətdir. Qadın-kişi münasibətləri ailə anlayışında diqqət yetirilməsi vacib olan məsələlərdən biridir. Qurani-Kərimdə buyrulur: **"Sizin üçün onlarla ünsiyyət edəsiniz deyə, öz cinsinizdən zövcələr xəlq etməsi, aranızda (dostluq) sevgi və mərhəmət yaratması da Onun qüdrət əlamətlərindəndir. Həqiqətən, bunda (bu yaradılışda) düşünən bir qövm üçün ibrətlər vardır!"** [3, Rum, 21]. İslam dinində Yer üzündəki bütün insanların bir kişi və qadından yaradıldığı, daha sonra millətlərə və müxtəlif ictimai birliklərə çevrildiyi qeyd olunur: **"Ey insanlar! Biz sizi bir kişi və bir qadından yaratdıq. Sonra bir-birinizi tanıyasınız deyə, sizi xalqlara və qəbilələrə ayırdıq..."** [3, Hucurat, 13].

Cəmiyyətin sağlam təməllərə söykənməsi üçün yeni ailənin yaranmasına səbəb olan evlilik həyatı ilk növbədə mənəvi cəhətdən sağlam olmalıdır. Səmavi dinlərdə qorunması vacib buyurulan beş əmanət növünün hər biri ailə həyatında vardır: can, mal, nəsil, din və ağıl əmanətlərinin hər biri ailənin yaranması və davamlılığında bilavasitə mövcuddur. Cəmiyyətin əxlaqi baxımdan sabit olması üçün bunların qorunması zəruridir. Həyat yoldaşı olaraq kişi-qadın münasibətləri fiziki-mənəvi baxımdan nə qədər möhkəm təməllərə dayanarsa, həmin ailənin gələcək nəsillərə verdiyi töhfə o dərəcədə mükəmməl olar. Yer üzündəki bütün ilahi və bəşəri qanunlarda bu münasibətlərin yaranması və inkişafı ilə bağlı müddəalar mövcuddur. Tövratda bu barədə deyilir: **"Xeyirxah arvad ərinin tacıdır..."** [2, "Süleymanın məsəlləri", 12:4]; **"Xeyirxah arvad tapan kimdir? O, yaqutlardan daha qiymətlidir"** [2, "Süleymanın məsəlləri", 31:10].

Səmavi dinlərdə ailənin təmiz və sağlam prinsiplərə sahib olması, əmin-amanlıq şəraitində yaşaması, xəyanət və çirkinliklərdən uzaq olması mühüm əhəmiyyət daşıyır: **"Səma altında Allahın sənə verdiyi puç ömrünün bütün günlərini – həyatının hamısını sevdiyin qadınla xoş həyat keçir. Çünki həyatından və səma altında çəkdiyin zəhmətdən sənə qalan pay budur"** [2, "Vaiz", 9:9]; **"Allah sizi bir bədən olaraq yaratmadımı? Bədənlə də, ruhla da Ona aidsiniz. Bəs nə üçün bir? Çünki O Özü üçün xüsusi bir nəsil istəyirdi. Buna görə də özünüzü gözləyin. Qoy heç kəs cavanlığında evləndiyi arvadına xəyanət etməsin"** [2, "Malaki", 2:15]; **"Ey qadınlar, Rəbdə olanlara layiq olduğu kimi ərlərinizə tabe olun"** [4, "Kolosselilərə", 3:18].

Qurani-Kərim də özündən əvvəl gələn ilahi vəhyləri təsdiqləyərək buyurur: **"Ey insanlar! Sizi tək bir şəxsdən (Adəmdən) xəlq edən, ondan zövcəsini (Həvvanı) yaradan və onlardan da bir çox kişi və qadınlar törədən Rəbbinizdən qorxun! (Adı ilə) bir-birinizdən (cürbəcür şeylər) istədiyiniz Allahdan, həmçinin qohumluq əlaqələrini kəsməkdən həzər edin! Şübhəsiz ki, Allah sizin üzərinizdə gözətçidir!"** [3, Nisa, 1]. Digər bir ayədə isə oxuyuruq: **"(Ey möminlər!) Əgər ər-arvad arasında ixtilaf olacağından qorxsanız, o zaman kişinin adamlarından bir nəfər və qadının**

**adamlarından da bir nəfər münsif (vasitəçi) təyin edib (onların yanına) göndərin. Əgər onlar (bu iki vasitəçi ər-arvadı) barışdırmaq istəsələr, Allah da onların köməyi olar..."** [3, Nisa, 35]. Yenə eyni surədə deyilir: **"Əgər bir qadın öz ərinin qaba rəftarından, yaxud ondan üz çevirməsindən qorxarsa, onların öz aralarında bir növ barışıb düzəlişmələrindən (ər-arvada) heç bir günah gəlməz. Çünki barışmaq daha xeyirlidir. Ancaq nəfslərdə xəsislik (qısqanclıq) həmişə mövcuddur. Əgər siz yaxşı dolanıb (dava-dalaşdan, kobud rəftardan) çəkinsəniz (bu sizin üçün daha yaxşı olar). Şübhəsiz ki, Allah etdiyiniz hər bir işdən xəbərdardır!"** [3, Nisa, 128].

Ailənin cəmiyyətin və dövlətin tərəqqisində oynadığı rolu dahi mütəfəkkirlər, sosioloqlar da təsdiqləyiblər. Onlar insanın şəxsiyyət kimi yetişməsində, sosiallaşmasında, xalqın milli-mənəvi keyfiyyətlərinin gələcək nəsillərə ötürülməsində ailəni bünövrə hesab edirlər.

Tanınmış sosioloq Tolkott Parsonsun fikrincə, ailə cəmiyyətə qarşı durmur, əksinə, o, sosiumun stabilliyini təmin edən altsistemdir: "Ailə digər sosial altsistemlər və strukturlarla münasibətlər qurmaq üçün dəqiq, eyni zamanda şəxslərarası sabitliyin dinamikasının və inteqrativ tendensiyaların qorunması istiqamətində təsirli əlaqələr yaradır".

Ogüst Konta görə isə, ailə münasibətləri bir-birinə bağlılıq və qarşılıqlı simpatiyaya əsaslanan mənəvi-emosional ittifaqdır: "Ailənin rolu fərdlə nəsil arasında vasitəçi olmaqdan, gənc nəsli altruizm ruhunda tərbiyə etməkdən, onu anadangəlmə eqoizmi aradan qaldırmağa öyrətməkdən ibarətdir".

Sosioloq hesab edir ki, böyüməkdə olan nəslin tərbiyəsində qadının rolu daha böyükdür: "Ailə ənənələrin, keçmiş nəsillərin təcrübəsinin qoruyucusu və ötürücüsüdür. Fərd ailədə sosiallaşır, bəşəriyyətə uğurla xidmət etmək üçün zəruri olan keyfiyyətləri əldə edir, təbii fərdiyyətçiliyi aradan qaldırır, "başqaları üçün" yaşamağı öyrənir. O, eyni zamanda nəsillər arasında mehriban münasibətlərin ictimai müvazinətini, daşıyıcıları yaşlılar və gənclər olan ənənələrlə novatorluq arasında tarazlığı qoruyub saxlayır".

Əlbəttə ki, ailənin rolu haqqında bir çox digər mütəfəkkirlərin də fikirlərinə geniş yer vermək olar. Bütün bu fikirlərin ana fəlsəfəsini, şübhəsiz ki, ailənin cəmiyyətin və dövlətin təməli olması, fərdin şəxsiyyətə çevrilməsi kimi ideyalar təşkil edir. Amma hazırki dövrdə klassik ailə modelinin modernləşdiyini, ənənəvi dəyərlərdən uzaqlaşdığını müşahidə edirik [5, s. 10].

Klassik orta əsrlərdə ailə institutu haqqında ümumi və xüsusi yer ayrılmaqla bir sıra əsərlər qələmə alınmışdır. Bu əsərlərdə ailə qurmaq, övlad tərbiyəsi kimi əxlaqi-didaktik mövzular dövrünə uyğun tərzdə qələmə alınmışdır. Buna baxmayaraq, bir çox mövzular günümüzdə də aktuallığını qoruyub saxlamaqdadır.

"...Deməli, elm və sənətdən hər nə öyrənmək lazımsa, hamısını övladına öyrət, beləliklə, sən atalıq borcunu və atalara xas olan mehribanlıq vəzifəsini yerinə yetirmiş olarsan. Axı dünyanın hadisələrindən arxayın olmaq, adamların başına nələr gələcəyini bilmək mümkün deyil. Hər elm və sənət bir gün işə yarayar... Elm alıb

sənət öyrənmək övladın haqqıdır. Övlad pis də olsa, sən ona baxma, elm və sənət öyrətməkdə səhlənkarlıq göstərmə. Heç bir dərrakəsi olmasa, sən öyrətsən də, öyrətməsən də, həyat onu öyrədəcək. Deyiblər ki, "Ata-anası tərbiyə etməyəni gecə və gündüz tərbiyə edər" [6, s. 123].

"Uşağı mehribanlıq və məhəbbət doğuran kəramətlərlə tərbiyə etmək lazımdır, xüsusilə, *ağıla, şüura, idraka təsir edən başa salmaq yolu ilə... Bundan sonra adət-ənənə, davranış qaydaları, dini vəzifələri öyrətmək, onları yerinə yetirməyə təhrik etmək, tabe olmadıqda tənbeh vermək, xeyirli işləri onun yanında tərifləmək, zərərli şeyləri isə pisləmək məsləhət*dir" [7, s. 248].

## ƏDƏBİYYAT


1. Musabəyov Rasim. Cəmiyyət və dövlət. Bakı: 2014.
2. Tövrat // http://yeniheyat.com/muqeddes-kitab/
3. Qurani-Kərim (tərcümə edənlər: Ziya Bünyadov, Vasim Məmmdəliyev). Bakı: 2005.
4. İncil // http://yeniheyat.com/muqeddes-kitab/
5. Vəlibəyov R. Ailə sağlam cəmiyyətin və güclü dövlətin təməlidir // Yeni Azərbaycan, 23 Aprel 2011.
6. Qabusnamə. Bakı: Heydər Əliyev Fondu, 2014.
7. Nəsirəddin Tusi. Əxlaqi-Nasiri. Bakı: Heydər Əliyev Fondu, 2009.

Парвин Ализаде

## ПОНЯТИЕ И СУЩНОСТЬ КОНЦЕПЦИИ СЕМЬИ В ОБЩЕСТВЕ И РЕЛИГИИ


АННОТАЦИЯ

В данной статье объектом исследования является понятие семьи в обществе и в монотеистических религиях. Приводятся примеры из священных книг Ислама, Христианства, Иудаизма. В статье также приводятся некоторые психологические и социологические теории некоторых ученых и философов.

Также указаны категории семьи и многогранность отношений в структуре данного понятия. В заключении статьи приведены некоторые примеры из средневековой классической литературы Азербайджана о семейных ценностях.


Parvin Alizadeh

## NOTION AND ESSENCE OF FAMILY CONCEPT IN SOCIETY AND RELIGION


ABSTRACT

In this article, the object of study is the concept of the family in society and in the monotheistic religions. There are given examples from the holy books of Islam, Christianity, Judaism. The article also provides some psychological and sociological theories of some scientists and philosophers.

The categories of family relations and diversity in the structure of the concept are also specified. In conclusion, the article gives some examples of medieval Azerbaijani classical literature about family values.

# “QAFQAZDA İSLAM”IN TƏŞƏKKÜLÜ VƏ İNKİŞAF MƏRHƏLƏLƏRİ

**Əlirza QAFAROV,**
*AMEA-nın Məhəmməd Füzuli adına*
*Əlyazmalar İnstitutunun dissertantı*

***AÇAR SÖZLƏR:*** *Peyğəmbər, Quran, İslam, elm, din.*
***КЛЮЧЕВЫЕ СЛОВА:*** *Пророк, Коран, Ислам, наука, религия.*
***KEY WORDS:*** *The Prophet, Quran, Islam, science, religion.*

Bütün şərəfli həyatını Haqq yolunda xidmətə sərf edən, Buxarada “Mir Ərəb” mədrəsəsini (1971) və Daşkənd Ali İslam İnstitutunu (1975) bitirən, yorulmadan xalqı və dini uğrunda fəaliyyət göstərən Şeyxülislam Hacı Allahşükür Paşazadənin “Qafqazda İslam” əsəri İslamın Qafqazda təşəkkül tapması, yayılması və bu ərazidə yaşayan xalqların mənəviyyatına necə təsir göstərməsindən ətraflı məlumat verir. Dünyanın bir çox ölkələrində, elmi konfranslarda, beynəlxalq ruhani məclislərində fəal iştirak edən və daima İslamın təbliğatçısı olan Şeyxülislam bu sahədə ətraflı məlumat verən ədəbiyyatın olmamasını nəzərə alaraq, uzun illər haqqında düşündüyü bir məsələni reallaşdırmağı qərara almışdır. Bu şərəfli işə başlamazdan öncə Şeyxülislam yazır: “Xeyli götür-qoy etdikdən sonra belə bir qənaətə gəldim ki, İslamın xalqlarımız arasında yayılmağa başladığı vaxtdan indiyə kimi keçdiyi bəzən xoş, bəzən də ağrılı-acılı yol barəsində bir kitab yazmaqla mən həm tariximizin unudulmuş səhifələrinə yenidən nəzər sala, həm də bu gün ətrafımızda baş verən hadisələrə öz münasibətimi daha aydın ifadə edə bilərəm. Bu qənaət mənə qarşıya qoyduğum hər iki suala cavab tapmaq imkanı yaratdı” [1, s. 5]. Qeyd edək ki, insanların həyatı üçün daim narahatlıq keçirən Şeyxülislam ətrafda baş verən ağrılı-acılı hadisələrin hələ də davam etdiyini gördüyü zaman ürək ağrısı ilə bunları müşahidə etsə də, nə vaxtsa bütün bu fəsadların aradan qaldırılacağına inanır. Məhz bu baxımdan öncə insanları maarifləndirmək, onlara əsl İslamı anlatmaq, bu yolla insanların rifahının artırılmasına xidmət göstərmək ən ümdə vəzifə kimi qarşıda durur. Bütün qəlbi ilahi eşq ilə dolu olan Şeyxülislam bunun yollarını ayıq nəzərlərlə araşdırmaqda, ümidsizliyə qapılmadan Quranın buyurduqlarına əməl edilməsində görür: **“Yer üzü (Peyğəmbərin gəlməsi sayəsində iman və ədalətlə) düzəldikdən sonra orada fəsad törətməyin. Allaha həm qorxu, həm də istəklə (ümidlə) dua edin. Həqiqətən Allahın mərhəməti yaxşılıq edənlərə çox yaxındır”** [2, Əraf, 56].

Doğrudan da, Allah-Təala insanı mövcudatın ən kamil məxluqu yaradarkən, həyatı göz bəbəyi kimi qorumağı ona müqəddəs borc olaraq buyurmuşdur. Hacı Allahşükür haqlı olaraq deyir ki, bəzən insanların başına gələn fəlakətlər, müsibətlər onların özlərinin günahından, hədsiz təkəbbürləri, lovğalıqları, nadanlıqları üzündən baş verir. Qurani-

Kərim bu kimi şəxslərə ibrət olaraq belə tövsiyə edir: **“Ona; “Allahdan qorx!” – deyildiyi zaman lovğalıq onu günah törətməyə vadar edər...”; “Ey iman gətirənlər! Hamınız bir yerdə sülhə (İslama) gəlin! Şeytanın yolu ilə getməyin, çünki o, sizin açıq düşməninizdir!”** [2, Bəqərə, 206, 208].

Müxtəlif millətlərin, xalqların özlərinə məxsus həyat tərzi, adət-ənənəsi, mədəniyyəti, dili olsa da, Yaradana inam bütün insanları bir-birinə yaxınlaşdırır. Bu cür yaxınlıq, qarşılıqlı anlayış bəşər övladının ülfətinin, mehribanlığının, səmimiliyinin daha da artmasına səbəb olur. Kimliyindən, milliyyətindən asılı olmayaraq bütün insanlar mənşəcə birdir, bərabərdir. Müqəddəs Kitabımızda bu məsələ ilə bağlı deyilir: **“... Biz sizi bir kişi və bir qadından (Adəm və Həvvadan) yaratdıq. Sonra bir-birinizi tanıyasınız deyə, sizi xalqlara və qəbilələrə ayırdıq. Allah yanında ən hörmətli olanınız Allahdan ən çox qorxanınız, pis əməllərdən ən çox çəkinəninizdir...”** [2, Hucurat, 13]. Ona görə də, heç kəsə rəva görülmür ki, öz soykökü ilə fəxr etsin, özünü bir başqasından üstün tutsun, lovğalansın, qürrələnsin. Bu cür rəftar əksinə, onların əqidə naqisliyinə dəlalət edir, onlara olan inamı, etibarı, sevgini azaldır. Ruhən sağlam olan insana kiminsə malına göz dikmək, əmanətə xəyanət və ya kiməsə qarşı pislik etmək kimi hərəkətlər yaddır. Çünki heç kəs sonrakı mərhələdə onu nə gözlədiyini bilməz.

Bütün bu kimi məsələləri birər-birər araşdıran Allahşükür Paşazadə bildirir ki, Yaradanın mərhəməti sayəsində zaman keçdikcə mədəniyyətin, bəşəriyyətin kəsb etdiyi mənəvi dəyərlər məcmusunun mahiyyətinin mayasını, özəyini məhz İslam dininin təşkil etməsi sonrakı çağlarda yeni sağlam düşüncəli insan nəslinin formalaşmasına zəmin yaratmışdır. “Dünya dinlərinin sonuncusu və buna görə də təbii ki, ən mükəmməl olan İslam dini öz əzəmətli insanpərvər ideologiyası ilə tarix səhnəsinə qədəm qoyduqdan sonra bütövlükdə mədəniyyətin və mənəviyyatın, xüsusi halda isə ədəbiyyatın inkişafı və yeni-yeni ideyalarla zənginləşməsi üçün güclü stimul rolunu oynadı” [3, s. 16].

Allahşükür Paşazadə İslamın fəzilətini, onun bəşəriyyətin yaşantısındakı rolunu qeyd edərkən göstərmişdir ki, bəşəriyyət tarixində dönüş mərhələsi təşkil edən İslamın yaranma dövrü ilə bağlı nə qədər yazılsa da, əsrdən-əsrə, nəsildən-nəslə keçərək əzəmətli və möhtəşəm irsimizə bilavasitə təsir edən İslama yenidən müraciət etməyə, onun başlanğıcını, təməlini, qaynağını anlamağa ehtiyac duyulur. Bütün bu kimi şeyləri araşdırdıqca və dərk etdikcə “bu qeyri-adi dövrdə hər şey – axırıncı Vəhyin göndərilməsi və Hidayət Yolu Müjdəçisinin elçiliyi ilə əlaqədar olan hadisələrin əzəməti də, Peyğəmbərlərin sonuncusu, onun səhabələrinin əməllərinin və məramlarının ülviliyi də, ilk müsəlman icmasının – ümmətin və onun əsası üzərində yaranmış müsəlman dövlətinin möhtəşəmliyi də, İslam mədəniyyəti nailiyyətlərinin misilsizliyi də insanı valeh edir” [1, s. 27].

İslam tarixinin məhz bu dövrünün böyük əhəmiyyətə malik olduğu məlumdur, çünki bütün hadisələrin, hətta görkəmli şəxsiyyətlərin həyatı ilə bağlı hadisələrin gedişində, qədim ənənələrdə belə, müəyyən dərəcədə nəzərəçarpacaq köhnəlik əlamətləri olur. Lakin İslamın ilk dövrlərində zərrə qədər də köhnəlik əlaməti yoxdur. Bu dövr lap başlanğıcdan müasirliyə, kainatda bəşəriyyətin bütün vacib məsələlərinin həlli üçün tapılacaq yola yönəlmişdir. Bu dövrün sönməz nuru ilə əsrlər boyu yaranan qalın qatlar yazılaraq

işıqlanmış, düşüncələrin, əməllərin düzgünlüyü bu dövrlə yoxlanılıb dəyərləndirilmişdir. İslamın fəzilətini və qüdrətini bilən digər xalqlar da ona çox böyük maraq göstərmiş, müsəlman dünyası xaricində də mütəxəssislər bununla xüsusi məşğul olmuşlar. Xüsusilə xristian dünyasının marağı daha fərqli olmuşdur. "İlk dövrdə İslamı İsanın gətirdiyi dindən bir o qədər də fərqləndirməyərək onu lokal xarakter daşıyan bir din, "ərəblərin dini" kimi qəbul edirdilər, lakin... müsəlmanlar müxtəlif sivilizasiyalara mənsub əhali ilə təmasa girdikdən və qədim mədəniyyətlərin elm, memarlıq, incəsənət və idarəçilik sahələrindəki nailiyyətlərini öz dinlərinin əxlaqi-hüquqi meyarları mövqeyindən mənimsəyərək yeni, yüksək inkişaf etmiş İslam mədəniyyəti qurduqdan sonra xristian dünyasına intellektual səviyyədə meydan oxumağa başladılar. Məhz bu dövrdən artıq xristian dünyasının dili ərəb dili, ideoloji əsası isə İslam olan" [4, s. 5] müsəlman dünyasına marağı daha da dərinləşdi, yeni mahiyyət kəsb etdi.

Şeyxülislam tədqiqatında İslamın Qafqaza gəldiyi dövrü xarakterizə edərək bu ərazinin dünya mədəniyyətinin ən qədim ocaqlarından biri, eyni zamanda zəngin təbiətə malik diyar olduğunu qeyd edir. Bununla yanaşı, siyasi sabitliyin tez-tez pozulması nəticəsində Qafqaz ölkələri özlərindən dəfələrlə güclü olan Sasani İranının və Bizansın hücumlarına məruz qalmış, bütün bunlar Qafqaz xalqlarına məhrumiyyətlər gətirmişdir. Ağır bir sınaq dövrü keçirməsinə baxmayaraq, Qafqazın bu ərazisində İslama çağırış geniş vüsət almış, ictimai şüurlarda hakim yer tuta bilmişdi. Bu, elə bir dövr idi ki, Xristianlıq hakim din kimi fəaliyyət göstərirdi, eyni zamanda Bütpərəstlik və Zərdüştilik də öz təsirini saxlayırdı. Şeyxülislam Qafqazda yayılmış dini təlimlərdən ayrı-ayrılıqda bəhs edərək Zərdüştilik və Xristianlıqla müxalif mövqedə duran Maniliyin də bir dini təlim kimi fəaliyyət göstərdiyini qeyd edir, onun banisi Maninin fikirlərinin haqlı olaraq tamamilə yanlış olduğunu vurğulayır. Bir çox təlimlərdən, o cümlədən Zərdüştilikdən, Xristianlıqdan və Budda təlimindən əxz edilərək yaranan bu təlimin heç bir əsası olmayan qanunları mövcud idi. Belə ki, bu təlim İslama zidd olaraq insanları nikah qurmamağa, tərki-dünyalığa çağırırdı.

Allahşükür Paşazadə İslamın meydana çıxması ərəfəsində Xristianlığın mövqeyinin güclü olduğunu söyləsə də, İslamın bu ərazilərdə bərqərar olması ilə milli birlik üçün bir təməl yaratdığını da önə çəkir. Doğrudan da, Məkkə və Mədinə şəhərlərində təşəkkül tapan İslamın dünyanın böyük bir hissəsində yayılması təkcə ərəblərin deyil, iranlıların, türklərin, əfqanların, indoneziyalıların, habelə Orta Asiya, Qafqaz, Volqaboyu və Balkan xalqlarının da tarixində və mədəniyyətində böyük rol oynamışdır [5, s. 70]. Bu, bizə Qurani-Kərimin "Nəhl" surəsinin 125-ci ayəsini xatırladır: **"(Ya Rəsulum!) İnsanları hikmətlə (Quranla, tutarlı dəlillərlə), gözəl öyüd-nəsihət (moizə) ilə Rəbbinin yoluna (İslama) dəvət et, onlarla ən gözəl surətdə (şirin dillə, mehribanlıqla, əqli səviyyələrinə müvafiq şəkildə) mübahisə et. Həqiqətən, Rəbbin yolundan azanları da, doğru yolda olanları da daha yaxşı tanıyır!"**

İslamın yayılmasını çox mühüm tarixi hadisə kimi qiymətləndirən tədqiqatçı bu hadisənin mahiyyətinin yeganə düzgün, başlıca səciyyəvi cəhətini onun "fikir hadisəsi" olmasında görür. Yalnız belə bir nəzəri mövqe ayrılıqda götürülmüş məsələlərin

öyrənilməsi ziddiyyətinə girmədən İslam dövrünün fövqəladə hadisələrinin mahiyyətini açıb göstərməyə imkan verir. "İslamın təbliği Allah-Təalanın istəyi sayəsində olduqca müxtəlif amillərin təsiri altında geniş əks-səda tapmışdır. Lakin bu amillərin arasında ən başlıcası odur ki, İslam özündə təfəkkür və varlığın ahəngdar uyğunluğu əsasında yeni mədəniyyətin yaradılması üçün lazım olan "əzəmətli mənəvi şərtlərin" məcmusunu ehtiva edir... Bu, eyni zamanda Peyğəmbərin (s) nəcib və sədaqətli ardıcıllarının İslamın müdrik göstəriş və yasaqlarının təbliğində necə uğur qazandıqlarını işıqlandırmaq üçün əsasdır" [1, s. 65]. Şeyxülislamın qeyd etdiyi kimi, İslam Qafqaza saf, müxtəlif qondarma təfsirlərdən xali halda gəlmiş və bu vəziyyətdə də burada bir çox xalqın mədəni baxımdan simalaşmasına böyük təsir göstərmişdir. Həmin xalqların bugünkü dünyaduyumu, milli xüsusiyyətləri, adət-ənənələri məhz bu təsir əsasında təşəkkül tapmışdır. Bu baxımdan Qafqazda İslamın yayılması buradakı xalqların mənəvi həyatında yüksəliş üçün güclü bir əsas oldu, onların mədəni tərəqqisinə yeni təkan verdi, mədəniyyətin mənəvi məzmunu dəyişdi, şəhər mədəniyyəti inkişaf etdi, o, yeni əxlaqi keyfiyyətlər və dəyərlər kəsb etdi. Qafqazda İslamın yayılması həyatın bir çox sahələrinə təsir göstərdiyi kimi, eyni zamanda iqtisadiyyatın sürətlə inkişafı, elmin yüksəlişi, dini və fəlsəfi tədqiqatların aparılması üçün əsas oldu. Elmə və alimlərə olan böyük etimad onlarda "həm dini, həm də dünyəvi elmlərə maraq doğurur, onları bir olan Allahın xəlq etdiklərində gizli qalan sirləri aşkar etməyə, açıqlamağa, öyrənməyə təhrik edir" [6, s. 33].

İslamın mədəniyyətə, əsasən də İslam mədəniyyəti kimi səciyyələndirilən mədəniyyətə təsiri çox güclüdür. Çünki "İslam öz ardıcıllarının təkcə dini həyatlarını müəyyənləşdirməklə kifayətlənmir, həm də onların bütün həyat tərzlərini, təbiət və cəmiyyət haqqındakı təsəvvürlərini, o cümlədən mədəniyyət anlamlarını da şərtləndirir" [1, s. 107].

Eyni zamanda, İslam dini müxtəlif mədəniyyətə, adət-ənənəyə, dilə malik olan xalqların mədəni birliyini yaratmışdır. Onu da qeyd etməliyik ki, İslam mədəniyyətini zənginləşdirən, bu mədəniyyətin dərki yolunu göstərən elmdir. Elmin fəziləti ilə bağlı müqəddəs Qurani-Kərimdə çoxlu ayələr var: **"Həqiqi hökmdar olan Allah (hər şeydən) ucadır! Həm də (ey Peyğəmbərim! Cəbrail tərəfindən) sənə tamam-kamal vəhy olunmadan əvvəl Quranı oxumağa tələsmə və: "Ey Rəbbim! Mənim elmimi artır!" – de"** [2, Ta ha, 114]. Həmçinin, "Ali İmran" surəsinin 3-cü, "Fatir" surəsinin 28-ci, "Zumər" surəsinin 9-cu ayəsində də elmlə bağlı dəyərli Allah hikməti var.

Şeyxülislamın fikrincə, İslamın yayılması sayəsində təşəkkül tapmış müsəlman mədəniyyətində elmə misli görünməmiş maraq oyanmışdır. Digər tərəfdən, Qurani-Kərim də müsəlmanları elmə, biliklərə yiyələnməyə həvəsləndirirdi: **"Məgər axirətdən qorxan, Rəbbinə (Allahın mərhəmətinə) ümid bəsləyən, gah səcdəyə qapanıb, gah da ayaq üstə durub gecə saatlarını ibadət içində keçirən (müti bəndə kafirlə birdirmi)?! De: "Heç bilənlərlə bilməyənlər (alimlə cahil) eyni ola bilərmi?! (Allahın ayələrindən, dəlillərindən) yalnız ağıl sahibləri ibrət alar!"** [2, Zumər, 9]. Şeyxülislam Həzrətləri elmin fəzilətindən bəhs edərkən Peyğəmbərin (s) "Elm Çində olsa belə, onun ardınca gedin" hədisinə istinadən elmə bu cür yüksək mənəvi münasibətin İslam elmlərinin inkişafında böyük rol oynadığını vurğulayır. Onu da qeyd edək ki,

İslam dünyasının bir hissəsi olan Azərbaycanda da hədis kimi bilinən deyimlərdən istifadə edilmiş və hazırda da istifadə olunur... Azərbaycanda bu deyimlər, ümumiyyətlə, atalar sözü kimi məşhur olmuşdur. Uzun müddət dinin təzyiqə məruz qaldığı, dini yaşamın alt-üst edildiyi bir şəraitdə, hədis kimi bilinən belə deyimlərin atalar sözü adı altında öz yayğınlığını qoruması əslində Azərbaycan xalqının öz mədəniyyət və adət-ənənəsinə sahib çıxma istəyinin hər zaman mövcud olduğunu göstərməkdədir [7, s. 94]. Doğrudan da, istər Peyğəmbər (s) dövründə, istərsə də sonrakı dövrlərdə elm həmişə müsəlman aləminin zənginləşməsində, bütün sahələrdə alimlərin yetişməsində başlıca rol oynamışdır. Alimlərə hər yerdə dərin hörmət göstərilir, onların fikirləri, rəyləri qəbul edilirdi. Onların arasında dərin biliyə, dünyagörüşünə malik mütəfəkkirlərlə yanaşı böyük şairlər, ədiblər, sənət adamları da fəaliyyət göstərirdilər. Bu "böyük İslam mütəfəkkirləri öz əsərlərində dönə-dönə İslam dininin ideya və obrazlarına müraciət edir, bu bitib tükənməyən xəzinədən bol-bol bəhrələnirdilər" [3, s. 20-21]. Şeyxülislam Həzrətləri orta əsrlərdə elmin özünəməxsus səciyyəvi cəhətlərindən bəhs edərkən ömürlərinin böyük hissəsini dünyəvi elmlərin və ilahiyyatın əsaslarına sərf edən Azərbaycanın böyük şairləri Nizami Gəncəvi, Xaqani Şirvani, İmadəddin Nəsimi, Məhəmməd Füzuli kimi islami dəyərlərdən bəhrələnərək bədii cəhətdən mükəmməl, yüksək məramlı əsərlər yazan şairlərin adlarını çəkir. Əsərlərini Böyük Yaradandan xeyir-dua almaqla, minacatla, Peyğəmbərə müraciətlə başlayan Şeyx Nizami qələmə aldığı bütün əsərlərində İslam dəyərləri əsasında öz mütəfəkkir sözünü demişdir. Mövlana Füzulinin İslamın saflığı yolunda, onun yaşaması uğrunda apardığı mübarizə və bu yolda şəhid olan İman Hüseynə (ə) həsr etdiyi "Hədiqət-üs-süəda" ("Xoşbəxtlər bağçası") əsəri ilk növbədə İslam dəyərlərinin bərpasına xidmət cəhdi olmuşdur. Şeyx Həzrətləri yazır ki, təhsillərini əsasən müsəlman dünyasının elm mərkəzlərində – Bağdadda, Qahirədə, İsgəndəriyyədə, Nişapurda, Təbrizdə, Buxarada, Səmərqənddə və digər şəhərlərdə alan alimlərin elmi orta əsr İslam fikrinin ən parlaq və diqqətəlayiq hadisələrindən biri olan müsəlman məntiqinə və müsəlman fəlsəfəsinin inkişafına, yüksəlişinə təkan vermişdir. Bu dövrdə Şihabəddin Marağayi, Şihabəddin Yəhya Sührəvərdi, Əfzələddin Xunəci, Siracəddin Mahmud ibn Əbu Bəkr Urməvi, Nəcməddin ibn Ömər ibn Əli Qəzvini, Əlhədi Marağayi, Mahmud Şəbüstəri kimi orta əsr Azərbaycan və ərəb-müsəlman fəlsəfi fikrində xüsusi yeri olan bir çox mütəfəkkir yetişmişdir.

Adları çəkilən mütəfəkkirlərin yaradıcılıq yolunu izləyən Şeyx Həzrətləri onların İslam fikri tarixindəki fəaliyyətini dəyərləndirərək elmin bir çox sahələrində öz sözlərini deyən və dəyərli əsərlər yazan görkəmli mütəfəkkirlərin də adlarını çəkir. Buna misal olaraq, nücum elminin inkişafında böyük rolu olan Fəridəddin Şirvanini (XII əsr), Fələki Şirvanini (XII əsr), poeziyanın, riyaziyyatın inkişafında, ədədlər təliminin dərinləşməsində və həmçinin Evklid həndəsəsinin müsəlman Şərqində inkişaf etdirilməsində güclü təsiri olan, coğrafiyaya dair yeni elmi fikirlər irəli sürən Nəsirəddin Tusini göstərmək olar. Eləcə də tibb sahəsində, əczaçılığın inkişafında İbn Sinanın rolu danılmazdır. İslamın incəsənətə, xüsusilə təsviri incəsənətə münasibəti məsələsinə toxunan Allahşükür Həzrətləri bu mövzu ilə bağlı məlumatların kifayət qədər olmamasını və barəsində ziddiyyətli fikirlərin, rəy və mülahizələrin olduğunu qeyd edərək yazır ki, bəzi tədqiqatçılar canlı varlıqların təsvir edilməsini yasaq buyursalar da, digər tədqiqatçılar göstərirlər ki,

İslam təsviri sənəti qəti qadağan etməmişdir. Daha tutarlı fikir söyləyənlərin olduğunu da vurğulayan Şeyx Həzrətləri bu fikri müdafiə etmək üçün Müqəddəs Kitabımıza müraciət edir: **“Süleymana da küləyi ram etdik... Onun üçün mis mədənini sel kimi əridib axıtdıq. (Davud dəmiri əlində yumşaldıb istədiyini düzəltdiyi kimi Süleyman da misdən istədiyini düzəldirdi)... Onun (Süleyman) üçün nə istəsə - məbədlər (uca qəsrlər), heykəllər, (min nəfərdən ibarət qonağın və qoşunun birlikdə oturub yeyə biləcəyi) böyük hovuzlara bənzər çanaqlar və yerindən tərpənməyən iri qazanlar düzəldirdilər. Siz, ey Davud ailəsi! (Allaha) şükranlıqla itaət edin! (Bu nemətə şükür edin!) Bəndələrimdən (nemətlərimə) şükür edəni azdır!”** [2, Səba, 12-13].

Şeyxülislam Həzrətləri haqlı olaraq İslamın incəsənətə “mənfi münasibəti” haqqında olan fikirlərin Qərb dinşünasları tərəfindən gəldiyini söyləyir və onların fikirlərini belə yekunlaşdırır: “Bu tədqiqatçılar belə güman edirlər ki, əgər Xristianlıqda peyğəmbərlərin, həvarilərin və başqa övliyaların (müqəddəslərin) təsvirini vermək məqbul sayılırsa və İslam belə təsvirə yol vermirsə, deməli, İslamın təsviri incəsənətə münasibəti mənfidir” [1, s. 134-135].

Qərb dinşünaslarının bu fikirlərinə və müddəalarına qəti etirazını bildirən Şeyx Həzrətləri vurğulayır ki, “möminləri dindən yayındırmamaq üçün İslam məsciddə insan, yaxud heyvan təsvirlərini məqsədəuyğun hesab etmir. Lakin İslam mədəniyyəti dünya mədəniyyətinə elə incəsənət nümunələri vermişdir ki, həqiqətən bunlar gözəl sənət əsərləridir” [1, s. 134-135].

Doğrudan da, Şeyx Həzrətlərinin təbirincə desək, İslam incəsənətinin əsas məqsədi tarixən Allah-insan-təbiət münasibətləri məhvərində müsəlmanların nəzərini Allahın yaratdıqlarının dərk edilməsinə, dindarlarda əmələ gələn hissin, həyəcanın ifadə edilməsinə yönəltmək olmuşdur. Yaradanla yaradılan arasında olan bu əlaqə nəticəsində İslam incəsənəti inkişaf etmiş, öz hüdudlarını aşaraq dünyada hər şeyin – coğrafi və tarixi hüdudların fövqündə qərar tutmuşdur. Cürətlə demək olar ki, məhz din sayəsində müsəlman incəsənəti təşəkkül tapa bilmiş, ifadə tərzinin təbii müxtəlifliyinə və rəngarəngliyinə baxmayaraq, onun mənəvi mahiyyətini “inam birliyi” təşkil etmiş və bu birlik xalqların mədəniyyət sahəsində bir-birinə yaxınlaşmasına və bir-birinə qarşılıqlı təsir göstərməsinə səbəb olmuşdur. İnsanların əxlaqi münasibətlərini əks etdirmək, əxlaqi kamillik haqqında ülvi qayələri təcəssüm etdirməklə kifayətlənməyən İslam incəsənəti “möminlərin baxışlarını, məramlarını, arzu və istəklərini bütün varlıqların mümkünlüyü əsasında duran Zəruri Varlığa – Vahid Allaha doğru yönəldir. Odur ki, İslamın əxlaqi-bədii qayələrindən bəhrələnən görkəmli sənətkarlar olduqca gözəl rəssamlıq, memarlıq, bəzək-tətbiqi incəsənət, musiqi əsərləri yaratmışlar” [1, s. 137]. Eyni zamanda, bu dövrdə müsəlman şüurunda yazı və kitab da müqəddəs nəsnə kimi qavranılır. Kitaba bu cür sevgi sonrakı mərhələdə incəsənətin yeni sahələrinin – kitablara, əlyazmalara naxışvurma, xəttatlıq sənətinin yaranmasına səbəb olmuşdur. Şeyx Həzrətlərinin də qeyd etdiyi kimi, “İslamın meydana çıxması və Xilafətin yaradılması qısa bir vaxt ərzində zəngin yazılı ədəbiyyatın yaranmasına təkan vermişdir. Əlbəttə bu, qanunauyğun hal idi və dünya tarixində əzəmətli bir hadisə ilə – Quranın bəşəriyyətə nazil olması ilə əlaqədardır” [1, s. 138].

Qurani-Kərimin nazil olması və qələmə alınmasının yazılı ədəbiyyata münasibətin dəyişməsinə güclü təsir göstərdiyini qeyd edən Şeyx Həzrətləri bu dövrlərdə xalqın yaddaşında

qalan hər şeyin yazıya köçürülməsini bir daha yada salır. Sonrakı çağlarda zəngin əlyazmalar xəzinəsinin olması, xüsusilə Qurani-Kərimin əlyazma nüsxələrindən ibarət məcmuənin aşkar edilməsi hələ İslamın ilkin çağlarında yazılı ədəbiyyatın geniş vüsət aldığını göstərir. Şeyx Həzrətləri yazır: "Bu ədəbiyyatla tanışlıq Qafqazda Quranın yazı qaydalarına, Müqəddəs Kitabın ilk nüsxələrinin müxtəlif oxunuşuna, onun cüzlərə bölünməsinə, avazla oxunmasına (tərtil əl-Quran) dair əsərlər yazılması barədə qənaətə gəlmək imkanı verir" [1, s. 141].

Qeyd olunmalıdır ki, Qafqazda müsəlman alimlərinin əsərlərinin üzünün köçürülməsi sahəsində bir ənənə yaranmışdı. Çünki bu alimlər özlərindən qabaq olan elmi nailiyyətləri mənimsəmiş, onun müxtəlif sahələrini dərindən öyrənmiş və gələcək nəsil üçün miras qoymuşdular. Məhz buna görə də hadisələrin toplanması, təfsir, fiqh, tarix, dilçilik elminə dair əsərlərin mötəbər qaynaqlar əsasında yoxlanılmasına xüsusi maraq var idi. Şeyx Həzrətləri vurğulayır ki, Qafqazda, eyni zamanda Azərbaycanda müsəlman xalqlarının da ədəbi irsinin toplanması, öyrənilməsi və təbliği sahəsində xeyli işlər görülmüşdür.

İslamın Qafqazda yayılmasının tarixi hadisə kimi əhəmiyyətini xüsusi vurğulayan Şeyx Həzrətləri qeyd edir ki, hazırkı dövrdə dinin və dindarların vəziyyətini tam aydınlığı ilə nəzərə çatdırmaq üçün ilkin çağlara müraciət etmək, xüsusilə inqilabdan sonrakı dövrlərdə dinə olan münasibətlərin əsas xüsusiyyətlərini göstərmək gərəklidir. Doğrudan da, inqilabdan sonra cəmiyyətin yenidən qurulması sahəsində bu vaxta kimi misli görünməmiş qaydaların tətbiqinin həyata keçirilməsi dövlətlə din arasında olan münasibətləri son dərəcə ziddiyyətli etmişdir. Şeyx Həzrətləri bu ziddiyyətləri törədən əsas amilləri xarakterizə edərək yazır: "Məsələnin bütün mürəkkəbliyi və tarixi gerçəkliyin faciəsi onda idi ki, cəmiyyətin inkişafının keçid dövründə, onun tarixi müqəddəratında köklü dəyişikliklərin gerçəkləşdiyi bir zamanda nə dini təşkilatların rəhbərləri baş verən hadisələrin ictimai məzmununu düzgün başa düşmüş və lazımınca qiymətləndirmiş, nə də dövlət tərəfindən dindarların əhval-ruhiyyəsi, ovqatı, meylləri, yeni həyat qurmaq, bərabərliyi və ədaləti öz əqidələrinə uyğun tərzdə bərqərar etmək əzmi nəzərə alınmışdı" [1, s. 154].

Halbuki haqqın, ədalətin, mərhəmətin işığını görmədən heç bir xeyirxah əməl sahibi olmaq mümkün deyil. Çünki haqq, ədalət İslam etiqadında əhəmiyyətli yerə sahibdir. Şübhə yoxdur ki, bütün xeyirxah əməlləri, o cümlədən ədaləti yer üzündə bərqərar etmək Qurani-Kərimdə də bütün peyğəmbərlərin əsas vəzifəsi olaraq göstərilmişdir: **"And olsun ki, Biz peyğəmbərlərimizi açıq-aşkar dəlillərlə (möcüzələrlə) göndərdik. Biz onlarla birlikdə (Allahın hökmlərini bildirən səmavi) kitab və ədalət tərəzisi (şəriət) nazil etdik ki, insanlar (bir-biri ilə) ədalətlə rəftar etsinlər..."** [2, Hədid, 25].

Məhz belə bir ziddiyyətli durumda olan bəzi din nümayəndələri və din xadimləri haqqın, ədalətin, mərhəmətin həqiqi işığını görə bilməzdilər. Əlbəttə ki, bu haqsızlığın, zülmün kortəbii deyil, Qafqazın rəsmi şəkildə çar Rusiyasının tərkibinə daxil edildiyi vaxtdan mütləqiyyətin apardığı məqsədyönlü siyasət nəticəsində yarandığını söyləyən Şeyx Həzrətləri nəticədə dindarların ictimai fəallığının zəiflədiyini, onların ictimai həyatdan uzaqlaşdırıldığını nəzərə çatdırır. Bu, elə bir dövr idi ki, "həyatın bütün sahələrində olduğu kimi, din sahəsində də adamların başı üzərində qılınc oynadılmışdır, din başdan-ayağa cəhalətpərəstlik, geriçilik və donuqluq mücəssəməsi elan edilir, dindarlar isə cahil və mühafizəkar kimi qələmə verilirdilər"

[1, s. 156]. İslam və müsəlman xalqlarının daha ağır məhrumiyyətlərə düçar olduğunu qeyd edən Şeyx Həzrətləri bu dövrdə dövlətin Əsas Qanununa zidd olaraq dinsizlik pərdəsi altında tarixi abidələrin, məbədlərin, kilsələrin, məscidlərin sökülüb dağıdıldığını və ya anbarlara, klublara çevrildiyini, hələ XX yüzilliyin əvvəllərində Qafqazda 2000-ə yaxın məscid olduğu halda, 80-ci illərdə burada cəmi 25 məscidin fəaliyyət göstərdiyini nəzərə çatdırır. Ən ağır itki kimi 1936-cı ildə yol salınması bəhanəsi ilə IX əsrin möhtəşəm tarixi abidəsinin – Bibiheybət məscidinin dağıdılmasını xatırladır. Yüzlərlə günahsız ilahiyyatçının, yüksək rütbəli din xadiminin, alimin, islamşünasın, axundun Sibirə göndərilməsini, yaxud güllələnməsini, əsərlərinin yandırılıb məhv edilməsini vurğulayan Şeyx Həzrətləri Azərbaycan xalqına vurulan ən ağır zərbəni onun min ildən artıq müddət ərzində istifadə etdiyi ərəb əlifbasının 1929-cu ildə latın, 1939-cu ildə isə kiril əlifbası ilə əvəzlənməsi sayır. Şeyx Həzrətlərinin fikrincə, artıq 40-cı illərdə əhalinin əksər hissəsi öz tarixi və mədəniyyəti ilə bilavasitə tanış olmaq imkanını itirmişdi. “Gizli deyil ki, kommunist ideologiyasının İslam dininə qarşı tutduğu sərt mövqe və yürütdüyü ateizm siyasəti, bu dini dünyagörüşünün güclü təsiri altında formalaşmış klassik ədəbiyyata tədqiqatçı marağının azalmasına və ədəbiyyatımızın bu dövrünü araşdıranların say nisbətinin get-gedə aşağı düşməsinə səbəb olmuşdu” [8, s. 3]. Lakin bütün bu ağrı-acılar, zülm xalqı sarsıtsa da, onu öz kökündən qopara bilmədi, İslam öz mənəvi əsaslarını və dəyərlərinin sabitliyini qoruyub saxlaya bildi. Çünki “zülm və İslam bir-birinə zidd anlayışlardır; birinin kökü tam kəsilmədikcə və ya təsiri zəifləmədikcə digərinin işi düzəlmir” [9, s. 29]. Allah-Təala bu dünya tarixini intəhalı yaratdığı kimi zülm və bədgümanlıq dövrlərini də sonsuz xəlq etməmişdir. Şeyxülislam Həzrətləri qeyd edir ki, “İslam müsəlmanlar üçün təkcə əhatəli dünyaduyumu, onların həyat tərzinin möhkəm təməli, hərəkət və davranışlarının əsası olaraq qalmır. İslam həm də müsəlman xalqlarının zəngin mədəniyyətində, şanlı tarixi keçmişində öz təcəssümünü tapan əzəmətli bir mənəvi ənənə və təcrübədir... İslam, eyni zamanda xalqların tarixi keçmişi ilə indiki arasında əlaqə yaradan mənəvi bir körpüdür” [1, s. 160-161].

Eyni zamanda, İslam doğru-düzgün yolla həyatı təmin etmək üçün mütləq əməklə, zəhmətlə məşğul olmağı gərəkli sayır. Zəhmətsiz heç bir şeyi əldə etmək mümkün deyil, bununla yanaşı, İslamın əsas qayələrindən olan insanların hüquq və azadlığı da nəzərə alınmalıdır. Bütün bunları hərtərəfli xarakterizə edən tədqiqatçı Zakir Qasımov Corc Cordakın “İnsanlığın ədalət səsi: İmam Əli” əsərinə istinadən yazır ki, Həzrət Əli ibn Əbu Talibin bu məsələ ilə bağlı kəlamında qeyd olunur ki, “Heç kəsi istəmədiyi bir işlə məşğul olmağa məcbur etmək olmaz” [10, s. 57]. Doğrudan da “İmam insanın fərdi azadlığının mühüm şərti kimi onun əmək azadlığını tanıyır. Əmək azadlığı və insanların istədikləri əmək növü ilə məşğul olmaq hüququnun tanınması həm də cəmiyyətdə sosial ədalət prinsipinin tətbiqinin önəmli şərtidir” [10, s. 99]. İslamda əməyə böyük önəm verilməsinin, hörmət və ehtiram göstərilməsinin çox dərin mənası olduğunu qeyd edən Allahşükür Paşazadə peyğəmbərlərin müxtəlif peşələrə sahib olduqlarını, çobanlıq etdiklərini, əkinçi, dülgər, dərzi və halal ruzi qazanmaq üçün digər işlərlə məşğul olduqlarını bir daha vurğulayır. Allah-Təala Öz elçilərinin belə, sənətə yiyələnməsini vacib hesab etməklə vicdanlı əməyi müqəddəsləşdirmiş, halal zəhməti əməlisalehlik səviyyəsinə qaldırmışdır.

İslamda insan üçün ən zəruri, ən vacib hesab edilən məsələlərdən biri də onun azadlığı məsələsidir. “Allah insanı yer üzündəki məxluqatın gövhəri etmiş, ona günahkarlığı və ya

əməlisalehliyi seçmək azadlığı vermişdir və insan dünya xəlq ediləndən bəri özündə nə dəyişikliyə nail olubsa, bu onun azadlığının nəticəsidir" [1, s. 168].

Şeyx Həzrətlərinin təbirincə desək, İslam insan üçün elə bir azadlıq bərqərar etməyə çağırır ki, bu azadlıq insan üzərində yalnız bir qüvvənin – hər şeyə qadir, mərhəmətli, günahları bağışlayan Allahın hökmünü nəzərdə tutur: "İnsan öz taleyini Allah-Təalanın hökmünə tabe etməklə Onun xəlq etmiş olduğu bütün başqa qüvvələrin hökmranlığından azad olur, xaricdən göstərilən hər hansı bir təzyiqdən yaxa qurtarır, tam muxtariyyət əldə edir, öz əqidəsini, hərəkətlərini və əməllərini seçmək haqqını öz əlinə almış olur" [1, s. 169]. Bu səbəbdən biz əminliklə deyə bilərik ki, yarandığı ilk çağlardan İslam kimliyindən asılı olmayaraq həmişə insanlar arasında bərabərliyin olmasını, onların bir-biri ilə ədalətli rəftar etməsini, eyni zamanda imanlı, təqvalı olmalarını istəmişdir. Çünki "iman olmazsa hər bir hərəkət və çalışma müvəqqəti və nəticəsiz; hər bir axtaran, çalışan adam isə ümidsiz, kədərli, hərəkətsiz, sakit olar" [11, s. 15].

Şeyx Həzrətləri böyük bir din xadimi, sülhün, ədalətin, əmin-amanlığın, dincliyin carçısı kimi haqlı olaraq dönə-dönə qeyd edir ki, nüvə əsrində dövlətlərarası toqquşmalar, kəskin siyasi ixtilaflar olmamalıdır, dünyagörüşü mövqelərindəki uyğunsuzluq isə qüvvə işlətmək dərəcəsinə qədər kəskinləşmiş münaqişələrə çevrilməməlidir – bu, bütün bəşər nəsli üçün faciə ilə nəticələnə bilər, hətta Yer üzündə həyat tamamilə məhv ola bilər... Odur ki, bütün dövlətlər öz aralarındakı münasibətləri qaydaya salmaqdan ötrü yeni yollar axtarmalıdırlar [1, s. 184]. Bu səbəbdən də Şeyx Həzrətləri İslam dininin əzəli dəyərlərinə müraciət etməyi zəruri sayır. Onun fikrincə, İslam elə bir dindir ki, o, milyonlarla insanın şüuruna təsir edə biləcək qüvvəyə malikdir. Bu vacib və həlledici vəzifəni bəşəriyyətin taleyi üçün məsuliyyət hiss edən bütün tərəqqi qüvvələrin birgə səyi nəticəsində həyata keçirmək mümkündür. Bu, bir həqiqətdir ki, indiki və gələcək nəsillərin dinc, əmin-amanlıq şəraitində, təhlükədən uzaq bir mühitdə yaşamaları üçün ilk növbədə tolerantlıq prinsiplərinə ciddi əməl edilməlidir. Çünki "bütün səmavi dinlərdə, eləcə də İslamda digər dinlərin nümayəndələrinə qarşı dözümlü və ədalətli davranmaq vacib əməllərdən hesab olunur. İnsanlar arasında ayrı-seçkilik salmaq, onlarla rəftarda din və məzhəb fərqliliyini əsas götürmək günah əməllərdən sayılır" [11, s. 23-24].

Doğrudan da, dinc yanaşı yaşama və xalqlar arasında əməkdaşlıq qayələrini, müxtəlif ölkələr arasında bərabərhüquqlu və ədalətli siyasi, iqtisadi və mədəni əlaqələri bərqərar etməklə sülhü qorumaq mümkündür. Sülhün qorunmasında isə başlıca qüvvə yenə də İslamdır. "Dinin çox güclü təsir vasitəsi olduğu inkaredilməzdir. Çünki o bir çox insanın mənəvi istinadgahıdır. Din insanlara həyata münasibətdə ümid verə biləcək sosial fenomendir. Onların iç dünyasına tutulan çıraqdır" [12, s. 45]. Məhz buna görə də dinindən, irqindən, rəngindən asılı olmayaraq bütün insanlar biri-birlərinə hörmətlə, ehtiramla yanaşmalıdırlar. Bu, bir çox Quran ayələrində də öz ifadəsini tapmışdır: **"İman gətirənlərdən (müsəlmanlardan), musəvi (yəhudi), isəvi (xristian) və sabiilərdən Allaha, axirət gününə (sədaqətlə) inananların və yaxşı iş görənlərin mükafatları Rəbbinin yanındadır. (Qiyamətdə) onların heç bir qorxusu yoxdur və onlar qəmgin olmazlar"** [2, Bəqərə, 62].

Şeyx Həzrətləri bu cəhətləri təhlil edərkən bildirir ki, heç bir insani münasibətləri

pozmadan, təcavüzə və düşmənçiliyə əl atmadan insanlar arasında xoş, ülvi əlaqələr yaratmaq mümkündür və İslamın müqəddəs Kitabında buna aid ayələr vardır. İnsan rəftarında mülayim, yumşaq olarsa, qarşısındakı nə qədər sərt olsa belə, bu xoş münasibətdən dolayı tamamilə yaxşılığa doğru dəyişə bilər: **"Onunla yumşaq danışın. Bəlkə, öyüd-nəsihət qəbul etsin, yaxud (Rəbbindən) qorxsun!"** [2, Ta ha, 44], yaxud digər bir ayədə İslam dininin insanları daim sülhə, barışığa çağırması aydın görünür: **"..Onlar sülhə (barışığa) meyl etsələr, sən də sülhə meyl et və Allaha bel bağla. Həqiqətən, Allah (hamınızın sözlərini) Eşidən və (niyyətlərinizi) Biləndir!"** [2, Ənfal, 62].

"Allah Rəsulu da (s) həyatı boyu daim sülhə üstünlük vermişdir. Bunu onun Məkkə müşrikləri ilə bağladığı Hüdeybiyyə anlaşmasında aydın görmək olar. Məhəmməd peyğəmbər (s) uzun illər onu əzab-əziyyətlərə, təqib və təzyiqlərə məruz qoymuş məkkəlilərlə şəfqətlə davranmış, Məkkəni qan tökmədən fəth etmişdir. Məkkənin fəthindən sonra ən güclü olduğu zamanda belə, bir vaxtlar ona zülm və işgəncə vermiş insanlardan intiqam ala bilmək imkanının olmasına baxmayaraq, ümumi əfv elan etmişdir" [13, s. 122].

Sülhü insanların ən ülvi, ən müqəddəs qayəsi adlandıran Şeyx Həzrətləri məhz elmin, daha dəqiq desək, islami elmin sayəsində sağlam düşüncə sahibi olmağın mümkünlüyünü qeyd edir. Şeyx Həzrətləri yazır ki, "İslamda elm ilə din Peyğəmbər Əleyhissəlamın dövründən bəri müsəlmanların şüurunun və varlığının bir-birini ahəngdar şəkildə tamamlayan ünsürləri olmuşdur. İndi də müsəlmanların həyatının elə bir sahəsi yoxdur ki, burada biliyə ülvi dəyər kimi, insanın özünütəsdiq meyarı kimi baxılmasın, elmə Xudavəndi-aləmin əzəli nəsihəti ilə işıqlandırılmış münasibət bəslənilməsin" [1, s. 204].

Azərbaycanın ictimai-siyasi, ədəbi-bədii və dini-fəlsəfi fikir tarixində ən şərəfli yerlərdən birini tutan, dindar-ruhani ailəsində doğulmuş M.Ə.Rəsulzadə də elmsiz insanların daim qəflətdə olduqlarını bildirmiş və xilas yolunu ancaq elmin təbliğində görmüş, "Qurana istinadən elmin əhəmiyyəti və şərafətindən bəhs edən "Müxəmməs"ini yazmışdır.

"Elmə rağıb ol gilən-qafildilər küllən cühul.
Hər nə var dünyada bil ki – elmilən olmuş hüsul..."

Ömrü boyu öz əqidəsinə sadiq qalan bu böyük şəxsiyyətin İslam dininin müdafiəçisi və mühafizəçisi Həzrət Əliyə (ə) müraciət etməsi, eləcə də həm bu, həm də axirət dünyası üçün elmin oynaya biləcəyi rola, verə biləcəyi mənfəətə xalqı inandırmaq üçün Peyğəmbərin dediklərinə istinad etməsi və ondan nümunələr gətirməsi bir daha elmin qüdrətinin hüdudsuzluğunu göstərir [14, s. 85-87].

Elmin qüdrətini, onun bütün insanların həyatında danılmaz rolunu görən, Qurani-Kərimdə düşüncə yolu ilə bilik kəsb etməyin bütün üsullarına işarə edildiyini vurğulayan Şeyx Həzrətləri haqlı olaraq yazır ki, "İslamın elmi biliklərə münasibətini əslində elə Quranın mətninə müraciət etməklə də izləmək mümkündür. Təsadüfi deyildir ki, burada "elm" istilahı müxtəlif mənalarda 850 dəfədən çox işlədilmişdir" [1, s. 206].

Qurani-Kərimin əzəmətini ifadə edən bir ayədə buyurulur: **"Həqiqətən, Biz onlara (Məkkə müşriklərinə və kafirlərinə) elmlə müfəssəl izah etdiyimiz, inanan bir qövm üçün hidayət və mərhəmət olan (dini vəzifələrini öyrətmək üçün mükəmməl) bir**

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Jurnalı

**Kitab (Quran) gətirdik"** [2, Əraf, 52]. İnsanları doğru yola dəvət üçün göndərilən Qurani-Kərim "insan zəkasını da nura qərq etmiş olur, onu Pərvərdigarın ancaq Özünə bəlli sirlərə yiyələnməyə dəvət etmiş olur. Və insan Hidayət Kitabından nə qədər çox bəhrələnsə, Kainatın sirlərinə bir o qədər çox vaqif olmaq üçün taqət kəsb edir" [1, s. 210]. Şeyx Həzrətlərinin qeyd etdiyi kimi, müasir dövrdə insan nə qədər elmə yiyələnsə də, onun mahiyyətindən ancaq və ancaq insana xidmət edəcəyi bir tərzdə istifadə etməlidir. Yalnız bu zaman İslam dininin ən ümdə qayələrini qoruyub saxlamaq mümkün olar.

## ƏDƏBİYYAT


1. Şeyxülislam Allahşükür Paşazadə. Qafqazda İslam: tarix və müasirlik. Bakı: Azərnəşr, 1991.
2. Qurani-Kərim (Ərəb dilindən tərcümə edənlər: Ziya Bünyadov və Vasim Məmmədəliyev // məsləhətçi-redaktor Şeyxülislam Hacı Allahşükür Paşazadə). Bakı:Azərnəşr, 1992.
3. Babayev Xanəli. Nurlu qələmlər. Bakı: Elm nəşriyyatı, 2010.
4. Əliyev Rafiq. İslam (ikinci nəşr). Bakı: "İrşad" İslam Araşdırmaları mərkəzi, 2004.
5. Əliyev Rafiq. Din. Əxlaqa aparan yol. Bakı: "İrşad" İslam Araşdırmaları Mərkəzi, 2005.
6. Həsənli Hacı Sabir. İslam mədəniyyətində elm. Elm və həyat nəşriyyatı, 1998.
7. Əhmədov Rəşadət. "Azərbaycanda xalq arasında yayılmış bəzi məşhur deyimlər və onların dəyərləndirilməsi" // "Dövlət və Din" İctimai fikir toplusu, sentyabr 2008, 3 (7). Azərbaycan Respublikası Dini Qurumlarla iş üzrə Dövlət Komitəsi.
8. Kərimli Teymur. Sözün işığında // Xanəli Babayevin "Nurlu qələmlər" əsərinə "Ön söz". Bakı: Elm nəşriyyatı, 2010.
9. Məhəmməd Ömər Şabra. İnkişafın İslam modeli. "Məqasid" konsepsiyası əsasında. Bakı: İdrak, 2013.
10. Qasımov Zakir. "Həzrət Əli və sosial ədalət problemi" // "Hikmət" Elmi-araşdırmalar toplusu, № 4. Bakı: Kösər nəşriyyatı, 2004.
11. Ayətullah Seyyid Əli Xamnei. Quranda islami düşüncənin siması. İslam Maarifi və islami əlaqələr təşkilatı – Tərcümə və nəşriyyat redaksiyası. Tehran: 1996.
12. Həsənli Anar. "Azərbaycanda Tolerantlığın əsas xüsusiyyətləri barədə" // "Dövlət və Din" İctimai fikir toplusu, № 1 (30), yanvar 2015. Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi.
13. Qəniyev Mahir. "İslamda sülh və müharibə anlayışları" // "Dövlət və Din" İctimai fikir toplusu, may-iyun 2011. Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi.
14. Ağayev Müstəqil. "Məmməd Əmin Rəsulzadə və İslam dini" // "Hikmət" Elmi araşdırmalar toplusu, № 4, 2004.

Алирза Гафаров

**СТАНОВЛЕНИЕ И ЭТАПЫ РАЗВИТИЯ «ИСЛАМА НА КАВКАЗЕ»**

РЕЗЮМЕ

В статье рассматривается работа председателя Управления Мусульман Кавказа, Шейхульислама Аллахшукюр Пашазаде «Ислам на Кавказе». Рассказывается о возникновении Ислама на Кавказе, распространении на этой обширной территории и его влиянии на нравственность народа, проживавшего в этой области. На протяжении всей своей жизни, принимая участие в различных научных и международных конференциях, всегда популяризируя Ислам, он решил написать эту работу не имея литературы, дающей исчерпывающую информацию об Исламе. Используя богатые источники, особенно святой Коран, автор объяснил важность Ислама и его место для науки, искусства, войны и мира. В статье также отмечены мысли великих людей о религии из других областей знаний.

Alirza Gafarov

**FORMATION AND DEVELOPMENT STAGES OF "ISLAM IN CAUCASUS"**

SUMMARY

The article deals with the work "Islam in Caucasus" by Sheykhulislam Allahshukur Pashazadeh, the chairman of the Caucasus Muslims Department. It is told about the origin of Islam in Caucasus, spreading in this wide territory and its influence to the morality of the people lived in this area. Throughout his life, taking part in various scientific and international conferences, always popularizing Islam, he decided to write this work without literature, giving comprehensive information about Islam. The author explained the importance of Islam and its place in science, art, war and peace based on rich sources, especially the Holy Quran. The article also notes the thoughts of great men of religion from other knowledge areas.

# CƏFƏRİ MƏZHƏBİNDƏ FİQH ÜSULUNUN TƏŞƏKKÜL TARİXİ

***Əmir KAHAYEV,***
*Konya N. Erbakan Universitetinin*
*Ərəb dili ixtisası üzrə doktorantı,*
*amirkahayev@gmail.com*

***AÇAR SÖZLƏR:*** *üsul, əxbar, fiqh, məzhəb, cəfərilik.*
***КЛЮЧЕВЫЕ СЛОВА:*** *усуль (основы исламского права), ахбар, фикх, мазхаб, Джафаритский мазхаб.*
***KEY WORDS:*** *usul (principles of Islamic jurisprudence), achbar, fiqh, madhhab (sect), Jafari madhhab.*

Fiqhi məzhəblər hicri I-II əsrlərdə tam təşəkkül tapmadığı üçün həmin dövrlərdə tam formalaşmış cəfəri fiqhindən də bəhs etmək mümkün deyildir. Fiqh üsulu elminin ilk dəfə sünni məzhəb alimləri tərəfindən ortaya qoyulduğunu cəfəri alimlər özləri də qəbul edirlər. Lakin onlar bunu belə izah edirlər: Allah Rəsulunun (s) vəfatı ilə sünni alimlər təşri (qanunvericilik) mənbələrini itirdikləri üçün əsası Quran və sünnəyə istinad edən üsul qaydalarından istifadə etmək məcburiyyətində qaldılar. Amma cəfəri alimlər üçün belə bir məcburiyyət yox idi. Çünki Rəsulullahın (s) vəfatından sonra "böyük qeyb dövrü"nə (h. 329/ m. 942) qədər təşri mənbə kimi məsum imamlar qəbul edilir. Ona görə də fiqh üsulu elmindən ilk istifadə edənlərin sünni alimlər olduğunu söyləsələr də, cəfəri alimləri özlərini bu elmin banisi sayırlar [1, c. IV, s. 285, 290; 2, c. I, s. 56-58].

Cəfərilər hüquq sistemlərini Şeyx Müfid ləqəbi ilə məşhur olan Məhəmməd ibn Numanın (v. 413/1022) öndərliyində X əsrin sonlarında qurmağa başlamışlar [3, s. 27].

Üsuli-fiqh özünəməxsus xüsusiyyətləri olan bir çox tarixi mərhələdən keçmişdir. Bu mərhələlərdən bəziləri sünni və cəfəri üsulu baxımından müştərək, bəziləri isə sadəcə birinə aiddir. Cəfərilik məzhəbində fiqh üsulundan istifadədə iki fərqli metod vardır. Bunlar üsuli və əxbari metodlarıdır. Bu iki qrupun dəlil anlayışı və hökm əldə etmə üsulları bir-birindən olduqca fərqlidir. Fiqh üsulunu quran və inkişaf etdirən qrup isə üsulilərdir. Əxbarilərə görə, şəri hökmlərin dəlilləri Quran və sünnəndən ibarətdir. Sünnə Həzrət Peyğəmbərin (s) və on iki imamın söz, hərəkət və təqrirləridir. Ağıl, ictihad və qiyas əxbarilərə görə dəlil deyildir. Üsulilərə görə isə, müctəhidlərin hökm verə bilmək üçün müraciət edəcəkləri dörd dəlil vardır: Kitab, sünnə, icma və ağıl. Kitab və sünnə bütün hökmləri açıqlamadığı üçün ictihada ehtiyac vardır [4, s. 329; 5, c. VII, s. 6].

Fiqh üsulunun cəfəri düşüncəsində olub-olmadığı və nə vaxt cəfəri fiqhində bundan istifadə edilməyə başlanıldığına dair əxbarilər ilə üsulilər arasında fikir birliyi yoxdur. Əxbarilər bu elmi əhli-sünnənin ortaya qoyduğunu və daha sonra

cəfərilər tərəfindən mənimsənilsə də, imamlar tərəfindən qadağan olunduğunu qeyd edirlər. Üsulilər isə, bu dəlillərin tutarsız olduğunu vurğulamış, Fiqh üsulunun imamlar və onların əshabı tərəfindən təşviq edildiyini irəli sürmüşlər. Həmçinin, üsulilər fiqh üsulunun tarixi zərurətdən irəli gələrək hədis və fiqh elmlərindən sonra ortaya çıxdığını iddia edirlər. Onların fikrincə, imamlar dövründə yaşayan alimlərin bu elmə ehtiyac duymaması "qeyb"dən sonra da bu elmin lazım olmadığı mənasına gəlmir. Çünki alimlərlə imamlar dövrü arasındakı fasilənin uzanması üsulla əlaqədar bəzi ümumi qaydaların təsbitini və nəsslərdən şəri hökmlərin çıxarılmasını məcbur etmişdir. Bu səbəbdən də təxminən iki əsr davam edən ilk dövr əxbariliyin öz yerini üsuli düşüncəyə tərk etməsi zəruri olmuşdur [6, s. 108-109].

Cəfəri müəlliflər fiqh üsulunun inkişafını müəyyən dövrlərə ayırmışlar. Bunlardan birincisi, üsul elminin toxumlarının səpildiyi "hazırlıq" dövrüdür. Bu dövr İbn Əbi Aqil və İbn Cüneydlə başlayıb Tusi ilə yekunlaşır. İkinci dövr isə "elm" dövrü adlandırılır. Bu müddət ərzində üsuli düşüncənin sərhədləri müəyyənləşdirilmiş və həmin dövrdə üsul fiqhə çox böyük təsir göstərmişdir. Qurucusu Şeyx Tusi olan bu dövrün cığırı sonralar bir az dəyişdirərək İbn İdris, Mühəqqiq və Əllamə Hillilər, Şəhidi-Əvvəl və Şəhidi-Sani davam etdirmişlər. Üçüncü dövrə gəlincə, səfəvilərdən sonra təkrar zühur edən əxbariliyin zəifləməsi ilə yanaşı, ortaya çıxan "təkmilləşmə" dövrüdür. Bu dövr Bəhbəhaninin açdığı mədrəsəylə başlamışdır. Günümüzədək cəfəri düşüncəsinə bu mədrəsə hakimdir [7, s. 87-88].

**Fiqh üsulunun təşəkkül tarixi**

***A. İbn Əbi Aqil və İbn Cüneyd dövrü***

"Qeyb"dən sonrakı əxbarilərin hakim olduğu ikiəsrlik müddət ərzində üsulilərin öncül kimi qəbul etdikləri iki şəxsiyyət vardı. Lakin onların bu iki alimi hərtərəfli qəbul etdiklərini deyə bilmərik. Hər ikisinin də ortaq nöqtəsi əqli istidlal (hansısa dəlilə əsaslanaraq bir şey haqqında hökm çıxartmaq) metodundan istifadə etmələri idi. Üsuli alimlər onları imamların dövründə mövcud olduğunu qəbul etdikləri rasional və analitik fiqhin təqibçisi kimi görüb, qeybdən sonra kəlam və fiqhin öncülləri olaraq mənimsədilər. Bu iki alimə "Qədimeyn" adı verilmişdir [6, s. 109].

Əbu Məhəmməd Həsən ibn Əli ibn Əbi Aqil əl-Ümmani h. IV/ m. X əsrin ilk yarısında yaşamışdır. İlk dəfə əqli dəlillərdən istifadə edən və üsuli anlayışın toxumlarını səpən şəxs kimi tanınır. Eyni zamanda, onun fiqhi üsuldan ayıran ilk alim olduğu qeyd edilir. Ondan sonra bu yolu müasiri və tələbəsi olan Əbu Əli Məhəmməd ibn Əhməd ibn əl-Cüneyd əl-Katib əl-İsqafi (v. 381/991) davam etdirmişdir. O, Müfid, Əhməd ibn Əli ən-Nəcaşi (v. 450/1058) və Tusinin müəllimi olmuşdur. Cəfəri alimlərinin bir hissəsi ilk ictihad qapısını açan şəxsin İbn Əbi Aqil olduğunu bildirsələr də, bəziləri onun İbn Cüneyd olduğunu qeyd edirlər. İbn Cüneydin hənəfi fiqhinə əməl edib, zənni hökmlərə çox güvəndiyi də rəvayət olunur [6, s. 110-111].

İbn Əbi Aqil və İbn Cüneydin üsul elmi ilə məşğul olmaları imamların hədislərini nəql edən əxbarilər tərəfindən xoş qarşılanmamış, ona görə də öz dövrlərində çox

diqqət çəkməmişlər. Sonrakı dövrlərdə, xüsusilə h. VII/ m. XIII əsrin ikinci yarısından etibarən əqli analizin cəfəri hüququna nüfuz etməyə başlaması onların fəaliyyətlərinin qiymətləndirilməsi ilə nəticələnmişdir [3, s. 25].

İbn Əbi Aqil üsulunu Quranın ümumi qaydaları və məşhur hədislərə əsasən qurmuş, xəbəri-vahidi mötəbər dəlil kimi qəbul etməmişdir. İbn Cüneyd isə qəti olmayan hədislərlə əməl etdiyi üçün hədis məktəbinə mənsub sayılmışdır. Lakin illəti açıq və qəti bilinən məsələlərdə qiyası caiz gördüyü, hədislərin zahirinə görə, eyni zamanda nəsslərə istinad edən ümumi hökm və prinsiplərə əsaslanaraq hökm verdiyi üçün Şeyx Müfid və bir çox fəqih tərəfindən tənqid edilmişdir [4, s. 321].

İlk dövr əxbarilərinin hakim olduğu zamanda yaşayan bu iki alim daha sonra Şeyx Müfidlə başlayacaq üsuli düşüncənin əsasını qoymuşlar. Bununla belə, əsərləri bu gün əlimizdə olmayan bu iki müəllif sistematik üsul yarada bilməmişdir.

***B. Şeyxut-taifə dövrü***

Üsuli düşüncənin əsası Şeyx Müfid tərəfindən qoyulmasına baxmayaraq, bu dövr tələbəsi Əbu Cəfər Məhəmməd ibn Həsən ət-Tusi (v. 460/1067) ilə başlamışdır. Belə ki, "kəlamçılar məktəbi" deyildikdə Şeyx Müfid, Şərif Mürtəza Əli ibn Hüseyn (v. 436/1044) və Təqiyyüddin ibn Nəcməddin əl-Hələbinin (v. 447/1055) yaşayıb-yaratdığı dövr nəzərdə tutulur [4, s. 322]. Bu alimlərin tədqiqatları nəticəsində V əsrin birinci yarısında əxbari məktəbi öz təsir gücünü yavaş-yavaş itirmişdir.

Tusi Küleyni (v. 329/939-940) və Saduq (v. 381/991) tərəfindən təmsil edilən ənənəyə bağlı olanlarla Müfid və Mürtəzanın əsasını qoyduğu kəlam (üsul) məktəbinin metodlarını birləşdirmək surəti ilə daha mötədil bir fiqh məktəbi qurmuşdur. Onun xəbəri-vahidi də daxil edərək rəvayətləri fiqhdə dəlil qəbul etməsi, bununla yanaşı, rasional və analitik metodu mühafizə etməsi cəfəri fiqhinin bugünədək davam edən ən bariz xüsusiyyətidir. O, Şərif Mürtəza kimi ağla üstünlük verən metodu seçməmiş, əksinə, ağılla vəhyi birləşdirən yol seçərək, fiqhə uyğunlaşdırmışdır. Qısaca, o, vəhyə üstünlük verib bunu əqli dəlillərlə dəstəkləmişdir [6, s. 116].

Tusi cəfəri fiqhinin hazırlıq mərhələsinə nöqtə qoymuş, bu elmin təkmilləşmə mərhələsini başlatmışdır. Ondan əvvəl müctəhid olaraq qəbul edilən şəxslər olsa da, üsul və fiqh elminin həqiqi qurucusu Şeyx Tusidir. Tusiyədək bu elmlər məhdud və əskik idi.

O, "Məbsut" adlı əsərində təfri (ümumi qaydalardan cüzi hökmlərin çıxarılması) metoduna üstünlük vermiş, sadəcə rəvayətlərin nəqli ilə kifayətlənməmişdir. Bununla yanaşı, xəbəri-vahidi dəlil kimi qəbul etdiyi üçün əxbarilərin hakim olduğu dövrün xüsusiyyətlərini də qorumuşdur. O, üsulilərin metodu ilə əxbarilərin dəlillərə baxışını birləşdirmiş və yeni bir cığır açmışdır.

Tusinin vəfatından sonra təxminən bir əsr təqlid dövrü hakim olmuşdur. Bu müddət ərzində sadəcə əsərləri nəql və şərh edilmişdir. Onu ilk tənqid edən şəxs Məhəmməd ibn İdris əl-Hilli (v. 598/1202) olmuşdur [8, c. IX, s. 160].

Mühəqqiq əl-Hilli kimi tanınan Əbül-Qasım Nəcməddin Cəfər ibn əl-Həsən (v. 675/1277) və onun tələbəsi əl-Həsən ibn Yusif ibn əl-Mütəhhər Əllamə əl-Hilli (v. 726/1326) isə Tusinin yazdığı əsərləri sistemləşdirmiş və əskiklərini tamamlamışlar [5, c. VII, s. 6].

Tusi məktəbinin hakim olduğu üç əsr ərzində bu üsulda elə bir önəmli dəyişiklik olmamışdır. Şəhidi-Əvvəl Şəmsəddin Məhəmməd ibn əl-Məkki əl-Amili (v. 786/1384) xüsusilə "əl-Qəvaid vəl-fəvaid" əsərində müstəqil cəfəri fiqhini ortaya qoymuşdur. Şəhidi-Sani Zeynəddin ibn Əli əl-Amilinin (v. 966/1559) də aralarında olduğu bir çox alim isə bir əsr yarım müddətində Şəhidi-Əvvəlin inkişaf etdirdiyi fiqhə bağlı qalmışdır [4, s. 325].

***C. Vahidi-Bəhbəhani dövrü***

Bu dövr səfəvilərdən sonra yenidən güclənən əxbariliyin zəifləməsi ilə birlikdə meydana çıxan təkmilləşmə dövrüdür. On ikinci əsrin ikinci yarısında mükəmməl yetişmiş fəqih, əqli istidlal (hər hansı dəlilə istinad edərək hökm çıxarmaq) qabiliyyətini yuxarı səviyyədə təmsil edən üsulçu alim Məhəmməd Baqir ibn Məhəmməd Əkməl Vahidi-Bəhbəhani (v. 1205/1790) təsis etdiyi məktəbi elmi mühitə qəbul etdirdi. Bu məktəbin xüsusiyyəti fiqh üsulu elmini yenidən canlandırması, məntiqlə birləşdirməsi və demək olar ki, yenidən qurması şəklində xülasə edilə bilər.

Bəhbəhanidən sonra bu elmi zənginləşdirən, dövrün ehtiyaclarına cavab verəcək hala gətirən alim Mürtəza ibn Məhəmməd Əmin əl-Ənsaridir (v. 1281/1864) [4, s. 326-327; 6, s. 334-339]. Günümüzədək elmi mühitə hakim olan bu məktəbi Ənsari qurmuşdur.

**Üsuli-fiqhlə bağlı əsas əsərlər**

Cəfəri alimlər daha əvvəl fiqh üsuluna sahib olduqlarını ifadə etməklə yanaşı, bu elmdən istifadənin "qeyb dövrü"ndən (h. 329/ m. 942) sonra başladığını bildirirlər. Fiqh üsulu ilə əlaqədar ilk yazılan əsərlərin isə kəlam alimi Hişam ibn əl-Hakəm əş-Şeybaniyə (v. 199/814) aid "Kitabül-əlfaz və məbahisuha" və Yunus ibn Əbdürrəhmanın "Kitabu ixtilafil-hədis" olduğu vurğulanır [1, c. IV, s. 281-282; 2, c. I, s. 61]. Hətta bu əsərlərin İmam Şafeinin (v. 204/819) "Risalə"sindən əvvəl qələmə alındığı qeyd olunur. Lakin bu əsərlər "Risalə"dən əvvəl yazılsalar da, onlar üsulun bir çox mövzusunu ehtiva etməmiş, sadəcə bir mövzuya toxunmuşlar. Bundan başqa, həmin əsərlərdə həm üsulla, həm də başqa elm sahələri ilə əlaqədar mövzular müştərək şəkildə tədqiq edilmişdir.

Rəvayətlərdən əldə olunan məlumata görə, fiqh üsulu ilə bağlı qaydalar ilk dəfə İmam Məhəmməd əl-Baqir ibn Əli (v. 114/733), ondan sonra isə oğlu İmam Cəfəri Sadiq (v. 148/765) tərəfindən qələmə alınmışdır [1, c. IV, s. 281].

Üçüncü əsrin kəlam alimlərindən olan İsmayıl ibn Əli ibn İshaq ən-Nəvbəxti də bu sahədə "Kitabül-xüsus vəl-ümum vəl-əsmai vəl-əhkam", "Kitabu nəqdi Risalətiş-Şafei", "Kitabu ibtalil-qiyas" və "Kitabün-nəqdi əla İsa ibn Əban fil-ictihad" kimi əsərlər yazmışdır. Həmçinin bu əsrdə yaşamış Əbu Məhəmməd əl-Həsən ibn Musa ən-Nəvbəxti də "Kitabu xəbəril-vahid vəl-əməli bih" və "Kitabül-xüsus vəl-ümum" əsərlərini qələmə almışdır [1, c. IV, s. 282, 292-293; 2, c. I, s. 67].

İbn Əbi Aqil əl-Ümmani cəfəri məzhəbində fiqh üsulu üzərində ilk düşünənlərdən olmuşdur. Onun bu sahədə xüsusi kitabı olmasa da, fiqhlə bağlı "əl-Mütəməssik bi həbli Alir-Rəsul" adlı əsər qələmə aldığı bildirilir [1, c. IV, s. 293]. Lakin əsər təəssüf ki, bu gün əlimizdə mövcud deyildir. Onun "böyük qeyb dövrü"nün başlanğıcında fiqhi nizamlayan, məntiqdən istifadə edən, üsul və füru ilə əlaqədar araşdırmaları başladan ilk

şəxs kimi tanındığını qeyd etmişdik.

İbn Əbi Aqil kimi İbn əl-Cüneyd əl-İsqafi də Şeyx Müfiddən (v. 413/1022) əvvəlki nəslə mənsub olmuş və Bağdadda yaşamışdır. Onun fiqhlə bağlı iyirmi cildlik “Kitabu təhzibiş-şiə li əhkamiş-şəriə” adlı əsər yazmışdır. Bu kitabında üsula aid bəzi məsələləri və istinbatdakı bir sıra müştərək əsasları toplamışdır. Daha sonra bu əsərin xülasəsi mahiyyətində başqa bir kitab qələmə almışdır. Bu əsərin adı isə “əl-Müxtəsərul-Əhmədi fil-fiqhil-Məhəmmədi”dir [6, s. 112]. İbn Cüneyd qiyas və ictihadı qəbul etmiş, mövzu ilə əlaqədar “Kitabu kəşfit-təmvih vəl-iltibas fi ibtalil-qiyas” və “Kitabu izhar mə sətərahu əhlül-inad minər-rəvayə ən əimmətil-itrəti fi əmril-ictihad” adlı əsərlərini yazmışdır. Tusi qiyası qəbul etdiyinə görə cəfəri alimlərinin onun görüşlərini rədd etdikləri bildirilir [9, s. 209].

Cəfərilərdə fiqh üsulu elminin bütün mövzularını ehtiva edən ilk əsəri yazan İbn Cüneydin tələbəsi Şeyx Müfid olmuşdur. Müfid bu əsərini h. IV/ m. X əsrin sonlarında-h. V/ m. XI əsrin əvvəllərində qələmə almışdır. Onun bu əsəri müxtəsər bir kitab olub, tələbəsi Əbül-Fəth Məhəmməd ibn Əli ibn Osman əl-Kəracəkinin (v. 429/1037) “Kənzül-fəvaid” adlı əsərində ixtisar edilmişdir. Bu əsərin adı dəqiq bilinməməklə yanaşı, “ət-Təzkira bi üsulil-fiqh” olaraq tanınır. Şeyx Müfid bütün hökmlərin dəlillərini Kitab, sünnə və Əhli-beyt imamlarının görüşləri şəklində üç mənbə ilə məhdudlaşdırmış, rəy və qiyası qəbul etməmişdir [6, s. 112; 3, s. 27].

Müfid İbn Əbi Aqil və müəllimi İbn Cüneydi qiyas, rəy və istehsanı qəbul etdiyi üçün tənqid etmişdir. Bu məqsədlə “ən-Nəqd əla İbnil-Cüneyd fi ictihadihi fir-rəy” adlı bir risalə də yazmışdır [3, s. 27-28].

Şeyx Müfidin qeyd edilən müxtəsər kitabından başqa, fiqh üsulu ilə əlaqədar sonrakı iki əsas əsər Mürtəza və Şeyx Tusi tərəfindən qələmə alınmışdır. Bunlar Mürtəzanın “əz-Zəriə ila üsuliş-şəriə”si ilə Tusinin “Uddətül-üsul” adlı əsərləridir.

Şərif Mürtəzanın bu əsərindən başqa, “Kitabu məsailil-xilaf fi üsulil-fiqh”, “Kitabu ibtalil-qiyas” və fiqh üsulu ilə bağlı risalələri də vardır [1, c. IV, s. 282].

Müfidin əsəri orijinalı əlimizdə olmadığı üçün Mürtəzanın bu kitabı cəfəri fiqh üsulunun ən qədim və ən önəmli əsəri sayılır. O, əsərində sünni alimlərin görüşlərinə yer vermiş, öz görüşlərini də dəlilləri ilə birlikdə nəql etmişdir. Əsərin ən önəmli xüsusiyyəti üsulud-din ilə üsuli-fiqh arasına sərhəd çəkməsidir. Çünki ondan əvvəl bu elmlər bir yerdə təqdim edilirdi. Müfid də “Müqniə” adlı əsərində fiqh və kəlamla əlaqəli görüşlərini bir yerdə vermişdir. Mürtəza özündən əvvəlki alimlərlə müqayisədə əxbara (hədis rəvayətlərinə) qarşı ən sərt mövqe tutan şəxsdir [6, s. 113].

Qeyd edilənlərdən aydın olur ki, cəfəri məzhəbində üsuli-fiqh elminə aid ilk əsərlər on ikinci imamın qeybindən təxminən bir əsr sonra qələmə alınmışdır.

Bu kitablardan sonra hicri altıncı əsrin sonlarında vəfat edən Sədidüddin Mahmud ibn Əli ibn əl-Həsən ər-Razinin “əl-Məsadir fi üsulil-fiqh” və Mühəqqiq Hillinin “Məaricül-vüsul” və “Nəhcül-vüsul” kimi əsərlərini əsas mənbələr arasında qeyd edə bilərik.

Əllamə Hilli də əvvəl “Nihayətül-vüsul ila ilmil-üsul” əsərini yazmış, bunu da “Təhzibu təriqil-vüsul ila ilmil-üsul” adı altında ixtisar etmişdir. O, “Məbadiül-vüsul ila ilmil-üsul” adlı başqa bir üsul kitabının da müəllifidir [1, c. IV, s. 282].

Daha sonralar yaşamış cəfəri alimlərin yazdığı üsul əsərlərindən isə Məhəmməd

Həsən ibn Zeynəddin əl-Amilinin (v. 1011/1602) "Məalimül-üsul", Vahid Bəhbəhaninin (v. 1205/1790) "əl-Fəvaidül-hairiyyə", Əbül-Qasım ibn əl-Mövla Məhəmməd Həsən əl-Qumminin (v. 1231/1815) "Qəvaninül-üsul", Məhəmməd ibn Əli ibn Məhəmməd Əli ət-Təbətəbainin (v. 1242/1826) "Məfatihul-üsul", Məhəmməd Kazım əl-Xorasaninin (v. 1329/1911) "Kifayətül-üsul"unun və s. adlarını çəkə bilərik [1, c. IV, s. 282, 296-297, 301-302].

## ƏDƏBİYYAT


1. Əbül-Qasım Gorci. Üsulul-fiqh, Dairətül-məarifil-islamiyyətiş-şiiyyə (nəşrə hazırlayan: Həsən əl-Emin), IV. Beyrut: Darut-təaruf, 1422/2002, s. 278-303.
2. Məhəmməd Rıza əl-Ənsari. əş-Şeyx ət-Tusi həyatuhu və əsəruhu (Tusinin əl-Uddə əsərinin müqəddiməsi – Əbu Cəfər Məhəmməd ibn Həsən. əl-Uddə fi üsulil-fiqh) (nəşrə hazırlayan: Məhəmməd Rıza əl-Ənsari), II. Qum: Sitarə, 1417.
3. Cemil Hakyemez. "Şiî İmâmiyye Fıkhının Teşekkül Süreci ve İmamet" // Hitit Üniversitesi İlahiyat Fakültesi Dergisi, 2008/1, c.7, sy. 13, s. 7-36.
4. Hayreddin Karaman. Şiada Fıkıh Usulü ve Şerî Deliller // Şiilik Sempozyumu. İstanbul: İlmî Neşriyat, 1993, s. 319-355.
5. Hayreddin Karaman. "Caferiyye", Diyanet İslam Ansiklopedisi, VII, s. 4-10.
6. Mazlum Uyar. Ahbârîlik. İstanbul: Ayışığı kitapları, 2000.
7. Məhəmməd Baqir Sadr. əl-Məalimül-cədidə lil-üsul. Tehran: Məktəbətün-nəcah, 1975.
8. Muhsin Emin. Əyanüş-şiə (nəşrə hazırlayan: Həsən əl-Emin), X. Beyrut: Darut-təaruf, 1406/1986.
9. Əbu Cəfər Məhəmməd ibn Həsən ət-Tusi. əl-Fihrist (nəşrə hazırlayan: Cəvad əl-Qəyyumi). (yayım yeri yoxdu), Müəssəsətu nəşril-füqəha, 1417.

Амир Кахаев

## ПЕРИОД СТАВОВЛЕНИЯ УСУЛИТСКОЙ ПРАВОВОЙ СИСТЕМЫ В ДЖАФАРИТСКОМ МАЗХАБА

АННОТАЦИЯ

Усулитская правовая система в джафаритском мазхабе прошла через три этапа развития. В свою очередь, это – подготовка, наука и совершенствование. В первом из этих этапов стали использовать метода (усул) науки, принципы рационализации и были обнаружены основы усулитской мысли. Самым наглядным представителем второго этапа был Туси. Он соединил разум с откровением и сформулировал исламскую правовую систему – фикх. На 3-м этапе усулитской наука объединилась с логикой и возродилась вновь.

Amir Kahayev

## THE FORMATIVE PERIOD OF USULI LAW SYSTEM IN JAFARI MADHHAB

ABSTRACT

Usuli law system of Jafari sect has passed through three stages in general. In turn these are - preparation, science and perfection stages. In the first of these steps started to use from method (usul) science, principles of rationalisation and have been founded bases of Usuli thought. The most obvious person of second stage was Tusi. He connected mind with vahy and formulated fiqh (Islamic law system) science. In the 3rd stage Usuli science united with logic and has revived anew.

# NAXÇIVANIN İNZİBATİ ƏRAZİ QURULUŞUNDA 1929-CU İL DƏYİŞİKLİKLƏRİ VƏ NƏTİCƏLƏRİ

**_Nurlana ƏLİYEVA,_**
*AMEA-nın Naxçıvan*
*Bölməsinin kiçik elmi işçisi,*
*nurlana.aliyeva3@gmail.com*

***AÇAR SÖZLƏR**: Naxçıvan Muxtar Respublikası, xəritə, inzibati ərazi quruluşu, erməni təcavüzü.*
***КЛЮЧЕВЫЕ СЛОВА:** Нахчыванская Автономная Республика, карта, административно-территориальная структура, армянская агрессия.*
***KEY WORDS:** Nakhchivan Autonomous Republic, map, administrative and territorial structure, Armenian aggression.*

Əlverişli coğrafi şəraitdə yerləşən Naxçıvan qədim insanların ilk məskənlərindən və bəşər sivilizasiyasının mühüm ərazilərindən biridir. Bu diyar tarixi inkişafın müxtəlif mərhələlərində bir çox dövlətlərin diqqətini cəlb etmiş və hücumlara məruz qalmışdır. Müxtəlif dövrlərdə bir sıra dövlətlər tərəfindən işğal olunmasına baxmayaraq, Naxçıvan Azərbaycanın əzəli və əbədi ərazisi kimi qorunub saxlanılmışdır. Bu bölgə 1921-ci il martın 16-dan başlayaraq Naxçıvan Sovet Sosialist Respublikası, 1923-cü il iyunun 16-dan Naxçıvan diyarı, 1924-cü il fevralın 9-dan Naxçıvan MSSR, 1990-cı ildən isə Naxçıvan Muxtar Respublikası adlandırılmışdır. 1995-ci ildə qəbul olunmuş Konstitusiyaya əsasən Naxçıvana Azərbaycan Respublikasının tərkibində muxtar dövlət statusu verilmişdir. Şimalda və şərqdə Ermənistan Respublikası (sərhəd xəttinin uzunluğu 246 km), qərbdə Türkiyə Cümhuriyyəti (sərhəd xəttinin uzunluğu 11 km), cənubda isə İran İslam Respublikası (sərhəd xəttinin uzunluğu 204 km) ilə həmsərhəddir.

Naxçıvanın muxtariyyət statusunun hüquqi bazasının yaradılması 1924-cü ilin aprelində Azərbaycan SSR-nin MİK tərəfindən təsdiq edilmiş Naxçıvan MSSR (Naxçıvan Muxtar Sovet Sosialist Respublikası) haqqında Əsasnamənin qəbulu ilə başlanmışdır. Əsasnaməyə görə, Naxçıvan Azərbaycan SSR-in tərkib hissəsi kimi ona Muxtar Respublika şəklində daxil olurdu. Naxçıvanın Azərbaycanla qarşılıqlı münasibətləri Azərbaycanın Konstitusiyası ilə müəyyənləşdirilirdi. Bu Əsasnamə MR-in ictimai, siyasi, iqtisadi həyatını tənzimləyən əsas qanunverici akt olmuşdur. Bununla Naxçıvan özünün qanunverici orqanları, icra hakimiyyəti olan muxtar quruma çevrilmişdir.

Naxçıvanın 1924-cü ilə aid kartoqraf N.Rıbakov tərəfindən tərtib edilmiş xəritəsini əsas götürərək bu dövr haqqında məlumat əldə etmək mümkündür. Xəritədə buranın ərazisi və əsas yaşayış məntəqələri öz əksini tapmış, Naxçıvanla Ermənistan arasındakı

"mübahisəli ərazilər" xüsusi göstərilmişdir. Bunlar indiki Şərur, Kəngərli, Babək, Şahbuz rayonları ilə Ermənistan SSR arasındakı 279 hektar ərazi və Ordubad rayonu ilə Zəngilan arasında qədim Azərbaycan torpağı olan Zəngəzurun bir hissəsidir. Həmçinin Kilit və Qarçevan əraziləri də Naxçıvanın sərhədləri içərisində yer almışdır [1, s. 155].

Tarixən ermənilər Azərbaycanın müxtəlif ərazilərinə, eləcə də onun ayrılmaz tərkib hissəsi olan Naxçıvana qarşı torpaq iddiaları ilə çıxış etmiş və bu mənfur niyyətlərindən heç vaxt əl çəkməmişlər. Bir çox hallarda onlar məqsədlərinə nail olmuşlar. "Böyük Ermənistan" yaratmaq sevdası ilə yaşayan ermənilər hiylə ilə torpaqlarımızı işğal etmişlər. Nəticədə, Zəngəzur mahalı, Göyçə torpaqları, Vedibasar ərazisi əlimizdən alınmış, Naxçıvan Azərbaycandan ayrı düşmüş, Kərki kəndi işğal olunmuşdur.

Məlumdur ki, Azərbaycan Demokratik Respublikasının mövcudluğu zamanı onun ərazisi 114 min kvadrat kilometr idi. Bunun 97,4 min kvadrat kilometri mübahisəsiz, 16,6 min kvadrat kilometri "mübahisəli ərazilər" sayılırdı [2, s. 422].

1920-ci ilə qədər ermənilər öz məqsədlərinə nail ola bilməsələr də, məkrli siyasətləri nəticəsində mərhələ-mərhələ arzularını gerçəkləşdirə bilmişlər. Zaqafqaziyada Sovet hakimiyyətinin qurulduğu dövrdə Azərbaycanın tarixən Naxçıvanla bağlı olan Zəngəzur, Dərələyəz, Qəmərli, İrəvan və Göyçə mahalları və b. bölgələri Rusiyanın havadarlığı ilə Ermənistan tərəfindən ələ keçirilmişdir. 1920-ci ilin yayında Azərbaycanın Zəngəzur, Naxçıvan və Şərur-Dərələyəz kimi mübahisəsiz torpaqları uğrunda Sovet Rusiyası ilə Ermənistan arasında hərbi əməliyyatlarla yanaşı, danışıqlar davam etdirilmiş, Azərbaycanın iştirakı olmadan onun torpaqlarının Ermənistana verilməsi məsələsi müzakirə edilmişdir. N.Nərimanov V.İ.Leninə məktubunda yazırdı: "Dəhşətli vəziyyət yaranmışdır. Mərkəz Gürcüstan və Ermənistanın müstəqilliyini, Azərbaycanın isə istiqlaliyyətini tanımış, lakin eyni zamanda həmin mərkəz Azərbaycanın tamamilə mübahisəsiz ərazilərini Ermənistana verir..." [1, s. 158-159].

1921-ci ildə Azərbaycan, Ermənistan, Gürcüstan və Türkiyənin səlahiyyətli nümayəndələrinin RSFSR-in nümayəndəsinin iştirakı ilə imzaladıqları Qars müqaviləsi ilə ölkələr öz üzərlərinə öhdəliklər götürmüşlər. Müqavilənin birinci maddəsində göstərilir ki, "razılığa gələn tərəflər ərazi məsələləri barədə əvvəlki müqavilələrin qüvvəsini itirmiş hesab edirlər. Zaqafqaziya Respublikaları bir-birinə qarşı ərazi iddiaları ilə tələb qaldırmamağı və üçüncü bir ölkəyə də bu imkanı verməməyi öhdəsinə götürürlər" [1, s. 159]. Qars müqaviləsinin 3-cü əlavəsində isə göstərilən sərhədlər daxilində Naxçıvan ölkəsi Azərbaycanın himayəsi altında muxtar ərazi kimi verilmişdir. "Naxçıvan ərazisi" başlığı altında verilən əlavədə Ermənistan SSR ilə Naxçıvan Muxtar Respublikası arasındakı sərhəd xəttinin keçdiyi əsas nöqtələr aşağıdakı kimi göstərilib:

(Naxçıvan ərazisi) Urmiya kəndindən (başlayır), oradan düz xətt ilə Arazdəyən stansiyasına (bu stansiya Ermənistan SSR-ə qalacaq), sonra düz xətt ilə Qərbi Daşburun (3142) dağına, oradan Şərqi Daşburun (4108) dağına, Cəhənnəm dərəsi, Bağırsaq dağının (6607 və ya 6587) – su ayrıcı xətt üzrə Ravona (bulaq) cənubunda qurtarır. Oradan da keçmiş İrəvan Qafqazının və Şərur-Dərələyəz xəttini izləyərək 6629 yüksəkliyindən Kömürlü dağ (6839 və ya 6930), oradan 3080 yüksəkliyinə, Sayad dağ (7868), (Qurd qulaq) kəndi Gamasor dağ (8160) – 8022 rəqəmli təpə və Göy dağ (10282) və keçmiş

Naxçıvan qəzasının inzibati sərhədinin şərqi [3, s. 431].

Burada Naxçıvanın sərhədləri dəqiq göstərilsə də, ermənilər məqsədli surətdə sonrakı illərdə tərtib edilmiş xəritələrdə arzularını gerçəkləşdirmişlər. Belə ki, 1924, 1928, 1932-ci illərə aid xəritələrdə Naxçıvan ərazisi dəqiq göstərilsə də, 1929, 1942-ci illər və daha sonrakı illərdə tərtib edilmiş xəritələrdə saxtakarlığa yol verilmiş və beləliklə, Arazdəyən stansiyası bölgəsindən 400 hektar, Şahbuz rayonunun Kükü ərazisindən 450 hektar Ermənistan SSR ərazisinə qatılmışdır [1, s. 160].

1924-cü ildə Rıbakov tərəfindən tərtib edilmiş xəritə öz obyektivliyi, təkmil və dəqiqliyi ilə seçilir. Bu xəritədə Sədərək kəndinin "Həsənqulu bağı" deyilən ərazi düzgün olaraq Naxçıvan Muxtar Respublikası ərazisinə daxil edilmişdir. 1929-cu il xəritəsində isə əksinə, "Həsənqulu bağı" Ermənistan SSR ərazisi kimi göstərilmişdir.

1924-cü ildə Naxçıvan MSSR-də 3 qəza (Şərur, Naxçıvan, Ordubad) və 12 dairə təşkil olunmuşdur [4, s. 39; 5, s. 95]. 1925-ci ildə qəzalar ləğv edilmiş, dairələrin sayı 10-a çatdırılmışdır: 1. Baş Noraşen rayonu (53 kənd); 2. Qıvraq rayonu (19 kənd); 3. Cəhri rayonu (14 kənd); 4. Tumbul rayonu (30 kənd); 5. Nərimanov rayonu (30 kənd); 6. Əbrəqunus rayonu (29 kənd); 7. Culfa rayonu (4 kənd); 8. Ordubad rayonu (20 kənd); 9. Parağa rayonu (15 kənd); 10. Aza rayonu (11 kənd) [6, s. 34].

1925-ci ildə Naxçıvan MSSR-in inzibati ərazisində təşkil olunan rayonlardan biri Aza rayonudur. Aza rayonu Yuxarı Aza, Aşağı Aza, Kələntər Dizə, Der, Baş Dizə, Sumbatan Dizə, Qoşadizə, Düylün, Düylün Dizə, Gilançay və Dəstə kəndlərini əhatə etmiş və 1930-cu ildə təşkil olunan Ordubad rayonunun tərkibinə daxil edilmişdir. Arxiv materiallarının verdiyi məlumata görə, Cəhridə inzibati rayon mərkəzi 1925-ci ildə təşkil olunmuş, rayon Cəhri, Şeytanabad, Əznəbürd, Buzqov, Lizbirt və Kərməçataq kəndlərini əhatə etmiş, 1930-cu ildə ləğv olunaraq Naxçıvan rayonunun (indiki Babək rayonu) tərkibinə daxil edilmişdir. Qıvraqda inzibati rayon mərkəzi 1925-ci ildə təşkil olunmuş və 1930-cu ildə Baş Noraşen rayonu ilə birləşdirilmişdir. 1925-ci ildə təşkil olunan Tumbul və Cəhri rayonları 1930-cu ildə Naxçıvan rayonunun tərkibinə daxil edilmiş və rayonun mərkəzi Naxçıvan şəhəri olmuşdur. Nərimanov inzibati rayon kimi 1925-ci ildə təşkil edilmiş və Yuxarı Şahbuz adı Nəriman adı ilə əvəzlənmişdir. 1930-cu ilin əvvəllərində Şahbuzun əvvəlki adı bərpa edilmiş və ərazi Şahbuz rayonu adlandırılmışdır. 1925-ci ildə təşkil olunmuş Parağa rayonu 15 kəndi əhatə etmiş və 1930-cu ildə Ordubad rayonunun tərkibinə daxil edilmişdir. 1925-ci ildə təşkil olunmuş Tumbul rayonu 30 kəndi əhatə etmiş və 1930-cu ildə Naxçıvan rayonunun (indiki Babək rayonu) tərkibinə daxil edilmişdir [7, s. 185-188].

1926-cı ildə Naxçıvan MSSR 8 dairəyə - Baş Noraşen, Qıvraq, Tumbul, Nərimanov, Əbrəqunus, Culfa, Parağa və Ordubad dairələrinə bölünmüş, Şərur, Naxçıvan, Culfa və Ordubad rayonlarına ayrılmışdır. 1930-cu ilin avqust ayında bu rayonlara daha iki müstəqil rayon – Şahbuz və Əbrəqunus rayonları əlavə edilmiş, beləliklə, muxtar respublikada altı rayon olmuş və 1948-ci ildə Əbrəqunus rayonu Culfa rayonu ilə birləşdirildikdən sonra Naxçıvan MSSR inzibati cəhətdən beş rayona bölünmüşdür [6, s. 34].

1930-cu ildə respublikanın rayonlaşdırılması ilə əlaqədar Naxçıvan ərazisində əvvəllər təşkil edilmiş 8 dairə 5 rayona (Naxçıvan, Noraşen, Əbrəqunus, Ordubad və

Şahbuz) bölünmüş və 242 yaşayış məntəqəsinin adı qeydə alınmışdır. Ancaq müxtəlif səbəblər üzündən kəndlərin boşaldılması, ucqar ərazilərdə yerləşən kəndlərin münasib ərazilərə köçürülməsi və s. nəticəsində bugünkü adlarla müqayisədə 77 kənd adı başqa adla əvəzlənmiş, yaxud ləğv edilmişdir. Belə ki, Həsəncan, Məmmədhəsənli, Naxış-Nərgiz, Ovçular, Parçı, Qaratağlar, Quşçulu, Sinidizə, Sürəməlik, Şurabad, Təzə-Hacıvar, Əskikənd və s. kimi adlar ancaq arxiv materialları və digər mənbələrdə yaşayır [6, s. 36-37].

Naxçıvanı "böyük Ermənistana" birləşdirə bilməyən ermənilər fürsət düşdükcə himayədarlarının köməyi ilə Naxçıvan ərazisindən müəyyən torpaqları qopara bilmişlər. 18 fevral 1929-cu ildə Zaqafqaziya MİK-nin qərarı ilə 1921-ci ildə imzalanmış Moskva və Qars müqavilələrinin şərtləri kobud surətdə pozularaq Naxçıvanın 9 kəndi - Şərur qəzasının Qurdqulaq, Xaçik, Horadiz, Naxçıvan qəzası Şahbuz nahiyyəsinin Oğbin, Ağxəç, Almalı, İtqıran, Sultanbəy kəndlərinin, Ordubad qəzasının Qorçevan kəndinin, habelə Kilit kəndi torpaqlarının bir hissəsinin əkin sahələri və otlaqları ilə birlikdə Ermənistana SSR-ə verilməsi nəticəsində Naxçıvan MSSR-in ərazisi 657 kvadrat kilometr azaldı [8, s. 29].

1929-cu ildə Zaqafqaziya MİK tərəfindən Naxçıvan Muxtar Respublikasının ən böyük yaşayış məskənlərindən biri olan Sədərəyin bir sıra yaylaq və yurd yerləri də zorla alınıb erməni daşnaklarına verilmişdir. Həmin yaylaq və yurd yerləri bunlardır: Ərmik, Havuş, Qaşqay, Camışbasan, Haçıc, Əmoğlu, Qaraxəç (Sovetaşen adı qoyublar), Birəli, Şatırgünbəzi (Armaş adlandırıblar), Çanaqçı, Günnüt, Baxçacıq, Yelpin, Qozulça, Palantökən, Asnı, Atdaşı, Kalafaağıl, Hortun, Dübəkli, Alpayoqquşu, Sultanbulağı, Şamo, Danzik, Qədili, Arazdöyən, Gəfərli, Daşxırman, İtölən, İtoturan, Kərki, Yanıq, Gennişik, Ağbulaq, Qaraağac, Kabatağı oğlu və Həsənqulu bağları, Qaraçoban, Nadirin düzü, Qızıldaş [9, s. 106]. Göründüyü kimi, heç bir hüquqi əsası olmayan bu qərarla, Türkiyə hökumətinin razılığı və xəbəri olmadan Qars müqaviləsinin şərtləri pozulmuş, Naxçıvan Muxtar Respublikasının 10-a yaxın kəndi əkin sahələri, otlaqları, biçənəkləri və sair ilə birlikdə əlimizdən alınmışdır.

1930-cu ildə isə Aldərə, Lehvaz, Astazur, Nüvədi və s. yaşayış məntəqələri Ermənistana verilmiş və həmin ərazidə Mehri rayonu yaradılmışdır. Ermənistanın Naxçıvanla bağlı ərazi iddiaları sonrakı dövrlərdə də davam etmişdir. Erməni millətçilərinin Naxçıvana qarşı ərazi iddiaları ilə bağlı törətdiyi qanlı cinayətlər Kərki kəndindən də yan keçməmişdir. Hələ 1938-ci ildə Kərki torpaqlarının bir hissəsi Azərbaycan hökumətinin razılığı ilə Ermənistana verilmişdi. Bu barədə protokola Azərbaycan MİK-in işçiləri - ermənilər Qadakçiyan və İsaakyan qol çəkmişdilər. Kənd ərazisinin digər bir hissəsi isə 1969-cu ilin mayında Azərbaycanın o zamankı rəhbərliyinin "səxavəti" üzündən Ermənistana "bağışlanmışdı". Beləliklə, Kərkinin bütünlüklə işğal edilməsinə əlverişli şərait yaranmışdı. 1990-cı il yanvarın 15-də isə Kərki ermənilər tərəfindən işğal edilmişdir [10, s. 294].

Tarixin sonrakı mərhələlərində ermənilər daha da azğınlaşmış, artıq ayrı-ayrı əraziləri yox, bütövlükdə Naxçıvanın Ermənistana verilməsini dövlət səviyyəsində

qaldırmışlar. Lakin onların arzuları ürəklərində qalmış, məsələni öz xeyirlərinə həll edə bilməmişlər. Keçən əsrin 80-ci illərinin sonu - 90-cı illərinin əvvəllərində Ermənistan hərbi yolla Naxçıvan Muxtar Respublikasına təcavüz etsə də, məqsədinə nail ola bilməmişdir. Ulu Öndər Heydər Əliyevin Naxçıvanda yaşayıb, fəaliyyət göstərməsi Naxçıvanı erməni işğalından xilas etmişdir [1, s. 162].

Bu gün də erməni təbliğatı öz işini görməkdədir. Onlar beynəlxalq ictimaiyyəti çaşdırmaq üçün saxta təbliğatlarını işə salmışlar: Naxçıvanla, onun tarixi və abidələri ilə bağlı heç bir elmi əsası olmayan uydurmalar irəli sürür, kitablar çap etdirir, konfranslar keçirirlər. Respublika ziyalıları, elmi ictimaiyyət ermənilərin bu uydurma təbliğatlarını ifşa etməli, beynəlxalq ictimaiyyətə doğru-düzgün məlumat çatdırmalıdırlar. Bunun üçün bütün vasitələrdən istifadə edilməlidirlər. Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin dediyi kimi, **“... bütün bu iddiaların əsassız, uydurma olduğunu beynəlxalq aləmdə sübut etməliyik. Azərbaycanın ərazi bütövlüyünü nəinki indiki dövrdə, gələcək nəsillər üçün də qoruyub saxlamalıyıq”.**

## ƏDƏBİYYAT


1. Hacıyev İ. Ermənilərin Azərbaycana qarşı ərazi iddiaları və qanlı cinayətləri. Naxçıvan: Əcəmi, 2012, 191 s.
2. Azərbaycan tarixi. Yeddi cilddə, V cild (1900-1920-ci illər). Bakı: Elm, 2001, 672 s.
3. İ.E.Atnur. Osmanlı idarəçiliyindən sovet idarəçiliyinə qədər Naxçıvan (1918-1921). Naxçıvan: Əcəmi, 2013, 496 s.
4. Naxçıvan Tarixi Atlası. Bakı: 2010, 55 s.
5. Naxçıvan Ensiklopediyası. II cild. Naxçıvan: 2005, 376 s.
6. Bağırov A. Naxçıvanın oykonimləri. Bakı: Nurlan, 2008, 336 s.
7. Bağırov A. Onomalogiya problemləri, I cild. Bakı: Elm və təhsil, 2010, 436 s.
8. Səfərli F. Naxçıvan bölgəsinin tarixi coğrafiyası haqqında qeydlər // Azərbaycan MEA Xəbərləri. İctimai və humanitar elmlər seriyası, 2012, №1, s. 29.
9. Hacı Seyidov T. Bu zorakılıq, haqqsızlıq xalqın qan yaddaşından heç vaxt silinməyəcək. (Naxçıvan MR-nın statusu). Bakı: 2009, 107 s.
10. Naxçıvan Ensiklopediyası. I cild. Naxçıvan: 2005, 356 s.

Нурлана Алиева

## ИЗМЕНЕНИЯ И РЕЗУЛЬТАТЫ 1929 ГОДА В АДМИНИСТРАТИВНО-ТЕРРИТОРИАЛЬНОЙ СТРУКТУРЕ НАХЧЫВАНА

АННОТАЦИЯ

В статье говорится о территориальных изменениях в Нахчыване в 1924-1940 гг. Начиная с 16 марта 1921 году Нахчыванский регион сначала назывался Нахчыванской Советской Социалистической Республикой, с 16 июня 1923 году Нахчыванским краем, с 9 февраля 1924 году Нахчыванской АССР, а с 1990 году Нахчыванской Автономной Республикой. В 1929 году по решению ЦИК Закавказского крайкома 9 сел Нахчывана: Гурдгулаг, Хачик, Горадиз Шарурского уезда, Охбин, Агхач, Алмалы, Итгыран, Султанбек, Шахбузсково участка, Горчеван, а также часть пахотных земель села Килит Ордубадсково участка были переданы Армении. В результате этого территория Нахчыванскойй АССР уменьшилась на 657 км.

Nurlana Alieva

## CHANGES AND RESULTS OF 1929 IN THE ADMINISTRATIVE AND TERRITORIAL STRUCTURE OF NAKHCHIVAN

ABSTRACT

The article refers to the territorial changes in Nakhchivan in 1924-1940s. Since March 16, 1921 Nakhchivan region initially was named Nakhchivan Soviet Socialist Republic, from June 16, 1923 the Nakhchivan Territory, from February 9, 1924 the Nakhchivan ASSR and since 1990 of the Nakhchivan Autonomous Republic. In 1929 under the decision of Transcaucasia CEC 9 villages of Nakhchivan: Gurdgulag, Khachik, Horadiz in Sharur district, Ohbin, Aghach, Almaly, Itgyran, Sultanbek in Shahbuz region, Gorchevan, as well as a part of arable land of the village Kilit in Ordubad region were given to Armenia. A result of this the territory of the Nakhichivan Autonomous Republic decreased by 657 km.

# İBN SİNA İRSİ MÜASİR AZƏRBAYCAN ALİMLƏRİNİN TƏDQİQATLARINDA

***İradə ZƏRQANAYEVA,***
*AMEA-nın Fəlsəfə İnstitutunun Dinşünaslıq və mədəniyyətin fəlsəfi problemləri şöbəsinin böyük elmi işçisi, fəlsəfə üzrə fəlsəfə doktoru,*
*iradazargan@gmail.com*

***AÇAR SÖZLƏR:*** *Azərbaycan, İbn Sina, fəlsəfə, təbabət, ölüm.*
***КЛЮЧЕВЫЕ СЛОВА:*** *Азербайджан, Ибн Сина, философия, медицина, смерть.*
***KEY WORDS:*** *Azerbaijan, Ibn Sina, philosophy, medicine, death.*

İbn Sina (980-1037) yaradıcılığı bəşəriyyətin elm xəzinəsində xüsusi çəkiyə malikdir. Təsadüfi deyildir ki, əsrlər keçməsinə baxmayaraq, onun zəngin irsi araşdırılır, həyat və yaradıcılığı haqqında bir-birindən maraqlı tədqiqatlar işlənməkdə davam edir. Elmi-fəlsəfi ədəbiyyatda ensiklopedik bilik sahibi – hafiz, həkim, şair, riyaziyyatçı, fizik, musiqişünas, təbiətşünas, filosof, psixoloq, siyasətçi, astronom, kimyaçı, bioloq, geoloq [1, s. 161-164; 2, s. 333] kimi təqdim olunan İbn Sina bütün dünyada olduğu kimi, Azərbaycanda da məşhurdur. Sürətlə dəyişən zaman və yeniləşən nəsillərə rəğmən, o unudulmur, mütəfəkkirin irsinə maraq öz aktuallığını qoruyub saxlayır.

Hələ orta əsrlərdə Əbu Həmid Qəzali (1058-1111) qeyd edirdi ki, fəlsəfə ilə məşğul olan müsəlmanlardan heç biri əl-Fərabi və İbn Sina səviyyəsində Aristotel elminə dərindən varmamışdır. Bu şəxslərdən fərqli olaraq digərlərinin söylədikləri oxucular üçün dolaşıq və qarışıq vəziyyət yaradır. Anlaşılmayan şey necə rədd, yaxud qəbul edilə bilər? [3, s. 143].

Göründüyü kimi, həmin dövrdə də epistemoloji və aksioloji problemlər mövcud idi və biliyin müxtəlif sahələrində subyektiv dəyərləndirmələrə, yanılmalara yol verilirdi. Kəlamçılar, sufilər, batinilər və filosoflar bəzi hallarda təlimlərinə dərindən bələd olmadan bir-birilərini qəbul etmirdilər. Hətta ictimai nizamı pozmaq, cəmiyyəti doğru yola yönəltməmək, insanları azdırmaq kimi qarşılıqlı ittihamlar səsləndirməkdən belə çəkinmirdilər. Lakin şəraitə mötədil yanaşan, elmin və alimin dəyərini bilənlər və faydalananlar da vardı.

Öz dövrünün dünya və axirət haqqında əksər bilik sahələrini araşdırmış görkəmli alim, dünya elm tarixində İmam Qəzali adı ilə iz qoymuş Əbu Həmid Məhəmməd ibn Məhəmməd əl-Qəzali (1058-1112) Aristotel fəlsəfəsi ilə yaxından tanışlığının məhz əl-Fərabi və İbn Sina sayəsində olduğunu minnətdarlıqla vurğulamışdır. Onların əsərləri vasitəsilə fəlsəfənin dərinliklərinə bələd olan Qəzali dünyaca məşhur “Dini elmlərin ihyası”, “Filosofların məqsədləri”, “Filosofların təkzibi”, “Yanılmaqdan xilas edən” və

s. əsərlərində təlimlərinin müxtəlifliyinə görə filosofları 3 qrupa (dəhrilər, təbiətşünaslar, metafiziklər) [3, s. 142], fəlsəfəni isə 6 tərkib hissəyə (riyaziyyat, məntiq, fizika (təbiətşünaslıq), metafizika, siyasət və etika) [3, s. 143] ayırmışdır. O, filosofların (eyni zamanda İbn Sinanın) mühakimələrini təhlil etmiş, onların bəzi müddəalarının doğru, bəzilərinin yalan, bəzilərinin isə elmi nöqteyi-nəzərdən əsassız, məntiqi cəhətdən naqis olduğunu sübut etmişdir [4; 5, s. 66].

Hər hansı tədqiqat obyekti haqqında qərəzsiz elmi yanaşmanın həqiqi meyar olmasını yazdığı əsərləri ilə sübut etməyə çalışan Qəzaliyə görə, insanlar Yaradan deyil, yaratdıqları üzərində düşünməyə, maddi aləmi tədqiq etməyə çalışmalıdırlar. Müasir fəlsəfi yanaşmalara əsasən, idealist filosof hesab olunan Qəzalinin peripatetik, materialist filosof kimi tanınan İbn Sina ilə oxşar cəhəti məhz buradan meydana çıxır. İbn Sina həyatını canlı aləmin, təbiətin hikmətini anlamağa, onun tədqiqinə və qorunmasına həsr etmiş, yazdığı əsərlərlə bəşəriyyətin elm xəzinəsinə qiymətli töhfələr bəxş etmişdir.

Araşdırmalara əsasən, Azərbaycanda müasir dövrdə İbn Sina yaradıcılığı ilə əlaqədar ədəbiyyatı üç qismə ayırmaq olar: onun öz əsərləri, onun elmi irsi haqqındakı tədqiqat və şərhlər, onun həyatı və fəaliyyəti haqqında bədii yazılar.

Q.Ş.Ənavatinin tərtib etdiyi biblioqrafiyada İbn Sinanın 276 əsəri olduğundan bəhs edilir. Lakin İbn Sinanın şagirdi Əbu Übeyd əl-Cüzcani müəlliminin əsərlərinin sayının 40-a yaxın olduğunu desə də, 1192-ci ildə anonim müəllifin tərtib etdiyi siyahıda 90-dan yuxarı olduğu bildirilir [1, s. 140].

İbn Sinanın dünyaca məşhur “Tibb qanunu” kitabının 1030-cu ilə aid əlyazmasının 1143-cü ildə Bağdadda hazırlanmış nüsxəsi hazırda Bakıda AMEA-nın Əlyazmalar İnstitutunda saxlanılır. XII əsrdə Fridrix Barbarossanın sifarişi ilə latıncaya çevrilən əsər XV əsrdə çap dəzgahı ixtira olunduqdan sonra basılmış ilk kitablardan biridir. Əsər 1543-cü ildə Romada Mediçi mətbəəsində çap olunmuşdur. İbn Sinanın həmin əsərinin ən yaxşı tərcüməsi 1658-ci ildə Lövendə nəşr edilmişdir. XV əsrdə 16 dəfə, XVI əsrdə 20 dəfə çap olunan məşhur “Tibb qanunu” əsərinə Şərq və Qərb dillərində saysız-hesabsız şərhlər yazılmışdır [3, s. 96].

İbn Sina irsi haqqında Azərbaycan ictimaiyyətinə məlum olan əsərlərin əksəriyyəti rus dilindədir. Həmin əsərlər Moskvada və Orta Asiya şəhərlərində nəşr olunmuşdur. Bunlara misal kimi, “Абу Али Ибн Сина. Канон врачебной науки”, Ташкент: Фан, 1982; А.В.Сагадеев, “Ибн Сина”, 1990; Б.Петров, “Ибн Сина”, 1980; Б.Я. Шидфар, “Ибн Сина”, 1981; Б.Терновски, “Ибн Сина”, 1969; Г.О.Чарыев, “Авиценна-ученый и мыслитель”, 1980; А.Закуев, Психология Ибн Сины”, 1958 və s. əsərləri göstərmək olar.

Azərbaycanda İbn Sina yaradıcılığı geniş araşdırılmamış, əsasən, Şərq fəlsəfəsi və ya Şərq filosoflarının tədqiqinə, təbabətə həsr olunmuş monoqrafiya, elmi toplu və ensiklopediyalar daxilində işlənmişdir. Əlisa Nicatın “Dünya filosofları” (1998), Z.C.Məmmədovun “Bəhmənyarın fəlsəfəsi” (1983) və “Azərbaycan fəlsəfəsi tarixi” əsərlərində (1994); Z.C.Məmmədov, T.B.Həsənov, Z.F.Qasımov, N.A.İmanov və A.Z.Məmmədovanın birlikdə hazırladıqları “Şərq fəlsəfəsi (IX-XII əsrlər)” (1999, s. 93-110) kitabında; Zümrüd Quluzadənin “Azərbaycan fəlsəfəsi tarixi” çoxcildliyinin “Bəhmənyar” bölməsində (2014, s. 290-335); Ağayar Şükürovun “Şərq fəlsəfəsi və

filosofları" kitabında (2005, s. 332-344); Arzu Hacıyevanın "Hermenevtika Şərqdə" (2006, s. 116-130); İmran Axundovun "Tibbin tarix və fəlsəfə ilə əlaqəsi" (2014), Fərid Ələkbərovun "Şərq təbabəti cinsi həyat haqqında" (1993) monoqrafiyalarında; P.Paşayev, V.P.Paşayeva və N.P.Paşayevin birlikdə qələmə aldıqları "Türk səmasının ulduzları" (2008) kitabında və bir sıra elmi məqalələrdə İbn Sina yaradıcılığının müxtəlif aspektləri işıqlandırılmışdır.

Alimin yaradıcılığına elmi, fəlsəfi və publisistik cəhətdən yanaşan müəlliflər onun doğulduğu məkan və zaman, ictimai mühit, təlim-tərbiyəsi, təhsili və fəaliyyətinin əsas istiqamətləri haqqında məlumat verməklə yanaşı, müasir dövrdə onun irsinin tədqiqi problemlərini müzakirəyə çıxarmışlar.

Ağayar Şükürov (1946-2008) bu məsələ ilə bağlı yazmışdır: "İbn Sina yaradıcılığını tədqiq edən hər bir tədqiqatçı qarşısında bir sıra mühüm və əhəmiyyətli problemlər durur. Bunlar Şərq və Qərb fəlsəfəsinin qarşılıqlı münasibətinin açılması, mütəfəkkirin fəlsəfi baxışlarının formalaşması və inkişafının ideya mənbələrinin canlandırılması, onun ontoloji, qneseoloji və rasionalist konsepsiyalarının öyrənilməsi, humanist fəlsəfənin və ictimai inkişaf fəlsəfəsinin xarakteristikasının, İbn Sina fəlsəfi təliminin taleyinin həqiqi şərhinin verilməsi, ümumdünya fəlsəfəsində onun görkəmli rolunun göstərilməsidir" [2, s. 333]. İbn Sina yaradıcılığının araşdırılması ilə bağlı A.Şükürovun qeyd olunan fikirlərini, obyektivlik naminə, bütün elmi tədqiqatlara şamil etmək olar. Qeyd etmək lazımdır ki, öncədən tənqid və ya təkzib məqsədi daşımayan, qərəzsiz, bitərəf yanaşmalar sayəsində tədqiqatlarda real faktlar və nəzəri dəlillər meydana çıxır.

Zakir Məmmədov (1936-2003) İbn Sinanın "Fizika", "Aşağı elmin, yaxud fizikanın başlanğıcı", "Hərəkət halını və təbiəti müəyyən etmək", "Dairəvi hərəkətin növünü müəyyən etmək", "Kəmiyyətə görə hərəkət növünü müəyyən etmək" "Hərəkətin müxtəlif hallarını müəyyən etmək", "Məkan söhbətinə dair nitqin başlanğıcı", "Ölçünün məkan olmamasını müəyyən etmək", "Boşluğun yoxluğunu müəyyən etmək", "Məkanı müəyyən etmək barədə nitqin yekunu", "Təbii və qeyri-təbii istilik, təbii və qeyri-təbii soyuqluq hallarını müəyyən etmək", "Sadə cisimlərin miqdarını müəyyən etmək", "Hər bir cismin təbii məkanının və təbii fiqurunun olduğunu müəyyən etmək", "Sadə cisimlərin məkanı və cismani aləmin vəhdəti" və "Siyasət kitabı. Etikaya dair traktat" ("Ailə və cəmiyyət") əsərlərini Azərbaycan dilinə tərcümə etmiş və "Şərq fəlsəfəsi (IX-XII)" kitabına daxil etmişdir. O qeyd edir ki, İbn Sina "Məntiq" (I hissə), "Metafizika" (II hissə) və "Fizika" (III hissə) bölmələrindən ibarət "Bilik kitabı" əsərini İsfahan hakimi Əlaüddövlə Kakaveyhin (1008-1041) təklifinə əsasən qələmə almışdır [3, s. 292]. Deməli, İbn Sina çoxşaxəli elmi fəaliyyəti ilə yanaşı, həm də cəmiyyətin ictimai həyatında güclü təsiri olan nüfuzlu şəxsiyyət kimi tanınır və dəyərləndirilirdi.

İbn Sinaya görə, elmlər insanları yalnız yaşadıqları real dünyada rifaha qovuşdurmaqla kifayətlənməyən, həm də müqəddəs mətnlərdə xəbər verildiyi kimi, aqibət və axirət xoşbəxtliyinə aparan vasitə olmalıdır. O, əksər fəzilətlərin rəzilliklər (ifrat və təfrit ) arasında orta ölçü olduğu qənaətində idi. Məsələn, səxavət xəsislik ilə bədxərclik, ədalət zülmkarlıq ilə məzlumluq, şücaət qorxaqlıq ilə dəlisovluq arasında orta haldır [3, s. 109]. Yalnız hikmət sayəsində ailədə, cəmiyyət

münasibətlərində gözəl davranış və orta həddi tutmaq mümkün olur.

Arzu Hacıyeva Şərqdə hermenevtika ənənələrinə, onların fəlsəfi fikrin inkişafında yeri və roluna həsr olunmuş monoqrafiyasında İbn Sina yaradıcılığına xüsusi yer ayırmışdır [6, s. 116-130]. Şərq peripatetiklərinin yaradıcılığında hermenevtik metodu araşdıran A.Hacıyeva İbn Sinanın "Ədalət kitabı", "Şərq fəlsəfəsi", "Göstərişlər və qeydlər kitabı", "Mübahisələr" traktatlarını, "Səlman və Abdal", "Quş" alleqorik əsərlərini, "Peyğəmbərliyin mahiyyəti haqqında" "Nəfsin vəziyyəti haqqında", "Hərəkət və təsir haqqında", "Taxt haqqında", "İbadət haqqında", "Qurbanvermə haqqında" risalələrini təhlil etmiş, fəlsəfəsinin əsas xüsusiyyətlərinə toxunmuş, təkallahlılıq haqqında İbn Sinanın fikirləri ilə Azərbaycan mütəfəkkiri Nəriman Nərimanovun (1870-1926) düşüncələri arasında elmi müqayisələr aparmışdır [6, s. 194].

A.Hacıyevanın gətirdiyi iqtibasda İbn Sinanın qneseoloji görüşləri aşağıdakı kimi xarakterizə olunur: "İbn Sina zəkanın idrak hüdudlarını genişləndirir, intuitivizmin bütün variantlarını, sufi mərifətini, nurlanmanı, ümumiyyətlə, mistik dərkin ən müxtəlif üsullarını buraya daxil edir". Müəllifin fikrincə, İbn Sina da daxil olmaqla Şərq mütəfəkkirləri mətnlərin, xüsusilə, dini mətnlərin dərin mənalarını açmaq üçün təkcə texniki vasitələri, konkret yanaşma, təfsir metod və üsullarını deyil, eyni zamanda mətni anlamağın fəlsəfi əsaslarını da aşkara çıxararaq, onları özlərinin dil və anlam konsepsiyalarında özünəməxsus şəkildə ifadə etmişlər [6, s. 189-190]. Sözün çoxmənalılığını dərk edib, onu anlamaq cəhdi, dialoq yaratmaq vasitəsi kimi meydana çıxan hermenevtika orta əsr müəlliflərinin əsərlərində xarakterik cəhət kimi nəzərləri cəlb edir. A.Hacıyeva yazır: "İnsan sözün mənaca sonsuzluğunu, tükənməzliyini bilsə də, daim həqiqətə çatmaq üçün son mənaya can atır... Bu arzu-həvəs keçici olmadığı üçün hermenevtika da əbədi problemdir" [6, s. 188].

Müasir dövrdə mədəniyyətlər arasında dialoqun yaranmasında Şərq klassiklərinin əsərlərindən qaynaqlanan fəlsəfi ənənələrin dərk edilməsi böyük əhəmiyyət daşıyır. Texnoloji uğurların nəhəngliyinə baxmayaraq, müasir dövrün keçmiş mənəvi dəyərlərə ehtiyacı azalmır. A.Hacıyeva yazır ki, "xalqların mənəvi irsi onun varlığını və təfəkkürünü, dünyaduyumunu, tarixi təcrübəsini, arzu və ideallarını özündə əks etdirir. ...cəmiyyət həyatının bütün sahələrində baş verən fundamental dəyişikliklər, yeni inkişaf istiqamətləri axtarışı ictimai fikri fəallaşdırır, mədəni-tarixi, nəzəri-fəlsəfi irsə marağı hədsiz dərəcədə gücləndirir" [6].

İmran Adil oğlu Axundovun "Tibbin tarix və fəlsəfə ilə əlaqəsi" (2014) adlı monoqrafiyası da məhz yuxarıda qeyd olunan tələbatdan və varislik ənənəsinin əhəmiyyəti kontekstində ərsəyə gəlmişdir. Eramızdan əvvəlki dövrdən XXI əsrədək olan müddətdə tibbi, tarixi, fəlsəfi baxışların araşdırıldığı və qarşılıqlı əlaqədə təhlil olunduğu monoqrafiyada Zəkəriyyə ər-Razinin "Əlhavi", "Dərmanların mənfəəti", "Mənsuri tibb kitabı" [7, s. 76], İsmayıl Cürcaninin "Xarəzmşahlar zəxirəsi", İbn Sinanın "Tibb qanunu", "Ürək dərmanları", "Cudiyyə" (Bəxşiş), "Şəfa", "Nicat", "İşarələr", "Daneşnameyi əlai" ("Bilik kitabı"), "Risalei nəfs" ("Nəfs haqqında risalə") kimi fəlsəfi kitabları təhlil olunmuşdur [7, s. 72].

Monoqrafiya müəllifi orta əsr təbibləri ilə müasir tibb mütəxəssislərinin elmi

nailiyyətlərinin, o cümlədən Azərbaycan alimi Məmmədsadıq Abdullayevin (1924-2006) tibb sahəsindəki fəaliyyətinin müqayisəli təhlilini aparmış, İbn Sina irsindən yaradıcı təsirlənmələri elmi şəkildə şərh etmişdir [7, s. 78-93].

Azərbaycan mətbuatında, jurnal və qəzet səhifələrində də İbn Sina yaradıcılığının elmi aktuallığına həsr olunan yazılara rast gəlinir. Aytək Məmmədovanın "İbn Sina irsinin görkəmli müdafiəçisi - Nəsirəddin Tusi" [8, s. 56-61] adlı məqaləsi, E.Həsənqızının "İbn Sina: onun haqqında nə bilirik?" [9, s. 89-91], Mustafa Əzizin "Dünyanın məşhur müsəlman alimləri" silsilə məqalələri [10] və s. bu qəbildəndir.

Azərbaycanda İbn Sina haqqında olan kitablardan biri görkəmli tatar yazıçısı Kayum Nasıri (1825-1902) tərəfindən yazılmış və Azərbaycan dilinə Sara Tahirova tərəfindən tərcümə olunmuş "Əbuəlisina haqqında rəvayətlər" [11] əsəridir. Aqil insan Əbuəlisina və onun yoldaşlarının sərgüzəştləri fantastika və həqiqətin sintezində təsvir olunduğundan əsər gənc nəslin təlim-tərbiyəsində, biliklərə yiyələnmək həvəsinin formalaşması və ictimai şüurunun inkişafında müstəsna əhəmiyyət kəsb edir.

Kitabda mütərəqqi elmi baxışlarına görə İbn Sinanın təqib olunduğu və tez-tez bir şəhərdən başqa şəhərə, bir ölkədən başqa ölkəyə köçməyə məcbur olduğu vurğulanır [11]. Cəsarətli fikirləri, riskli qərarları ilə dövrünün insanlarından, hətta həmkarlarından fərqlənən İbn Sina bir şəxsiyyət kimi də yeknəsəklikdən uzaq, daim inkişaf edən, əldə etdiyi yenilikləri digər yeni məkan və zamanlara daşımağı bacaran alim idi. Onun yerdəyişməsinin səbəblərindən biri də, məhz bilik öyrənmək və öyrətmək, elmi inkişafa nail olmaq və yeni fəaliyyət arealı qazanmaq tələbindən irəli gəlirdi. Bu xüsusiyyət onun özündən çox cəmiyyətə lazım idi.

İbn Sinanın taleyi, həyatı və yaradıcılığı haqqında Azərbaycan oxucusuna tanış olan daha bir əsər "Böyük loğman Əbu Əli İbn Sina" adlanır [12]. Kitab 1972-ci və 1984-cü illərdə kiril, 2012-ci ildə isə latın qrafikası ilə çap olunmuşdur. Əsərin nəsr hissəsi azərbaycancaya Zeynal Babayev, nəzm hissəsi isə Əyyub Sədi tərəfindən tərcümə olunmuşdur. Kitab zəngin elmi, fəlsəfi məzmunu ilə yanaşı, dərin mənəvi yük daşıyır. İbn Sinanın həyat hekayəsi elm yolunun mənası və alim fədakarlığının hüdudları haqqında insanları bir daha düşünməyə dəvət edir.

Qeyd etmək lazımdır ki, 5 yaşından Quranı əzbərləməklə təhsilə qədəm qoyan, 10 yaşında artıq hafiz olmuş, eyni zamanda qrammatikanı, stilistikanı və ərəb ədəbiyyatını [12, s. 23], 18 yaşında isə riyaziyyat, fizika, məntiq, qanunşünaslıq, astronomiya, fəlsəfə, coğrafiya və digər elmləri mükəmməl mənimsəmiş fenomen bir gəncin biliklərə yiyələnmə və özünü yetişdirmə cəhdləri bu gün müasir nəsillər üçün çox gözəl örnəkdir. İbn Sinanın fərasəti və həssaslığı haqqında öz dövründən bu günə gəlib çatan bir məşhur deyim qalmışdır: "O, bir tükü uzununa qırx yerə bölə bilir" [12, s. 3]. Əlbəttə bu bir bənzətmə olsa da, İbn Sinanın qeyri-adi qabiliyyətlərinə işarədir. Bu gün Ginnesin rekordlar kitabına düşmək üçün insanlar dəridən-qabıqdan çıxır, şəxsi qabiliyyətlərini sərgiləmək üçün ağlasığmaz vasitələrə əl atırlar. Lakin insanın güc və qabiliyyətinin aynası olan həmin rekordlar nə dərəcədə bəşəri dəyər və ictimai fayda kəsb edir? İbn Sinanın bilik və bacarıqları, həkimlik qabiliyyəti isə ictimai tərəqqiyə yönəlmişdi və cəmiyyətin rifahına xidmət göstərirdi.

Ər-Razinin "Təbabət xəzinəsi" adlanan otuz cildliyini bir ilə öyrənərək nəzəri biliyini möhkəmləndirən İbn Sina [12, s. 60] həkimlik təcrübəsinə qəssabın yanında heyvanların mədəsini və ürəyini tədqiq etməklə başlamışdı. İnsanın daxili orqanlarının quruluşunu əyani şəkildə öyrənmək isə şəriət qaydalarına əsasən, o zaman hələ mümkün deyildi. Bir gün Bağdad təbibi Əbu Mənsur Kəmari ona çıraq işığında təzə meyiti müayinə etməyi təklif edir və "həmin gecə 16 yaşlı Hüseynə kitablardan az bilik vermir" [12, s. 64].

Dövrünün tanınmış həkimi və filosofu Əbu Səhl Məsihinin və məşhur Buxara təbibi Kəmarinin məsləhətləri ilə tibbi əsaslı surətdə öyrənməyə başlayan İbn Sina Buxara əmiri Nuh ibn Mənsuru müalicə edə bildiyi üçün Buxaradakı nadir saray kitabxanasından istifadə etmək səlahiyyəti qazanmış, eyni zamanda saray həkimi təyin olunmuşdu [11, s. 90; 12, s. 70-74].

Hələ bu kitabxana ilə tanışlıqdan əvvəl Hüseyn Porfiri Tirskinin "Məntiqə giriş" [12, s. 36], Klavdio Ptolomeyin "Almaqest və ya astronomiyanın böyük quruluşu" [12, s. 41], əl-Fərabinin "Nəzəri və əməli təbabət" əsərlərini mənimsəmiş, Aristotelin "Metafizika"sını ilk sətrindən axırıncı sətrinədək iyirmi dəfə oxumuş, əzbərləmiş, lakin dərk edə bilməmişdi" [12, s. 64].

Həmin gərgin günlərin birində Hüseynin qarşısına bir satıcı çıxmış, cəmi 3 dirhəmə ondan kitab almasını xahiş etmişdi. İbn Sinanın istəmədən aldığı həmin kitab – əl-Fərabinin "Metafizikanın şərhi" əsəri fəlsəfənin üfüqlərini onun üzünə açmışdı. Nəticədə İbn Sina "Çətin ki, hətta Fərabinin özü mənə kömək edə bilsin" düşüncəsindən daşınmış və "Metafizikanın şərhi necə də sadə imiş" fikrinə gəlmişdi.

Bu dövrdə İbn Sina, eyni zamanda Məsihinin yeni şagirdi (sonralar dünyaca məşhur alim) əl-Biruni ilə məktublaşır, onlar elmi yeniliklərini bir-biri ilə paylaşırdılar [12, s. 152].

Əsərdə İbn Sinanın uşaqlıq və gənclik illəri [12, s. 4-94], Xarəzm mühiti [12, s. 94-128], sərgərdan həyatı [12, s. 128-156], Həmədanda vəzirlik etməsi [12, s. 156-191], qardaşı ilə görüşü [12, s. 191-192], həyatının son dövrü və nəhayət vəfatı əks olunmuşdur.

İbn Sinaya görə, insanın xasiyyəti vərdişdən irəli gəlir. Yaxşı vərdişlər yaxşı, pis vərdişlər pis xasiyyət formalaşdırır. İnsan elm və fərqləndirmə gücü – hikmət vasitəsilə özünü idarə edir. Eləcə də ölkə əhlini xeyir işlərə yönəltməklə onları xeyirxah, şər işlərə yönəltməklə bədxah etmək olar [3, s. 110]. İbn Sina "Siyasət kitabı"nda fərdi şüurla ictimai şüur, əxlaqla siyasət, elmlə sosial mühit arasında paralellərin olduğunu göstərir, lakin həyatın sirri, ölüm və sonrası haqqında ümumi bir qərara gələ bilmir. Biliyinin hamısını 18 yaşınadək qısa bir müddətdə əldə edən, yüzlərlə xəstəyə şəfa verən, məşhur "Tibb qanunu" əsərini gündə əlli vərəq yazmaqla bitirən dövrünün tanınmış həkimi Şeyxur-rəis İbn Sina xəstəliyi artdığı zaman günahlarından tövbəyə yönəlmiş, əmlakını kasıblara paylamış, qullarını azad etmiş və Quranı üç gündə bir xətm etməsinə baxmayaraq, ölüm düyününü aça bilməmiş, 57 yaşında dünyasını dəyişmişdi [13, s. 462].

Azərbaycanda İbn Sinanın yaradıcılığı uşaqlar və gənclər arasında böyük maraq qaynağı, ibrətamiz həyat nümunəsidir. Alimin istər öz əsərləri, istərsə də haqqında yazılan kitablar insanlarda elmə, biliyə, yeniliyə və tərəqqiyə sonsuz həvəs oyadır. 980-cı ilin

payızında Buxara yaxınlığında halallıqla dolanan bir ailədə Abdulla və Sitarənin evində dünyaya göz açmış Hüseynin qısa ömründə öz zəhməti ilə Hüccətül-Haqq (həqiqət carçısı), Şeyxur-rəis (böyük, müdrik), Harami-buzurq (dahi təbib), Şərəfül-mülk (ölkənin ən şərəfli insanı) və s. böyük titullar qazanması dövrandan asılı olmayaraq maddi sıxıntı çəkən insanların da ürəklərində gələcəyə ümid çırağı yandıraraq uğura inam formalaşdırır. Ona görə də İbn Sinanın elmi irsinin tədqiqi istiqamətində geniş araşdırmalara həmişə ehtiyac vardır.

## ƏDƏBİYYAT


1. Paşayev P.S., Paşayeva V.P., Paşayev N.P. Türk səmasının ulduzları. Bakı: Oka-Ofset nəşriyyatı, 2008, 243 səh.
2. Şükürov Ağayar. Şərq fəlsəfəsi və filosofları. Bakı: Əbilov, Zeynalov və oğulları, 2005, 668 səh.
3. Şərq fəlsəfəsi (IX-XII əsrlər). Tərtibçi: Z.C.Məmmədov. Bakı: Bakı Dövlət Universiteti nəşriyyatı, 1999, 304 səh.
4. İmam Gazzali. Tehafütül-felasife (tərcüməçi: Mahmut Kaya). İstanbul: Fatih, 2005, 179 s.
5. Ибн Сина (Авиценна). Избранные философские произведения. М.: 1980.
6. Hacıyeva Arzu. Hermenevtika Şərqdə. Bakı: Adiloğlu, 2006, 210 səh.
7. Axundov İmran. Tibbin tarix və fəlsəfə ilə əlaqəsi. Bakı: Mütərcim, 2014, 100 səh.
8. Məmmədova A.Z. İbn Sina irsinin görkəmli müdafiəçisi – Nəsirəddin Tusi. // Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, “Dövlət və din” ictimai fikir toplusu, № 8 (37), Bakı, avqust 2015.
9. Həsənqızı E. İbn Sina: onun haqqında nə bilirik? // Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi, “Mədəni həyat” jurnalı, № 1, Bakı, 2012.
10. Mustafa Əziz. Dünyanın məşhur müsəlman alimləri // “Zaman” qəzeti, 5 fevral; 11 fevral; 18 fevral, 2015-ci il.
11. Kayum Nasıri. Əbu Əli Sina (tərcüməçi: Sara Tahirova). Bakı: Uşaqgəncnəşr, 1961, 65 səh.
12. Voskoboynikov Valeri. Böyük loğman Əbu Əli İbn Sina (Rus dilindən tərcümə edən: Zeynal Babayev). Bakı: Araz nəşriyyatı, 2012, 216 səh.
13. Birgül Mehmet. Mevzuatul-ulumda felsefe tasavvuru // “Kutadqubilig” Felsefe – Bilim Araştırmaları Dergisi, sayı 19. İstanbul: “Dergah yayınları”, Mart 2011.

Ирада Зарганаева

## ТВОРЧЕСТВО ИБН СИНЫ В ИССЛЕДОВАНИЯХ СОВРЕМЕННЫХ АЗЕРБАЙДЖАНСКИХ УЧЕНЫХ

АННОТАЦИЯ

В статье дается информация о том, что в Азербайджане творчество Ибн Сины исследовано в монографиях, научных сборниках и в энциклопедиях, посвященные восточной философии, наследию восточных философов и медицине. Также отмечается, что в Азербайджане придается большое внимание актуальности и теоретической значимости широкого изучения наследия Ибн Сины.

.

Irada Zarganayeva

## IBN SINA’S CREATIVITY IN RESEARCHES OF MODERN AZERBAIJANI SCIENTISTS

ABSTRACT

The article provides information that Ibn Sina’s creativity in Azerbaijan is studied in monographs, scientific collections and encyclopedias dedicated to Eastern philosophy, the heritage of Eastern philosophers and medicine. It is also noted that in Azerbaijan is paid a great attention to the actuality and theoretical importance of studying Ibn Sina’s heritage.

# SEYİDLƏR I YAŞAYIŞ YERİ VƏ NEKROPOLU

*Vaqif ƏSƏDOV,*
*AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutunun aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru,*
*vaqif-amea@rambler.ru*

***AÇAR SÖZLƏR:*** *yaşayış yeri, nekropol, kenotaf qəbirlər.*
***КЛЮЧЕВЫЕ СЛОВА:*** *поселение, некрополь, кенотафы.*
***KEY WORDS:*** *settlement, necropolis, cenotaphs.*

Seyidlər I abidəsi Samux rayonunun eyni adlı kəndinin ərazisində yerləşir. 2015-ci ildə cənub neft kəmərinin çəkilişi zamanı burada kəmər dəhlizi üzərində 124x4 metrlik bir sahədə arxeoloji qazıntı işləri aparılmışdır. Bunun üçün qazıntı sahəsi hər biri 4x4 m olmaqla 31 kvadrata bölünmüşdür (sonradan daha bir kvadrat artırılaraq kvadratların sayı 32-yə çatdırılmışdır).

Qeyd edək ki, ilk 5 kvadratda yer səviyyəsindən 50-60 sm dərinliyədək arxeoloji materiallar aşkar edilmişdir. Bunlar saxsı qab fraqmentlərindən, dən daşlarından və sürtgəcdən ibarətdir. 60 sm-dən başlayaraq kvadratlarda lal təbəqə izlənilsə də, artıq 90 sm dərinlikdə 3 saylı kvadratın cənub-qərb divarına bitişik iri bir təsərrüfat küpünün aşağı hissəsi və digər saxsı qablara məxsus fraqmentlər aşkarlanmışdır. Açıq boz rəngdə olan bu küp böyrü üstə düşmüşdü. Enli və yastı oturacağının diametri 18 sm idi.





Küpün tam üzə çıxarılması üçün kvadratın cənub divarı əlavə olaraq 1 m həcmində genişləndirildi. Yer səviyyəsindən 40 sm dərinlikdən başlayaraq əlavə olunmuş hissədən saxsı qab fraqmentləri üzə çıxmağa başladı. Bunlar əsasən boz və qara rəngli qab qırıqlarından ibarət idi. Keramika nümunələri yer səviyyəsindən 1,2 m dərinliyədək çıxmaqda davam edirdi.

Qeyd edək ki, növbəti kvadratların qazıntıları zamanı zəngin arxeoloji materiallar əldə edilməsə də, saxsı qab qırıqları çıxmaqda davam edirdi. Bunların içərisində maraqlı tapıntı kimi sal qaya daşını göstərmək olar. Dördkünc formalı olan bu yastı daş 17 saylı kvadratda, yer səviyyəsindən 50 sm dərinlikdə aşkar edildi. Daşın ölçüləri 50x47x12 sm idi.

Lakin 28 saylı kvadratdan başlayaraq vəziyyət dəyişdi. Yer səviyyəsindən 45-50 sm dərinlikdə kvadratın şimal divarı tərəfdə parçalanmış vəziyyətdə olan saxsı qablar

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Jurnalı

aşkar edildilər. Qablardan biri dar boğazlı bardaq tipli idi. Ağzı dəyirmi olan bu qabın alçaq və dar boğazı armudvari formalı gövdəyə keçirdi. Digər 2 qab kvadratın şimal divarına bitişik yerləşirdi. 2-ci qab şişman gövdəli idi. 3-cü qabın qulpunun və dəstəkli qapağının olduğu görünürdü. Müşahidələr buranın qəbir yeri olduğunu söyləməyə əsas verirdi. Doğrudan da qabların ətrafı tam təmizləndikdən sonra qəbir üzə çıxdı (**1 saylı**). Əvvəl aşkar edilmiş qablardan əlavə digər qabların da üstü açıldıqdan sonra onların şərq-qərb istiqamətində düzüldüyü məlum oldu.

Bu düzümdə ilk olaraq şişman gövdəli iri saxsı qabın salamat qalmış aşağı hissəsi yerləşirdi. Ondan qərbdə eyni ölçülü digər iri bir qab qoyulmuşdu. Onun üst hissəsi dağılaraq qabın üstünə tökülmüşdü. Qeyd olunduğu kimi, bu qabın qırıqları arasında kəsikdə lentvari olan qulp və qapaq dəstəyi də var idi. Bu iki qabın arasında onlardan bir qədər şimalda orta həcmli armudvari gövdəli bir küpə yerləşirdi. 2-ci böyük qabın şimalında, ona bitişik daha bir iri həcmli geniş ağızlı saxsı qab var idi. Qabın ağız kənarı yastı olub, birbaşa şişman gövdəyə keçirdi. Qabın ağzının altını nazik qabarıq paralel zolaqlar dövrələyirdi. Bu zolaqlardan aşağıda qabarıq dalğavari zolaq keçirdi. Bu qabdan qərbdə kiçik həcmli xeyrə tipli qab qoyulmuşdu. Xeyrənin cənubunda isə qara rəngli orta həcmli armudvari gövdəli növbəti qabın yuxarı hissəsi aşkar edildi. Sonuncu qabdan cənubda əvvəl qeyd olunmuş armudvari gövdəli bardaq yerləşirdi. Bardağın qərbində daha bir qara rəngli iri xeyrə, ondan şimalda isə qara rəngli piyalə aşkar edildi. Onlardan şimalda növbəti iri qab üzə çıxdı. Bu dar boğazlı şişman gövdəli bir qab idi. Yuxarı hissəsində iki cəftəvari qulpu var idi.

Qəbir təmizlənərkən kiçik həcmli xeyrə ilə sonuncu qab arasında 2 tunc qolbaq tapıldı. Bunlardan biri nazik tunc məftildən hazırlanmışdı, digəri irihəcmli və qalın idi. Burada həmçinin bir neçə əqiq muncuq və insan skeletinə aid olması ehtimal edilən ovxalanmış fraqmentlər üzə çıxdılar. Sonuncu qabın cənub-qərbində ona bitişik olan piyalə tipli daha bir saxsı qab, ucları qapalı olan iri qolbağın yanında isə tunc üzük tapıldı. Piyalənin içərisində tunc zəncirvari bəzək əşyasının fraqmentləri yerləşirdi.




Daha bir dar ağızlı bardaq tipli təkqulplu qabın altından çıxdı. Bundan əlavə, qəbir kamerası təmizlənən zaman daha 3 saxsı qaba məxsus fraqmentlər aşkar edildi. Beləliklə, 1 saylı qəbirdəki qabların sayı 15-ə çatdı. İnsana məxsus olması ehtimal edilən ovxalanmış sümük fraqmentlərini nəzərə almasaq, qəbirdə skeletə rast gəlinmədi. Qəbir kamerasının ölçüləri 2,3x1,3 m, dərinliyi 50 sm idi.



**Qəbir № 2.** Bu qəbir 28 və 29-cu kvadratların kəsişməsində, yer səviyyəsindən 80 sm dərinlikdə aşkar edildi. Qəbir kamerasının qərbindəki ilk qab geniş ağızlı qazan tipli saxsı qab idi. Bu qabın cənubunda



ona bitişik qazança tipli ikinci qab, öz növbəsində bu qabın cənubunda isə yenə də qaba bitişik dar ağızlı şişman gövdəli bir küpə yerləşirdi. Qazan tipli ilk qabın şimal-qərbində isə ona bitişik olan orta həcmli dayaz boşqab qoyulmuşdu.

Bu qablardan şərqə doğru 30 sm aralıda daha 3 iri qab üzə çıxdı. Birinci qab dar ağızlı şişman gövdəli küpə idi. İkinci qabın yalnız aşağı hissəsi salamat qalmışdı. Bu qab da şişman gövdəli idi. Bu iki qaba cənubdan bitişən üçüncü qab isə irihəcmli qazan tipli qab idi. Bu 7 qabdan başqa qəbir kamerasında digər avadanlığa və insan skeletinə rast gəlinmədi. Qəbir kamerası 1,8x1 m ölçüsündə idi.



**3 №-li qəbir.** Bu nekropolun üçüncü qəbri 31 saylı kvadratda aşkar edildi. Qəbir yer səviyyəsindən 90 sm dərinlikdə yerləşirdi. Dairəvi formalı olan qəbir kamerasının diametri 1,3 m idi.

Kameradakı saxsı qablar şərq-qərb və şimal-cənub istiqamətində aşağıdakı qaydada düzülmüşdülər.

**Şərq-qərb istiqamətində:**

1. Geniş ağızlı qab. Şişman gövdəlidir.
2. Ona bitişik olan iki qulplu kasa tipli kiçik qab.
3. Dar ağızlı armudvari gövdəli qab. Qulaqcıq şəkilli iki iri dik qulpu vardır.
4. Geniş ağızlı şişman gövdəli küpə (ağzının diametri 30 sm).

**Şimal-cənub istiqamətində** (şərq-qərb istiqamətində qoyulmuş 1 və 2 saylı qablarla kəsişirlər):

5. Kiçik həcmli geniş ağızlı küpə. Üstündə cızma dalğavari naxışlar vardır (ağzının diametri 14 sm, gövdəsinin diametri 18 sm).

6. Dar ağızlı şişman gövdəli qab. İki dik cəftəvari qulpu vardır. Ağzı gövdə səviyyəsində olub birbaşa gövdəyə keçir (ağzının diametri 6 sm, gövdəsinin diametri 30 sm).

7. Geniş ağızlı şişman gövdəli qab. Ağzı qısa olub, yana qatlanır.

Qazıntıların gedişatında bu sıraya qoyulmuş kiçik kasa tipli qabın böyrünə bitişik kəsikdə dəyirmi olan, paslanaraq çürümüş dəmir bir məmulatın qırıqları tapıldı. Şərq-qərb istiqamətində yerləşən 4-cü qabın altından isə daha bir dar ağızlı qabın (11) qırıqları üzə çıxdı.



3 №-li qəbrin ətrafı genişləndirildiyi zaman burada tapılmış qablardan 50 sm qərbdə daha 3 qab aşkar edildi. Bu qabların da 3 №-li qəbrə aid olması şübhə doğurmurdu. Qablar bir-birlərinə bitişik yerləşmişdilər.

8. Qablardan biri şişman gövdəli, ağzı birbaşa gövdəyə keçən iri küpə idi; oturacağı dar və yastıdır

(ağzının d.-16 sm, gövdəsinin d.-30 sm, oturacağının d.-14 sm).

9. Onun şimalında bikonik formalı qazança tipli bir qab yerləşirdi. Onun ağıza birləşən şaquli istiqamətli iki cəftəvari qulpu var idi (ağzının d.-10 sm, gövdəsinin d.-16 sm).

10. İri küpənin qərb tərəfində yerləşən növbəti qab dopu tipli kiçik bir qab idi. Ağzı azca yana qatlanırdı (ağzının d.-8 sm, gövdəsinin d.-10 sm).

Beləliklə, 3-cü qəbirdən tapılan qabların sayı 11-ə çatdı. Burada da hansısa dəmir məmulatın qırıqları istisna olmaqla, başqa bir avadanlıq və insan skeleti yox idi.

**4 №-li qəbir.** Qəbir 32 saylı kvadratın şimal divarına bitişik, qərb divarından 1,3 m aralıda yerləşirdi. Qəbir kamerası yer səviyyəsindən 90 sm dərinlikdə aşkar edildi. Kameradakı saxsı qabların düzülüşü şimal-cənub istiqamətində getdikdən sonra qərbə tərəf yönəlirdi. Qablar sanki qəbir kamerasının hüdudları boyu düzülmüşdülər. Bundan əlavə, kameranın içərisində də qablar yerləşdirilmişdi. Qabların düzülüşü aşağıdakı şəkildə idi.

**Şimal-cənub istiqamətində (75 sm uzunluğunda):**

1. Dar boğazlı armudvari gövdəli bardaq. Şaquli istiqamətli cəftəvari qulpu vardır.
2. Şişman gövdəli küpə. Qulaqcıq şəkilli iki dik qulpu vardır.

**Şərq-qərb istiqamətində (70 sm uzunluğunda):**

4. Dar boğazlı şişman gövdəli küpə. Çıxıntı şəkilli qulpu vardır.
5. Dar ağızlı şişman gövdəli küpə. Şaquli istiqamətli enli cəftəvari qulpu vardır.
6. Geniş ağızlı iri qab. Ağzı yana qatlanır.




**Onlardan şimalda:**

7. Geniş ağızlı şişman gövdəli qab.

8, 9, 10. Geniş ağızlı daha üç qabın hissələri.

Qəbir kamerasının ölçüsü 1,2x1,1 m idi. Bu qəbirdə də həmçinin 10 saxsı qabdan başqa arxeoloji material və insana məxsus skelet, yaxud onun fraqmentləri aşkarlanmadı.

Beləliklə, Seyidlər I abidəsində aparılan arxeoloji qazıntılar burada yaşayış yerinin mövcudluğunu üzə çıxartdı. Məlum oldu ki, abidə arxeoloji cəhətdən qərb və cənub-qərb istiqamətində zənginləşməyə başlayır və ehtimal ki, bu qazıntı sahəsi yaşayış məskəninin periferiyasına düşür. Qazıntıların gedişatında yaşayış yerinin şimal-şərqində torpaq qəbirlərin üzə çıxması da bu fikri bir daha sübut etdi. Aşkar edilmiş torpaq qəbirlərdə mərhumların olmaması bu qəbirləri kenotaf qəbir tiplərinə aid etməyə əsas verir. Qeyd edək ki, skeletsiz qəbirlərə öyrənilən dövrün bəzi nekropollarında da rast gəlinmişdir. Buna misal olaraq Tovuzçay nekropolunu göstərmək olar [1, s. 152-153]. Ümumiyyətlə, bu tip qəbirlər erkən tunc dövründən başlayaraq erkən dəmir dövrünədək bir tarixi mərhələ ərzində mövcud olmuşlar [2, s. 59]. Məsələn, müəllifin də iştirak etdiyi Xızı rayonunun Sitalçay kurqan çölündəki Kür-Araz mədəniyyətinə aid olan 6 kurqanın qazıntıları zamanı bütün qəbir kameralarında insan skeletinə rast gəlinməmişdir [3, s. 139-144]. Eyni sözləri

erkən dəmir dövrünə aid Borsunlu kurqanlarının bəzi kurqanaltı qəbirlərinə də aid etmək olar. Bu cür qəbirlərin avadanlığı skeletli qəbirlərin avadanlığından heç bir şeylə fərqlənmir. Qəbirlərin strukturu və əldə edilmiş arxeoloji materialların təhlili Seyidlər I torpaq qəbirlərinin son tunc-erkən dəmir dövrünə (e.ə. XII-IX əsrlər) aid olduğunu göstərir.

## ƏDƏBİYYAT

**1.** Гусейнов М.М. О погребальных обрядах Товузчайского некрополя, Кавказ - Археология и Этнология // Международная научная конференция. Материалы, Шамкир, 2008.

**2.** Müseyibli N.Ə. Zəyəmçay nekropolunun arxeoloji qazıntıları // Azərbaycanın arxeologiyası və etnoqrafiyası, Bakı, 2004, № 2.

**3.** Q.O.Qoşqarlı, V.A.Əsədov, T.D.Babayev. Sitalçay kurqanları. Azərbaycanda arxeoloji tədqiqatlar, 2011, Bakı, 2012.

Вагиф Асадов

**ПОСЕЛЕНИЕ И НЕКРОПОЛЬ СЕЙИДЛЯР I**

РЕЗЮМЕ

В статье говорится об археологических раскопках, проведенных на древнем поселении Сейидляр I, расположенном на территории одноименного села в Самухском районе. Раскопки проводились в рамках проекта трубопровода «Шахдениз-2». К сожалению ограниченность раскопочного участка (4х4 м) не позволила полноценно изучить данное поселение. Исследования показали, что с археологической точки зрения памятник становится богаче в западном и юго-западном направлении, и исследуемый участок является периферией этого поселения. Выявленные на северо-восточной стороне грунтовые могилы косвенно подтверждают этот вывод.

Vagif Asadov

**SETTLEMENT AND NECROPOLIS SEYIDLAR I**

SUMMARY

The article refers to the archaeological excavations carried out at ancient settlement Seyidlar I located in the eponymous village in Samukh region. The excavations were conducted within the framework of the pipeline project “Shah Deniz-2”. Unfortunately, the limitation of excavation area (4x4 m) did not allow to fully explore this settlement. The researches have shown that from an archaeological point of view the monument gets richer in the western and south-westerly direction, and the study site is the periphery of the settlement. The graves identified in the north-east side of the ground marginally confirm this conclusion.

# MÜƏLLİFLƏRİN NƏZƏRİNƏ

1. Jurnalda digər nəşrlərə təqdim edilməmiş yeni tədqiqatların nəticələri olan yığcam və mükəmməl redaktə olunmuş elmi məqalələr dərc edilir.

2. Məqalənin mətni jurnalın redaksiyasına A4 formatda, “14” ölçülü hərflərlə, yuxarıdan və aşağıdan 2 sm, soldan 3 sm, sağdan 1 sm məsafə ilə, 1,5 intervalla, Azərbaycan və rus dilində Times New Roman şriftində 1 nüsxədə çap edilərək elektron variantda jurnalın məsul katibinə təqdim edilir.

3. Məqalədə müəllifin işlədiyi müəssisə və həmin müəssisənin ünvanı, müəllifin elektron poçt ünvanı göstərilməlidir.

4. Elmi məqalənin sonunda elm sahəsinin və məqalənin xarakterinə uyğun olaraq müəllifin gəldiyi elmi nəticə, işin elmi yeniliyi, tətbiqi əhəmiyyəti, s. aydın şəkildə verilməlidir.

5. Mövzu ilə bağlı elmi mənbələrə istinadlar olmalıdır. Məqalənin sonunda verilən ədəbiyyat siyahısı istinad olunan ədəbiyyatların mətndə rast gəlindiyi ardıcıllıqla nömrələnməli və [1] və ya [1, s.119] kimi işarələnməlidir. Eyni ədəbiyyata mətndə başqa bir yerdə təkrar istinad edilərsə, onda istinad olunan həmin ədəbiyyat əvvəlki nömrə ilə göstərilməlidir.

6. Ədəbiyyat siyahısında verilən hər bir istinad haqqında məlumat tam və dəqiq olmalıdır. İstinad olunan mənbənin biblioqrafik təsviri onun növündən (monoqrafiya, dərslik, elmi məqalə və s.) asılı olaraq verilməlidir. Eyni məqalələrə, simpozium, konfrans və digər nüfuzlu elmi tədbirlərin tezislərinə istinad edərkən məqalənin, məruzənin və ya tezisin adı göstərilməlidir. İstinad olunan mənbənin biblioqrafik təsviri verilərkən Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının “Dissertasiyaların tərtibi qaydaları” barədə qüvvədə olan təlimatının “İstifadə edilmiş ədəbiyyat” bölməsinin 10.2-10.4.6 tələbləri əsas götürülməlidir.

7. Məqalənin sonundakı ədəbiyyat siyahısında son 5-10 ilin elmi məqalələrinə, monoqrafiyalarına və digər etibarlı mənbələrinə üstünlük verilməlidir.

8. Məqalənin yazıldığı dildən əlavə digər 2 dildə xülasə verilməlidir. Məqalələrin həcminin 8-10 səhifə, xülasələrin isə 5-8 sətir olması tövsiyə edilir.

9. Məqalənin müxtəlif dillərdəki xülasələri bir-birinin eyni olmalı və məqalənin məzmununa uyğun gəlməlidir. Müəllifin və ya müəlliflərin gəldiyi elmi nəticə, işin elmi yeniliyi, tətbiqi əhəmiyyəti və s. xülasədə yığcam şəkildə öz əksini tapmalıdır. Xülasələr elmi və qrammatik baxımdan ciddi redaktə olunmalıdır. Hər bir xülasədə məqalənin adı, müəllif və ya müəlliflərin tam adı göstərilməlidir.

10. Hər bir məqalədə UOT indekslər və ya PACS tipli kodlar və açar sözlər göstərilməlidir. Açar sözlər üç dildə (məqalənin və xülasələrin yazıldığı dillərdə) verilməlidir.

11. Məqalənin keyfiyyətinə, göstərilən faktların doğruluğuna və digər məlumatlara görə müəllif cavabdehlik daşıyır.

12. Dini mövzuda yazılmış elmi-kütləvi məqalələrin nəşrə hazırlanmasına aid beynəlxalq təcrübəyə əsaslanaraq müqəddəs və görkəmli din xadimlərinin adı çəkilərkən xüsusi xitab formasından istifadə olunması məqsədəuyğun hesab edilir.

# К СВЕДЕНИЮ АВТОРОВ

1. В журнале издаются безукоризненно отредактированные, краткие научные статьи, которые являются результатом новейших исследований, не предоставленных другим изданиям.

2. Текст статьи предоставляется ответственному секретарю журнала в электронном варианте, напечатанном в 1 экземпляре, шрифтом Times New Roman на азербайджанском и русском языках, в формате А4, с “14” размером букв, в интервале 1,5, на расстоянии от полей страницы сверху и снизу 2 см, слева 3 см, справа 1 см.

3. В статье должно быть указано учреждение, где работает автор, адрес данного учреждения и электронная почта автора.

4. В заключение статьи в ясной форме необходимо показать соответствующий характеру статьи научный результат, к которому пришёл автор, научное новаторство работы, практическую значимость и прочее.

5. Научная ссылка в связи с темой обязательна. Список литературы, данный в конце статьи должен быть пронумерован по порядку встречаемых в статье ссылаемых литератур и обозначен как {1} или {1, стр.119}. Если в статье будет ссылка на одинаковую литературу, тогда данная литература должна быть помечена прежним номером.

6. Информация о каждой ссылке в списке литератур должна быть полной и точной. Библиографическое описание ссылаемого источника зависит от её типа (монография, учебник, научная статья и т.д.). При ссылке на одинаковые статьи, симпозиумы, конференции и тезисы прочих влиятельных научных мероприятий должно быть указано название доклада или же тезиса. При библиографическом описании ссылаемого источника необходимо основываться на требования имеющей силу инструкции о “Порядке оформления диссертаций” Высшей Аттестационной Комиссии при Президенте Азербайджанской Республики пункта 10.2-10.4.6 части “Использованная литература”.

7. В списке литературы, данной в конце статьи нужно отдать предпочтение научным статьям, монографиям и прочим надёжным источникам последних 5-10 лет.

8. Должно быть дано резюме на языке статьи и ещё 2 языках дополнительно. Рекомендуется, чтобы объём статьи был в пределах 8-10 страниц, а резюме 5-8 строк.

9. Резюме статьи на разных языках должно быть идентичным и соответствовать содержанию статьи. Научный результат, к которому пришёл автор или авторы, новаторство научной работы, практическая значимость и прочее должны быть в краткой форме отображены в резюме. Резюме должно быть серьёзно отредактировано с научной и грамматической точки зрения. В каждом резюме нужно в полном виде указать название статьи, имя автора или же авторов.

10. В каждой статье следует указать индексы UOT или коды типа PACS и ключевые слова. Ключевые слова должны быть даны на трёх языках (на языках статьи и резюме).

11. Автор несёт ответственность за качество статьи, достоверность указанных фактов и прочих сведений.

12. При упоминании имён святых и видных религиозных деятелей считается целесообразным использовать особую форму обращения, основываясь на международную практику относительно подготовки к печати научно-популярных статей, написанных на религиозную тему.